# QARANLIQ TƏHLÜKƏ: MÖVHUMATÇILIQ

**Harun Yahya**
**(Adnan Oktar)**

# Mündəricat


## Ön söz

❖ Yanlış bilinən İslam anlayışı

## I Fəsil

❖ İslamı vəhşət dini kimi göstərənlərin istifadə etdiyi iki təməl anlayış: şəriət və cihad
❖ Qurandakı həqiqi şəriət
❖ Qurandakı həqiqi şəriət bir ölkəyə nələr qazandırar?
❖ Qurandakı həqiqi cihad
❖ "İslamda müharibə" mövzusunda bilinən yanlış məlumatlar
❖ Bir müsəlman Qurandakı hər ayəyə, fərq qoymadan inanmaqla məsuldur
❖ Quran qorunmuş kitabdır
❖ Məkkə dövrü "və" Mədinə dövrü müsəlmanları fərqləndirməsindəki yanılmalar
❖ Məkkə dövrü müsəlmanlarının çətin imtahanı
❖ Mədinə dövrü və müharibələr
❖ Müharibələr kimlərə qarşı aparılıb?
❖ Quranda müharibəyə verilən tərif
❖ Müqavilə bağlanılmış müşriklər
❖ Tarixin ilk çox maddəli və ən demokratik konstitusiyası: Mədinə müqaviləsi
❖ Müharibə ilə bağlı ayələr və izahları
❖ İslamda müharibə etmək üçün səbəb yoxdur
❖ Müharibə, İslamı zorla qəbul etdirmək üçündürmü?
❖ Müharibə, ideoloji və ya etnik üstünlük təmin etmək üçündürmü?
❖ Müharibə, müsəlman bir liderin gətirəcəyi İslam qanunlarını yaymaq məqsədinimi daşıyır?
❖ Müharibə, düşmənlərin yox edilməsi üçündürmü?
❖ Kimlər müharibə olmasını istəyir?
❖ Fəslin sonu

## II Fəsil

❖ Fanatiklərin saxta dini
❖ Fanatiklərin dininə istiqamət verən saxta hədislər
❖ Saxta hədislər necə meydana gəldi?
❖ Məzhəblər arasındakı fərqlər
❖ Quranın hökmündən başqa hökm axtaranlar dinin əslinə yönəlməlidirlər
❖ İslam aləminin Quranı tərk etməsi
❖ Quran hər an əlimizdə olması lazım olan yol göstəricimizdir
❖ Böyük bir problem: hədislərin ayələrin hökmünü qüvvədən saldığı iftirası

- Fanatik zehniyyətin hüdudlarını yaxşı qavramaq
- İçki içənlərin öldürülməsi
- Təraş olanların öldürülməsi
- Zina edənlərin öldürülməsi
- Qurana görə zinanın hökmü
- Oğurluq edənlərin öldürülməsi
- Dindən dönənlərin öldürülməsi
- Namazı tərk edənlərin öldürülməsi
- Namazı tərk edən uşaqların döyülməsi
- Zəkat verməyənlərin öldürülməsi
- Oruc tutmağı tərk edənlərin həbs edilməsi və ac saxlanılması
- Sərxoşların öldürülməsi
- Peyğəmbərə qarşı ədəbsiz sözlər danışanların tövbəyə çağırılmadan öldürülməsi
- Fanatiklərin dinindəki lənətli heyvanlar mövhumatı
- Peyğəmbərimiz (s.ə.v)-in heyvan sevgisi
- Peyğəmbərimiz (s.ə.v) heyvanlara zülm edən çirkin adətləri yox etdi
- Peyğəmbərimiz (s.ə.v) heyvanların həddindən artıq işlədilməsini qadağan etmişdir
- İşləyən heyvanlara dincəlmək imkanının verilməsi
- Peyğəmbərimiz (s.ə.v) heyvanlara əziyyət və işgəncə verməyi qadağan etmişdir
- Peyğəmbərimiz (s.ə.v)-in ana it və onun balalarına olan şəfqəti
- Peyğəmbərimiz (s.ə.v)-in heyvan sevgisini göstərən ifadəsi: "Bütün itlərin canı möhtərəmdir"
- Peyğəmbərimiz (s.ə.v)-in pişiyi: Müəzza
- Peyğəmbərimiz (s.ə.v)-in ana quş və balalarına olan şəfqəti
- Keçinin balası
- Ac saxlanılan dəvə və sahibi
- Yatan ceyran
- Üzü dağlanmış uzunqulaq
- Heyvanlara yaxşılıq edilməsi
- Fanatizm iyrəncliyi
- Fanatizmin çirkli din və keyfiyyətsiz müsəlmanlıq anlayışı

## III Fəsil

- Fanatiklərin qadın nifrəti
- Qadınlar bu dünyanın ən gözəl nemətlərindən biridir
- Qurana görə qadın
- Fanatiklərin qadınlara atdığı iftiralar
- Qadınların ağlının və dininin əskik olduğu iddiası
- Qadınların əyri olduğu iddiası
- Qadınları alçaltmaq üçün uydurulmuş hədislər və iddialar
- Qadınların dinin yaşanmasına mane olduğu iddiası
- Qadınların ağlına uymamağın lazım olduğu iddiası

- Qadınların ikinci dərəcəli varlıqlar olduğu və Allahın qadınlara əhəmiyyət vermədiyi iftirası
- Qadınların bəzənməsini qadağan edən iddialar
- Fanatiklərə görə müsəlman qadınların ərlərinə olan münasibətləri
- Quranda qadınlara verilmiş imkan və üstünlüklər fanatizm dinində yoxdur
- Ərindən boşanan qadının vəziyyəti
- Əri ondan razı qalana qədər qadının günahkar sayılması
- Qadınların çölə çıxarılmaması və şeytana aldanmağa meyilli olduğu iddiası
- Qadının guya namazı batil edəcəyi və uğursuz olduğu iddiası
- Qadınları heyvanlara bənzədən fanatik zehniyyətdən nümunələr
- Peyğəmbərimiz (s.ə.v)-in xanımlarına dair nazil edilən ayələr
- Nəticə: Qadına ən çox dəyər Quranda verilir
- Qadınlara məhdudiyyətlər qoymaq və onları alçaltmaq üçün Qurandan dəlil gətirməyə çalışanlara cavablar
- Qadınlara məhdudiyyət qoymaq üçün Quran tərcümələrinə "hicab" kəlməsinin əlavə edilməsi
- Nur surəsinin 31-ci ayəsinin izahı, 1-ci hissə
- "Humur" - örtmək kəlməsinin təhlili
- "Yadribne" - vurmaq felinin təhlili
- "Cuyub" - (açıq yaxa) kəlməsinin təhlili
- Saxta hədislərdən qaynaqlanan istiqamətləndirici/yanlış  tərcümələr
- Yanlış təfsir: "baş örtüklərini salsınlar"
- Ayələrin ərəbcədəki mənaları və təfsirlərin doğruluğu ilə bağlı bilinməsi vacib olan məlumatlar
- Kəlmələrin ərəbcədə istifadə olunan mənalarına diqqət yetirilməsi
- Qurandakı kəlmələrin digər ayələrin köməyi ilə araşdırılması
- Ərəbcə kəlmələrə mötərizədə məna əlavə edilərkən diqqətli olunması
- Nur surəsinin 31-ci ayəsinin izahı, 2-ci hissə
- "Qadınların zinətləri" mövzusundakı şərhlər
- Qadınların fitnə törədilməsinə vəsilə olduqları iddiası
- Bijuteriya və muncuqları haram etmək yanlışlığı
- Zinət kəlməsi Quranda hansı mənada istifadə edilir?
- Nur surəsinin 31-ci ayəsində bildirilən zinət yerləri
- Baş örtüyü mövzusunda istifadə edilən saxta hədislər və onlardakı ziddiyyətlər
- Quranda göstərilən haramlar anlaşılmaz deyil
- Sadəcə qadınları və onların bədənlərini örtmək istəyi
- Quranda baş örtüyü deyil, çadra təsvir edilir
- Əhzab surəsinin 59-cu ayəsinin izahı
- Baş örtüyündən əl çəkməmək, lakin çadradan heç bəhs etməmək
- Müsəlman qadın Qurana görə necə geyinməli olduğunu bilir
- 2 qadın = 1 kişi yanlışlığı
- Qadın və müddətli borclanmadakı şahidlik
- Qadınların mirasdakı haqqı
- Qadının boşanma haqqı
- Boşanma və boşanmadan sonra qadının qorunması

- Boşanarkən qadının könlünün alınması və razı salınması
- Boşandıqdan sonra qadınlara maddi zəmanət verilməsi
- Qadınlara verilən malların boşandıqdan sonra geri alınmaması
- Boşandıqdan sonra qadınların sığınacaqla təmin edilməsi
- Qadınlara zorla varis olmamaq
- Anaya verilən dəyər
- Kişinin üstünlüyü iddiası və qadını döymək mövhumatı
- Kişilərin üstünlüyü iddiası
- "Qadınları döyün" iddiası
- Qadınlar haqqında bilinən digər yanlış məlumatlar
- Peyğəmbərimizin (s.ə.v)-in qadınları tərifləyən sözləri


## IV Fəsil


- Fanatiklərin incəsənətə olan nifrəti
- "Zarafatlaşmaqdan, yumordan, gülməkdən uzaq durmaq lazımdır" iddiası
- Qurana görə kədərlənmək və bədbəxt olmaq yalnız inkarçılara məxsus xüsusiyyətdir
- Cənnətdəki sevinc və kədərin həqiqi mənası
- "Yumordan uzaq durun" iddiası
- Musiqi və şeirin haram olduğu iddiası
- Musiqini qadağan etməyə çalışan fanatiklərin səmimiyyətsizliyi
- Allah musiqini sevir, qullarına da sevdirmişdir
- Rəsm və heykəlin haram olduğu iddiası
- "Qızıl və ipəyin qadağan edilmiş olduğu" iddiası
- "Makiyaj, baxım, təmizlik və gözəlləşmənin haram olduğu" iddiası
- Gözəl qoxunu qadağan edən saxta hədislər
- Tatuirovka, üzdəki tükü təmizləmə, estetik diş düzəltdirməni qadağan edən saxta hədislər
- Parik qoyma, qaş alma və tatuirovka etdirməni qadağan edən saxta hədislər
- Qadının gözəl paltarla evdən çıxmasını qadağan edən saxta hədislər
- Qadının qızıllar və geyimlərlə başını qatıb cənnəti itirdiyini iddia edən saxta hədislər
- Qadına paltar verilməməsinin lazım olduğunu iddia edən saxta hədislər
- Fanatiklərin ruhu bu dünyaya hakim olsaydı...
- Makiyaj, baxım, təmizlik, gözəl geyim, müasirlik və mədəniyyət, bir sözlə, "keyfiyyət" İslamın tələblərindəndir
- Qadın gözəl varlıqdır, əlbəttə ki, baxımlı olmalıdır
- Marka və gözəl paltarlar geymək, gözəl maşın və evlərə sahib olmaq müsəlmanların haqqıdır


## V Fəsil


- Fanatiklərin dininə görə yəhudilər və xristianlar
- Yəhudi əleyhdarlığına Qurandan dəlillər gətirməyə çalışanlara Qurandan cavablar

- “Meymunlar və donuzlar” yaraşdırması və Quranda kitab əhli barədə verilən həqiqi hökm
- Maidə surəsinin 60-cı ayəsinin təhlili
- Təriflənən yəhudilər
- Əraf surəsinin 166-cı ayəsinin təhlili
- Bəqərə surəsinin 65-ci ayəsinin təhlili
- “Yəhudilərin lənətlənmiş olduğu” aldanması
- Bəqərə surəsinin 88-ci ayəsinin təhlili
- Nisa surəsinin 155-ci ayəsinin təhlili
- “Yəhudi və xristianları dost tutmama” aldanması
- Yanlış bilinən başqa bir anlayış: Takiyə
- Xristianlar və yəhudilərlə bağlı saxta hədislər və Qurana görə izahları
- “Həddi büluğa çatmış yəhudilərin öldürülməsi” iddiası
- “Müsəlmanların günahlarının yəhudilərə yüklənməsi” iddiası
- “Yeməklərin yəhudilər ucbatından zay olduğu” iddiası
- “Ərəb torpaqlarında iki din qalmasın” iddiası
- Təhqir olaraq “ey yəhudi”, savab olaraq “yəhudiyə lənət”
- “Yolun dar tərəfinə sıxışdırın”
- “Yəhudi ağacı qarqat”
- Quranda kitab əhlinə verilən dəyər
- Müsəlmanların kitab əhlini dəvət etməsi
- Müsəlmanların kitab əhliylə ədalətlə rəftar etməsi
- Peyğəmbərimiz (s.ə.v)-in kitab əhli ilə olan münasibətləri
- Quranda İncil və Tövrat
- Peyğəmbərimiz (s.ə.v)-in Tövrat və İncillə bağlı tətbiqləri
- Qurana görə yəhudilərin müqəddəs torpaqlarda yaşamaq haqqı var

**Son söz**

**Əlavə fəsil:**

- Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# ÖN SÖZ

## ✓Yanlış bilinən İslam anlayışı

**"Ya mənim dinimə qayıt, ya da öl!"**, məhz bu fanatiklərin şüarlarından biridir. Fanatizmdə demokratiya, fikir azadlığı, sevgi, hörmət, şəfqət, dostluq, fədakarlıq kimi anlayışlar yoxdur. Bəzi insanlar fanatiklik və radikalizmi haqq dinlə qarışdırırlar. Halbuki fanatizmin özü bir dindir. Hər ideologiyaya sahib insanlar arasında fanatizm dininin nümayəndələri var. İslamda, yəhudilikdə, xristianlıqda olduğu kimi, marksizmdə, faşizmdə, ateizmdə də fanatiklər çoxdur. Hamısı birlikdə eyni batil dini müdafiə edərlər: **"Sənin fikrini qəbul edə bilmərəm! Ya mənimkini qəbul et, ya da yox ol!"**

Bu dözülməz və azğın din, xüsusilə son dövrlərdə, əksərən İslam dini kimi qəbul olunmağa başlandı. Bəzi mərkəzlər fanatizm dinini İslam adlandırdılar. Fanatizm dininə olan qorxularını İslama aid etdilər. Belə ki, İbrahimi bir dinin adı, "qorxu" sözüylə birgə çəkildi. Bütün dünyada islamofobiyadan danışdılar. İnsanlar qorxularının səbəbinin İslam dini deyil, fanatizm olduğunu bilmədilər. Mövhumatçıların yaratdığı mövhumatçı dinin İslam adı altında ortaya çıxdığını görmədilər. Çünki heç kim onlara bu dinin İslam olmadığını izah etmədi. Həqiqi İslamın bu mövhumatçı, ürküdücü, sevgisiz və nifrət dolu dinlə heç bir əlaqəsinin olmadığını, nə İslam adına ortaya çıxan radikallar, nə də bu radikallardan çəkinən islamofobiyaçılar göstərdi. İslam radikalları bütün dünyaya, amma ən çox da müsəlmanlara zərər verməyə başladılar.

"İslamda reform" anlayışı da buna görə ortaya atıldı. Guya bir vəhşi, bir də İslamda reform modeli varmış kimi, radikalların vəhşiliklərinə müqavimət göstərən müsəlmanlar, reformist müsəlman olaraq adlanmağa başlandı. İslam əleyhdarı qüvvələr reformistləri alqışladılar, lakin radikallar qarşısında gücsüz olduqlarını gördülər. Bir vəhşilik dininin, bir sıra sülhsevər insanlar tərəfindən yumşaldılmağa çalışıldığını güman etdilər (İslamı tənzih edirik). Hətta bunu İslamda aparılan bir islahat, reformistləri isə islahatçı adlandırdılar. Lakin bunun bir islahat deyil, əsl İslam dini olduğunu göstərə bilən olmadı. İslamafobiyaçılar "islahatçı"ları alqışlasalar da, onların, radikalların zorakılıqdan qaynaqlanan saxta gücü və onların İslam dinini təmsil etdiyi şəklindəki inancları daha əsas rol oynadı.

Sülhsevər müsəlmanlar İslam dinini, asanlaşdırmağa, onda islahatlar aparmağa və ya yumşaltmağa çalışmırlar. Sülh tərəfdarı müsəlmanlar olaraq əsas məqsədimiz, uzun illərdir ki, İslam adı altında dünyaya yayılan bir yalanı yox etməkdir. İllərdir ki, İslam adı altında təmsil edilən radikalizmi, fanatikliyi və İslam ilə əlaqəsi olmayan o mövhumat dinini yox

etməyə çalışmaq, Qurandan dəlillər gətirməklə İslamın əslini göstərməkdir. İndiyə qədər fanatiklər tərəfindən İslama atılmış ən böyük böhtana son qoymaqdır.

Bu kitabda radikalizmə qarşı tənqidləriylə ön plana çıxan bəzi qərbli islamofobiyaçıların iddialarına və fanatiklərin qorxunc məntiqlərinə cavablar verilir. İslama aid edilməyə çalışılan saxta mövhumatçı dinin müxtəlif mənbələrində verilən iddialarının əsassızlığı Qurandan misallar gətirilərək izah olunur. Xüsusilə bu iddiaya istiqamətli bir fəaliyyət yürüdülməsinin səbəbi, İslama yönəldilən bütün tənqidlərin eyni xüsusiyyət daşıması və radikalizm dininin İslam hesab edilməsindən qaynaqlanır. Əsas məqsədimiz İslama atılan əsassız böhtanların və İslam dini haqqında yanlış məlumatların **Qurandan dəlillər** gətirilməklə izah olunması və bu yanlışlığın aradan qaldırılmasıdır.

Fanatiklərin problemi, dinlərini mövhumatlardan öyrənmələridir. Necə ki, fanatiklərin batil dinlərini tənqid edənlər də, bəzi hallarda onlar qədər radikal olub, mövhumatlarının doğru olduğunu, onların zənn etdiyi qədər zənn edə bilirlər. ümayiş etdirir və mövhumatları din adı altında müdafiə edirlər. Biz Qurandan dəlil gətirdikcə, onlar da fanatiklərin mövhumatlaarından dəlil gətirməyə çalışarlar. Ən böyük səhvə də məhz burada yol verərlər. Əgər həqiqi İslamı tanımaq və fanatizmə çıxış yolu tapmaq istəyirlərsə, burada izah olunan həqiqi dini eşitməyə çalışmalıdırlar. Əgər bunu etməsələr, radikalizm böyük bir bəla kimi dünyanı cənginə almağa davam edəcək.

# I FƏSİL

## ✓İslamı vəhşət dini kimi göstərənlərin istifadə etdiyi iki təməl anlayış: şəriət və cihad

Allah bir ayədə Quranı belə təsvir edir:

**...Bu Quran uydurulacaq bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müxtəlif formalarda izah edəndir; iman gətirəcək bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Allahın ayədə açıq şəkildə bildirdiyi kimi; "hər şeyin müxtəlif formalarda izah edən" Quran, mövhumatçıları qane etməmişdir. Çünki onlar, Quranın bildirdiyi yolu öz batil din anlayışlarına uyğun görməzlər. Buna görə də, tarix boyu bəzi Quran hökmlərinin aydın olmadığı (Quranı tənzih edirik) və izahata ehtiyac duyulduğu iddiası ilə ortaya çıxmışdırlar. Beləliklə də, "Quranı, ancaq hədislər vasitəsilə anlamaq mümkündür" məntiqini formalaşdırıblar.

Burada bunu qeyd edək ki, hədislər Peyğəmbərimiz (s.ə.v)-in sözləri olmaqla, dövrümüzə qədər gəlib çatmış izahatlardır. Bəziləri səhih, yəni doğruları və doğru tətbiqləri əks etdirsə də, bəziləri sonradan uydurulmuş, bəzilərinin isə zamanla mənası dəyişdirilmişdir. Bir hədisin həqiqətən Peyğəmbərimizin (s.ə.v)-in sözü və ya tətbiqi olduğunu anlamağın isə iki yolu var: Qurana uyğun olması və gerçəkləşməsi. Qurana zidd bir ifadənin və ya tətbiqin Peyğəmbərimiz (s.ə.v)-ə aid olduğunu iddia etmək isə, açıq şəkildə Peyğəmbərimiz (s.ə.v)-ə iftira atmaqdır. Çünki hz. Məhəmməd (s.ə.v) də sadəcə Qurana tabe olmuşdur.

"Quranı ancaq hədislər vasitəsilə anlamaq mümkündür" məntiqi İslam aləminə böyük zərər verib. Çünki bu məntiqlə hərəkət edən bəzi müsəlmanlar din adı altında uydurma hədislərə tabe olmağa başlamışdırlar. Hətta bir müddət sonra Quranı bir kənara qoyub, təkcə həmin hədisləri dinin mənbəyi kimi qəbul etmişdirlər. Uydurma hədislər Quran ayələri ilə uyğun gəlməyəndə isə: "Bu hədis Quranın hökmünü qüvvədən saldı" deməyə də cürət etmişdirlər. Yüzlərlə uydurma hədis əsasında fərqli dinlər yaranmış və İslam dininin içində bir-biri ilə bir çox məsələdə müxalif olan dörd ayrı məzhəb meydana gəlmişdir.

Məzhəb alimləri özlərini müsəlman adlandırsalar da, hər biri fərqli bir fikri müdafiə etmişdir. Hətta bir-birlərinin dindən döndüyünü iddia etmişdirlər.

Quranda bildirildiyinə görə, Peyğəmbərimiz (s.ə.v) İslam aləminin düşdüyü bu vəziyyəti uca Allaha bu cür şikayət edir:

**Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!" dedi.**
**(Furqan surəsi, 30)**

Həqiqətən də, bu gün İslam aləminin böyük hissəsinin problemi, Quranı tərk etmiş olmalarıdır.

Quranı tərk edənlər icmaya üz tutdular. (İcma: hər hansı bir dövrdə yaşamış böyük din xadimlərinin qiyas dəlillərinə əsaslanaraq şəriət mövzusunda hökm verməsi). Bu böyük din xadimləri Quranı rəhbər tutmadıqları üçün minlərlə uydurma hədis içində boğulmuş və hökmləri Quranın da, hədislərin də izah edə bilmədiyi qənaətinə gəlmişdirlər. Artıq, bu böyük din xadimləri İslam adına qanunlar çıxartmağa başladılar. Məzhəblər arasında münaqişə getdiyi halda, indi də məzhəblərin bölündüyü icmalar arasında münaqişə başlamışdır. Hər bir böyük din xadiminin şərhi hökm kimi qəbul edilmiş, hər camaat fərqli bir tətbiqi əsas götürmüş, beləliklə də, böyük İslam ümməti məzhəblərə, siniflərə və nəhayət kiçik qruplara bölünməyə başlamışdır. Quran isə qabı içində divara asılan bəzək əşyasına çevrildi. Bütün bunlar nəticəsində də İslam ictimaiyyətinin böyük bir qismi "Quranı tərk etdi".

Bəzi İslam əleyhdarlarını nəzərdən keçirdikdə, onların da mövhumatçılarla eyni problemi yaşadığını anlayarıq. Onlar da İslamı Qurandan öyrənməzlər. Eynilə mövhumatçıların etdikləri kimi onların da İslamı qiymətləndirmələrində, uydurma hədislər, ənənələr və bir qisim din alimlərinin bir çox hallarda Quranla üst-üstə düşməyən icmaları ön plandadır. Onlara görə də "İslam", mövhumatçıların həyatları və tətbiqləridir. Onlar görə İslam Qurandakı din deyil, tarixçilərin təxəyyül məhsuludur. Onlar Quranın deyil, bu uydurma dinin şəriətini, şəriət adlandırarlar. Quranın bildirdiyi dəyərlərdən, anlayışlardan, tətbiqlərdən xəbərsizdirlər, lakin mövhumatçıların saxta dinlərinin bütün qanunlarını çox yaxşı bilirlər. Bu saxta dinin qanunlarını tənqid edərkən də, İslamı tənqid etdiklərini zənn edərlər. Mövhumatçıların dinini elə müdafiə edərlər ki, "bu İslam dini deyil" deyildiyi vaxt inanmazlar.

Bu insanlar ideoloji din əleydarlığıyla İslama qarşı çıxmırlarsa, qaranlıq mövhumatçı zehniyyətə qarşı həqiqətən bir çıxış yolu axtarırlarsa, buna inanmaq məcburiyyətindədirlər. Onların dini İslam deyil. Müsəlman üçün təkcə Quran kifayətdir. Hədislər Qurana uyğun gəldikləri təqdirdə, doğru və etibarlıdırlar. Qurana zidd hədisin İslam dinində yeri yoxdur. Əgər bir müsəlman İslam dininin hökmlərini Quranda tapa bilmirsə, deməli, o başqa bir din axtarır. O dinin şəriət qanunları isə İslamın şəriət qanunları deyildir.

## ✓Quradakı həqiqi şəriət

Şəriət sözünün mənası yol deməkdir. Müsəlman Quranı oxumaqla gedəcəyi yolu asanlıqla anlaya bilər. Quranda bildirilən haramlar olduqca azdır, eyni zamanda qəti və aydın hökmlərlə bildirilmişdir. Onlar müzakirə edilməz və ya şərh edilməzdirlər. Məsələn, adam öldürmək, zina etmək, faiz almaq, donuz əti yemək, qan içmək Quran ayələri əsasında qəti ifadələrlə bildirilmiş haramlardır. Bu, Quranın əhəmiyyətli bir xüsusiyyətidir. Ayələri öz istəklərinə görə şərh edərək haram çıxarmağa çalışan kəslər daim öz aləmlərində mənfəət təmin etməyə çalışarlar. Halbuki Allah haramları Quranda qəti hökmlərlə qadağan etmişdir. Aşağıdakı ayədə olduğu kimi;

**O sizə ölünü, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni <u>qəti şəkildə haram etmişdir</u>. (Bəqərə surəsi, 173)**

Allah Quranda İslam adına haram və halal uyduranlardan da bəhs edir:

**Dilinizin <u>uydurduğu yalana əsasən: “Bu halaldır, o haramdır!” deməyin</u>, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.**

**(Nəhl surəsi, 116)**

Ayədə bildirildiyi kimi, Peyğəmbərimizdən (s.ə.v)-dən sonra Allaha qarşı yalan uyduran çox böyük kütlələr ortaya çıxdı. Bu kütlələr Quranı rəhbər tutmadıqları üçün, istədiklərini haram, istədiklərini də halal buyurmuşdurlar. Lakin elə bir kütlə vardır ki, Allah onların əsas bu xüsusiyyətlərini vurğulayır; “halal buyrulan gözəl şeyləri haram buyurmaları”. Rəbbimiz Quranda belə buyurur:

**Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu gözəl şeyləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir. (Maidə surəsi, 87)**

Məhz dünyada şəriət adı altında tətbiq olunan, halbuki tamamilə İslama zidd olan vəhşət sistemini təhlil edərkən, halalları haram buyuran, Qurandan tamamilə uzaqlaşmış kütlələrdən bəhs edəcəyik.

Əvvəlcə, Quranda bildirilən əsl şəriətin, yəni Quranın göstərdiyi əsl yolun tərifini verək:

Qurandakı şəriət; sevmək, hörmət etmək, başqa din və əqidələrə mənsub insanlara şəfqətlə yanaşıb onları qorumaqdır. Qurandakı şəriətdə, demokratiya tələb edir və fikir azadlığı hakimdir. Bu şəriətə tabe olanlar bilikli, təlimdən keçmiş, uzaqgörən, əks fikirlərə hörmətlə yanaşan, xoşbəxt, ekstrovert (başqa insanlara, ətrafdakı obyektlərə yönəlmiş insan), müasir, alicənab, ümidvar, sənət və estetikanı yüksək qiymətləndirən, həmrəyliyə, dostluğa və sevgiyə dəyər verən insanlardır. Qurandakı şəriətdə nifrət, dözümsüzlük, vuruşma, döyüş, zorakılıq, inadkarlıq, təhdid, bədbəxtlik, qəzəb və müharibə yoxdur. Quranla əlaqədar bütün bu anlayışları, kitabın sonrakı səhifələrində ayələrdən dəlillər gətirməklə izah edəcəyik.

Bu deyilənlərə baxaraq, hal-hazırda dünyada Qurandakı şəriətə tabe olan bir müsəlman ölkəsi mövcuddurmu? Əlbəttə ki, xeyr. Bu şəriət Peyğəmbərimiz (s.ə.v)-in dövründən bəri tətbiq olunmayıb. Hal-hazırda guya şəriət qanunlarıyla idarə olunduğunu deyən ölkələr və ya şəriət qanunları yaratmaq istəyən bəzi vəhşət qrupları, İslam əvəzinə qoyduqları mövhumatçı dinin şəriət qanunlarını tətbiq edirlər. Bəzi yalan hədisləri rəhbər tutaraq, Quranı bir kənara qoyurlar. Professor dr. Yaşar Nuri Öztürkün bildirdiyi kimi: *“Niyə İslam demirlər də, şəriət deyirlər? Çünki İslam desələr, iddialarını Quranla sübut etməlidirlər. Allah ilə aldadanların “din” dedikləri şeyin Quran tərəfindən təsdiqlənməsi qeyri-mümkündür. Şəriət deyərək məsələni hər yana çəkə bilir, dara düşdükdə də: “üləma belə söyləmişdir, icma bu yoldadır, ata-babalarımız belə qərar vermişdir, əsrlərdir ki, müsəlmanlar belə tətbiq edirlər” - deyərək dirənmələrinə uyğun bir dini önə plana çıxartmağa çalışırlar.*

*Şəriəti İslamla eyniləşdirmək istəyi Qurana və zamana zidd olan ənənələri din kimi təqdim etmək məqsədi güdür. Yəni şəriəti dinlə eyniləşdirərək köhnəlmiş fiqh kitablarındakı ağıl və Qurandan kənar bəzi qanunları din adı altında xalqa təqdim edirlər”. (Yaşar Nuri Öztürk, Allah ile Aldatmak, Yeni Boyut Nəşriyyatı)*

Sonrakı fəsillərdə, şəriət iddiasıyla ortaya çıxan, lakin qəzəb və nifrət saçan qrupların bu şəriətin qaynağını haradan götürdüklərindən bəhs edəcəyik. Rəhbər tutduqları bütün saxta hədisləri və onların əsassız cəhətlərini bir-bir araşdıracağıq. Bu cəmiyyətlərin tabe olduğu şəriətin Qurana nə qədər zidd olduğunu və heç vaxt İslam şəriəti olaraq xarakterizə edilə bilməyəcəyini açıq dəlillərlə göstərəcəyik.

## ✓Quranda bildirilən həqiqi şəriət bir ölkəyə nələr qazandırar?

Əgər bu dünyada, həqiqətən də, İslam şəriətini tətbiq edən bir ölkə olsaydı, o ölkə necə bir ölkə olardı? Elm və incəsənət sahələri inkişaf etmiş, təhsil və həyat səviyyəsi çox yüksək, keyfiyyətli, sülhsevər, sevgi dolu, bütün dünya xalqlarıyla həmrəy olma tərəfdarı, sülh pioneri və sevgi əmsalı, yəhudilərə, xristianlara, ateistlərə qucaq açan, müxtəlif ideologiyaların sahiblərini dost kimi qəbul edən və onlara hörmət edən, öz üzərinə dünyada dinclik və əmin-amanlıq yaratmağı missiyasını götürmüş, özündən daha çox ehtiyac içində olanları düşünən və problemlərə çıxış yolu tapan, sevgi dolu, şən bir ölkə olardı. Bu ölkənin əhalisi keyfiyyətli insanlar olmaqla yanaşı, olduqca müasir və olduqca demokratik həyat tərzinə sahib olardı. Hər fikir rahatlıqla söylənə bilər, hər görüş sərbəstcəsinə açıqlana bilər, lakin bütün bunlar baş verərkən də, təhqir, hücum, dözümsüzlük və zorakılıq kimi hallar heç vaxt yaşanmazdı. Mal-dövlət bir kənarda yığılmaz, Quranın; "yoxsulu qorumağa və öz nəfsindən əvvəl qardaşının nəfsini düşünmə" hökmünə əsaslanan həyat tərzi hakim olardı. Buna görə də, onsuz da ölkə yoxsul olmazdı. Belə bir sistem, dünyadakı bütün insanların tam mənasıyla rahat yaşayacağı, dünyadakı bütün ölkələrin xoşbəxt və məmnun olacaqları mükəmməl bir sistem olardı.

Əgər verilən bu tərif, hal-hazırda "İslam respublikası" adını almış ölkələrlə müqayisə edilsə, aradakı ciddi fərq dərhal görülər. Hal-hazırda şəriət adı altında yaşanan sistem, qətiyyən İslam şəriəti deyil. İslam şəriətinin yaşana bilməsi üçün, din mütləq mövhumatlardan təmizlənməli və yuxarıda qeyd etdiyimiz Quranda təriflənən bütün bu xüsusiyyətlərə sahib olmalıdır.

Bunun üçün İslam şəriəti ilə idarə olunan ölkənin başçısı mövhumatlara görə deyil, tamamilə Qurana görə hərəkət edən bir lider olmalıdır. Qurana tabe olan müsəlman liderin üç əsas xüsusiyyəti vardır: şəfqətli, demokratik və ədalətli olması. Bu xüsusiyyətlərindən ötrü belə bir lider daim etibarlıdır. Quran əxlaqını tam şəkildə yaşayan müsəlman bir liderin himayəsi altında yaşayan insanlar azadlığın indiyə qədər yer üzündə heç görünməmiş ən mükəmməl formasını görəcəklər. Heç kimə islami məsuliyyətlər yüklənməyəcək, hər kəs öz inancına görə hərəkət edəcək. Hər kəs hər sözü demə hüququ qazanacaq. Heç kimə xüsusi imtiyaz verilməyəcək, hamıyla eyni cür rəftar ediləcəkdir. Bəzi hallarda müsəlmanların əleyhinə bir vəziyyət yaransa da, **"ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun"** (Nisa surəsi, 135) ayəsinin tələbindən ötrü ədalət mütləq bərpa olunacaq.

Müsəlman bir lider daim sevgi yaratmağa çalışacaq və bunun yaradılmasını tələb edəcəkdir. Çünki dinlərin nazil olma, insanın və cənnətin yaradılma səbəbi sevgidir. Sevginin hakim olduğu, heç kimin inanc azadlıqlarının məhdudlaşdırılmadığı, hər kəsin bolluq içində yaşadığı, hamıya eyni cür davranıldığı cəmiyyətdə xaos yaşanması məntiqsiz

olacaqdır. Ədalətsizlik, sevgisizlik, düşmənçilik kimi şeylər yox olduğu üçün münaqişə mühitləri də qalmayacaq.

Beləliklə, şəriətin nə olduğunu anlamaq üçün, hal-hazırda İslam şəriəti ilə idarə olunduğu iddia edən ölkələrə deyil, Qurana baxmaq lazımdır. İslam, Quranla birlikdə nazil olmuşdur. İslamın şəriəti də, ancaq Quranda bildirilmişdir və çox aydındır. Quranda bildirilən ədalət, demokratiya və azadlığı tətbiq etməyən bir ölkəni şəriətə nümunə göstərilə bilməsi qeyri-mümkündür. Dolayısilə heç kimin: "Bu ölkədə belə tətbiq olunur, İslam bizə vəhşət gətirəcək" deyə bir iddia irəli sürməsi doğru olmaz. Bu ölkə liderlərinin İslam adına tətbiq etdikləri yanlış sistem günahlandırılmalıdır, Qurandakı sistem yox (Quranı tənzih edirik).

Yuxarıda bəhs etdiyimiz gözəllikləri gətirəcək Qurandakı həqiqi şəriət sisteminin tətbiq olunmaması, bunun əvəzinə vəhşətin İslam şəriəti olaraq tanıdılması, əlbəttə ki, dəhşətli bir hadisədir. Lakin bunun həlli İslamı günahlandırmaq deyil. İslamı günahlandıranlar, ümumiyyətlə radikalizmə, vəhşətə və zorakılığa yeganə həll gətirəcək yolu bağlamağa çalışaraq daha çox ziyan gətirərlər. Həqiqi İslamı zəiflətməyə təşəbbüs edərək, radikalların əlinə daha çox imkan verərlər. Halbuki radikalizmi, İslam adı altında yayılmış batil inancları, onların ittihamları və ya istehsal etdikləri silahlar deyil, yalnız doğru İslam anlayışı ortadan qaldıracaq. Yanlış inanclar yalnız və yalnız doğru inancların hakim olmasıyla yox olar.

## ✓Qurandakı həqiqi cihad

Cihad sözünün kökü cəhddir. Ərəbcədə verdiyi mənalar isə belədir: 1) çalışmaq, səy göstərmək, əzm, cəhd, fədakarlıq göstərmək. 2) insanın öz nəfsinə hakim olması. Bu məlumatlar əsasında İslamda cəhd etmənin, qarşı tərəfi məlumatlandırmaq, gözəl əxlaqı öyrətmək, insanları pislikdən uzaqlaşdırmaq üçün səy göstərmək olduğunu anlayırıq. Bunu edən bir müsəlman bir tərəfdən də öz nəfsini gözəl şəkildə tərbiyə etməli, həmçinin özünü qəzəblənməyən və nifrət bəsləməyən bir insan kimi yetişdirməlidir. Yəni cəhd edən bir müsəlman bir tərəfdən özünü yetişdirməli, digər tərəfdən də yaxşı, gözəl və doğru şeyləri insanlara öyrətmək üçün çalışmalı, sevgini, sülhsevərliyi, şəfqəti yaymaq və insanları pis əməllərdən uzaqlaşdırmaq üçün onları fədakarcasına yetişdirməli və öz gözəl əxlaqı onlara nümunə olmaqdır.

Quranın heç bir ayəsində cəhd sözü bunlardan fərqli mənada ifadə edilməmişdir. Yəni "rəhbərimiz Quran" deyib cihad adı altında cinayət törədənlər ya yalan danışırlar, ya da səhv öyrədilmişdirlər.

Hal-hazırda cihad adı altında insanları qətlə yetirənlər, intihar bombaçısı olaraq özlərini öldürənlər, müharibə xəbərini yayanlar Qurana görə harama girirlər. Lakin bu insanların əksəriyyəti Qurana zidd bir hərəkət etdiklərini belə bilmirlər. Çünki onları din adı altında aldatmışdırlar. İnandırıldıqları dində sevgi əvəzinə nifrət, şəfqət əvəzinə qəzəb, qardaşlıq əvəzinə düşmənçilik, gözəllik əvəzinə kabus, incəsənət, estetika, elm və mədəniyyət əvəzinə cəhalət hakimdir. Belə bir dinə inanan insanın əlinə silah vermək asandır. "Bu cəmiyyət sənin düşmənindir, get məhv et" demək asandır. Onu qızışdırmaq asandır. Bir-birinə qəzəb bəsləyən cəmiyyətlər meydana gətirmək asandır.

Sonrakı fəsillərdə bu insanların müharibə mənası çıxardaraq səhv şərh etdikləri Quran ayələrini və təcavüzkarlığa əsas kimi qəbul etdikləri uydurma hədisləri ətraflı şəkildə nəzərdən keçirəcəyik. Burada vurğulanması lazım olna çox vacib bir məqam da var: Radikalların əksəriyyəti cəhalət ucbatından dəhşət saçarlar. Həqiqi dindən xəbərsizdirlər. Hətta bir çoxu Quranı belə oxumayıb. Elə buna görə də, öldürməklə cihad etdiyini düşünən insanı qınamaq, lənətləmək, təhdid etmək, həbs etmək, sürgün etmək heç bir fayda verməz. Onu problemi Quranla tərbiyə edilməməsi, Allahın qanunlarını anlamamasıdır. Problem bu olduqda, yanlış təlim verilməyə davam etdiyi müddətcə, nə etdiyini bilməyən radikalların mövcud olacağı həqiqətini də qəbul etmək məcburiyyətindəyik. Problemin bu olduğu qəbul edildiyi təqdirdə, cihad adı altında vəhşilik saçıb, terror törədənlərin tək ehtiyaclarının doğru təhsil olduğu da qavranılacaqdır.

# “İslamda müharibə” mövzusunda bilinən yanlış məlumatlar

## ✓Bir müsəlman Qurandakı hər ayəyə, fərq qoymadan inanmaqla məsuldur

İslama mövhumat daxil etməyə cəhd edən fanatiklərin də, bu fanatiklərin çirkli məntiqindən istifadə edən bəzi İslam əleyhdarlarının da, Quranda bəzi ayələrin hökmünün, digər ayələr tərəfindən qüvvədən salındığına dair iddialarının yanlışlığını göstərmək üçün bu başlıq seçilmişdir. Həmin bu insanlar iddialarına dəlil olaraq aşağıdakı ayədən istifadə edirlər:

**Biz hər hansı bir ayənin hökmünü qüvvədən qaldırır və ya onu unutdururuqsa, ondan daha yaxşısını, və ya ona bənzərini gətiririk. Məgər bilmirsən ki, Allah hər şeyə qadirdir?**

**(Bəqərə surəsi, 106)**

Quran ayələrini öz istəklərinə görə şərh edən kimsələr, mövhumatlarından meydana gələn dini Qurandakı dinin yerinə hakim edə bilmək üçün, öz aləmlərində bu ayəni səhv şərh edərək dəlil kimi istifadə etmişdirlər. Bu ayəni istədikləri kimi şərh edərək, bəzi ayələrin hökmünü qüvvədən sala biləcəklərini, hətta bunların yerinə uydurma hədisləri daxil edə edəcəklərini düşünmüşdürlər. Bəzi islam əleyhdarları da sərxoşedici içkilər və ya müharibə ilə bağlı ayələrin hökmünün qüvvə düşdüyünü iddia edirlər. Buna əsaslanaraq müsəlmanları da, hökmü qüvvədən düşmüş ayələrə tabe olanlar və bu ayələrə tabe olmayanlar olaraq iki hissəyə ayırmaq istəmişdirlər.

Burada bəhs olunan kəslərin olduqca yanlış iddialarına dəlil kimi göstərməyə çalışdıqları ayənin izahı isə belədir: “hər hansı bir ayənin hökmünü qüvvədən qaldırır” ifadəsində keçən “ayə” sözü təkdədir. Ayə sözünün dəlil, möcüzə kimi mənaları da var, lakin Quranda ayələri xarakterizə edən “ayə” kəlməsi heç vaxt təkdə işlənmir. Təkdə olan ayə sözü həmişə “dəlil” mənasındadır və digər bütün ayələrdə də belə tərcümə edilmişdir.

Beləliklə, burada ifadə edilən məna; “Quran ayələri” deyil, daha əvvəl gəlmiş “dəlillər, qanunlar və şəriətlərdir”. Dolayısilə ayəyə görə, Qurandan əvvəl özlərinə haqq kitablar göndərilən cəmiyyətlərin, yəni yəhudilərin və xristianların məsul olduğu bəzi tətbiq və

hökmlər müəyyən müddətdən sonra unudulubsa, bunlar Quranla xatırladılır və ya ləğv edilir. Əvəzində isə həmin hökmlərin bənzəri və ya daha xeyirlisi Quranla birlikdə nazil olur.

Buradakı ayədə keçən “unutdurmaq” sözünə də diqqət yetirmək lazımdır. Bir hökmün digərini qüvvədən salması üçün, həmin hökm unudulmalıdır. Qurandakı bütün ayələr 1400 ildir ki, dəyişmədiyinə görə, bir ayənin digər ayənin hökmünü qüvvədən salmasından söhbət belə gedə bilməz kimi. Fanatiklərin qüvvədən salındığını iddia etdikləri hökmlər unudulmamışdır, hələ də Quranda mövcuddur. Buradan da açıq şəkildə aydın olur ki, burada bir ayənin hökmünün digər bir ayənin hökmünü qüvvədən salmasından deyil, keçmiş qövmlərə göndərilib, müəyyən müddətdən sonra da unudulmuş hökmlərin qüvvədən salınmasından söhbət gedir. Keçmiş qövmlərə endirilmiş, lakin “unutdurulmuş” hökmlərin daha xeyirlisi və ya bir bənzəri Quran ilə həmin qövmlərə, yenidən göndərilmişdir.

## ✓Quran qorunmuş kitabdır

Quran Rəbbimizin öz ayəsində açıq şəkildə bildirdiyi kimi, "qorunan" bir kitabdır:

**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

"Qorunmuş" bir Kitabda, hökmlərinə əməl edilməsi bütün müsəlmanlar üçün vacib olan ayələrin bəzilərinin etibarlı qəbul edilib, bəzilərinin də heç yerinə qoyulmasından söhbət gedə bilməz. Necə ki, Quranın mükəmməlliyi, Onun riyazi və elmi möcüzələri, yol göstərici xüsusiyyəti və qorunduğuna dair bir çox ayə, mövhumatçıların və bəzi İslam əleyhdarlarının bu iddialarını ortadan qaldırır:

**Şübhə yox ki, Zikr (Quran) onlara gəldiyi zaman onu yalan saydılar. Halbuki, O bənzərsiz ucalıqdakı bir Kitabdır. Nə önündən, nə də arxasından batil ona girişə bilməz. Çünki O (Quran) çox təriflənən (Allah) tərəfindən nazil edilmişdir.**

**(Füssilət surəsi, 41-42)**

**Şübhəsiz ki, onu (Quranı) sənin qəlbində saxlamaq və onu sənə oxutdurmaq Bizə aiddir. Onda, Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə. Sonra, sözsüz ki, onu izah etmək də Bizə aiddir. (Qiyamət surəsi, 17-19)**

Quran ayədə də açıq şəkildə bildirildiyi kimi, bənzərsiz bir Kitabdır və önündən, nə də arxasından batil ona girişə bilməz. Bu kitab Rəbbimiz tərəfindən qorunur. Dolayısilə, bəzi ayələrin hökmünün digər ayələrin hökmünü qüvvədən saldığı iddiası açıq-aydın bir böhtandır.

Burada, İslama və Qurana bu böhtanı atan, bəzi dırnaqarası alimlərin, hökmü qüvvədən düşmüş ayələrin sayı barədə də ixtilaf içində olduqlarını demək lazımdır. Hər biri, qüvvədən düşdüyünü iddia etdiyi ayələrin yerinə, öz aləmlərində yeni hökmlər gətirir və dolayısilə müxtəlif qanunları olan yeni dinlər ortaya çıxarırlar. Bəzi dırnaqarası alimlər isə hədislərin ayələrin hökmünü qüvvədən saldığını iddia edə biləcək irəli getmişdirlər. Bu

insanlar, elə bil, Allahın; **"...Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq..." (Ənam surəsi, 38)** ayəsini görməzlikdən gəlirlər. Quran ayələrini rədd edir və onları, bir qismi tamamilə uydurma olan hədislərlə əvəz edirlər. Məhz bu böyük məntiqsizlik İslam adı altında həyata keçirilən radikal hərəkatların təməlini meydana gətirir. Sonrakı fəsillərdə bu mövzunu ətraflı şəkildə nəzərdən keçirəcəyik.

Eynilə mövhumatçılar kimi, islam əleyhdarları da, bu ayəni səhv şərh etdikləri kimi, İslamla əlaqəli bir çox hökmü də belə səhv şərh etməyə cəhd etmişdirlər. Həmin bu insanların harada səhv etdiklərinin daha yaxşı başa düşülməsi üçün, bu iddiaları təhlil edək:

## ✓“Məkkə dövrü” və “Mədinə dövrü müsəlmanları” fərqləndirməsindəki yanılmalar

Bəzi İslam əleyhdarları reformist müsəlmanları; “Məkkə dövrü müsəlmanları” kimi qələmə verərlər. Onlara görə, Peyğəmbərimiz (s.ə.v)-in Məkkədə yaşadığı dövr müharibələrin olmadığı sülh dövrüdür. Peyğəmbərimiz (s.ə.v) Mədinəyə hicrət etdikdən dərhal sonra müharibələr başlamışdır. Bəzi insanlar da buna əsaslanaraq, İslamda müharibə olduğunu müdafiə edənlərin, ancaq Mədinə dövründə nazil olan ayələri, sülhsevər kimsələrinsə, ancaq Məkkə dövründə nazil olan ayələri qəbul etdiklərini iddia edirlər. Bu olduqca cahil və bir o qədər də məntiqsiz bir iddiadır.

Daha əvvəl də bildirdiyimiz kimi, bir müsəlmanın müsəlman xüsusiyyəti qazana bilməsi üçün ən əsas şərt, heç biri arasında fərq qoymadan bütün Quran ayələrinə inanmasıdır. Əgər təkcə bir ayənin belə hökmünü qəbul etməsə, Quranda təsvir olunan müsəlman xüsusiyyətini daşımaz. Dolayısilə “müsəlmanam” deyən biri, Qurana görə qətiyyən, “bu ayəni qəbul edirəm, amma bu birini qəbul etmirəm” deyə bilməz.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə, Məkkə dövründə müharibə baş vermədiyi, lakin Mədinə dövründə müharibə aparıldığı və bu xüsusi müharibələrlə bağlı ayələrin nazil edildiyi doğrudur. Bunun səbəbini anlamaq üçün Peyğəmbərimiz (s.ə.v)-in dövründəki çətin şəraiti qavramaq lazımdır.

## ✓Məkkə dövrü müsəlmanlarının çətin imtahanı

Quran Peyğəmbərimizə (s.ə.v) 23 ildə vəhy olundu. İlk 13 ildə Məkkədəki bütpərəstlərin içində kiçik bir qrupu təşkil edən müsəlmanlar böyük təzyiqlərə məruz qaldılar. Bir çox müsəlmana fiziki işgəncələr verildi, bəziləri şəhid edildi, çoxunun evi və malları yağmalandı, davamlı təhqir və təhdidlərlə üzləşdilər. Buna baxmayaraq, müsəlmanlar şiddət tətbiq etmədən həyatlarına davam etdilər, sadəcə bütpərəstlərdən uzaqlaşdılar və onları daim sülhə dəvət etdilər.

Lakin həmin bu bütpərət cəmiyyətlərin hücumları sona çatmadı.

Qureyşlilər, əvvəlcə, hz. Məhəmməd (s.ə.v)-in peyğəmbərliyinə əhəmiyyət verməmiş kimi göründülər. İman etməməklə yanaşı, bütlərinin əleyhində söz söyləmədiyi müddətcə, Peyğəmbərimiz (s.ə.v)-in dəvətinə səs çıxartmadılar. Təkcə Peyğəmbərimiz (s.ə.v)-i gördükləri vaxt, ona qarşı söz hücumuna keçdilər. Öz aləmlərində müsəlmanları lağa qoyub alçaltdılar. Beləliklə də, Qureyşlilərin "söz hücumları" dövrü başlandı.

Quranda bu vəziyyət bizə belə çatdırılır:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər,**
**Onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər, Öz yaxın qohumlarının yanına fərəhlə qayıdırdılar. İman gətirənləri gördükdə isə deyirdilər: "Həqiqətən, bunlar azmışlardır!".**
**(Mutaffifin surəsi, 29-32)**

Məkkə bütpərəstlərin mərkəzi mövqeyində çıxış edirdi. Şəhər hər gün Kəbə və ətrafındakı bütləri ziyarət etmək üçün gələnlərlə dolub daşır, buna görə də Qureyşlilər həm pul, həm də etimad qazanırdılar. Qureyşlilər Məkkədə müsəlmanlığın yayılmasını özləri üçün bir təhdid hesab edirdilər, çünki belə olacağı təqdirdə mənfəətlərinə xələl gələcəyini və digər qəbilələrin özlərinə düşmən kəsiləcəyini düşünürdülər. Həmçinin müsəlmanlıqda bütün insanların bərabər hüquqlu olduğunu, nəsil ayrı-seçkiliyinin və zənginlik-yoxsulluq fərqinin aparılmadığını bilirdilər. Buna görə də, Qureyş ağsaqqalları müsəlmanlığın yayılmasına mane olmaq üçün tədbir almalarının lazım olduğu qənaətinə gəldilər. Buna müsəlmanlara istiqamətli işgəncələr, hətta cinayətlər də daxil idi. (İbn Hişâm, 1/287)

O dövrün müşrikləri hz. Əbu Bəkr və hz. Osman kimi güclü və etibarlı ailələrə mənsub müsəlmanlara elə də toxuna bilmirdilər. Lakin kimsəsiz, yoxsul müsəlmanlara tarixdə misli görünməmiş vəhşiliklə işgəncələr verirdilər. Əbu Füheykə, Həbbab, Bilal, Süheyb, Əmmar, Yasir və Sümeyyə bu ağır işgəncələrə məruz qalmış dəyərli müsəlmanlardandı.

Safvan ibn Üməyyənin köləsi olan Əbu Füheykə, müşrik sahibi tərəfindən hər gün ayağına ip bağlanılaraq qızğın çınqıl və qumlar üzərində süründürülürdü.

Dəmirçi Həbbab, köz halındakı kömürlərin üzərinə uzadılmış, kömürlər sönüb qaralana qədər, sinəsi kömürlərlə dağlanılıb əziyyətə məruz qalmışdı.

Əmmarın atası Yasir ayaqlarından, iki müxtəlif istiqamətə doğru hərəkət edən dəvəyə bağlanaraq parçalanmış, ərinin belə vəhşicəsinə şəhid edilməsinə dözməyib müşriklərə etirazını bildirən Süməyyə isə Əbu Cəhlin atdığı oxla qətlə yetirilmişdi. (Zâdü'l-Meâd, 2/116; Asr-ı Saâdet, 1/254)

Xələf oğlu Üməyyə, köləsi Bilal Həbəşini hər gün çılpaq vəziyyətdə qızğın qumların üstünə uzadar, sinəsinə böyük bir daş parçası qoyaraq saatlarla günəşin altında saxladar; Peyğəmbər (s.ə.v)-ə qarşı çıxması və müsəlmanlığı tərk etməsi üçün ona əziyyət verərdi. Bir gün əllərini, ayaqlarını möhkəm bağlayaraq boynuna ip keçirmiş və onu qızğın qumlar üzərində Məkkə küçələrində süründürmüşdü. (Zâdü'l-Meâd, 2/116; Asr-ı Saâdet, 1/253)

Haşimilərdən qorxduqları və əmisi Əbu Talibin himayəsi altında olduğu üçün əvvəllər Peyğəmbərimizə (s.ə.v)-ə toxuna bilmirdilər. Bir müddət sonra ona dəli, falçı, şair, sehrbaz olduğu kimi böhtanlar atmağa başladılar (haşa). Nəhayət fürsət tapdıqda Peyğəmbərimizi (s.ə.v)-i də təhqir etməkdən, ona işgəncə və hər cür pislik etməkdən çəkinmədilər.

Müsəlmanların bu dəhşətli işgəncələrə məruz qalmasının tək səbəbi onların iman gətirməsi və insanlara İslamı təbliğ etməsi idi. Müsəlmanlar, bu təzyiq, işgəncə, zorakılıq və dəhşət mühitində, İslamın əmrinə görə, qətiyyən özlərinə zərər verənlərə zərər verməmiş, hətta ən insani haqqları olmasına baxmayaraq, özlərini belə müdafiə etməmişdilər. Müsəlmanların əks hücuma keçmədiklərini görən Qureyş müşrikləri azğınlıqlarını və işgəncələrinin həddini daha da artırmışdılar. Belə ki, həmin Qureyşlilər artıq gördükləri hər bir müsəlmanı yerindəcə şəhid etməyə başlamışdılar.

Əziyyətlərə qətiyyən qarşılıq verməyən, Quranda qan axıtmağa izin verilmədiyi üçün hətta özlərini belə müdafiə etməyən müsəlmanlar, işgəncələr artdığı üçün Məkkədə qala bilmədilər. Bu vəziyyət Mədinəyə köç etməyi zəruriləşdirdi.

## ✓Mədinə dövrü və müharibələr

Məkkədə bütpərəstlərin təzyiqləri artdıqdan sonra, müsəlmanlar daha sərbəst və dostyana mühitin hakim olduğu Yəsrib (sonrakı adı Mədinə) şəhərinə hicrət edərək, burada öz rəhbərliklərini qurdular. Necə ki, öz siyasi quruluşlarını bu yolla meydana gətirdikdən sonra belə, Məkkəli bütpərəstlərin hücumları sona çatmadı. Qureyşlilər, yaşadıqları əraziyə qədər müsəlmanları təqib edərək zorakı fəaliyyətlərinə davam etdilər. Peyğəmbərimiz (s.ə.v) və yanındakı müsəlmanlar isə Məkkənin təcavüzkar bütpərəstlərinə heç vaxt müharibə ilə qarşılıq vermədilər.

Dünyada heç bir insan, cəmiyyət və ya ölkə hücum qarşısında sakit qalmaz. Özünə hücum edənlərə özünü müdafiə etmək üçün mütləq cavab verər və ya heç olmasa, özünü müdafiə edər. İnsanların özlərini bu cür müdafiə etməsini məhkəmələr, ölkələri isə beynəlxalq hüquq, qanuni hesab edər. Çünki qarşı tərəfdən haqsız hücuma məruz qalmışdır və onun canı, ailəsi, sevdikləri; bir ölkənin milləti, namusu, torpaqları təhlükə altındadır.

Bu vəziyyət Məkkə dövründə yaşamış müsəlmanlar və Peyğəmbərimizə (s.ə.v) də aiddir. Lakin buna baxmayaraq, tamamilə haqsız və cana qəsdetmə mahiyyəti daşıyan hücumlar davam etdiyinə görə, Allahın öldürməyi haram buyurması hökmündən dolayı Peyğəmbərimiz (s.ə.v) və müsəlmanlar heç vaxt bu hücumlara qarşılıq verməmişdilər. Bunun əvəzinə ayənin hökmünə görə düşmənlərini daim sülhə çağırmış, lakin sülh təklifi rədd edildiyindən zülmkar cəmiyyətdən (öz şəhərlərini, evlərini tərk edərək) uzaqlaşmışdırlar. 13 ilə yaxın davam edən Məkkə dövründə və Mədinə dövrünün ilk ilində müşriklərdən gördükləri bu qədər zülm, işgəncə və haqsızlığa baxmayaraq, möminlərə səbirli olmaları əmr edilmişdir.

**"İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et..." (Nəhl surəsi, 125)** ayəsinə görə Allahın dinini gözəl şəkildə təbliğ etmələri əmr edilmiş, müharibəyə izin verilməmişdir. Müsəlmanlardan zülmə qarşı çıxmaq istəyənlərə isə Peyğəmbərimiz (s.ə.v) bu cavabı vermişdir:

***"Hələ döyüş izni verilməyib, səbir edin, Allahın köməyi yaxındır, çəkdiyiniz məşəqqətlər əvəzində mükafat alacaqsınız..."***

Mədinəyə köçdükdən sonra Peyğəmbərimizə (s.ə.v)-ə, bu ayələrlə özünü və ümmətini müdafiə etmək izni verilmişdir:

**Zülmə məruz qalmalarından ötrü, özlərinə qarşı müharibə açılan (möminlərə, döyüşmə) izni verildi. Şübhəsiz ki, Allah onlara kömək etməyə qadirdir. Onlar ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar... (Həcc surəsi, 39-40)**

Bu ayələrdə bildirildiyinə görə, təkcə: “Rəbbimiz Allahdır” dediklərinə görə haqsız yerə yurdlarından sürgün edilən müsəlmanlar, özlərini müdafiə etmək üçün hazırlığa başladılar. Ayədə açıq şəkildə bildirildiyi kimi, “özlərtinə qarşı müharibə açılmış, hücuma məruz qalmış müsəlmanlara” özlərini müdafiə etmə izni verilir, hücum etmək izni deyil. Bu ayənin nazil olması ilə müsəlmanlar özlərini qorumağa başlamış, özlərinə hücum edən bu azğın insanlarla müdafiə məqsədli müharibələr aparmışdırlar. Bundan sonra müharibə və müdafiə ilə bağlı nazil edilmiş ayələr, davam edən müharibələr əsnasında necə hərəkət edilməsinin lazım olduğunu göstərmişdir. Digər bir sözlə, bu ayələr ancaq, həmin müharibələr vaxtı yaranan vəziyyətlərdə nə edilməsinin lazım olduğunu göstərir. Dolayısilə Quranda müharibəyə aid ayələrin hamısı, dövrün çətin şəraitini və Peyğəmbərimiz (s.ə.v)-in ədalətini anlaya bilməyimiz üçün, sadəcə o dövrdəki hücumlarla bağlı nazil edilmiş xüsusi ayələrdir.

## ✓Müharibələr kimlərə qarşı aparılıb?

Quranda təsvir edilən müharibələr mövzusunda xatırladılması lazım olan əhəmiyyətli bir məqam da həmin müharibələrdə iştirak edən "qarşı tərəf"dir. Bəzi dini və tarixi mənbələrdə, Peyğəmbərimiz (s.ə.v)-in dövründə yəhudilərlə müharibə aparıldığı yazılır. Həmin bu mənbələrdən məlumat toplayan bəzi insanlar da, qeyd olunan xüsusi müharibələr üçün nazil edilən ayələrin yəhudilərə aid olduğunu iddia edərək, Quranda antisemitizm axtarmağa çalışarlar. Halbuki bu, böyük bir yalandır.

Peyğəmbərimiz (s.ə.v) və müsəlmanlara, qeyd olunan zülmü edənlər müşriklər idi. Onları əksəriyyəti bütpərəst olub, məqsədləri bütlərinə və azğın inanclarına zərər gəlməsinin qarşısını almaq idi. Bir qismi isə yəhudilərin arasından çıxan münafiq və müşriklər idi. Onların yəhudi adlandırılması böyük səhvlikdir. Necə ki, müsəlmanların arasından çıxan müşrik və münafiqləri müsəlman adlandırmaq olmazsa, yəhudilərin arasından çıxan və vəhşət saçan müşrik və münafiqləri də yəhudi adlandırmaq olmaz. Həqiqi yəhudi vuruşmaz, dindar insanların canına qəsd etməz.

Quran antisemitizmi lənətləyir. Məhz buna görə də, Quranda yəhudi düşmənçiliyi ilə bağlı dəlil axtaranların əli daim boş qalar. Müharibə ilə bağlı ayələri yəhudilərlə əlaqələndirməyə çalışanlar bunu yaxşı qavramalıdırlar. Peyğəmbərimiz (s.ə.v) yaşadığı dövrün yəhudiləriylə daim yaxşı münasibətlər saxlamış, onlara sevgi və şəfqətlə göstərmiş, eynilə həqiqi dindar yəhudilər də eyni sevgi və hörməti Peyğəmbərimiz (s.ə.v) qarşı göstərmişdirlər.

Peyğəmbərimiz (s.ə.v)-in yəhudilərə, Tövrata və yəhudiliyə qarşı sevgi dolu rəftarıyla əlaqədar ətraflı məlumatlar, kitabın sonrakı fəsillərində geniş şəkildə məlumat verdiyimiz "Kitab əhli" başlığında açıqlanmışdır.

## ✓Quranda müharibəyə verilən tərif

Quranda müharibənin nə vaxt və necə aparılacağı açıq şəkildə bildirilmişdir:

**Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir. (Bəqərə surəsi, 190)**

Müharibə ancaq, **müsəlmanlarla vuruşanlara** qarşı aparılmalıdır, yəni **müdafiə xarakterli** olmalıdır. Müsəlmanların qarşı tərəfə səbəbsiz yerə hücum etmələri qəti şəkildə **qadağan olunmuşdur**.

Allah Quranda müsəlmanlara, etdikləri haqsızlıq və təcavüzkarlıqdan ötrü bir camaata qarşı kin-küdurət bəsləsələr belə, onlara qarşı daima ədalətlə davranmalarını əmr etmişdir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə, surəsi, 8)**

Məsələn, Allah ayədə müsəlmanlara, Kəbəyə girmələrinə mane olanlara qarşı həddi aşmağı qadağan etmiş, onlara və hər kəsə yaxşılıq etməyi nəsihət etmişdir:

**...Sizi Məscidulharama daxil olmağa qoymadıqlarından ötrü bir camaata qarşı olan kin-küdurət sizi həddi aşmağa sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və həddi aşmaqda bir-birinizə köməkçi olmayın. Allahdan qorxun... (Maidə surəsi, 2)**

Qəsdli olaraq, həcc ibadətlərini yerinə yetirmələrinin qarşısının alınması və özlərinə haqsızlıq edilməsinə baxmayaraq, müsəlmanlar həddlərini aşmamaları məsələsində uca Rəbbimiz tərəfindən xəbərdar edilmişdirlər. Allah müsəlmanlara belə şəraitdə belə ədalətli olmağı, qəzəblənməməyi və yaxşılıq etməyi əmr edir. Müsəlman, hər cür vəziyyət qarşısında Qurandakı bu hökmə tabe olmalıdır.

Quranda müharibə etmək üçün yeganə səbəbin (müdafiə xarakterli döyüşün) bildirildiyi ayədə, müsəlmanların qarşısına müharibə etdikləri vaxt həddlərini aşmamaları şərti də qoyulmuşdur.

Bu, hücum vəziyyətində müsəlmanın yalnız özünü qoruması, həddi aşmaması, özünü müdafiə etməkdən başqa hər hansı bir hərəkətə yol verməməsi mənasını verir. Yəni, Quranın hökmünə hücum, vəhşət, zorakılıq və həddi aşmaq qadağan olunmuşdur.

Ancaq müdafiə olunmaq üçün döyüşməyin zəruriliyi başqa ayələrdə belə bildirilir:

**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlara ədalətlə davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir...**

**(Mumtəhənə surəsi, 8-9)**

Burada əhəmiyyətli bir fərq var. Fikrən qarşı çıxdıqları halda, onlara qarşı həddlərini aşmayıb, hücum etməyənlərin üstünə hücum etmək müsəlmanlara haramdır. Müsəlmanlar onlara hörmətlə və ədalətlə davranmaqla məsuldurlar. Bu ayənin ifadə etdiyi mənaya görə, yalnız inanclarından ötrü müsəlmanlara zülm edən və onlara hücum edən, yəni müharibəni başladan tərəfin hücumuna qarşı onlara, özlərini müdafiə etmə izni verilmişdir. Daha əvvəl də bildirdiyimiz kimi, əlbəttə ki, hər insan hücuma uğradıqda özünü müdafiə edər. Bu hər insanın, hər millətin, hər dövlətin etməyə haqq sahibi bildiyi, olması zəruri olan bir davranış formasıdır.

Peyğəmbərimiz (s.ə.v)-in döyüş izni verilən ayə nazil edilənə qədər heç bir şəkildə özünü müdafiə etməməsi, inanılmaz fədakarlıq və dindarlıq nümunəsidir. Həmin ana qədər; **"...onlarla ən gözəl tərzdə mübahisə et" (Nəhl surəsi, 125)** ayəsinin hökmü gərəyi Peyğəmbərimiz (s.ə.v) sadəcə razı salma və barışıq üsulundan istifadə etmişdir. Bütpərəst Qureyşlilərin məqsədlərinin yalnız qətliam törətmək olmasına baxmayaraq...

Bu əhəmiyyətli xüsusu çatdırdıqdan sonra, mövhumatçıların və islam əleyhdarlarının, İslam adı altında törədilən vəhşətə dəlil olaraq göstərməyə çalışdıqları bütün Quran ayələrini nəzərdən keçirəcək bu mövzudakı yanılmaları bir-bir aydınlaşdıracağıq.

Bu ayələri nəzərdən keçirməmişdən əvvəl, Quranda bildirilən bütün müharibələrin həmin bölgədəki müəyyən qövmə qarşı aparılıb, müəyyən şərtlər altında həyata keçirildiyi və bu xüsusi şərtlərin də ayələrdə aydın şəkildə bildirildiyi bilinməlidir. Bu qövm özləriylə müqavilə bağlanılmış müşrik bir qövmdür. Belə ki, bu müharibələr, həmin qövmün sülh və dostluq müqavilələrini pozaraq hücuma keçmələri və göstərdikləri münasibətlərə görə bu

halları almışdır. Buna görə də, nazil edilən ayələr, tam olaraq o vaxtkı vəziyyət ilə əlaqəlidir və o vaxtkı mühiti təsvir edir.

Bu həqiqətin daha yaxşı başa düşülməsi üçün, o dövrdəki müşrik xüsusiyyətlərinə və bağlanılan müqavilələrə yaxından nəzər salaq:

## ✓Müqavilə bağlanılmış müşriklər

Müşrik sözü, həmin dövrə aid müxtəlif təfsirlərdə ancaq şirk qoşan mənasında işlənsə də, bir termin kimi açıq şəkildə Allaha şərik qoşan, çoxlu ilahlara inanan; müsəlman, yəhudi, sabii, xristian və ya atəşpərəst **olmayan**, bütlərə sitayiş edən bütpərəstlərdir.

Quranda İslamiyyətin zühuru dövründə Ərəbistan yarımadasındakı mövcud dinlərdən bəhs olunarkən, müşriklər ayrı qrup kimi təsvir olunur. Peyğəmbərimiz (s.ə.v)-in dövrü nəzərə alınsa, kitab əhli olan yəhudi və xristianlarla evlənmək, onların kəsdiklərini yemək halal edildiyi halda, atəşpərəstlərin, sabiilərin və bütpərəstlərin qadınları ilə evlənmək və kəsdiklərini yemək qadağan edilmişdir.

Daha əvvəl də bildirdiyimiz kimi, Peyğəmbərimiz (s.ə.v) müşriklərin ağır təzyiqindən ötrü Mədinəyə köçməyə məcbur olmuş və hicrətinin ilk günlərindən etibarən ənsar (Mədinəli müsəlmanlar) və mühacirlər (Məkkədən Mədinəyə köç etmiş müsəlmanlar) arasında qardaşlıq münasibətləri yaratmışdır. Müşriklər qövmlər və o bölgədə yaşayan insanlarla bir çox müqavilə bağlamış və müşriklərin azğın rəftarlarına baxmayaraq, sülhü bərqərar etmək üçün daima onları birliyə dəvət etmişdir.

Peyğəmbərimiz (s.ə.v)-in Mədinəyə köçdükdən sonra cəmiyyətlər arasında qardaşlığı və sevgini gücləndirməsi, müxtəlif irqə, dinə və dilə mənsub insanların birlikdə əmin-amanlıq içində yaşaya biləcəklərinin sübutudur. Onun sülh və sevgi dəvətçisi olmasının ən böyük dəlillərindən biri yazdırdığı ilk mətnin sülh müqaviləsi olmasıdır. Hz. Məhəmməd (s.ə.v) Məkkəni fəth etdikdən sonra, əvvəllər müsəlmanlara işgəncə verən müşrikləri belə sərbəst buraxmış, onlara böyük rəhm etmişdir. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in göstərdiyi bu üstün əxlaq nümunəsi, daha əvvəl ərəb cəmiyyətində heç kimin görmədiyi bir əxlaq olub, insanlar tərəfindən təriflənilirdi.

O dövrdə fəth edilən əcnəbi ölkələrdə də, həqiqi ədalətin tətbiq edilməsi məsələsində, hz. Məhəmməd (s.ə.v) bütün müsəlmanlara nümunə olmuşdur. Peyğəmbərimiz (s.ə.v) ələ keçirilən ölkələrin yerli xalqlarına qarşı, Qurandakı hökmə görə ədalətlə davranmış, onlarla hər iki tərəfin də razı qalacağı və heç bir tərəfin ən kiçik bir zərər belə görməyəcəyi müqavilələr bağlamışdır. Buna görə də, dinindən və irqindən asılı olmayaraq, bu ölkələrin xalqı İslamın gətirdiyi ədalətdən daim razı qalmışdır. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) və yanındakı səhabələr **"yaratdıqlarımız içərisində, haqqa yönəldən və ədaləti bərqərar edən bir ümmət var" (Əraf surəsi, 181)** ayəsində bildirildiyi kimi, insanlar arasında ədaləti bərqərar edən ümmət olmuşdurlar.

Ərəbistan yarımadasının cənubunda yaşayan xristian Nəcran xalqı ilə bağlanılan saziş də Peyğəmbərimiz (s.ə.v)-in anlayış və ədalətinin ən gözəl nümunələrindəndir. Sazişin maddələrindən biri belədir:

*“Nəcranlılar və onların himayəsi altında olanların canları, malları, dinləri, varları və yoxları, ailələri, kilsələri və sahib olduqları hər şey Allah və Onun peyğəmbəri tərəfindən qorunulacaq”. (Majid Khoduri, İslam'da Savaş ve Barış, Fener Nəşriyyat, İstanbul, 1998, səh. 209-210)*

O bölgədəki bütün qövmlərlə müqavilə bağladıqdan sonra, Peyğəmbərimiz (s.ə.v) İslam tarixində ilk konstitusiya olan Mədinə müqaviləsinin şərtlərini hazırlayaraq Mədinə dövlətini qurmuşdur. Mədinə müqaviləsi, tarixdəki demokratik və çox maddəli konstitusiyanın ilk və ən mükəmməl nümunəsidir. Dövrümüzdəki heç bir demokratik sistem, Peyğəmbərimiz (s.ə.v)-in qüvvəyə mindirdiyi Mədinə konstitusiyasının yaratdığı nizam-intizamı bərqərar edə bilməmiş və heç biri bunu Peyğəmbərimiz (s.ə.v)-in tətbiq etdiyi kimi, edə bilməmişdir.

# ✓Tarixin ilk çox maddəli və ən demokratik konstitusiyası: Mədinə müqaviləsi

Peyğəmbərimiz (s.ə.v) Mədinə dövlətinin ilk yazılı konstitusiyası olan Mədinə müqaviləsi ilə, müxtəlif irq, din və qəbilələrə mənsub insanlardan ibarət şəhərdə, Ərəbistan yarımadasında daha əvvəl heç görünməmiş demokratik və sülhsevər sistem meydana gətirmişdir.

Həmin bu konstitusiyaya görə Mədinədə yaşayan müxtəlif qövmlər, birlikdə sülh içində, öz din və inanclarına uyğun bir həyat yaşayacaq, həm öz qurumlarının fəaliyyətini və qanunlarının işini təmin edəcək, həm də bu qanunları tətbiq etmə imkanı qazanacaqdılar. Bunu edərkən də, Mədinədəki bütün qövmlərlə sülh və həmrəylik şəraitində yaşayacaqdılar.

Mədinə müqaviləsi 622-ci ildə müxtəlif inanclara sahib xalqların tələblərinə uyğun şəkildə hz. Məhəmməd (s.ə.v)-in rəhbərliyi ilə, yazılı bir qanuni müqavilə kimi bağlandı. Bunun nəticəsində isə 120 il müddətində bir-birinə qarşı düşməncə duyğular bəsləyən fərqli din və irqlərə mənsub qövmlər bu müqavilədə iştirak etdilər. Hz. Məhəmməd (s.ə.v) bu müqaviləni bağlamaqla, hər fürsətdə bir-birlərinə hücum edən, bir-birlərinə qarşı düşməncə duyğular bəsləyən və razılığa gələ bilməyən qövmlər arasındakı münaqişələrin sona çata biləcəyini, hamısının əmin-amanlıq içində birgə yaşaya biləcəklərini göstərdi.

Mədinə müqaviləsinə əsasən, müqaviləni imzalayan tərəflər heç bir təzyiqə məruz qalmadan istədiyi dini, inancı, siyasi və ya fəlsəfi seçimi etməkdə azad idi. Öz əqidəsindən olan insanlarla birlikdə bir cəmiyyət yarada bilər, öz hüquqlarından sərbəst şəkildə istifadə edə bilərdi. Lakin günah işləyən insan heç kim tərəfindən qorunmamalı idi. Sazişi imzalayan tərəflər bir-birlərinə kömək etməli və bir-birlərini dəstəkləməliydilər. Eləcə də, onların hamısı Peyğəmbərimiz hz. Məhəmmədin (s.ə.v) himayəsi altında idi. Tərəflər arasında yaranan anlaşmazlıqlar Allahın Rəsuluna bildirilməliydi. Hətta müşriklər belə, ən ədalətli insan olan Peyğəmbərimiz (s.ə.v)-in hakimlik edib hökm verməsinə üstünlük verirdilər.

Peyğəmbərimiz (s.ə.v)-in hazırlatdığı Mədinə müqaviləsinin hökmləri 622-ci ildən 632-ci ilə qədər mərhələli şəkildə tətbiq edilmişdir. Bu müqavilə ilə insanlar qan və qohumluq əlaqələrinə əsaslanan qəbilə yaşayış formasınından imtina etmiş, ərazi, mədəni və etnik mənşə baxımından bir-birindən tamamilə fərqlənən insanlar birliklər meydana gətirməyə başlamışdırlar. Mədinə müqaviləsi böyük din və inanc azadlığı təmin edirdi. Bu azadlığı ifadə edən maddələrdən biri belədir:

*“Bəni-əfv yəhudiləri möminlərlə eyni ümmətdən idi. Yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir”. (Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Nəşriyyat, İstanbul, 1981, səh.128)*

Mədinə müqaviləsi 47 maddədən ibarətdir. 1-23-cü maddələr müsəlmanlarla, 24-47-ci maddələr isə Mədinədəki yəhudi qəbilələriylə bağlıdır. Say etibarilə azlıq təşkil etsələr də, xristianların da qeyd olunması fərqli din mənsublarının iştirakı baxımından əhəmiyyətlidir.

Professor Leonard Svidlerin; "plüralizm perspektivində Mədinə müqaviləsinin yenidən qiymətləndirilməsi" adlı hesabatında bəhs edilən müqavilə ilə bağlı diqqət çəkici açıqlamalar belədir:

***"Gəldiyimiz qənaətə görə müqavilə, hz. Peyğəmbərin şəhəri birləşdirmə və xalqa açıq şəkildə çatdırılan qanun ətrafında toplama səyi göstərməsi baxımından əhəmiyyətli bir sənəddir. Bu qanuna əsasən, bütün insanlar bərabər hüquqlara, din seçmə və müsəlmanlarla birgə müharibəyə gedib getməmə azadlığına sahib idi. Lakin istənilən halda şəhərin düşmənləriylə müqavilə bağlamaları qadağan edilmişdi ki, bu da Mədinədəki cəmiyyətlər arasında möhkəm əlaqə yaratmaq cəhdini göstərirdi. Bu siyasi və dini müqavilənin bağlanma məqsədi, bərabərlik və azadlıq meyarları əsasında yeni bir cəmiyyət yaratmaq idi. Müqavilədə də vurğulandığı kimi, qanunun hər bir fərdə şamil edilməsi, dialoq və birgə yaşayış mühitinin yaradılması məqsədinə nail olunması üçün atılan təməl addım idi. Müqavilədəki maddələr ümumiyyətlə Mədinə şəhərinin qorunmasında hər bir insan üçün eyni məsuliyyət müəyyənləşdirir. Bundan əlavə, əxlaqi məzmunlu maddələrdə bənzər ifadələrin də üstünlük təşkil etdiyini görürük. Nəhayət, şəhərdəki müxtəlif qrupların adlarının maddələrdə bir-bir çəkildiyini nəzərə aldığımız təqdirdə, müqavilənin və Peyğəmbərin şəhərin bu qruplarını leqal cəmiyyətlər kimi qəbul etdiyini və onları diqqətə aldığını görə bilərik". (Majid Khoduri, İslam'da Savaş ve Barış, Fener Nəşriyyat, İstanbul, 1998, səh. 209-210)***

Həmin bu konstitusiyada yəhudilərlə əlaqədar olduqca çox maddə olsa belə, bu konstitusiya maddələrinin orada yaşayan bütpərəst cəmiyyətlərə də şamil edildiyini xüsusi olaraq xatırlatmaq yerində olar. Məkkə müşriklərinin hz. Məhəmməd (s.ə.v) və müsəlmanlara olan düşmənçiliklərini açıq şəkildə göstərmələrinə, onları yurdlarından qovmalarına baxmayaraq, Peyğəmbərimiz (s.ə.v)-in Mədinədəki bütpərəstlərə olduqca şəfqətli davrandığı, sülh və uzlaşma yaratmağa çalışdığı məlumdur. Mədinə müqaviləsində müşriklərin hüquqlarının qorunması və onların da Mədinənin müdafiəsində müsəlmanlarla birgə mübarizə aparmaları tələb olunur. Müşriklərə qarşı belə bir münasibət göstərilməsi heç də təəccüblü deyil. Çünki Qurana əsasən, müsəlmanlar müqavilə bağladıqları müşrikləri öz canları naminə qorumalıdırlar. (Bu mövzudan növbəti sətirlərdə bəhs edəcəyik)

Nəticə etibarilə, Mədinə müqaviləsinin birlik və həmrəylik, şəfqət, sevgi, dostluq və sülh toxumlarını səpən çox mühüm tarixi sənəd olduğu danılmazdır. Xüsusən müsəlmanlarla yəhudilər, ümumilikdə isə, digər bütün qeyri-müsəlmanlarla dialoq

qurulmasında çox gözəl nümunədir. Peyğəmbərimiz (s.ə.v)-in bu sevgi dolu və sülhsevər yanaşması Qurana uyğun davranışdır; lakin hazırda bu əxlaqı yaşayan müsəlman cəmiyyəti görmək çətindir. Bu, tarixin ən demokratik konstitusiyasının Peyğəmbərimiz (s.ə.v) tərəfindən yazılıb tətbiq edildiyinə və dövrümüzdəki cəmiyyətlərin Qurandan və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsindən uzaqlaşdıqlarına konkret və əhəmiyyətli bir dəlildir.

Dolayısilə, kitabın sonrakı fəsillərini bu həqiqəti unutmadan dəyərləndirmək lazımdır. Hətta müşrikləri belə qorumağı əmr edən, Kitab əhlinin (yəhudi və xristianlar) isə müsəlmanlar üçün xüsusi dəyəri olduğunu bildirən Qurani Kərimin öyüdləri və Qurana əsaslanaraq daim sülh və demokratiya təmin etməyi hədəfləmiş hz. Məhəmməd (s.ə.v)-in sünnəsi dövrümüzün mövhumatçılarınkından çox fərqlənir. Onlar Quranda daim döyüşməklə bağlı dəlil axtarır, lakin Quran daim sülh yaratmağı nəsihət edir. Dolayısilə müharibə ilə əlaqəli ayələr izah edilərkən bu mühüm həqiqət mütləq yadda saxlanılmalıdır.

## ✓Müharibə ilə bağlı ayələr və izahları

Qurana əsasən nə vaxt döyüş aparılacağını öyrəndikdən sonra, bəzi radikallar tərəfindən istismar edilən və bəzi islam əleyhdarları tərəfindən də İslamı tənqid etmək üçün istifadə edilən müharibə ayələrini təhlil edək:

*Bəqərə surəsinin 191-ci ayəsinin təhlili:*

**Onları harada yaxalasanız öldürün və sizi çıxartdıqları yerdən siz də onları çıxardın! Fitnə qətldən pisdir. Onlar sizə qarşı Məscidulharamın yanında vuruşmayınca, siz də onlara qarşı orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də onlarla vuruşun. Kafirlərin cəzası belədir. (Bəqərə surəsi, 191)**

Bu ayə müsəlmanların güclü təzyiq və işgəncələr altında Məkkədən Mədinəyə köçməyə məcbur edilməsindən sonra nazil oldu. Yuxarıda ətraflı şəkildə qeyd etdiyimiz şərtlər meydana gəlmiş və müsəlmanlar, müşriklərin ağır zülmü və birbaşa hücumlarına qarşı özlərini müdafiə etmə əmri almışdırlar. Davamlı zülm edən, gözəl sözdən anlamayan və sülh/barışıq təkliflərinə qulaq asmayan bu kütləyə onların metoduyla cavab verdilər.

Lakin ayədə, Quranda bildirilən savaşma hüququ yenidən xatırladılır: **“Onlar sizinlə Məscidül-haramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də onlarla vuruşun”.** Göründüyü kimi, müharibə etmək üçün yeganə şərt, qarşı tərəfin hücuma keçməsidir. Onlar döyüşmədikcə və ya hücum etmədikcə müsəlmanlarla döyüşmək qəti şəkildə haramdır.

Həmin bu ayəni öz aləmlərində səhv şərh edən radikalların da, İslam əleyhdarlarının da ayədəki bu əhəmiyyətli hökmü görməzlikdən gəlmələri, əlbəttə ki, olduqca şübhə doğurur. Ayədə açıq şəkildə müsəlmanlara ancaq özlərini müdafiə etmək hüququ verilir. Dolayısilə, bu ayədə hücum etmək və ya müharibə başlatmaq hökmü yoxdur.

Ayədəki digər önəmli xüsus isə; **“fitnə qətldən pisdir”** ifadəsidir. Fitnə; kütlələri qızışdırmaq, nifrəti alovlandırmaq, dedi-qodu yayaraq kini, anarxiyanı və terroru yaymaq, bir-birinə düşmən kütlələr yaratmaq, fitnə çıxarmaqdır və ayənin ifadəsinə görə bu hərəkət adam öldürməkdən daha pisdir. Məhz müsəlmanlara hücum edənlər də, həm feli, həm psixoloji, həm də hiyləgər mənada bu fitnəni yaradanlardır. Verdikləri ziyan böyükdür. Təcavükarlıq etdiklərində də, təbiidir ki, müsəlmanlar da özlərini müdafiə edirlər.

Hazırda bəzi fanatiklərin qulaqdan dolma məlumatlar və ya mövhumatlara aldanaraq, hansısa insanları, kütlələri, dinləri və ya ölkələri fitnəkar adlandırması və bu

özbaşınalıqlarına bu Quran ayəsini dəlil göstərmələri çox böyük məğlubiyyətdir. Fitnə, müsəlmanları parçalamaq, onları müxtəlif çətinliklərə salaraq ziyana və günaha sürükləmək, kütləvi üsyanlara şərait yaratmaq, müsəlmanlara qarşı feli və sözlü hücumlar etmək kimi, fitnə-fəsad yaranmasına səbəb olacaq hərəkətləri ehtiva edir. Dolayısilə, bir insanı fitnəkar adlandırmaq üçün o, bu sadaladıqlarımızdan bir və ya bir neçəsini etməlidir. Hazırda fitnəkar damğasını vuraraq, xüsusilə yəhudiləri və ya İsraili günahlandırmağa çalışanlar bu ayəyə qəti şəkildə qarşı çıxırlar.

Qurana görə yəhudiləri və ya İsraili bütünlükdə fitnəkar elan etmək haramdır. Hər din mənsubundan və ya xalqdan fitnəkar insanlar çıxa bilər. Ərəblər, türklər və ya müsəlmanlar arasında fitnəkarlar olduğundan ötrü, bütün ərəblərin, türklərin və ya müsəlmanların fitnəkar adlandırılmayacağı kimi, bütün yəhudi və İsraillilər də fitnəkar adlandırmaq səhv olar. Qurana görə bir müsəlman, bir yəhudinin evində yemək yeyə bilər, evinə qonaq gedə bilər, onunla dost ola bilər, hətta onunla evlənə də bilər. Qurana görə müsəlmanın musəvinin yeməyindən yeməsi, onunla dostluq etməsi, hətta onunla evlənməsi halaldır. (Bu mövzu kitabın ayrı bir hissəsində ətraflı şəkildə izah edilir). Vəziyyət belə olduqda, bir müsəlman bir yəhudini qeyd-şərtsiz fitnəkar adlandıra bilməz. Bu iddia ilə ortaya çıxanlar daha əvvəl bildirdiyimiz kimi, Qurandan tamamilə xəbərsiz, fitnə məsələsində yəhudilərlə bağlı saysız-hesabsız saxta hədisin təsiri ilə böyümüş cahil insanlardır. Qeyd olunan hədislərə və Qurana görə Kitab əhlinin mövqeyinə, sonrakı fəsillərdə ətraflı olaraq toxunulacaqdır.

*Nisa surəsinin 89, 90 və 91-ci ayələrinin təhlili*

**Onlar özləri inkar etdikləri kimi, sizin də inkar edib onlarla eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə onlardan özünüzə vəli (dost) tutmayın. Əgər yenə üz çevirsələr, onları harada görsəniz, tutub öldürün. Onlardan nə bir vəli (dost), nə də bir köməkçi tutun. (Nisa surəsi, 89)**

**<u>Ancaq sizinlə aralarında müqavilə olan bir camaata qoşulanlar, ya da sizinlə və ya öz camaatı ilə vuruşacaqlarından köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr toxunulmazdır.</u> Əgər Allah istəsəydi, onları sizə qarşı qaldırardı və onlar da sizinlə vuruşardılar. <u>Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, artıq Allah sizə, onların əleyhinə olan bir şey etməyə yol verməz.</u> (Nisa surəsi, 90)**

**Siz bir başqalarına da rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istəyərlər. Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar. Əgər onlar sizdən aralanıb geri çəkilməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onlara harada rast gəlsəniz, tutub öldürün. Biz onlara qarşı sizə açıq-aydın dəlil verdik. (Nisa surəsi, 91)**

Bu ayələrdə münafiqlərdən bəhs edilir. Münafiq; müsəlman olduğunu deyən, müsəlman kimi görünən, əslində isə, Allaha və İslama düşmən olan, müsəlmanları arxadan vurmağa çalışan insandır. Allah münafiq kimi ölənləri alçaldaraq onları Cəhənnəmin ən alt təbəqəsinə salacağını bildirir. Aydındır ki, münafiq, ikiüzlü və xain rəftarından ötrü nə inkarçılara, nə də müşriklərə bənzəyən, olduqca təhlükəli və alçaq bir insan modelidir.

Müsəlmanları yarı yolda qoyan və onların da özləri kimi inkar etmələrini arzulayaraq, bu yöndə çalışan münafiqləri dost tutmaq Nisa surəsinin 89-cu ayəsinə görə qadağan edilmişdir. "Əgər yenə üz çevirsələr" ifadəsindən, münafiqlərlə vuruşmağın, ancaq onlar feli hücuma keçdikləri vaxt qanuniləşdiyini anlayırıq. Bunu növbəti ayədən də anlamaq mümkündür. 90-cı ayədə keçən; **"əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr"** ifadəsindən də aydın olduğu kimi, hücum etməyən bir qövmün əleyhində bir yol yoxdur. Aydındır ki, müsəlmanlara qarşı müharibə başlatmış qövmü öldürmək barədə izin verilir. Yenə bu ayədə açıq şəkildə, müsəlmanlara, hücuma uğradıqları vaxt özlərini müdafiə etmə haqqının verildiyi aydın olur.

Bununla yanaşı, Nisa surəsinin 90-cı ayəsi Quranın ədalətli, bağışlayıcı, şəfqətli və daim sülh tərəfdarı üslubuna gözəl bir nümunədir. O vaxta qədər müsəlmanları xaincəsinə arxadan vurmalarına, xainlik etmələrinə baxmayaraq, münafiqlərin bir qisimi; **"ancaq sizinlə aralarında müqavilə olan bir camaata qoşulanlar, ya da sizinlə və ya öz camaatı ilə vuruşacaqlarından köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr toxunulmazdır"** ayəsinin hökmünə görə, müsəlmanlara qarşı sülhsevər münasibət göstərdikləri üçün toxunulmazdırlar. Allah eyni ayədə; **"əgər Allah istəsəydi, onları sizə qarşı qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, artıq Allah sizə, onların əleyhinə olan bir şey etməyə yol verməz"** ayəsi ilə onların toxunulmazlığını bir daha xatırladır. Bu, sözün əsl mənasıyla ədalətdir.

Necə ki, 91-ci ayədə də eyni şərtləri ehtiva edən vəziyyət təsvir olunur. Həmin bu vəziyyətdə, vuruşmaq istəmədiklərini söyləyərək peşman olan münafiqlərin bir qismi yenidən fitnə törətmiş və yenidən müsəlmanlara hücum etməyə başlamışdırlar. Məhz bu vəziyyətdə, Quranda müharibə ilə bağlı hökm bir daha xatırladılır və hücum etmədikləri müddətcə onlara toxunulmaması, lakin hücum etdikləri vaxt müdafiə vəziyyətinə keçilməsi bildirilir.

Yenə burada, ayədə təsvir edilən vəziyyətin, Uhud döyüşü vaxtı yaranan xüsusi vəziyyət olduğu və döyüşdə dönük çıxan münafiqlərlə bağlı olduğunu da xatırlatmaq lazımdır.

*Tövbə surəsinin 5-ci ayəsinin təhlili*

**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onların bütün keçid yerlərini tutun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir. (Tövbə surəsi, 5)**

Bu ayədə qeyd olunan şərtləri anlamaq üçün, Tövbə surəsini 1-ci ayəsindən başlayaraq oxumaq lazımdır. Bu təqdirdə, bütün müşriklərin deyil, yalnız müsəlmanlara azğıncasına hücum etmiş, sonra isə haram aylarda döyüşməmək üçün **özləriylə müqavilə bağlanılmış** müşriklərin cavab hücumuna layiq olduqlarını anlayarıq. Bunlar; **müsəlmanlarla ədalətli saziş bağlamalarına və onların haram aylarda döyüşməyəcəklərini yaxşı bilmələrinə baxmayaraq,** müsəlmanları qəfildən ələ keçirməyə və onlara hiyləgərcə yaxınlaşmağa çalışmış, haram aylarda təcavüzkar hücumlarını davam etdirmiş və müsəlmanların canına qəsd etmiş müşriklərdir.

Məhz bu hallar yarandıqda bu ayənin hökmü ilə müsəlmanlara, edilən vəhşicəsinə hücumlar qarşısında özlərini müdafiə etmək hüququ verilmişdir. Ayədən də aydın olduğu ki, azğın müşriklərin hücumlarını haram aylarda da davam etdirməsinə baxmayaraq, müsəlmanlar Allahın əmri ilə, bu hücumlara qarşılıq verməmiş, səbir göstərmiş və haram aylar bitdikdən sonra özlərini müdafiə etməyə başlamışdırlar. Ayədə yenə müdafiə olunmağın üsullarını görürük: əsir götürmək, mühasirəyə almaq və bütün keçid yerlərini tutmaq. Beynəlxalq hüquq çərçivəsində aparılan müharibələrdə də, ilkin mütləq şərtlər mühasirəyə almaq və əsir götürməkdir. Qarşı tərəfi mühasirəyə almaq üçün bütün keçid yerləri tutular və beləliklə də, irəliləməsinin qarşısı alınar. Dolayısilə bu ayədə, hazırda beynəlxalq hüquq normalarına görə tətbiq olunan və haqlı hesab edilən üsul təsvir edilmişdir. Ayədə də hazırda beynəlxalq hüquq normalarına uyğun gələn üsul təsvir edilir. Aradakı tək fərq, burada müsəlmanların hücuma keçməmələri, onların yalnız və yalnız özlərinə hücum edənləri dayandırmağa çalışmalarıdır.

Yenə eyni ayəyə görə, hücumdan əl çəkib tövbə edənlərə qarşı hər hansı bir döyüş əməliyyatının aparılmalı olduğundan söhbət getmir. Onlar sərbəst buraxılırlar.

Sözügedən ayədən sonrakı ayəyə baxanda isə Quranın həqiqi sevgi və himayədarlıq ruhundan bəhs edən əhəmiyyətli bir açıqlama ilə qarşılaşarıq... Bir sonrakı ayədə isə

Quranın həqiqi sevgi və qoruyuculuq ruhundan bəhs edən açıqlama ilə qarşılaşırıq. Məhz bu ayə, İslam əleyhdarlarının müsəlmanlara istiqamətli bu mövzudakı bütün iddialarını yox edən bir ayədir:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün təhlükəsizlik içində olacağı yerə çatdır. Çünki onlar haqqı bilməyən bir qövmdür. (Tövbə surəsi, 6)**

Bu ayə ilə müsəlmanlara, onlara sığınan və aman diləyən bir müşrikə "öz canlarını təhlükəyə ataraq" kömək etmələri nəsihət edilir. Belə ki, ayəyə görə müsəlman müşriki qorumaq üçün **özünü sipər edir**. Digər bir sözlə, bir müsəlman Allahı inkar edən şəxsin canını qoruya bilmək üçün, öz canını təhlükəyə ataraq, onu təhlükəsiz içində olacağı yerə çatdırmaqla məsuldur.

Bu, Quranın hökmüdür. Qurana görə bir insan Allaha inanmadığı üçün "öldürülmür", əksinə, müsəlmanların canı bahasına qorunur. Dolayısilə döyüşmə səbəbinin, qarşı tərəfin Allaha inanıb inanmamasıyla və ya başqa dinə mənsub olub olmamasıyla heç bir əlaqəsi yoxdur. Döyüşmə səbəbi, qarşı tərəfin hücuma keçib işgəncə verməsi, cana qəsd etməsidir.

Ayənin işarə etdiyi digər bir həqiqət isə, hücuma keçmədikləri, azğınlıq edib həddi aşmadıqları müddətcə; din, dil, millət, inanc ayrı-seçkiliyi edilmədən bütün insanların müsəlmanlar tərəfindən himayə olunmasının zəruriliyidir. Bir müsəlman din qardaşını qoruduğu kimi, kitab əhlini, hətta ateisti, kommunisti belə qorumalıdır. Bu, Quranda verilən müsəlman tərifidir. Bir insan "mən müsəlman" deyirsə, himayəçi olmaq məcburiyyətindədir.

*Tövbə surəsinin 13-cü ayəsinin təhlili*

**Məgər siz <u>andlarını pozan, elçini qovmağa cəhd edən, özləri də sizinlə döyüşü birinci başlayan</u> bir camaatla vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər inananlarsınızsa, daha çox Allahdan qorxmalısınız.**

**(Tövbə surəsi, 13)**

Bu ayə, Quranda müharibənin şərtlərini izah edən ayələrdən biridir. Müsəlmanlarla razılaşma əldə etmiş və razılaşmanın şərtlərinə görə onlarla sülh içində yaşayan müşrik cəmiyyət daha sonra razılaşmanı pozaraq fitnə-fəsad və təcavüzkarlıq törətməyə

başladıqlarında; Peyğəmbərimiz (s.ə.v)-i yaşadığı yerdən sürgün etməyə cəhd etdiklərində və ayədə də açıq şəkildə bildirildiyi kimi, **döyüşü birinci başlatdıqlarında,** müsəlmanlar onlara qarşı döyüşmək haqqı əldə edir.

*Maidə surəsinin 33-cü ayəsinin təhlili*

**Allaha və Onun Elçisinə qarşı müharibə başladanların və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası, ancaq öldürülmək və ya asılmaq, ya əlləri və ayaqlarını çarpazvari kəsmək və yaxud da yaşadıqları yerdən sürgün edilməkdir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir. (Maidə surəsi, 33)**

Müharibə ilə bağlı bütün ayələrdə toxunduğumuz xüsus bu ayədə də diqqət çəkməkdədir. Burada başlatdığı müharibəyə cavab verilməsi lazım olan qövmün xüsusiyyətləri ətraflı şəkildə bildirilir: **Allaha və Elçisinə qarşı müharibə başladanlar və yer üzündə fitnə-fəsad törədənlər.** Aydın olduğu kimi, bu insanlar təkcə müsəlmanlara hücum etməyə cəhd etmir, eləcə də, bütün dünyada fitnə-fəsad törədirlər. Yəni ayədə bütün dünya üçün təhlükə hesab edilən, hər kəsin fitnəkar kimi tanıdığı azğın və savaşqan bir qövmdən bəhs edilir.

Müsəlmanlara qarşı müharibə başlatmış bir qövmə müqavimət göstərərkən (bütün müharibələrdə olduğu kimi), məcbur qaldıqda onları öldürmək və ya yerlərindən sürgün etmək də mümkündür.

Digər bir sözlə, Quran ayələrinə görə müsəlmanlara, normalda haram olan hərəkətləri (adam öldürmə və sürgün etməyi) yalnız belə bir döyüş vəziyyətində etmələri izin verilmişdir.

*Ənfal surəsinin 57-ci ayəsinin təhlili*

**Buna görə də, əgər döyüşdə onları yaxalasan, elə darmadağın et ki, həm onları, həm də arxalarından gələcək kimsələri (qorxut). Bəlkə ibrət alarlar. (Ənfal surəsi, 57)**

Bu ayəni də daha əvvəl ətraflı şəkildə və sübutlarla verdiyimiz məntiq çərçivəsində qiymətləndirmək lazımdır. Peyğəmbərimiz (s.ə.v)-ə bəzi ayələrin nazil edildiyi Mədinə

dövrünün, qanlı müharibələr dövrü olduğu unudulmamalıdır. Bu dövr, yalnız və yalnız; **"onlar ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə haqsız yerə yurdlarından çxarıldılar..." (Həcc surəsi, 40)** ayəsində bildirildiyi kimi, müsəlmanlara edilən haqsız zülmlər nəticəsində yaşanmışdı. Üstəlik yenə bildiyiniz kimi müsəlmanlar; **"əgər geri çəkilsələr, sizinlə vuruşmasalar və sülh şərtlərini sizə həvalə etsələr, onda Allah sizin üçün onların əleyhində bir yol yaratmaz"** ayəsinin əmri ilə qarşı tərəf müharibəyə son qoyduğu təqdirdə, müharibəni dayandırmaq və onların əleyhinə hər hansı bir şey etməməklə məsuldurlar.

Ənfal surəsinin 57-ci ayəsindən bir neçə ayə əvvələ nəzər yetirsək, o dövrdə müsəlmanlarla müqavilə bağlayan qövmlərdən bəhs edildiyini görərik. Müdafiə olunmağa izin verən demək olar ki, hər Quran ayəsində xüsusilə qeyd edildiyi kimi, bu qövmün də "bağladıqları müqaviləni pozan" və dolayısilə dərhal hücuma keçən bir qövm olduğu bildirilir.

Aramsız hücumlar edən, heç bir söz dinləməyən və daim sülh müqavilələrini pozaraq fitnə-fəsad törədən bu qövmü qorxudub, onları bu əməllərindən çəkindirmək əhəmiyyətlidir. Çünki belə olduqda, həm fitnə-fəsad törətməyi vərdiş halına gətirmiş həmin bu qövmlərin gücü, həm də onların arxasınca fitnə-fəsad törətməyə və hücuma keçməyə hazırlaşan başqa müşrik qövmlərin cəsarətləri buna çatmaz. Bu, bağlanılan bütün müqavilələri pozaraq müharibə başladan qövmə qarşı alınacaq zəruri, əhəmiyyətli və sonrakı müharibələrin qarşısını alacaq bir tədbirdir. Demək olar ki, bütün dünya ölkələrinin konstitusiyasında və beynəlxalq hüquq normalarında bütün cəzaların "çəkindirici" olmasına əhəmiyyət verilir. Buradakı məqsəd, bir cinayətin eyni insan və ya digər insanlar tərəfindən işlənməsinin qarşısını almaqdır. Beynəlxalq hüquqda bu tədbirlərin alınmasını olduqca yerində və hüquqi dövlətlər üçün zəruri hesab edənlərin, İslamdan söz açıldıqda bunu əleyhdə qiymətləndirməyə təşəbbüs etmələri ədalətə, sağlamfikirə və həqqaniyyətə uyğun deyil.

*Məhəmməd surəsinin 4-cü ayəsinin təhlili*

**Döyüşdə inkar edənlərlə qarşı-qarşıya gəldiyiniz zaman, dərhal boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflədərək qələbə qazandığınız vaxt, əsirlərə bağladığınız kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Belə ki, müharibə sona çatsın. Bax belə! Əgər Allah istəsəydi, onlardan döyüşsüz də intiqam alardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək üçün belə etdi. Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz. (Məhəmməd surəsi, 4)**

Digər ayələrdə olduğu kimi bu ayədə də diqqət çəkən məqam, müharibə mühitinin olmasıdır. Müqavilə pozulmuş, müşriklər hücuma keçmiş və bu hücuma cavab verməkdən başqa bir çıxış yolu qalmamışdır. Bu ayədə beynəlxalq müharibə hüququnun tərifi verilir. Üstəlik beynəlxalq müharibə hüququ çərçivəsində, həqiqətdə tətbiq olunmayan bir üsulun tətbiq olunduğu görülür və müharibə sona çatdıqdan dərhal sonra əsirlər sərbəst buraxılır. Halbuki hazırda Əfqanistana edilən müdaxilənin başa çatmasına baxmayaraq, müharibədə ələ keçirilən əsirlər hələ də Quantanamo həbsxanasında saxlanılır və BMT, NATO kimi təşkilatlar bu vəziyyəti normal qarşılayır. Lakin bu hüquq norması Qurana görə normal qəbul edilmir. İslama görə müharibənin tam başa çatması üçün əsirlər mütləq azad edilməlidir.

Müharibə ilə bağlı ayələrdə o dövrdəki vəziyyət və şəraitin tələbi ilə baş vermiş müdafiə döyüşlərinin təsvir edildiyi və bu döyüşlərin hücuma keçən azğın, təcavüzkar və fitnəkar müşriklərə və münafiqlərə qarşı aparıldığı açıqdır. Bu ayələrin, səhv şərh edilərək, radikalların nifrət və qəzəb siyasəti yürütmələri üçün istifadə olunmasındakı ən böyük səbəb, yüzlərlə saxta hədisin İslama daxil edilməsi və bir qisim təfsirçilərin də sahib olduqları yanlış baxış bucağıdır. Halbuki Quran, İslama sonradan əlavə edilmiş saxta hədislər və mövhumatlar nəzərə alınmamaqla, açıq və aydın bir zehinlə oxunmalıdır. O dövrdəki müharibə şəraiti nəzərə alınaraq oxunulduğu təqdirdə, bu ayələrin verdiyi mənalar olduqca açıq görülər.

## ✓İslamda müharibə etmək üçün səbəb yoxdur

İslamın müharibə dini olduğunu iddia edənlər, təməldə belə bir yanaşmanın, İslam təlimləriylə tamamilə ziddiyyət təşkil etdiyini bilməlidirlər. Quranda qarşı hücuma etmək üçün heç bir səbəb göstərilməmişdir. Quran demokratiya və azadlığın ən mükəmməl tərifini verər. Demokratiya və azadlığın hakim olduğu mühitdə isə, qarşı tərəfi düşmən elan etmək və ya onu susdurmağa çalışmaqdan söhbət gedə bilməz. Çünki belə bir mühit, hər insana hörmətlə yanaşılan və hər kəsin rahatlıqla danışdığı sərbəst bir mühitdir. İslam şəriəti məhz bu mühiti təsvir edir. Dolayısilə, Quranda müharibə etmək üçün heç bir səbəb yoxdur. Bu həqiqəti Quran ayələri ilə izah edək:

## ✓Müharibə, İslamı zorla qəbul etdirmək üçündürmü?

Müharibə, güc tətbiq etmə, zorla qəbul etdirmə və ya təzyiq üsullarından istifadə edərək bir insana İslamı qəbul etdirməyə çalışanlar Qurana xəyanət edərlər. Qurandakı ən açıq hökmlərdən biri "dində əsla məcburiyyətin olmamasıdır":

**Dində məcburiyyət yoxdur... (Bəqərə surəsi, 256)**

Bu açıq ayə Quran hökmüdür. Heç bir müsəlman bu hökmü qulaq ardına vuraraq bir insana dindar olması üçün təzyiq göstərə bilməz. Bu Quranda qadağan olunmuşdur.

Peyğəmbərimiz (s.ə.v) yalnız nəsihətçi olub. O, təbliğ etmək və sonuncu haqq din olan İslamı insanlara tanıtmaqla məsul idi. O dövrdə İslam dinini Peyğəmbərimiz (s.ə.v) və digər müsəlmanların ağzından eşidənlərin bəziləri iman gətirmiş, bəziləri isə gətirməmişdilər. Qurandakı aydın hökmə görə, Peyğəmbərimiz (s.ə.v) və yanındakı müsəlmanlar qətiyyən təzyiq üsuluna əl atmamışdırlar. Quranda Peyğəmbərimiz (s.ə.v)-ə; **"Sən yalnız bir nəsihətçi və bir xatırladıcısan. <u>Onlara güc və təzyiq göstərəcək deyilsən</u>" (Ğaşiyə surəsi, 21-22)** ayəsi ilə, bu həqiqət bir daha xatırladılmış və təzyiq göstərməsi qəti şəkildə qadağan olunmuşdur. Qurana görə bütün müsəlmanlar İslam əxlaqını tanıtmaqla məsuldurlar. Lakin heç kimə müsəlman olması, dindar olması və ya ibadətlərini yerinə yetirməsi üçün təzyiq göstərə bilməzlər. Quranın məqsədi dünyaya sevgi və hüzur gətirməkdir. Dolayısilə belə bir təzyiq mühitinin yaşanmasının, Qurana uyğun olmadığı açıqdır.

Quranda təzyiqin açıq şəkildə qadağan olunduğu bəzi ayələr bunlardır:

**De: "Haqq Rəbbiniz tərəfindəndir. <u>Kim istəyir inansın, kim də istəyir inanmasın</u>"... (Kəhf surəsi, 29)**

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. <u>İnsanları mömin olmağa sənmi məcbur edəcəksən</u>? (Yunis surəsi, 99)**

**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**

**Sən yalnız bir nəsihətçi və bir xatırladıcısan. Onlara güc və təzyiq göstərəcək deyilsən. (Ğaşiyə surəsi, 21-22)**

**De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 1-6)**

Güc tətbiq etmə və təzyiq göstərmə Quranda qadağan olduğu üçün, müharibə, hücum, düşmənçilik və qəzəb kimi şeylərə də əsas yoxdur. Əgər dini təzyiq yoluyla qəbul etdirmək haramdırsa, onda müsəlmanlar müşrikləri nəyə məcbur etsinlər ki? Dolayısilə, Quranda bildirilən İslam dininə görə, müharibə İslamı qəbul etdirmək üçün heç vaxt bir əsas ola bilməz.

## ✓Müharibə, ideoloji və ya etnik üstünlük təmin etmək üçündürmü?

İslamda bütün ideologiyalara, dinlərə, millətlərə, etnik qruplara, fikirlərə qarşı hörmətlə yanaşmaq əmr edilir. İslam, bütün fikirlərin dinləndiyi, fikir azadlığının geniş şəkildə yaşandığı bir dindir. Quranda fikir və söz azadlığına böyük əhəmiyyət verilir. **Belə bir demokratiya anlayışı və azadlığın olduğu bir dində, fikir ziddiyyəti və ya etnik münaqişədən ötrü müharibə baş verməsi, əlbəttə ki, qeyri-mümkündür.**

## ✓Müharibə, müsəlman bir liderin gətirəcəyi İslam qanunlarını yaymaq məqsədinimi daşıyır?

Daha əvvəl ətraflı şəkildə açıqladığımız kimi, Qurana görə müsəlman bir lider, liderlik etdiyi cəmiyyətdəki xristianların, yəhudilərin, ateistlərin, kommunistlərin, aqnostiklərin, buddistlərin və digər bütün insanların fikir və ideologiyalarına hörmətlə yanaşmalıdır. Sözün əsl mənasıyla fikir azadlığını mənimsəməlidir. İnsanlara tam azadlıq verməlidir. Azadlıq olmayan cəmiyyətdə döyüşlər, qarışıqlıqlar, təhqir halları yaranar, ikiüzlü insanlar ortaya çıxar. Bütün bunların qarşısını almalı və Quranın tələbini yerinə yetirməlidir. **"Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun..." (Nisa surəsi, 135)** ayəsinin hökmü ilə insan inanc, nəsil fərqi qoymadan, öz əleyhinə olsa belə, ədaləti qorumaqla məsuldur.

## ✓Müharibə, düşmənlərin yox edilməsi üçündürmü?

İslam dinində necə “düşmən” məhfumu ola bilər? İslam dini bütün insanların bərabərhüquqlu və qardaş olmasını tələb edən bir dindir. İslam dininə görə insan, rəngindən, dilindən, dinindən, irqindən, vətənindən və sosial vəziyyətindən asılı olmayaraq, hər şeydən əvvəl insan olduğu üçün hörmətə layiq varlıqdır. Bütün haqq dinlərdə bildirildiyi kimi, bütün insanlar hz. Adəmin (ə.s)-ın övladları olub, qardaşdırlar. Dindarlığın tələblərindən biri qardaş olmaqdır.

İslam, irq üstünlüyü fikrinə əsaslanan, insanları inkişaf etmiş və ibtidai olaraq iki yerə ayıran bütün faşist meyilli ideologiya və fikirlərə, materialist və darvinist düşüncələrin əleyhinədir. Dolayısilə İslamda, bu azğın ideologiyaların özü ilə gətirdiyi qarşıdurma, mübarizə və müharibə anlayışları da olmayıb, əksinə bunlara qarşı elmi və fikri mübarizə aparılmaqdadır.

Hər insanın hörmətə layiq olduğuna dair İslam dinindəki qanun, insanlar arasındakı bütün münasibətlərin təməlini formalaşdırır. İslama görə yanlış hərəkətlərə yol verən insan belə hər zaman potensial yaxşılıqlara yönələ bilər. Dolayısilə, əsl müsəlmanın kiməsə düşmən olması qeyri-mümkündür. Hər bir müsəlman insanlara şəfqətlə yanaşmaq və onlara gözəl əxlaqı öyrətməklə məsuldur, düşmən qəbul edib onları satmaqla deyil.

Quran ayələrində insanlara “Adəm oğulları” deyə müraciət edilməsi bütün insanların bərabərhüquqlu yaradıldıqlarını göstərir:

**Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik. (İsra surəsi, 70)**

Müharibə etmək üçün səbəb göstərməyən bir dinin, müharibə dini kimi qələmə verilməsi, yalnız mövhumatçıların tətbiqlərindən qaynaqlanır. Dünyadakı bəzi insanlar, İslam ilə əlaqəli bu məlumatları bilmədikləri və yalnız radikalların tətbiqlərinə şahid olduqları vaxt, İslam haqqında çox yanlış fikirlərə qapılırlar. Radikal zehniyyətə sahib insanların Qurandan kənar başqa hökmləri tətbiq etdiklərindən və əslində İslamdan kənar başqa bir dini mənimsədiklərindən xəbərsizdirlər. Onsuz da bu kitabla, məhz bu mövzuya aydınlıq gətirməyə çalışırıq.

## ✓Kimlər müharibə olmasını istəyir?

İslam adından böyük kütlələri istiqamətləndirən bəzi dırnaqarası alimlərdən bəhs edərkən, əhəmiyyətli bir nöqtəni də xatırlatmaq lazımdır: Silah sektoru, bəzi mərkəzlər üçün daim fəaliyyətdə saxlanılması lazım olan bir sektordur. O, iqtisadi böhranın təsir etmədiyi yeganə sektordur. Ərz və tələbin azalmadığı, daim ən yenilərinin satışa çıxarıldığı fəal bir sektordur. Niyə fəal sektordur? Çünki müharibələr davam etdirilir. Müharibələrin davam etdirilməsinin bir neçə üsulundan biri isə; öz dinini müharibə dini hesab edən, buna görə də ölməyə və öldürməyə hazır olan cahil xalq kütləsinin qızışdırılmasıdır. Əlbəttə, bu xalq kütləsinin İslam adından ortaya çıxan radikallar olduğunu anlamaq çətin deyil.

Bəzi yeni mühafizəkarlar (neokonların) və Qərbdəki digər islam əleyhdarları vəhşətin radikallar tərəfindən dünyaya yayıldığını deyərkən haqlıdırlar. Ancaq bu insanlar, Üsamə bin Laden kimi bəzi liderlər barədə yanlış məlumatlara sahibdirlər. Adətən belə dırnaqarası liderlər, İslam və müsəlmanlıqla əlaqəsi olmayan, lakin müxtəlif kəşfiyyat orqanlarının nəzarətində saxlanılan kəslərdir. Bir mühitdə qarışıqlıq çıxardılması, bir yerdə müharibə başladılması lazım olduqda dərhal fəaliyyətə keçərlər. Qərb ölkələrinin barlarında, kafelərində vaxt keçirərkən, əmr gələn kimi saqqal buraxar, geyimlərini və üslublarını dəyişdirər, tipik bir Orta Şərq insanı görünüşünə bürünər və illərlə öyrəndikləri mövhumatları tətbiq etmək üçün fəaliyyətə keçərlər.

Bu şey, dünyada bir çox dəfə həyata keçirildi. Üsamə bin Laden isə, sadəcə bunu edənlərdən biri idi. Müsəlmanların Peyğəmbərimiz (s.ə.v)-in axırzamana aid ən böyük müjdəsi olan hz. Mehdinin (ə.s) gəlişinə bəslədiyi səmimi ümidlərindən istifadə edərək bin Ladeni hz. Mehdi (ə.s) kimi təqdim etməyə çalışdılar. Bir çox insanı buna inandırmağa çalışdılar. Bin Ladenlə başladılan əməliyyat təkcə Əfqanistana deyil, bütün müsəlman aləminə zərbə vurdu. Ssenarinin sonunda isə bin Ladenin ölü bədəninin görüntüləri yayılmalı idi. Bu, planın, bəlkə də, ən mühüm hissəsi idi. Plana görə müsəlman aləmi Mehdinin öldüyünü görəcək və bütün ümidlərini itirəcəklərdi. Bu, İslam aləminin zəifləməsi və daha çox istismar edilməsi hazırlanmış sistemli bir ssenari idi.

Radikal zehniyyətin nümayəndələri, əlbəttə ki, bu məsələdə təqsirkardırlar, amma onları dəstəkləyən bəzi mərkəzlər də görməzlikdən gəlinməməlidir. Silah sənayesi bu qədər güclü və gəlirli sahə olduğuna görə, müharibənin daim kiməsə faydası olar. Müharibəyə təşviq edilənlər əsasən radikallar, öz zalım əməlləri üçün buna ehtiyac duyanlar isə, bütün bunları idarə edənlərdir. Bu idarəçilər üçün, müharibəyə hazır cahil qruplar, tamamilə biçilmiş kaftandır. Asanlıqla müharibəyə  daxil ediləcək piyadalardır.

Radikallardan şikayətlənən amerikalılar və ya avropalılar, bu idarəçilərin onların lap yaxınlığında olduğunu unutmamalıdırlar. Bu fakt, əlbəttə, radikalların və mövhumatçıların pəncəsinə düşmüş və məzhəblərə ayrılaraq bir-birinə düşmən kəsilmiş insanların günahını

yüngülləşdirmir. Lakin yenə də bu mühüm həqiqət görməzlikdən gəlinməməlidir. Necə ki, müsəlman ölkələrdə açıq şəkildə üsyanlar və nümayişlər təşkil edən və bunları idarə edən müxtəlif təşkilatlar bu hədəflərini açıq şəkildə dilə gətirməkdən çəkinmirlər.

## ✓Fəslin sonu

Bu fəsildə İslama qarşı iddia olaraq, dəlil kimi irəli sürülən Qurandakı müharibə ayələrininin izahlarını və həqiqi İslam dininə görə müharibə və cihad anlayışlarının nə olduğunu araşdırdıq. Sonrakı fəsillərdə isə fanatiklərin dininin mənbəyindən bəhs ediləcək. Uydurma hədislər əsasında meydana gətirilən yeni din anlayışlarının Quranla necə ziddiyyət təşkil etdiyi göstəriləcək. Fanatiklərin müharibə, nifrət və qəzəb tələb edən dinlərinin əsl İslam dini ilə heç bir əlaqəsinin olmadığı bütün dəlilləri ilə izah ediləcək.

# II FƏSİL

## ✓Fanatiklərin saxta dini

Quranın hökmlərini ən mükəmməl tətbiq edən və bütün həyatı boyu Qurana uyğun yaşayan Peyğəmbərimiz (s.ə.v) müsəlmanlar üçün ən gözəl nümunədir. Şübhəsiz ki, bütün tətbiqləri və sözləri, Quranla tam uyğunluq təşkil edir və bunlardan dövrümüzə gəlib çatanlar. Hədis adlandırılan bu sözlərin bir hissəsi, Quranda bildirilən tətbiqləri əks etdirir. Buna görə də, bunların Peyğəmbərimiz (s.ə.v)-ə aid olduğu aydındır və doğrudur. Xüsusilə axırzamana işarə edən hədislərin bir çoxu heç dəyişmədən qalmış və onlarda gələcəkdə baş verəcək qeyri-adi hadisələrdən xəbər verilmişdir. Həmin bu hədislərdə bildirilənlər yaşadığımız dövrdə bir-bir gerçəkləşir. 1400 il əvvəl xəbər verilən Lulin quyruqlu ulduzunun dünyanın yaxınlığından keçməsi, Əfqanistanın işğalı, İraq müharibəsi, 11 sentyabr hadisələri kimi bəşər tarixində yalnız bir dəfə yaşanmış hadisələr reallaşmışdır. (Ətraflı məlumat üçün baxın: "Hz. İsa (as) ve Hz. Mehdi (as) Bu Yüzyılda Gelecek, Harun Yahya, Global Nəşriyyat). Dolayısilə Peyğəmbərimiz (s.ə.v)-in verdiyi müjdələr bizim üçün olduqca əhəmiyyətlidir və bu, hədislərin səhih olanlarını bir müjdə və nemət hesab etməli olduğumuz, hamısını saxta hədislər kimi xarakterizə edə bilməyəcəyimiz həqiqətini göstərir.

Ancaq bu da bir həqiqətdir ki, hədis kitablarına sonradan əlavə olunmuş, Peyğəmbərimiz (s.ə.v)-in sözləri və sünnəsiylə heç bir əlaqəsi olmayan bəzi məlumatlar hazırkı dövrün hədis kitablarında mövcuddur. Bu sözlərin səhih hədislərdən fərqləndirici xüsusiyyəti, Quranla tamamilə ziddiyyət təşkil etmələridir. Qurana zidd olan sözlər və tətbiqlər, qətiyyən Peyğəmbərimiz (s.ə.v)-ə aid ola bilməz.

Dolayısilə İslam dinindən başqa bir din olan fanatiklərin dinini öyrənərkən hədislər mövzusundakı bəzi həqiqətləri də bilməliyik. Çünki fanatiklərin dini, İslamın yeganə kitabı olan Quranda yoxdur. Bəs bu batil din haradadır?

Fanatiklərin dini ənənələrdə, dildən-dilə keçən mövhumatlarda, böyük bir qismi isə Peyğəmbərimiz (s.ə.v)-ə aid olduğu böhtanıyla, ortaya atılan saxta hədislərdədir.

Quranın endirilməsindən sonra, keçən əsrlər ərzində Peyğəmbərimiz (s.ə.v)-in bəzi tətbiqləri və sözləri hədislər adı altında bir yerə toplanmışdır. Hədislərin hicri 2-ci əsrdən etibarən yazı halına gətirilməyə başlandığı güman edilir. Bu hədislərin bəzilərini qoruyub saxlamaq mümkün olmuşdur. Bəziləri isə səhv köçürülmüş, təhrif edilmiş və ya tamamilə uydurulmuşdur.

Daha əvvəl də qeyd etdiyimiz kimi, bir hədisin həqiqətən Peyğəmbərimiz (s.ə.v)-in sözünü və ya tətbiqini əks etdirib etdirmədiyini bilmək üçün Qurana müraciət etməliyik.

Qurana uyğun gələn və ya gələcəyə aid məlumat ehtiva edib gerçəkləşən bir hədis doğrudur. Amma bu hədis Quranla ziddiyyət təşkil edirsə, onun qətiyyən doğru qəbul edilməyəcəyinə heç bir şübhə yoxdur.

Bəs hədislər bir müsəlmana lazımdırmı? Əvvəla qeyd edək ki, müsəlman üçün tək mütləq mənbə Qurandır və təkcə o müsəlman üçün kifayətdir. Uca Rəbbimizin hökmünə görə hər bir müsəlman yalnız Qurandan sorğu-sual olunacaqdır. Lakin Peyğəmbərimiz (s.ə.v)-in Qurana əsaslanan tətbiqlərini və ya möcüzələrini bilmək, əlbəttə ki, böyük bir nemətdir. Hədislərə tabe olmaq müsəlman üçün fərz deyil, ancaq Peyğəmbərimiz (s.ə.v)-in söz və tətbiqləri, gələcəyə dair verdiyi müjdələr əhəmiyyətli bir yol göstəricidir. Məhz buna görə də, doğru açıqlamanı yanlış açıqlamadan fərqləndirmək və dövrümüzə qədər gəlib çatmış səhih hədisləri müəyyənləşdirib başa düşə bilmək çox əhəmiyyətlidir.

Bəzi İslam cəmiyyətlərinin əsas problemi Quranı tamamilə tərk etmələri və bunun əvəzinə uydurma hədisləri rəhbər tutmalarıdır. Həmin bu uydurma hədisləri “saxta hədislər” başlığı altında nəzərdən keçirəcəyik:

## ✓Fanatiklərin dininə istiqamət verən saxta hədislər

"Saxta hədis" termininin lüğəvi mənası; "hz. Məhəmməd (s.ə.v)-in söyləmədiyi bir sözü yalan və iftira ilə ona aid etmək" deməkdir. Yəni saxta hədis hz. Məhəmməd (s.ə.v)-ə aid olmadığı, onun tərəfindən söylənilmədiyi halda qəsdli surətdə onun sözüymüş kimi qələmə verilən hədisdir.

Kitabın bundan sonrakı hissəsində əsas mövzu, həmin bu saxta hədislərdir. Çünki bu hədislər, hal-hazırkı bəzi müsəlman cəmiyyətlərində Quranın yerini alan və yeni və saxta bir dinin yaranmasının əsas səbəbi olan təməl mənbədir. Bu saxta hədislərin, yəni iftira xüsusiyyətindəki hədislərin ən diqqətçəkici və haqqında ən çox danışılanlarını bir-bir izah edəcək və göstərəcəyik. Bunun səbəbi, batil İslam anlayışının hansı mövhumatlara əsaslandığının insanlar tərəfindən başa düşülməsi və bunun yanlışlığının Quran vasitəsilə göstərilməsidir. Ümid edirik ki, bu sayədə, İslamı səhv tanıyan böyük bir kütlə, fanatiklərin dininin heç də səhv anlaşılmadan ibarət olmadığını, tamamilə saxta bir sistem üzərində qurulduğunu anlaya bilərlər. Həmçinin öz ağıllarınca İslamı və Quranı tənqid etməyə çalışanlar da, səhvə yol verdiklərini, özünü müsəlman adlandıran insanların əksəriyyətinin həqiqi İslam və Quranla, demək olar ki, heç bir əlaqəsinin olmadığını görə bilərlər. Yenə ümid edirik ki, bu açıqlamalar səmimi olub da fanatik zehniyyətin içində yaşamaq məcburiyyətində qalmış, onu yeganə sistem olaraq qəbul etmiş və bunu doğru hesab etmiş insanların da Quranın göstərdiyi haqq yolu görmələrinə vəsilə olacaq.

## ✓Saxta hədislər necə meydana gəldi?

Peyğəmbərimiz (s.ə.v)-dən nəql edildiyi iddia edilən sözlər (hədislər) və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqləri kimi qəbul edilən rəvayətlər, ilk dəfə olaraq onun ölümündən bir neçə əsr sonra qələmə alınıb. Altı məşhur hədis kitabından təşkil olunmuş "Kutubi-Sittəni"nin müəlliflərindən Buxari hicri 256-cı ildə, Müslim 261-ci ildə, Tirmizi 279-cu ildə, Əbu Davud 275-ci ildə, Nəsai 303-cü ildə, İbni Macə isə 273-cü ildə vəfat etmişdir. Şiələrin hədis kitabları isə fərqlidir və bəzi sünnilər və şiələr bir-birlərinin hədis kitablarını qəbul etməzlər. Şiələrin hədis kitabları isə daha gec tarixlərdə meydana gəlib. Tanınmış şiə hədisçilərindən Qulani hicri 329-cu ildə, Babuvay 381-ci ildə, Cəfər Məhəmməd Tusi 411-ci ildə, Əl-Mürtəza isə 436-cı ildə vəfat etmişdir.

Tarixi mənbələrdən və əlimizə gəlib çatan ilk hədislərdən, Peyğəmbərimiz (s.ə.v) və dörd xəlifənin dövründə heç bir yazılı hədisin olmadığı aydın olur. Bu barədə Ənsari belə yazır: *"Nə səhabələr (Peyğəmbər (s.ə.v)-i görənlər), nə də tabiinlər (Peyğəmbər (s.ə.v)-i görməyən, lakin səhabələri görənlər) hədis yazardı. Lakin onları şifahi şəkildə nəql edirdilər. Yalnız və yalnız bir neçə bəsit, yazılı mətndən başqa heç bir hədis yox idi. Hədislərin itib batmaması üçün Ömər ibn Əbdüləziz məktub yazaraq Əbu Bəkir əl-Hazmaya hədisləri araşdırıb yazmağını əmr etdi".* Yezid ibn Əbdülməlik isə Ömər ibn Əbdüləzizin vəfatından sonra Əbu Bəkir əl-Hazmanı və onunla birgə çalışanları bu vəzifədən uzaqlaşdırdı. Sonrakı xəlifə Şihab əz-Zuhri isə, hədisləri toplayan ilk şəxs kimi qəbul edilir. Bu da Peyğəmbərimiz (s.ə.v)-in ölümündən 2-3 əsr sonraya təsadüf edir.

Buxariyə qədər, doğruluq dərəcəsinə görə hədislərin təsnifatını aparmaq məqsədiylə heç bir səy göstərilməmişdir. "Səhih" və "zəif" olaraq hədisləri təsnif etmə səyi Buxari ilə başlayır. Hədislər araşdırıldıqda isə, bu cəhdin lazımi nəticəni vermədiyi aydın olur. Nəinki zəif, hətta tamamilə saxta hədislər İslam adı altında yayılmış və sayları getdikcə çoxalmışdır.

O dövrdə bu vəziyyətin qarşısını almaq mümkün olmamışdır. Çünki Peyğəmbərimiz (s.ə.v)-in vəfatından hədis kitablarının yazılmasına qədər 6-7 nəsil yaşamışdır və iddiaya görə, məşhur hədis kitabları, bunları bizə, 6-7 nəfərin bir-birinə ötürməsini bildirərək çatdırır. Həmin bu hədislər nəql ediləndə, Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı nəsildən, sonrakından sonrakı nəsil belə artıq vəfat etmişdi. Yəni hədisçilərin, hədisləri nəql edən şəxslərin düz danışıb-danışmadıqlarını yoxlamaq üçün lazımi kimsələr həyatda yox idi.

Hədis alimləri də bu vəziyyətdən xəbərdardırlar. Müslim, səhih, yəni mütləq doğru olduğu qənaətinə gəldiyi hər hədisi kitabında qeyd etmədiyi söyləmişdir (Müslim, I cild). *"Hədislər dinin mənbəyidir"* deyən Buxari isə 600 min hədis bilməyinə baxmayaraq, bunların yalnız 6-7 minini, yəni 1%-ni kitabında qeyd etmişdir. Geridə qalan 99%-nin isə etibarlı olmadığına qənaət gətirib kitabında eyd etməmişdir. Dolayısilə buradan, bütün İslam aləmi üçün hədislərin müəyyən şəxslərin qənaətinə görə seçilib üzə çıxarılmış olduğu

nəticəsi çıxır ki, bu da hədisləri dini mənbəyi qəbul edənlər üçün qorxulu vəziyyətdir. Çünki başqaları üçün səhih olan, lakin Müslimin lazımsız hesab edərək kitabında qey etmədiyi hədisləri onlar heç vaxt öyrənə bilməyəcəklər. Xatırladaq ki, bütün bu proses davam edərkən, İslamın səhih, qorunmuş və dəyişməmiş müqəddəs kitabı Qurani-Kərim tərk edilmiş vəziyyətdədir.

Misirli mütəfəkkir Əhməd Əmin hədis saxtakarlığının dərəcəsini göstərən belə bir şeyi müəyyənləşdirmişdir:

*“Qəribədir ki, əgər hədisləri izahlı şəkildə ələ alsaq, piramida formasında olduqlarını görərik. Piramidanın təpəsi Allahın elçisinin yaşadığı dövr olub, aşağıya doğru endikcə piramidanın eni artır. Piramidanın bünövrəsinə çatdığımızda Peyğəmbərimiz (s.ə.v)-in dövründəkindən nə qədər geniş olduğunu görərik. Halbuki bunun tərsi olmalıdır. Çünki hədisləri ən çox bilən kimsələr Peyğəmbər (s.ə.v)-in yanındakılar idi. Onlar öldükdən sonra hədisləri bilənlərin sayı azalacaq, nəticə etibariylə də piramida tərs şəkildə formalaşacaqdı. Lakin Əməvilər dövründəki hədislərin, bu dövrdəkindən daha çox olduğunu görürük”. (Ahmed Emin, Duhaul İslam)*

Vəziyyət belə olduqda, bir-birindən fərqli, hətta biri digəriylə ziddiyyət təşkil edən yüz minlərlə hədisin varlığı və doğruluğu, bir qisim hədis alimləri arasında da ixtilafa səbəb olmuşdur. Məsələn, Buxari və bir çox məşhur hədisçi İkriməni mötəbər hədisçi hesab etdiyi halda, Müslim onu yalançılıqla günahlandırmışdır. Belə nümunələr çoxdur. Bunlardan, bəlkə də, ən qəribəsi isə İslamın ən məşhur hədis kitabının müəllifi Buxarinin dörd məzhəbdən ən böyüyü olan Hənəfi məzhəbinin banisi Əbu Hənəfini etibarsız elan edib, onun tək bir hədisini belə nəql etməməsidir. Ən məşhur hədisçiyə görə ən geniş yayılmış məzhəblərdən birinin banisi etibarsızdır. Lakin müsəlman aləminin böyük bir qismi onları etibarlı hədis alimləri kimi qəbul edir. Bu bir həqiqətdir ki, hədis nəql edənlərin etibarlılığı ilə bağlı müzakirələrdəki ziddiyyətlər hədislərdəki ziddiyyətlər qədər çoxdur.

Peyğəmbərimiz (s.ə.v)-dən nəql edilən və Quranın ruhunu əks etdirən bir çox gözəl hədisin arasına çox müxtəlif uydurma hədislərin qarışmış olmasından başqa, digər bir problem isə hədislərin nəsildən-nəslə ötürülmə yollarıdır. Bir çox insan hədislərin bilavasitə Peyğəmbərimiz (s.ə.v)-in ağzından çıxan sözlər olduğunu güman edər, lakin bu doğru deyil. Hədis alimləri belə, bunların bilavasitə nəql edilən sözlər olduğunu iddia etməz. Buxari başda olmaqla, bir çox hədisçi hədisin sadəcə mənasının ötürülməsinin kifayət etdiyini, əsl mətni əzbərləmənin vacib olmadığını qəbul ediblər. Bu da, əlbəttə ki, nəql edilən sözlərə bir çox şərhin əlavə olunmasına, yanlış anlaşılan mövzuların doğruymuş kimi çatdırılmasına və mövzunu tam başa düşməyənlərin müəyyən şeylər nəql etmələrinə səbəb olmuşdur.

Hədislərin təkcə mənalarının nəql edilməsi uyğun görüldükdən sonra, bəzən hədislərin əvvəli və sonu eşidilməmiş, bu da əhəmiyyətli məna itkisinə səbəb çıxmışdır. Məsələn, Əbu Hüreyrədən: *"Uğursuzluq üç şeydədir: ev, qadın və at"* deyə Peyğəmbərimiz (s.ə.v)-ə hədis isnad edildiyini eşidən hz. Aişə: "*Allaha and olsun ki, Allahın elçisi bunu əsla söyləməmişdir. O, ancaq bunu söyləmişdir: "Cahillər belə deyərdi: Uğursuzluq bu üç şeydədir: ev, qadın və at""* demişdir.

Dörd məzhəbin də banisi, şübhəsiz ki, dəyərli müsəlmanlar və İslam alimləridir. Ancaq bunu bilməliyik ki, bu dörd məzhəb də həmin bu hədislər üzərində qurulmuşdur. Dörd məzhəbin baniləri də öz seçdikləri hədisləri, öz məzhəbləri üçün əsas qəbul ediblər.

Dörd imam, Kutubi-Sittəni, yəni altı məşhur hədis kitabından ibarət külliyyatı yazan hədis imamlarından fərqli olaraq, öz məzhəblərini qurdular. Daha əvvəl qeyd etdiyimiz kimi, bunlardan ən böyük məzhəb olan Hənəfi məzhəbinin banisi Əbu Hənifə, hədislər mövzusundakı zəif məlumatı və ümumiyyətlə öz fikirlərini ön plana çıxartdığı iddialarıyla, başda Buxari olmaqla, digər hədis imamları tərəfindən tənqid edilmişdir.

Hədis alimləri, həmçinin məzhəblərin səhih qəbul etdiyi hədislər arasında bu qədər ixtilaf olduğu bir halda, hədislərin rəddedilməz olduğunu iddia edənlər də ortaya çıxdı. Bu şəxslərin ortaya çıxmasıyla birlikdə, məsələn, Buxari və Müslimdəki bir hədisi belə inkar edənin kafir olacağı kimi cəfəngiyatlar yayılmışdır. Kitabın sonrakı fəsillərində ətraflı izah ediləcəyi kimi, daha da irəli gedərək, hədislərin Quran ayələrinin hökmünü qüvvədən salacağını belə iddia edənlər olmuşdur. Məhz, fanatiklərin meydana gətirdiyi cahil cəmiyyətlərin yaranmasının əsl səbəbi bu ürküdücü məntiq pozuqluqlarıdır.

Müxtəlif saxta hədislərin İslam dini içində necə fərqli hökmləri olan məzhəbləri yaratmasına birlikdə nəzər yetirək.

# ✓Məzhəblər arasındakı fərqlər

| | Mövzular | Hənəfi | Maliki | Şafii | Hənbəli |
|---|---|---|---|---|---|
| | Ölü heyvanın dərisi halaldırmı? | Haram | Halal | Haram | Halal |
| | İlan balığı yemənin hökmü nədir? | Halal | - | - | Haram |
| | Kişinin qırmızı paltar geyməsinin hökmü nədir? | Məkruh | Halal | Haram | Məkruh |
| | Kişinin sarı paltar geyməsinin hökmü nədir? | Haram | Halal | Haram | Haram |
| | Ud, zurna, dümbək, nağara çalmağın hökmü nədir? | Məkruh | Halal | Halal | Haram |
| | Qarğa əti yemənin hökmü nədir? | Haram | Halal | Haram | Haram |
| | At əti yemənin hökmü nədir? | Haram | Halal | - | - |
| | Dəniz molyuskası yemənin hökmü nədir? | Haram | Halal | - | - |
| | Stridiya yemənin hökmü nədir? | Haram | Halal | - | - |
| 0 | Qaranquş əti yemənin hökmü nədir? | Halal | Halal | Haram | Haram |
| 1 | Qartal əti yemənin hökmü nədir? | Haram | Halal | Haram | Haram |
| 2 | Namaz qılan kimsənin qarşısından nə qədər məsafədən keçmək haramdır? | 40 qulac | 1 qulac | 3 qulac | 3 qulac |
| 3 | Namaz qılan vaxtı unudaraq danışmaq namazı batil edər mi? | Bəli | Xeyr | Xeyr | Bəli |
| 4 | Namazda “ah” və “of” demek namazı batil edər mi? | Bəli | Xeyr | Bəli | Bəli |
| 5 | Dəstəmazın neçə fərzi var? | 4 | 7 | 6 | 7 |
| 6 | Dəstəmazı müəyyən ardıcıllıqla almaq fərzdirmi? | Xeyr | Xeyr | Bəli | Bəli |
| 7 | Dəstəmazı fasiləsiz şəkildə almaq fərzdirmi? | Xeyr | Bəli | Xeyr | Bəli |
| 8 | Neçə şey dəstəmazı batil edir? | 12 | 3 | 5 | 8 |
| 9 | Namazda qəhqəhə çəkib gülmək dəstəmazı batil edər mi? | Bəli | Xeyr | Xeyr | Xeyr |
| 0 | Dəvə əti yemək ve meyid yumaq dəstəmazı batil edər mi? | Xeyr | Xeyr | Xeyr | Bəli |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | Dəstəmaz aldıqdan sonra, alınan dəstəmaz barədə şübhəyə qapılmaq dəstəmazı batil edər mi? | Xeyr | Xeyr | Xeyr | Bəli |
| 2 | Bədəndən qan çıxması dəstəmazı batil edər mi? | Bəli | Xeyr | Xeyr | Xeyr |
| 3 | Neçə səbəbdən ötrü qüsl alınmalıdır? | 7 | 4 | 5 | 6 |
| 4 | Qüslün neçə fərzi var? | 11 | 5 | 3 | - |
| 5 | Laqeydlik və ya tənbəllikdən ötrü namaz qılmayanın hökmü nədir? | Həbs edilər, bədənindən qan çıxana qədər döyülər, öldürülər | Tövbə etməsə öldürülər | Üç gün ərzində tövbə etməsə öldürülər | Üç gün ərzində tövbə etməsə öldürülər |
| 6 | Namazı bitirərkən neçə dəfə salam vermək fərzdir? | Fərz deyil | 1 tərəfə vermək fərzdir | 1 tərəfə vermək fərzdir | 2 tərəfə vermək fərzdir |
| 7 | Ramazan ayı orucu üçün hər gün ayrı-ayrılıqda niyyət etmək vacibdirmi? | Bəli | Xeyr | Bəli | Bəli |
| 8 | Qan aldırmaq orucu batil edər mi? | Xeyr | Xeyr | Xeyr | Bəli |
| 9 | Kişi və qadının zinət əşyalarından zəkat vermələri fərzdirmi? | Bəli | Xeyr | Xeyr | Xeyr |
| 0 | Qadın əri yanında olmadan həccə gedə bilər mi? | Xeyr | Bəli | Bəli | Xeyr |
| 1 | Həccin neçə şərti var? | 2 | 4 | 5 | 4 |
| 2 | İpəyin üstündə oturmaq, ona yaslanmaq, yastıq əvəzi istifadə etmək, divar örtüyü kimi işlətmək haramdır mı? | Xeyr | Bəli | Bəli | Bəli |
| 3 | Saqqalı kəsmək haramdır mı? | Bəli | Bəli | Xeyr | Bəli |
| 4 | Nərd oynamaq haramdır mı? | Xeyr | Bəli | Bəli | Bəli |
| 5 | Şahmat oynamaq haramdır mı? | Bəli | Bəli | Xeyr | Bəli |
| 6 | Cinsi təcavüz edən heyvanın hökmü nədir? | Öldürülər, əti yeyilməz | Öldürülər, əti yeyilə bilər | Öldürülməz, əti yeyilə bilər | Öldürülməlidir |
| 7 | Şərab və digər sərxoşedici içkilər içənlərə neçə çubuq vurulmalıdır? | 80 | 80 | 40 | 80 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8 | Dindən döndüyü üçün öldürülən bir adamın malı varislərinə verilə bilər mi? | Bəli | Xeyr | Xeyr | Xeyr |
| 9 | Dindən dönən qadın öldürülər mi? | Xeyr | Bəli | Bəli | Bəli |
| 0 | Bir qadının hakimlik etməsi caizdirmi? | Bəli | Xeyr | Xeyr | Xeyr |
| 1 | İt murdar bir heyvandır mı? | Xeyr | Xeyr | Bəli | Bəli |

## ✓Quranın hökmündən başqa hökm axtaranlar dinin əslinə yönəlməlidirlər

Uydurulan, səhv nəql edilən, təhrif edilən, insanların öz istəklərinə görə şərh olunan minlərlə hədis hazırda İslam dininin ən mühüm mənbəyi hesab olunur. İslam dini dörd yerə parçalanmış, dörd ayrı məzhəb, daha doğrusu bir-biriylə tamamilə ziddiyyət təşkil edən dörd ayrı din yaradılmışdır.

Bir çox müsəlman bacı-qardaşımız bunları əsl dinin hökmləri hesab edərək bilmədən tətbiq edir və səhih olmayan bir çox hədisi doğru kimi. Bu gün bir çox müharibənin təməl səbəbini təşkil edən bu mövhumatlar, hədislər mövzusunda bir-biriylə ixtilafda olan bir zehniyyətin məhsuludur. Daha əvvəl qeyd etdiyimiz və kitabda da tez-tez vurğulanan mühüm bir həqiqəti bir daha xatırladaq: Quranda Peyğəmbərimiz (s.ə.v)-in Rəbbimiz qarşısında dilə gətirdiyi tək şikayəti İslam aləminin Quranı tərk etməsidir:

**Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!" deyəcək. (Furqan surəsi, 30)**

Şübhəsiz ki, Rəbbimiz istəsəydi, Peyğəmbərimiz (s.ə.v)-in bütün sözlərini qoruyar və 1400 illik bu sözlər, Quran ayələri kimi, heç bir dəyişikliyə uğramadan dövrümüzə qədər gəlib çatardı. Lakin tək Quran İslam dininin mükəmməl şəkildə tətbiq olunması üçün kifayətdir. Onsuz da, Peyğəmbərimiz (s.ə.v)-in bütün tətbiqləri Qurandadır.

Məhz buna görə də, Rəbbimiz Quranı qorumuşdur və O müsəlmanlar üçün kifayətdir. Quran qorunduğu və dəyişmədiyi üçün mövhumatçılar heç vaxt Onu, mövhumatlarına dayaq kimi istifadə edə bilməmiş, çətinləşdirməyə çalışdıqları İslam dininə Qurandan heç bir dəlil gətirə bilməmişlər. Dolayısilə mövhumatlarını daim saxta hədislərlə dəlilləndirməyə çalışmışdırlar. Çünki Quranda bütün müsəlmanların birləşəcəyi tək yol, tək təsvir və tək ağıl var.

Quran müsəlmanlara yol göstərici və mərhəmət olaraq nazil edilmişdir:

**...Bu Quran uydurulacaq bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və <u>hər şeyi müxtəlif formalarda izah edəndir; iman gətirəcək bir camaat üçün hidayət və mərhəmətdir</u>. (Yusif surəsi, 111)**

Quranda öz ağıllarınca Allahın ayələrini qeyri-kafi və ya hökmsüz hesab edərək (Allahı və Quranı tənzih edirik) saxta sözlərə uyanların varlığından belə bəhs edilir:

**Bunlar Allahın ayələridir. Biz onları sənə bir həqiqət kimi oxuyuruq. Onlar <u>Allaha və Onun ayələrinə inanmadıqdan daha sonra hansı sözə inanacaqlar</u>?! (Casiyə surəsi, 6)**

Allah ziddiyyətlərlə dolu saxta açıqlamalara qarşı, Allahın dəyişməmiş hökmü və İslamın haqq kitabı olan Quran üzərində düşünməyə dəvət edir:

**Məgər onlar hələ də Quran barəsində yaxşı düşünmürlərmi? <u>Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar</u>. (Nisa surəsi, 82)**

Quran tərk edildikdə, Onda bildirilən İslam qeyri-kafi hesab edildikdə (Quranı tənzih edirik) və yeni bir din axtarışı başlandıqda ziddiyyətlər, ixtilaflar və düşmənçiliklər də bir-biri ardınca peyda olmuşdur. Quranı tənqid edən və öz uydurduqları dini hakim etmək istəyənlər də, yenə mövhumatlar vasitəsiylə öz ağıllarınca gələcək nəsilləri də Qurandan uzaqlaşdıracaq tədbirlər almışdırlar.

## ✓İslam aləminin Quranı tərk etməsi

Müsəlmanların bir qismi, illər boyunca, saxta hədislərə və bəzi dırnaqarası alimlərin dinə daxil etməyə çalışdığı mövhumatlara əsaslanaraq Qurandan müntəzəm şəkildə uzaqlaşmışdırlar. Həmin bu saxta hədis və icmalara (bəzi İslam alimlərinin ortaq şəriət hökmləri) görə Quranda olmayan bir çox tətbiq yayılmışdır. Bu tətbiqlər elə çətin və əngəlləyicidir ki, bir çox insan Quranı toxunulmaz hesab etməyə başlamışdır. Məsələn:

- "Qurana dəstəmazsız toxunmaq olmaz" mövhumatıyla Quran oxumaq çətinləşdirilmişdir
- Dəstəmazın, Quranın yalnız bir ayəsiylə aydın şəkildə izah olunmasına və olduqca asan olmasına baxmayaraq, fanatiklərin mövhumatlarına görə dəstəmazı pozan (cildlər dolusu kitabla izah edilmiş) minlərlə səbəb var. Dolayısilə, Qurana toxunmaq, sanki, qeyri-mümkün vəziyyətə gətirilmişdir.
- "Quran ümumiyyətlə oxunmamalıdır, sadəcə bir şeyin içində mühafizə olunub uca bir yerdən asılar və heç vaxt oradan endirilməz"
- Quranın bir müsəlmanın həyatının ən mühüm ayrılmaz tərkib hissəsi olması lazım olduğu halda, bu mövhumatlara görə O ancaq Ramazan ayı, qəndil günləri, yas mərasimləri kimi bəzi vaxtlarda, özü də yalnız ərəbcə oxuna bilər. İnsanın Quranı öz dilində oxuması isə, qəti şəkildə qadağan olunmuşdur. Mövhumatçı inanca görə, bir çox insan öz dilində Quran oxuduğu vaxt günaha girəcəyini düşünər. Buna görə də, ərəbcə bilməyən cəmiyyətlərin böyük bir qismi Qurandan xəbərsizdir.
- Mövhumatçı zehniyyət ucbatından dünyadakı milyonlarla müsəlman Quranda nə yazıldığını belə bilmir.
- Baş örtüyünün Qurana görə fərz buyurulmamasına (bu mövzu sonrakı fəsillərdə açıqlanacaqdır) və Qurana dəstəmazlı toxunmaq barədə bir hökmün olmamasına baxmayaraq, bir qadının baş örtüsüz və dəstəmazsız şəkildə Qurana toxunması mövhumat dininə görə qadağandır. Həmçinin, kişilər üçün də Qurana toxunmağa mane olan bir çox yanlış hökm uydurulmuşdur.

- İnsanların Quran oxumalarına maneə törətmək üçün uydurulan ən məlum yalanlardan biri də, Quranın təkcə oxumaqla başa düşülə bilməyəcəyi, Onu anlamaq üçün alimlərin şərhlərinə və təfsirlərinə də ehtiyac duyulacağı düşüncəsidir. Bu məntiqlə böyüyən əksər müsəlmanlar Allahın; **“Biz hər şeyi kifayət qədər izah etdik”** (İsra surəsi, 12) ayəsinə baxmayaraq, Quranda yetərli izahı tapa bilməyəcəklərinə inanmış və özlərinə zorla qəbul etdirilməyə çalışılan saxta hədisləri doğru yol göstəricisi hesab etmişdirlər.

## ✓Quran hər an əlimizdə olması lazım olan yol göstəricimizdir

Quran həyatımızın hər anında və hər yerdə oxumalı olduğumuz rəhbərimizdir, lakin bəhs olunan mövhumatçı qanunlar nəticəsində, bir müsəlman Quranı əlinə belə ala bilmir.

Halbuki; **"evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın..."** (Əhzab surəsi, 34) ayəsiylə daima oxunulan, hikməti yadda qalan bir Quran təsvir edilir. Allah yenə başqa bir Quran ayəsində; **"bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə yol göstərən bir Kitabdır"** (Bəqərə surəsi, 2) deyə bildirir. Bir kitabın yol göstərici olması üçün, içindəki yol göstərən hikmətlər bilinməlidir. Eyni zamanda Quranın bir rəhbər, yolu aydınladan işıq, doğrunu yanlışdan ayıran ölçü, ixtilafda olanlar üçün dəlil, möcüzə, qəlblərində mənəvi mənada xəstəlik olanlara əlac, çətinlik içində olan iman sahiblərinə müjdə, bütün insanlar üçün öyüd və xatırlatma, hər mövzunu ətraflı izah edən qanunlar toplusu, təfəkkürü dərinləşdirən rəhbər, hər şeyin müxtəlif formalarda izahı, ağlından istifadə edənlər üçün xəbərdarlıq və nəhayət anlaşmazlıq içindəki insanları birləşdirən vasitə olduğu ayələrdə bildirilir. Bütün bunlar ancaq Quranı oxumaq, içindəki öyüdləri bilmək və anlamaqla mümkün olar. Lakin fanatizmi yaymağa çalışanlar ilk yol olaraq, Qurandan xəbərdar olmağı əngəlləmişdirlər.

Quranı oxumağın qarşısı alındıqda, müsəlman üçün doğrunun yanlışdan ayırd edilməsinin yolu da kəsilmiş olar. Hədislərin doğruluğunu Qurana əsasən anlamağa da imkan qalmaz. Bunun yerini mövhumat və saxta hədislər aldıqda isə, Qurandan ayrı yeni bir din yaradılmış olar. Məhz, fanatizm dini, bu üsullarla İslam dünyasına hakim edilmişdir.

## ✓Böyük bir problem: hədislərin ayələrin hökmünü qüvvədən saldığı iftirası

Qüvvədən salma mövzusunu əvvəlki fəsillərdə nəzərdən keçirmişdik. Bir ayənin başqa bir ayənin hökmünü qüvvədən salması iddiasının məntiqsizliyini dəlilləri ilə açıqlamışdıq. Buradakı problem isə, bəzi dırnaqarası üləma və alimlərin irəli gedərək müəyyən hədislərin ayələrin hökmünü qüvvədən saldığını iddia etmələridir.

Belə bir iddia ilə çıxış dənlər, əslində, Peyğəmbərimiz (s.ə.v)-ə böhtan atırlar. İnsanları Peyğəmbərimiz (s.ə.v)-in sözləri və tətbiqləriylə Quran ayələrindən kənara çıxdığına və Qurandan kənar bəzi şeylər tətbiq etdiyinə hiyləgərcəsinə inandırmağa çalışırlar (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik).

Peyğəmbərimiz (s.ə.v) Qurandan hökm vermiş və ancaq Qurana uyğun yaşamışdır. Peyğəmbərimiz (s.ə.v)-in əsla və əsla Qurandan kənar halal və ya haram gətirmək səlahiyyəti yoxdur. Onsuz da peyğəmbərliyinin və sahib olduğu güclü Allah qorxusunun bir nəticəsi olaraq, əsla belə bir şey etməzdi. Uca Allah bunun Onun qəzəbinə səbəb olacağını Quranda belə bildirir:

**Bu (Quran), möhtərəm bir Elçinin sözüdür. O, şair sözü deyildir! Necə də az inanırsınız! O, kahin sözü də deyildir! Necə də az öyüd alıb düşünürsünüz! O, aləmlərin Rəbbi tərəfindən endirilmişdir! <u>Əgər (Məhəmməd) bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik</u>. İçərinizdən heç kəs buna mane ola bilməzdi. (Haqqə surəsi, 40-47)**

Quran, ayədə də bildirildiyi kimi, hər şeyi müxtəlif formalarda izah edəndir və qorunmuşdur.  Allah ayəsində belə bildirir:

**...Bu Quran uydurulacaq bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müxtəlif formalarda izah edəndir; iman gətirəcək bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Quranda; **"ey Peyğəmbər! Zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah bağışlayandır, rəhmlidir (Təhrim surəsi, 1)** ayəsindən də aydın olduğu kimi, Peyğəmbər (s.ə.v)-in öz şəxsi həyatında belə halalları haram etmək səlahiyyəti yoxdur. Allah həmçinin bir çox ayədə; **"hökm yalnız Allaha məxsusdur"** (Ənam surəsi, 57) və **"O, Öz hökmünə heç kəsi şərik etməz!"** (Kəhf surəsi, 26) deyə bildirərək hökmü təkcə Özünün qoyduğunu açıq şəkildə bildirmişdir. Allahın hökmü isə Qurandadır. Dolayısilə, Allahın vermədiyi bir hökmü Peyğəmbərimiz (s.ə.v)-in verməsi qeyri-mümkündür.

Quranı oxumağın qarşısı alındıqda və hökmlərinin hədislər tərəfindən qüvvədən salındığını söyləməyə cürət göstərildikdə; yeni bir din uydurmaq və kütləri bu dinin təsiri altına salmaq, əlbəttə ki, asan olmuşdur. Bu yeni və Qurandakı İslamdan tamamilə fərqlənən dini anlamaq üçün saxta hədislərin bəzilərinə nəzər yetirək.

## ✓Fanatik zehniyyətin hüdudlarını yaxşı qavramaq

Fanatik zehniyyəti tənqid edən Qərb dövlətləri, əslində, bu zehniyyətin çatdığı hüdudları ümumiyyətlə yaxşı bilməzlər. Saxta sözlər, hocalar və mövhumatlarla yaradılan bu dinin qanunları, onların bildiklərindən daha dəhşət vericidir. Bir radikalın qaçdığı ifratçılıq təkcə üzərinə bomba bağlayıb özünü partlatması ilə məhdudlaşmır. Bir fanatikin həyatının hər anında qorxunc bir zehniyyət özünü göstərir. Yaşadığı mühitdən ailə həyatına, qadına baxış prizmasından bütün canlılara baxış prizmasına, təmizlik anlayışından xoşbəxtlik anlayışına qədər hər şeyi qaranlıqdır.

Burada bu baxış prizmasını göstərərkən, radikalların mənbə kimi qəbul etdiyi saxta hədisləri də diqqətinizə çatdıracaq və onlara Quran ayələri ilə cavab verəcəyik. Bunun səbəbi, radikalizmin mənbəyini göstərmək və bunun İslam dini ilə heç bir əlaqəsi olmadığını izah edə bilməkdir. Hər pillədə vurğulayacağımız xatırlatmanı burada əvvəlcədən qeyd edək:

**Burada nəzərdən keçirəcəyimiz mövhumatların heç biri Quranda yoxdur. Həmin bu dırnaqarası hədislər və tətbiqlər Quranın ayələrinə və ruhuna ziddir. Hamısı Quranla ziddiyyət təşkil edir, dolayısilə onlar İslam dininə aid deyil. Bu uydurmalar daim müsəlmanlara zərər vermişdir. Məhz bundan ötrü də, mövhumatlar açıq şəkildə göstərilməli və beləliklə də, bu təhlükəyə qarşı necə tədbir alınacağı müəyyənləşdirilməlidir.**

## ✓İçki içənlərin öldürülməsi

**“İçki içməyi beşinci dəfə təkrarlayanı öldürün”. (1643-Ebû Dâvud-Tirmizî)**

Qətiyyən Quranda olmayan bu hökm, məhz bu mövhumatla İslam dininə daxil edilmişdir. Halbuki Quran ayələrində, içki içdiyi halda, müsəlman olan hətta ibadətlərini yerinə yetirən kəslərin varlığından bəhs edilmişdir. Ayədə belə bildirilir:

**<u>Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayan qədər</u> və qüslsüz olduğunuz halda, -yolda olan müsafirlər istisna olmaqla– qüsl edənədək <u>namaza yaxınlaşmayın</u>... (Nisa surəsi, 43)**

Bu ayədə mühüm bir hökm var. Bir müsəlman içki içməklə günah işləyər, lakin İslam dinindən çıxıb kafir olmaz. Ayədəki açıq ifadəyə görə müsəlmanlar arasında da bir xəta olaraq, içki içənlər olur, lakin onlara namaz qılarkən ayıq olmaları nəsihət edilir. Namaz kimi güclü konsentrə tələb edən, insanın Allahı zikr edərkən nə söylədiyini bilməsinin və anlamasının lazım olduğu bir ibadətdə, Allah, diqqəti dağınıq olacağı üçün sərxoş bir insanın həmin anda namaz qılmasını qadağan etmişdir. Lakin ayənin bildirdiyi şəklə görə, sərxoşluq vəziyyəti keçdikdən, yəni ayıldıqdan sonra təkrar namaz ibadətinə geri qayıdır. Yəni bu insan hər vəziyyətdə müsəlmandır.

Quran belə açıq bir hökm ilə insanlara səhv etsələr də, dindən çıxmadıqları mesajını verərkən uydurma hədisin saxta hökmü isə bir cinayəti təsvir edir. Problem budur ki, radikal dünyada bir çox şəxs bu hədisi əzbər bildiyi halda, bu barədə Quranda bildirilən gerçək hökmü bilmirlər.

## ✓Təraş olanların öldürülməsi

**"Quran oxuduqları halda təraş olanları öldürün". (4816-Buhâr-i Müslim- Muvatta-Nesâî-Ebu Dâvud)**

Bu hədislərin Buxari və Müslim kimi etibar görən və səhih hədislərin də iştirak etdiyi qaynaqlarda olması, saxta hədisləri fanatiklərin dünyasında daha əsaslı hala gətirmişdir. İlk növbədə Quran, təmiz və baxımlı olmağı tərifləmişdir. Dolayısilə, saqqalın (uzun və ya qısa olmaqla) müxtəlif formalarda təraş edilməsi və baxımlı hala gətirilməsi Qurana tam uyğun bir təmizlik və baxım anlayışıdır. Lakin bununla yanaşı, saqqalın təraş edilməsi mövzusu ilə bağlı Quranda **tək bir hökm belə** olmadığı halda, uydurma hədis yoluyla belə bir hökmün əlavə olunması çox sarsıdıcıdır.

**"...Kim bir adamı, başqa bir adam və ya yer üzündə törədilən hər hansı bir fəsada qarşılıq olmadan öldürərsə, sanki bütün insanları öldürmüşdür..."** (Maidə surəsi, 32) ayəsindən də göründüyü kimi, gözəllər gözəli dinimizdə saqqalını kəsdiyi üçün bir insanın öldürülməsinin mümkün olmadığı çox açıqdır. Bu mövzuda Quranda tək bir ayə olmadığı halda, bu mövzunu bəhanə edərək, öldürməyi haqlı göstərmək necə mümkün ola bilər?

Əlbəttə ki, həqiqi İslam anlayışında belə bir şey qeyri-mümkündür. Burada müsəlman dünyasının böyük qisminin baxımlı və kəsilmiş saqqalla gəzdiyini də xatırlatmaq lazımdır. Bu hökmə görə müsəlman kişilərin demək olar ki, 80%-i öldürülməlidir. Problem budur ki, bu hökmün gerçəkliyinə inanan olduqca çox sayda radikal müsəlman hazırda dünyada yaşayır və bunların bir çoxu digər müsəlmanları sırf saqqal kəsdikləri üçün "qətl edilməsi vacib" insanlar kimi xarakterizə edir. Bu şəxslər Quranın hökmlərinə baxmayaraq, belə qorxunc zehniyyətlə yaşayırlar.

## ✓Zina edənlərin öldürülməsi

**Zina edənləri öldürün. (1623-Tirmizî] [1601)**

**Evli olduğu halda zina edənləri daşlayaraq öldürün. (1111-Buhârî] [1606-Buhari-Müslim-Tirmizi-Ebu Davud-Nesai-İbn Mace)**

Bu saxta hədislər Tövratda keçən "zina edənin daşlanaraq öldürülməsi" hökmünü İslama daxil etmək və rəcm kimi bir vəhşiliyi normal göstərməyə çalışmaq üçün uydurulmuşdur. Həmin bu uydurmanı hədis ədəbiyyatına daxil edə bilmək üçün bəzi dırnaqarası alimlər başqa saxta hədislər uydurmaqdan geri qalmayıblar. Aşağıda bir neçə nümunəsini görəcəyimiz bu hədislər rəcm cəzasını normal göstərmək üçün Peyğəmbərimiz (s.ə.v), xəlifələrə və səhabələrin boynuna atılmış böhtanlarla doludur:

**"Zina edən evlilərin daşlanaraq öldürülmələrini əmr edən ayə hz. Aişənin döşəyinin altındakı səhifədə yazılı halda mövcud idi. Peyğəmbər (s.ə.v) öləndə hz. Aişə onun dəfn olunma işləri ilə məşğul olarkən, evin açıq qapısından içəri girən bir keçi o səhifəni yedi. Beləliklə, daşla öldürmə cəzası Qurandan çıxdı. Lakin hökmü qüvvədədir". (İbn-i Mace 36/194; Hanbel 3/61,5/131)**

**"Keçinin yeməsi nəticəsində Qurandan çıxan daşlama ayəsini Ömər Qurana təkrar əlavə etmək istədi. Lakin xalqın dedi-qodusundan qorxduğu üçün, buna cəsarəti çatmadı". (Buhari 53/5; 54/9; 83/3; 93/21; Muslim, Hudud 8/1431; Ebu Davut 41/1; Itkan 2/34).**

**"Allah hz. Məhəmməd (s.ə.v)-i haqq ilə göndərmiş və Ona kitabı endirmişdir. Rəcmlə əlaqədar ayə də Ona endirilən ayələr sırasına daxil idi. Biz bu ayəni oxuduq, əzbərlədik və anladıq. Rəsulullah (s.ə.v) rəcm hökmünü tətbiq etdi, ondan sonra biz də tətbiq etdik. Qorxum budur ki, zaman keçdikcə biri çıxıb: "Biz Allahın kitabında rəcmlə əlaqədar ayəni tapa bilmirik" deyər və**

**Allahın buyurduğu bir fərzi yerinə yetirməyərək azğınlığa düşər. Şübhəsiz ki, rəcm, Allahın kitabında evli olunduğu, şahidlərin olduğu, hamiləlik və ya edilən zinakarlığın təsdiq edildiyi hallarda zina edənin əleyhinə olan bir haqdır". (Müslim, Hudûd, 15)**

**Xəlifə Ömərin rəcm cəzasını, Mədinə minbərindən elan etməsi, aralarında bir çox səhabə olan camaatdan heç birinin buna qarşı çıxmaması, rəcmin mütləq olduğunu göstərir. (Sahih-i Müslim Tercüme ve Şerhi, Ahmed Davudoğlu, Istanbul 1978, VIII, 350). es-Serahsî (ö. 490/1097)**

İslama, Qurana, Peyğəmbərimiz (s.ə.v) və səhabələrə atılmış saysız iftiralarla dolu, yuxarıda verilən uydurma hədisləri ətraflı araşdıraq:

Hər şeydən əvvəl Allah ayələri ilə Quranın İlahi qoruma altında olan bir kitab olduğunu açıq şəkildə bildirmişdir:

**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

**Əlbəttə ki, bu, bir Qurani-Kərimdir. Qorunub saxlanılan yazıdadır (Lövhi-məhfuzdadır). (Vaqiə surəsi, 77-78)**

**Şübhəsiz ki, onu (qəlbində) toplamaq və onu (sənə) oxutmaq Bizə aiddir. (Qiyamət surəsi, 17)**

Allah açıq şəkildə Quranı qoruduğunu, ayələri bir yerə gətirib saxlayanın Özü olduğunu ayələrində bildirmişdir. Son endirilmiş vəhy olan Quranın ilahi bir qoruma altında olduğunu yenə Quranın özündən öyrənirik. Çünki O son kitab olduğu üçün Qiyamətə qədər insanların hidayət tapmasına vəsilə olacaq. Buna görə də, son vəhy Allah tərəfindən mühafizə altına alınmışdır.

Necə ki, bunu uca Rəbbimiz Peyğəmbərimiz (s.ə.v)-ə; **"sənə oxudacağıq, sən də unutmayacaqsan"** (Əla surəsi, 6) ayəsi ilə vəhy etmişdir. Bu ayənin də bildirdiyi kimi, Allah Peyğəmbərimiz (s.ə.v)-ə oxudulan heç bir ayəni unutdurmamışdır. Dolayısilə, Quranda unudulan və ya əskik qalan bir ayə ola bilməz.

Zina ilə bağlı ayəni keçinin yeməsi iddiasında isə Allahın ayəsində “saxlanılmış və qorunmuş” kitab olaraq təsvir etdiyi Qurandan bir ayənin çıxdığı, digər bir sözlə, haşa, Allahın ayəni qoruya bilmədiyi iddia edilir (Allahı tənzih edirik). Bu, başlı-başına həmin ayələri rədd etmək, Allahın sözündən şübhə etmək və dindən çıxmaq deməkdir.

Üstəlik, uydurma hədislərlə xəlifə hz. Ömərə açıq şəkildə böhtan atılır. Bu böhtana görə hz. Ömər; **“Quranda olmayan bir hökmü bilir, Quranda olmadığına baxmayaraq,** Mədinə minbərində bunu **bir ayə kimi açıqlayır**, buna heç bir səhabə qarşı çıxmır, **hz. Ömər də dedi-qodudan qorxduğu üçün bunu Qurana daxil edə bilmir”** kimi bir mövqeyə gətirilir.

Şübhəsiz ki, Peyğəmbərimiz (s.ə.v)-in bir xəlifəsinin Quranda olmayan bir hökmü “əslində bu Quranda vardı” deyərək açıqlaması qeyri-mümkündür. Bu, hz. Ömərin Quranın qorunmuş bir kitab olduğu həqiqətini rədd etməsi deməkdir ki, bu da Onun Allahın hökmünə qarşı çıxması deməkdir (hz. Öməri tənzih edirik). Şübhəsiz ki, bu, saxta hədislərlə hz. Ömərə atılmış iyrənc bir böhtandır.

Bununla yanaşı, Qurandakı bir ayənin qorunmadığına dair minbərdə verilən açıqlamaya heç bir səhabənin qarşı çıxmadığı bildirilərək səhabələrə də böyük bir böhtan atılmışdır. Belə azğın bir iddiaya səhabələrin hamısının kəskin şəkildə və dərhal Qurandan dəlil göstərərək qarşı çıxacaqları aydındır.

Hz. Ömərə həmin bu saxta hədislərlə atılmış digər bir iyrənc böhtan isə “Quranda olduğunu düşündüyü bir hökmü dedi-qodudan çəkindiyi üçün açıqlaya bilmədiyi” iddiasıdır. Bu həmin hədisi uyduran saxtakar alimlərin Allaha, Peyğəmbərimiz (s.ə.v)-ə, xəlifələrə və səhabələrə baxış prizmasının nə qədər yanlış və qorxunc olduğunu açıq şəkildə göstərir. Hz. Ömər Peyğəmbərimiz (s.ə.v)-i nümunə götürmüş, bütün həyatı boyu Allah üçün yaşamış, bunun naminə çox müxtəlif çətinliklərə sinə gərmiş, Allaha, Peyğəmbər (s.ə.v) və Qurana iman və qoruyuculuq məsələsində ölümü gözə almış saleh müsəlmandır. Həyatı boyu qınayanın qınamasından, ölümdən, müharibələrdən, təhdidlərdən əsla çəkinməyən, Allahdan başqa heç kimdən qorxmayan bu üstün və mübarək insanın “dedi-qodudan qorxduğu üçün Qurandan çıxarılmış bir ayəni açıqlamaqdan çəkindiyi” açıqlaması İslamla əlaqəsi olmayan xəstə bir zehniyyətin yaratdığı murdar, böhtan dolu açıqlamadır.

Bütün bunlarla yanaşı, zina barəsindəki hökm Quranda olduqca ətraflı şəkildə açıqlanmışdır və rəcm adlandırılan vəhşilik Quranda qətiyyən yoxdur. Əgər rəcm cəzası həmin dırnaqarası alimlərin uydurmalarına görə Quranda mövcuddursa, onda Quranda zina barəsində necə iki fərqli hökm verilmiş ola bilər? İndi zina barəsində Quranda Rəbbimizin verdiyi tək keçərli hökmü ayələrlə açıqlayaq:

## ✓Qurana görə zinanın hökmü

Zina barəsində Quranda verilən ilə hökm belədir:

**Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun. (Nur surəsi, 2)**

Ayədə işlədilən "çubuq" kəlməsi, qalın bir çubuğu deyil, nazik bir çubuğu ifadə edir və Peyğəmbərimiz (s.ə.v)-in dövründə bu cəza bir-birinə bağlanmış yüz çubuqla tətbiq edilmiş, zina edən şəxsə bununla bir dəfə vurularaq bu hökm yerinə yetirilmişdir.

Bundan savayı əsl vurğulanması lazım olan bir həqiqət də vardır ki, Quranda bu mövzu ilə bağlı digər açıqlamalardan, həmin bu çubuq cəzasının belə çəkindirmə məqsədi daşıdığı, praktikada tətbiq edilməsinin elə də mümkün olmayacağı başa düşülür:

**İsmətli qadınları zinada günahlandırıb, sonra <u>dörd şahid gətirməyən kəslərə</u> səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar fasiqlərdir. (Nur surəsi, 4)**

Ayədən də göründüyü kimi, bir qadının zina ilə günahlandırıla bilməsi üçün, onu zina edən vaxtı görən dörd nəfər şahid olmalıdır. Bu dörd nəfərin şahid olması üçün, onlar zinanın əvvəlini və ya sonrasını deyil, tam olaraq zina anını görməlidirlər. Çünki zinanın əvvəlini və ya sonrasını görüb bu iddia ilə ortaya çıxmaq yenə bir zənndir. Praktikada, zina anına şahid olan dörd nəfərin olması mümkün olmadığından, bunun sadəcə çəkindirici bir cəza olduğu asanlıqla başa düşülür.

Həmçinin bu ayədə zina böhtanı atmasına baxmayaraq, şahid gətirməyənlərə səksən çubuq vurulması cəzasının tətbiq edilməsi də böhtanın qarşısını alan çəkindirici hökmdür. Yenə başqa bir ayədə bir qadını zina ilə günahlandıran, lakin şahid gətirməyən şəxslərin Allah qatında yalançı sayılacağı bildirilir:

**Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar. (Nur surəsi, 13)**

Göründüyü kimi, şahid gətirməyən bu şəxs iftira atmaqla və yalançılıqla təqsirləndirilir. Dolayısilə, həmin şəxsin doğru deyib-demədiyinin anlaşılması üçün yegano

etibarlı yol, onunla birlikdə zinaya şahid olmuş dörd şəxsin olmasıdır. Əks təqdirdə, sözü etibarlı olmayacaq.

Qurana görə zinanın hökmü belədir. Bu hökm aydın olub, olduqca ətraflı şəkildə açıqlanmışdır. Həmçinin rəcm cəzasından savayı tam fərqli bir üsul təsvir edilir. Ayənin bu açıq hökmünə baxmayaraq, İslama müxtəlif saxtakarlıqlarla rəcm vəhşiliyini daxil etməyə çalışanlar, çox böyük bir iftiranı boyunlarına götürürlər. Hazırda "İslam şəriəti" adı altında İran, Əfqanistan, Səudiyyə Ərəbistanı kimi ölkələrdə tətbiq olunan rəcm cəzası, həm İslama və Qurana ziddir, həm də cinayətdir. Bu ölkələrdə həmin bu üsulla açıq şəkildə İslam adından istifadə edilərək cinayət törədilir.

## ✓Oğurluq edənlərin öldürülməsi

**Oğurluqdan israr edənləri öldürün. (1631-Ebû Dâvud-Nesâî)**

Oğurluqda israr edənlərin öldürülməsi Quranda əsla mövcud olmayan və təbiidir ki, başqa uydurma hədisin məhsulu olan bir hökmdür və yenə qorxunc bir cinayətdir.

Quranda oğurluq edən şəxslərlə bağlı bu hökm verilir:

**Etdikləri əməlin əvəzində Allahdan "təkrarın qarşısını alan qəti bir cəza" olaraq oğru kişinin və oğru qadının <u>əllərini kəsin</u>!. Allah üstün və güclü olandır, hökm və hikmət sahibidir.**

**(Maidə surəsi, 38)**

Bu ayədə kəsmək feli üçün istifadə edilən terminin ərəbcəsi "iktauu"dur. Bu kəlmə "kataa", yəni kəsmək felinin cəm halıdır. Quranda "qətəa" felinin necə bir kəsmə formasını ifadə etdiyini həmin felin işləndiyi aşağıdakı ayədən də anlaya bilərik:

**Qadın onların hiyləsindən xəbər tutduqda qonaqlığa gəlmək üçün onlara xəbər göndərdi və onlar üçün mütəkkələr hazırladı (məclis qurdu), onların hər birinə (önlərindəki meyvələri soymaları üçün) bir bıçaq verdi və Yusifə: "Onların qarşısına çıx!" dedi. Qadınlar Yusifi (fövqəladə gözəllikdə) gördükdə, (onu fövqəlbəşər bir varlıq kimi gözlərində böyüdüb, <u>özlərini itirərək) əllərini kəsdilər</u> və dedilər: "Allah tənzih edirik! Bu ki bəşər deyil. Bu ancaq üstün bir mələkdir!". (Yusif surəsi, 31)**

Buradan əllərinə meyvə soymaq üçün bıçaq verilən qadınların özlərini itirərək əllərini kəsib qoparmadıqları açıq şəkildə aydın olur. Təsvir edilən mühitdə əldən sürüşən bıçağın dəri üzərində bir cızıq yaratdığı anlaşılır. Dolayısılə kəlmənin mənasına diqqət yetirdiyimiz vaxt, onun "kəsib qoparmaq" mənasını vermədiyini, sadəcə çəkindirmə məqsədli və ya o şəxsin oğurluq etdiyinə dair təyinedici və təkrarın qarşısını alan bir cızığı ifadə etdiyi aydın olur.

Oğurluq hökmü ilə bağlı olaraq Qurana baxılanda, hər günahda olduğu kimi, burada da bağışlamağın ön plana çıxdığını görürük. Quranda oğurluqla bağlı hökmün təsvir edildiyi Maidə surəsinin 38-ci ayəsindən dərhal sonrakı ayə bu hərəkəti edən şəxsin bağışlanmasını ifadə edir. Əlbəttə ki, bunun üçün ən vacib şərt etdiyi hərəkətdən sonra tövbə etməsi və əməllərini düzəltməsidir. Ayədə bu, belə bildirilir:

**Hər kim haqsızlıq (oğurluq) etdikdən sonra tövbə edib (əməllərini) islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.**

**(Maidə surəsi, 39)**

Burada bildirilməli olan əhəmiyyətli bir xüsus da, oğurluq əməlinin səbəbi olmalıdır. Oğurluqla bağlı Qurandakı həmin hökmün tətbiq ediləcəyi cəmiyyətlər, şübhəsiz ki, Qurandakı şəriətə bağlı İslam cəmiyyətləridir. Qurandakı şəriətə bağlı bir İslam cəmiyyətində isə, bir yanda zənginlərin digər yanda isə yoxsulların yaşadığı bir sistemin olması qeyri-mümkündür. Çünki Quranı əsas götürən cəmiyyətlər Allahın verdiyi ruzidən geniş şəkildə xərcləyirlər. Yəni maddi imkanlı şəxslər, maddi imkanı olmayanların daimi himayədarıdır və onlar mallarını daim yoxsullara verməklə məsuldurlar. Mövzu ilə bağlı ayələr belədir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl Allaha, axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, mala olan sevgisinə baxmayaraq, onu qohum-əqrəbaya, yetimlərə, kasıblara, yolda qalanlara, dilənənlərə və kölələrə (azad edilmələri üçün) sərf edən, namaz dosdoğru qılıb, zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, çətinlik, xəstəlik və müharibənin qızışdığı vaxtlarda səbir edənlər(in göstərdiyi rəftar və davranışlardır). Məhz onlar doğru olanlardır, müttəqi olanlar da elə onlardır.**
**(Bəqərə surəsi, 177)**

**Səndən Allah yolunda nə verəcəklərini soruşurlar. De: "Yaxşılıq olaraq verəcəyiniz hər bir şey valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və yolda qalanlara aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir".**

**(Bəqərə surəsi, 215)**

**Ona olan sevgilərinə baxmayaraq, yeməyi kasıba, yetimə və əsirə yedirər və: "Biz sizi yalnız Allah rizası üçün yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik" deyərlər.**

**(İnsan surəsi, 8-9)**

**Qohum-əqrəbaya da, yoxsula da, yolda qalana da haqqını ver. Lakin malını israf edərək dağıtma. (İsra surəsi, 26)**

Bu ümumi məlumatı verdikdən sonra bu sualı verək: oğurluq niyə edilir?

Birinci səbəb ehtiyacdır. Bir insan çətin vəziyyətdə qaldığı, borca düşdüyü, yoxsulluqla boğuşduğu üçün yanlış bir seçim olaraq oğurluq edə bilər. Halbuki Quranın himayəsi altındakı belə bir cəmiyyətdə çətin vəziyyətdə qalan, borca düşən, yoxsulluq içində olan bir insanın olması qeyri-mümkündür. Yoxsullar maddi imkanlı şəxslər tərəfindən qorunduğu bir halda, çətin vəziyyətdəki şəxslərin borcları ilə bağlı hökm Quranda; **"bilin ki, borcu sədəqə olaaraq bağışlamaq sizin üçün daha xeyirlidir"** (Bəqərə surəsi, 280) ayəsi ilə açıq şəkildə bildirilmişdir.

Oğurluq etmənin ikinci səbəbi isə zehni problemlər, psixoloji narahatlıqlar ola bilər. Bu, onsuz da həmin adamın müalicə görməsini və sağaldılmasını zəruri edən xüsusi vəziyyətdir və O təqsirli deyil, xəstədir. Praktikada bu ikisindən başqa, insanları oğurluq etməyə sövq edəcək səbəb yoxdur. Dolayısilə, bu səbəblərin aradan qaldırılmasıyla birlikdə, İslam cəmiyyətlərində oğurluq hallarının yaşanmasının qarşısı ən başdan alınar.

Bütün bunları görməzlikdən gələn mövhumatçılar İslamı ölüm və vəhşət dini olaraq tanıtmağa çalışdıqlarından, bu mövzuda da tamamilə Qurana zidd bir hökm qoyublar. Düzdür oğurluq etmək haramdır, lakin onlar çox vaxt oğurluq edənin ehtiyac içində və ya xəstə olub-olmadığıyla maraqlanmazlar belə. Halbuki ehtiyac içində olan da, xəstə olan da müsəlmanların məsuliyyəti altındadır. Bu məsuliyyəti görmədikləri kimi, bu qatı hökmdən ötrü çəkinmədən cinayət törədə bilirlər. Bu saxta hökmü gətirənlər öz aləmlərində (haşa) Quranı bəyənmir, öz azğın zehniyyətlərinə uyğun görmür, Quranın ədalət sistemi əvəzinə öz ədalət sistemlərini qurmağa çalışırlar. Qurana baxdıqda isə, bu vəhşiliyin əvəzinə daim sevgi və bağışlayıcılığın əks olunduğunu görürük.

## ✓Dindən dönənlərin öldürülməsi

**Dindən dönənləri öldürün. (1585-Muvatta] [1558-Ebu Dâvud-Nesâî] [676-Nesâî] [1586-Ebu Dâvud-Nesâî)**

**"Hansı kişi İslamı tərk etsə, onu təkrar İslama dəvət et. Gəlmədikdə isə, boynunu vur". (Taberani)**

Məhz Quranda kənar saxta şəriət sistemləri ilə idarə edilən ölkələrin sevgisizlik, qəzəb və hiddətlərinin ən mühüm qaynaqlarından biri bu uydurma hədislərdir. Quranda, İslam dini adından uydurulmuş ən böyük yalanlardan biri olan belə bir hökmün qətiyyən yeri olmadığı kimi, Quran bu cür fanatik məntiqə tamamilə qadağa qoyur və bu məntiqə lənət edir. Quranda fikir və inanc azadlığını ifadə edən ayələrdən bəziləri belədir:

**Dində məcburiyyət yoxdur. (Bəqərə surəsi, 256)**

**Sizin dininiz sizə, mənim dinim mənə. (Kafirun surəsi, 6)**

**Sən onları məcbur edən deyilsən. (Qaf surəsi, 45)**

**De ki: "Haqq Rəbbinizdəndir. Kim <u>istəyir iman etsin, kim də istəyir inkar etsin</u>". (Kəhf surəsi, 29)**

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. <u>İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?</u> (Yunis surəsi, 99)**

**Artıq sən öyüd verib xatırlat!. Sən yalnız bir nəsihətçi və bir xatırladıcısan. <u>Onlara güc və təzyiq göstərəcək deyilsən</u>.**

**(Ğaşiyə surəsi, 21-22)**

Quranda təsvir edilən İslam dininə görə bütün insanlar iman gətirib-gətirməməkdə sərbəstdir. Quranda bildirilən dinə əsasən, müsəlman ancaq gözəl əxlaqı izah etməklə məsul olan təbliğçidir. Hidayəti verən yalnız Allahdır. Müsəlman imanlı olub-olmamasından asılı olmayaraq, hər bir insana şəfqətlə yanaşmaqla məsuldur. Lakin müsəlmanı qatil kimi göstərmək istəyənlər, Qurandakı bu həqiqətləri gizlətməyə çalışırlar.

Quranda bildirilən İslam dininin hökmünə görə bir müsəlman özünün, ata-anasının və yaxın qohumlarının əleyhinə belə olsa, ədalətli olmaqla məsuldur (Nisa surəsi, 135). Bu ayəyə görə O, dinindən və inancından asılı olmayaraq, hər kəsin haqqını müdafiə etmək və hər kəsə ədalətli davranmaqla məsuldur.

Yenə bu kitabda daha əvvəl xatırlatdığımız və tez-tez xatırladacağımız bir ayənin hökmünə görə, Allah müsəlmanlara özlərini sipər edərək bir müşriki, yəni iman gətirməyən bir insanı qorumağı əmr edir:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allah'ın sözünü eşitsin. Sonra onu təhlükəsizlik içində olacağı yerə çatdır. Çünki onlar haqqı bilməyən bir camaatdır. (Tövbə surəsi, 6)**

Boyunlarına **bir inkarçını qorumaq məsuliyyəti yüklənmiş** müsəlmanların mənimsəməli olduğu din anlayışı açıq-aydındır. Necə ki, Allah Peyğəmbərimiz (s.ə.v)-ə, Quranın ayəsinin hökmüylə kafirlərə bu cür müraciət etməsini bildirmiş və açıq demokratik sistemi təsvir etmişdir:

**De: "Ey kafirlər. Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim mənədir". (Kafirun surəsi, 1-6)**

"De" ilə başlayan bu ayələr Peyğəmbərimiz (s.ə.v)-ə ən mükəmməl demokratik sistemin və bu demokratik sistem içində tətbiq olunacaq üsulun tərifini verir. Surə, **"sizin dininiz sizə, mənim dinim mənədir"** hökmü ilə bitir, yəni bir müsəlman öz dinini yaşayarkən, başqalarının inancına qarışmamalı, güc tətbiq etməyib təzyiq göstərməməli, müsəlman olmur deyə ona zülm etməməlidir. Onlara; "sizin dininiz sizə" deyərək hörmət göstərməli və qarışmamalı, "mənim dinim mənə" deyərək də eyni hörməti onlardan tələb etməlidir. Güc və təzyiqin qəti şəkildə rədd edildiyi, müşriklərin can bahasına qorunduğu, inkarçılar barəsində belə ədalətlə hökm verildiyi və demokratiyanın tam və ən mükəmməl halı ilə təsvir edildiyi Quran, həqiqi müsəlmanların yol göstəricisidir.

# ✓Namazı tərk edənlərin öldürülməsi

**Namazı tərk edənlər öldürülə bilər. (2117-Ebû Dâvud)**

İslam dinini tərk edənlərin qətl edilməsi barədə hökm verən yuxarıda bəhs etdiyimiz uydurma hədisin digər bir ekvivalenti də bu hədisdir. İbadətlərdə və heç bir mövzuda məcburiyyət olmadığının açıq şəkildə bildirildiyi bir dində, bir insanın təzyiqə məruz qalmaqla namaz qılmağa məcbur edilməyəcəyi də çox açıqdır. **“Sən onları məcbur edən deyilsən” (Qaf surəsi, 45)** deyə əmr edən bir dində hansı hökmə görə belə vəhşicəsinə bir təzyiq tətbiq edilə bilər? Əlbəttə, edilə bilməz. Qurana baxdığımız vaxt, bir müsəlmanın namaz qılan və ya qılmayan hər insana hörmət və şəfqətlə yanaşmasının lazım olduğunu açıq şəkildə görə bilərik.

Kitabın əvvəlində də bildirdiyimiz mühüm bir həqiqəti təkrar xatırladaq: zorlama nəticəsində ediləcək bir ibadət, ibadət xüsusiyyətini itirə biləcəyi kimi, həmçinin nifrət və qəzəbin mənbəyinə də çevrilə bilər. Bir insan namaz qılmağa zorlanmaqla müsəlman olmaz. İstəməyərək zorla namaz qılan bir insan ikiüzlü bir münafiqə, din əleyhdarına çevrilə bilər. Namazı buraxacağı təqdirdə öldürüləcəyini düşünən adam, öldürülmə riskini gözə almaqdansa dindar təqlidi edəcək, ikiüzlü davranacaq, daim yaşadığı o həyatdan və dolayısilə özünə zorla qəbul etdirilən dindən nifrət edəcək. Münafiq yetişdirmək İslama vurulacaq ən böyük zərərdir. Dolayısilə, təzyiq, zülm və ölüm təhdidiylə ayaqda saxlanılan dindarlıq, heç vaxt həqiqi dindarlıq ola bilməz. Bu, sadəcə İslama zərər verər.

Əgər bir insan zehni və fiziki bir problemi olmadığı halda namazı tərk edərsə, bunun müxtəlif səbəbləri ola bilər. Bu insan ya kifayət qədər dindar deyil, ya Allah ona güclü iman verməmişdir, ya da onda kifayət qədər Allah qorxusu yoxdur. Hidayət Allahın əlindədir və heç vaxt bir insan hidayət verə bilməz. Namaz qılmaması, onun dindən dönməsi demək deyil. Namazı tərk edən insan nə vaxtsa ona yenidən başlaya bilər və bu da onun üçün böyük qazanc olar. Yaxud başlamaya bilər, lakin yaxşı və yararlı bir insan olar. Yaxud da bunların heç biri olmaya bilər. Dini tamamilə tərk etsə belə, müsəlmanlar ona şəfqətlə yanaşmalıdır. Qurana görə belə edilməlidir. Bütün insanlar barədə hökmü verən Allahdır.

Belə bir səbəbdən ötrü bir insanı öldürmək isə tamamilə cinayətdir və bunun əsla və əsla Quranda yeri yoxdur.

Zamanla hədislərə və müxtəlif etiqadlara görə yaradılan və İslam dininə daxil edilən dörd məzhəb bir çox mövzuda bir-biri ilə zidd düşən dörd ayrı din kimidir. (Dörd məzhəb arasındakı dərin fərqlər əvvəlki sətirlərdə maddələr halında verilmişdir). Dörd məzhəb də tənbəllikdən ötrü namazı buraxanlar üçün müxtəlif cəzalar müəyyən etmişdir. Məsələn, Hənbəlilərə görə namazı tənbəllikdən ötrü tərk edənlər öldürülməlidir. Hənəfilərə görə isə tənbəlliyindən ötrü namazı tərk edən kimsə küfrə girməz və öldürülməz. Lakin namaz

qılmağa başlayana qədər həbs edilib, bədənindən qan çıxana qədər döyülməsinin lazım olduğu düşünülür *(Reddil Muhtar Haşiyesi 1/62).* Halbuki bunların heç biri Quranda yoxdur.

Qurandakı dindən başqa bir din axtaranda məhz belə ziddiyyətlər, vəhşət hökmləri və dindən kənar üsullarla qarşılaşılar. Qurandakı dindən kənar bir din yaşandıqda, bu cür nifrət və qəzəb dolu insanlar ortaya çıxar. Fanatiklərin dini Quranın hökmlərini rədd etmiş və qeyri-kafi hesab etmiş insanların dinidir (Quranı tənzih edirik).

Sonrakı səhifələrdə fanatizm dinində tətbiq olunan; "namaz qılmayan uşaqların döyülməsi, zəkat verməyənlərin və ya sərxoşların öldürülməsi" kimi vəhşi üsullardan da bəhs ediləcək. İslam adından tətbiq olunan buna bənzər vəhşiliklərin səbəbini araşdırarkən bir həqiqət heç vaxt unudulmamalıdır:

Quranda bu üsulların heç biri yoxdur. Fanatiklərin dini uydurma, bir dindir.

## ✓Namazı tərk edən uşaqların döyülməsi

**10 yaşında namazı tərk edən uşaqları döyün.**

**(2336-Ebû Dâvud, Tirmizî)**

İbadət Allaha olan sevginin göstəricisi olaraq, könüllü surətdə və şövqlə edilən əməldir, zorla etdirilən əməl deyil. Bu uydurma hədisdən isə bir uşağın hələ on yaşına çatmadan namaz qılmağa məcbur edildiyi aydın olur. Hələ Allahı tanımayan, bu dünyada niyə mövcud olduğunu bilməyən, Yaradıcının və yaradılışın sirlərindən xəbərsiz bir uşağın, fərz buyurulduğunu heç bilmədiyi bir hökmü yerinə yetirməyə zorlanması ona necə bir fayda verə bilər? Bir uşağın dindar olması üçün onu bir ibadəti yerinə yetirməyə məcbur etmək deyil, ona, Allahın varlığına və vahidliyinə aid dəlilləri göstərmək, Allahı anlamasını, Onu sevməsini və dinə məhəbbət bəsləməsini təmin etmək lazımdır. Bunları anlamağa başlayan bir uşaq, onsuz da Allah qarşısında məsuliyyət sahibi bir varlıq olduğunu qavrayacaq, Ona şükr edəcək və Ona olan ibadətini zövqlə yerinə yetirəcək. Bu təqdirdə ibadət, qəlbən, şövqlə və sevgiylə edilən bir ibadət olacaq.

Lakin hələ Allahı tanımayan bir uşaq, tanımadığı dinin hikmətini bilmədiyi ibadətlərini yerinə yetirməyə məcbur edilib sonra da bunu etmədiyi üçün döyülərsə, böyük ehtimalla, həyatının geri qalan hissəsində dinə və ibadətlərə qarşı gizli nifrət bəsləyəcək. Bəlkə də, həyatının geri qalan hissəsini bu qorxunc ön mühakimə ilə keçirəcəyi üçün Allahı da yanlış tanıyacaq və doğru hökmləri görüb anlamağa çalışmayacaq. Hələ bir çox şeyi zor qavrayan bir uşağı, sevgi və gözəlliklə Allaha yaxınlaşdırmaq əvəzinə, döyərək onu ibadətləri yerinə yetirməyə məcbur etmək, İslam adı altında İslam əleyhdarı birini yetişdirmək deməkdir ki, bu da İslam dünyasına zərər gətirər. Lakin Qurandan uzaqlaşmış fanatiklər bunu qavraya bilməzlər.

Bəhs etdiyimiz bu kin, əslində, faktiki olaraq da yaşanır. Qatı fanatik həyat tərzi sürən bəzi ailələrin bəzi uşaqlar sonrakı yaşlarında ya din əleyhdarına çevrilir, ya da cəmiyyətdə az rast gəlinən degenerasiya bataqlığına düşürlər. Demək olar ki, bütün söhbətlərində İslam ya hənək, ya da nifrət mövzusu olur. Bir çox dinsiz belə dinə hörmət edir, lakin onlar həm hörmətdən uzaqlaşır, həm də qəzəbə bürünürlər. Bunun ən əsas səbəbi, həm Quranda olmayan "ibadəti yerinə yetirməyə zorlama" hökmünün, həm də, İslam adından uşaq yaşlarından etibarən güc və təzyiqin tətbiq edilməsidir.

## ✓Zəkat verməyənlərin öldürülməsi

**<u>Zəkat verməyəndən zorla zəkat alınması, müqavimət göstərərsə ona qarşı müharibə başladılması və öldürülməsi</u>: Əbu Bəkr (r.ə): "Vallahi hər kim namazla zəkatı eyni görməsə, onunla vuruşaram. Çünki zəkat malın haqqıdır. Allaha and içirəm ki, bunlar Rəsulullaha verdikləri bir keçi balasını belə məndən əsirgəsələr, buna görə mütləq onların <u>boynunu vuraram</u>" deyə buyurdu. (Buhari, Müslim)**

Zəkat Quranda bildirilən bir ibadətdir. Bütün digər ibadətlər kimi müsəlmanlara fərz buyurulmuşdur və Allah sevgisindən ötrü qəlbən və könüllü surətdə yerinə yetirilir. Buna görə, bir müsəlman vicdanının səsindən ötrü başqa birinin dara düşməsinə və çətinlik çəkməsinə izn verməyib öz malından ona da verər. Bu müsəlmanlığın tələbi olaraq, insanın içindən, qəlbdən gələn bir ibadətdir.

İbadəti ibadət edən onun eşqlə, istəklə, şövqlə edilməsidir. Allah bütün insanları istədiyi qədər zənginləşdirməyə, onlara istədiyi vaxt istədiyi ruzini verməyə qadirdir, lakin bəzi şəxslərə yoxsulluq nəsib edərək, zənginin də, yoxsulun da bu imtahan qarşısında necə rəftar göstərəcəyini sınayar. Yoxsul, vəziyyətinə səbir etmək və hər nə olursa olsun Allaha üz tutaraq ona şükür etmək, zəngin isə verilən nemət üçün Allaha şükür edərək yoxsulun da dolanışığını təmin etməklə məsuldur.

Allah Quranda Allaha və axirət gününə inananların zəkatı verdiyini bildirir. Dolayısilə, zəkat bütün digər ibadətlər kimi Allaha səmimi imanla edilən bir ibadətdir, ölüm təhdidi ilə deyil:

**...Namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Biz onlara böyük bir mükafat verəcəyik.**

**(Nisa surəsi, 162)**

Kasıbı yedirtmək, müsəlmanların Quranda bildirilən ən böyük məsuliyyətlərindən biridir. Lakin bunun yerinə yetirilməməsi barədə verilən hökm uydurma hədisdəki kimi deyil. Hədisdəki ifadəyə görə hər hansı bir səbəbdən ötrü zəkat vermək istəməyən bir insana, bu ibadət təzyiq göstərilərək etdirilməli və malının yarısı zorla alınmalıdır. Hər şeydən əvvəl malı zorla alınan şəxs ibadət etmiş olmaz. İnsanın vicdanla etmədiyi bir şeyin adı ibadət deyil. Ondan zorla bir ibadəti yerinə yetirməsini tələb etmək isə Qurana tamamilə

ziddir. Bu, həmçinin onun dinə və dindarlara qarşı qəzəb bəsləməsinə səbəb ola biləcək, dindar cəmiyyətlərə zərər verən bir üsuldur.

Lakin əsl vəhşilik zəkat verməməkdə israr edən şəxsin öldürülməsi hökmüdür. Quranda qətiyyən olmayan bu hökm yenə bir cinayətdir. Quran dində təzyiq göstərməyi qadağan etmişdir. Həmçinin Quran bir insanı öldürməyi də (özünü müdafiə etmək kimi haqlı bir vəziyyəti çıxmaq şərtilə) qadağan etmişdir. Qurandakı hökmə görə:

**"...Kim bir adamı, başqa bir adam və ya yer üzündə törədilən hər hansı bir fəsada qarşılıq olmadan öldürərsə, sanki bütün insanları öldürmüşdür... (Maidə surəsi, 32)**

Göründüyü kimi, cinayət İslama görə böyük bir günahdır. Bu təqdirdə cinayət kimi belə ağır bir günahı dinin hökmünə çevirib, əlacsız halda bunu tətbiq edənlər həm İslam dininə və Peyğəmbərimiz (s.ə.v)-ə böhtan atır, həm də harama girirlər. Yenə bu saxta hədis, mövhumatlarla İslam dininin Qurandakı həqiqi hökmlərinin xeyli ziddiyyət təşkil etdiyini göstərən digər bir əhəmiyyətli dəlildir.

## ✓Oruc tutmağı tərk edənlərin həbs edilməsi və ac saxlanılması

**Orucu qəsdən tərk edən şəxs kafir olmayıb həbs edilər, yemək və su verilməz. (Eş-Şerh-is Sagir 1/239) (Kıfeyet-it Tafib 2/252) (El-Mugni- 2/408)**

Həmin bu saxta hədis, yenə yuxarıda bəhs etdiyimiz eyni məntiqdən ötrü din və vicdana ziddir:

1) Sevərək edilməli bir ibadət zorla etdirilməyə çalışılır,

2) “Dində məcburiyyət” və təzyiqin olmadığını bildirən ayənin hökmünə tamamilə qarşı çıxılır,

3) Dindəki şəfqət əvəzinə vəhşiliyi əks etdirir,

4) Dinin əsas məqsədi olan Allahı və ibadəti sevdirmək əvəzinə, dinə və ibadətə qəzəb və nifrət bəsləməyə sövq edir.

Bütün bunlarla yanaşı, oruc bəzi insanların çətinliklə tutduğu, xəstələrin isə tutmaqdan məsuliyyət daşımadığı ibadətdir. Allah oruc hökmü ilə bağlı Qurandakı ayələrdə bu mühüm şərti açıq şəkildə bildirmişdir:

**Müəyyən sayda olan günləri oruc tutmalısınız. Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Buna taqəti olmayanlar isə bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu onun üçün daha xeyirli olar. Biləsiniz ki, sizə oruc tutmaq daha xeyirlidir. (Bəqərə surəsi, 184)**

**...Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir... (Bəqərə surəsi, 185)**

Oruc hökmünün çox aydın izah edildiyi bu ayələrdə, Ramazan ayında xəstə və ya səfərdə olanların oruc tuta bilmədikləri günlərin sayı qədər başqa günlərdə oruc tutmaları,

əgər xəstəlik və ya taqətsizlik kimi səbəblərdən ötrü oruc ibadətlərini heç yerinə yetirə bilmirlərsə, onda kəffarə olaraq bir yoxsulu doyurmaları hökmü iştirak edir və Allah ayəsində: **"Allah, sizin üçün çətinlik deyil, asanlıq istəyir"** eyə bildirir.

Xəstəlik və taqətsizlik ucbatından oruc tuta bilməyənlər üçün bu cür asan və aydın bir hökm olduğu halda, artıq bu şəxslərin oruc tutmaq üçün israr etmələri, özlərinə zülm etmələrinə deməkdir. Qurana görə müsəlmanların özlərinə zərər verəcək şeylər etmələri isə qadağan olunmuşdur.

Qurandakı bu qədər açıq hökmü tamamilə dəyişdirərək, Qurana zidd saxta hədislərlə sanki bir zülm sistemi yaratmaq, fanatik zehniyyətə sahib insanların tətbiqlərini göstərməsi baxımından əhəmiyyətlidir. Bu insanlar öz aləmlərində Quranın şəfqətli üslubunu bəyənməz (Allahı və Quranı tənzih edirik), öz qaranlıq dünyalarına uyğun bir din yaratmağa cəhd edərlər. Həmin bu zülmə əsaslanan mövhumatları dinə əlavə etməyə çalışmalarının əsas səbəbi də budur.

Bir insan xəstə ola bilər, çətinliklə dözə bilər. Əlbəttə ki, bütün insanlar eyni gücə malik deyil. Bir çox insan dünya həyatında müxtəlif xəstəliklərlə imtahan olunur. Allah sonsuz şəfqəti ilə xəstə və taqətsizlər barədə bu hökmü verdiyi halda, hazırda hələ də bəzi ölkələrdə bu saxta hədislərə əsaslanaraq zorla oruc tutdurulur. Xəstə olduğu üçün oruc tutmayan bir insanın bu saxta hədisə əsasən bir yerə salınıb, susuz və ac buraxıldığı yeri təsəvvür etmək çətin deyil. Şübhəsiz ki, belə bir mühitdə, həmin insanın xəstəliyi qısa müddətdə ağırlaşacaq və bir müddət sonra dünyasını dəyişəcək. Məhz fanatik zehniyyət, insanın canına zərər vermə bahasına belə bir zülmü zorla etdirməyə çalışır.

## ✓Sərxoşların öldürülməsi

**“Sərxoşun dini tərk etməsi kifayət edər. Lakin sərxoş özünə gəlmədən və tövbəyə çağrılmadan öldürülməz”. (İmam Şafii el-Um VI cild səh: 148 -El-İnsaf X cild səh: 331-332 –Muğnil Muhtac 4/137 - Haşiyetül-Desuki 4/363 -İbn Kudame el-Muğni 9/25-26)**

Həmin bu saxta hədisə görə içki içib sərxoş olan şəxs, nə etdiyini bilmədiyi halda dindən döndüyünü söyləsə, dindən dönmüş hesab edilir. Bu, olduqca dəhşətlidir. Sərxoş insanın nə etdiyini və nə dediyini bilmədiyi, eləcə də, məntiqli danışa bilməyəcəyi aydındır. Söylədiklərindən və etdiklərindən məsul tutula bilməyəcəyi də aydındır. Lakin fanatik zehniyyət bu uydurma hədisi əsas götürərək, bu şəxsin öldürülməsinə hökm verir və yenə Quranda olmayan saxta bir üsulu hökmə çevirərək cinayət qərarı verir.

Bu saxta və dəhşətli zehniyyət Quranla təkzib edilmişdir. Rəbbimiz: **“Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayan qədər və qüslsüz olduğunuz halda, –yolda olan müsafirlər istisna olmaqla– qüsl edənədək namaza yaxınlaşmayın...”** (Nisa surəsi, 43) ayəsi ilə “iman gətirənlərə” səslənir. Ayədən aydın başa düşülür ki, bu insanlar arasında içki içib sərxoş olanlar da olmuşdur. Həmin bu insanlar namaz qılan insanlardır. Bütün bunlar ayədən açıq-aydın şəkildə başa düşülür. Namazda insan nə dediyini bilməli, şüuru açıq olmalı, Allah ilə dərin əlaqə qurmalıdır, lakin sərxoş insan namaza lazımi diqqəti verə bilməz. Bu şəxs etdiklərindən və söylədiklərindən də məsul tutulmaz. Buna görə də, Allah sərxoş olduğu müddətcə insana namaz qılmağı qadağan etmişdir. Ayədəki; **“nə dediyinizi anlayana qədər”** ifadəsiylə də, sərxoş insanın “şüursuz hərəkət etdiyinə” və “nə dediyini anlamadığına” diqqət çəkilmişdir. Dolayısilə buradan, həmin bu adamın ancaq və ancaq bu vəziyyət sona çatdıqdan sonra namaza davam etməli olduğu aydın olur.

Sərxoşluq vəziyyətində insan nə etdiyini bilmədiyi üçün, dindən döndüyünü deyə bilər, olduqca məntiqsiz sözlər danışa bilər. Bu insanın özünə gəldikdən sonra etdikləri və söylədikləri əsasdır. Üstəlik, bir insan həqiqətən dindən dönmüş ola bilər və bunu açıq şəkildə dilə gətirə bilər. Bunun öldürülmə səbəbi halına gətirilməsi, həm Qurana atılmış bir böhtan, həm də adından da göründüyü kimi fanatizmdir. Quran bu vəhşi zehniyyəti lənətləyir.

Uca Allah Quranda sərxoşluqla bağlı xüsusilə belə bir hökm yer verərək, insanın harama girməsinin onun müsəlman olaraq Allahı sevməsinə və ibadət etməsinə mane olmadığını bildirir. Bu ayə, İslam dinində hər kəsə şəfqətlə və sevgiylə yanaşıldığına dair bir dəlildir. Lakin hər fürsətdə insanların öldürülməsinə can atan fanatiklər, Quranın hökmünə baxmayaraq, öz saxta hökmlərini yaratmışlar.

## ✓Peyğəmbərə qarşı ədəbsiz sözlər danışanların tövbəyə çağırılmadan öldürülməsi

**“Peyğəmbəri söyən şəxs tövbəyə dəvət edilmədən dərhal öldürülər”. (İbni Teymiye)**

**İbni Münzir dedi ki: Bütün elm sahibləri, Rəsulullah salləllahu əleyhi və səlləmi söyən şəxsin öldürülməsi xüsusunda ortaq məxrəcə gəlmişdirlər. (Enverşâh, el-Keşmîrî, “İkfâru'l-Mulhidîn”, səh. 64. “Tenbihu'l Ğafilîn ila Hükmi Şatimillahi ve'd-Dîn” adlı eserden naklen. Baxın: səh. 14)**

**Abdullahın rəvayətində belə deyilir: “Tövbəyə dəvət edilmədən öldürülər. Xalid ibn Vəlid Nəbi salləllahu əleyhi və səlləmi söyən bir adamı öldürdü və tövbəyə dəvət etmədi.**

**(İbni Teymiye)**

Bir insanın Allaha, peyğəmbərlərə, mənəvi dəyərlərə qarşı ədəbsiz ifadələr işlətməsi, əlbəttə ki, qəbuledilməzdir. Lakin, əlbəttə, hər insan eyni deyil. Bəzi insanlar imansız olur, bəziləri müxtəlif səbəblərlə dinə qarşı ön mühakimə bəsləyir, bəziləri qəzəbli yetişdirilir, bəziləri cahildir, bəziləri də Quran haqqında heç nə bilmir... Dolayısilə müxtəlif səbəblərdən ötrü insanların zehinlərində dinə qarşı ön mühakimə meydana gəlməsi mümkündür, xüsusilə indiki dövrdə qəzəb və nifrət içində yaşayan daha çox insan var.

İmtahan olunmağa gəldiyimiz bu dünyada, hər görüşə, hər ideologiyaya sahib insanlarla qarşılaşacağıq və bu görüşlər, bu ideologiyalar və bu insanlarla imtahan olunmağa davam edəcəyik. Müsəlmanın vəzifəsi, qarşısındakı insan nə qədər ön mühakiməli, qəzəbli olsa belə, ona gözəl şəkildə Quranda bildirilən gözəl əxlaqı öyrətmək və qərarı ona buraxmaqdır. Bəzən bu gözəl rəftar qarşı tərəfdə təsir oyadar və onun etdiyi səhvi görərək özünü dəyişdirməsinə vəsilə olar. Necə ki, bu, Quran ayəsində bildirilən bir həqiqətdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən onu ən gözəl tərzdə yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki mehriban bir dost olar. (Fussilət surəsi, 34)**

Ayədə müsəlmanlara, pis rəftara gözəl şəkildə cavab vermələri əmr edilir və bunun bu nəticəni verəcəyi bildirilir: "**O zaman səninlə ədavət aparan kimsə sanki mehriban bir dost olar...**".

Buna baxmayaraq, həmin insan yenə qeyri-münasib rəftar və sözlərinə davam edərsə, bunun müqabilində nə edəcəyimizi Quran bizə göstərmişdir:

**Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: "Salam!" deyərlər. (Furqan surəsi, 63)**

**Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, onlar başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız...(Nisa surəsi, 140)**

Gördüyümüz kimi Quranın bu hökmü, belə cahil cəmiyyətlərlə qarşılaşanda onlarla oturmamağı, oradan uzaqlaşmağı və onlara ancaq "salam" deyərək qarşılıq verməyi, yəni onlarla barışıq vəziyyətində olmağı xatırladır.

Ayələrdə diqqəti çəkən iki məqam var. Əvvəla bu insanlar həmsöhbət olunmayacaq qədər cahil və bəlkə də, dəfələrlə xəbərdar edilmələrinə baxmayaraq, doğrunu qəbul etməyən insanlardır. Çünki, təbliğ etməklə vəzifələndirilmiş və dolayısilə daim doğrunu deməklə məsul bir müsəlman, bu dəfə bu insanlarla qətiyyən həmsöhbət olmayaraq, onların yanından uzaqlaşır.

Yenə ayədə diqqət çəkilən digər bir xüsus; "**onlar başqa bir söhbətə keçməyincə**" onlarla birlikdə oturmamaqdır. Dolayısilə, bu insanlar, bəlkə də, bir müsəlmanın daim yaxın ətrafında olan və daim onlarla hömsöhbət olduğu insanlar ola bilər. Hətta başqa sözə keçdikləri an onlarla mehriban münasibət də saxlaya bilər.

Bu, yuxarıdakı saxta hədisdə ifadə edildiyi kimi, müsəlmandan vəhşi bir üslubun gözlənilməsi demək deyil. Bəzi insanlar yersiz danışdıqlarında onların yanından uzaqlaşmaq, lakin öyüd aldıqları müddətcə də mümkün qədər də onlara doğrunu göstərməkdir.

Bu mövzudakı uydurma hədislərin Qurana zidd olduğunu görmək üçün, digər bir əhəmiyyətli dəlil də, “tövbə etməyə mane olmasıdır”. Allah Quranda insanları bütün günahlar üçün tövbə etməyə dəvət etdiyi, tövbə insanın Allah ilə arasında olan bir ibadət olduğu, Allah bağışlayıcı olduğunu ayələrində dəfələrlə bildirdiyi və Quranda tövbə edənlər daim tərifləndiyi bir halda, bir insanın tövbə etməsinə nə haqla mane olmaq olar? İnsanın Allahdan bağışlanmasını istəməsinə necə mane oluna bilər? Rəbbimizin; **“...tövbələri qəbul edəndir, bağışlayandır”** (Bəqərə surəsi, 37) ayəsini görməzlikdən gələrək, bir insanın əlindən əməlindən ötrü peşman olmaq və Allahdan bağışlanma diləmək haqqı necə alına bilər?

Əlbəttə ki, heç kimin bunu etməyə əsla və qətiyyən haqqı yoxdur.

Rəbbimiz yenə digər bir ayəsində belə buyurur:

**Yalnız tövbə edənlər, (özlərinin və başqalarının əməllərini) islah edənlər və (endiriləni) bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, Rəhmliyəm!. (Bəqərə surəsi, 160)**

Allahın **“tövbələri qəbul edənəm, Rəhmliyəm”** hökmünü öz aləmlərində, demək olar ki, rədd edərək yalnış tətbiqlərini uydurma hədislərə əsaslandırmağa çalışanlar, açıq şəkildə Qurana zidd şəkildə hərəkət edirlər.

## ✓Fanatiklərin dinindəki lənətli heyvanlar mövhumatı

**Ov, qoyun və çoban itlərindən başqa bütün itləri öldürün. (4949-Buhârî-Müslim-Muvatta-Tirmizî-Nesâî)**

**"Bütün qara itləri öldürün. Çünki onlar şeytandır".**

**(Hanbeli 4/85, 5/54)**

**"Deyilənə görə uzunqulaq şeytan gördüyü vaxt anqırar". (Müslim)**

**"Başqa bir hədisə görə siçan əslində yəhudidir, buna görə dəvə südü içmir". (Müslim Zühd)**

**Bir hədisə görə qarğa sapqındır (fasiqdir). (Buhari 59/16; Hanbeli, Müsned 2/52)**

**Göyərçin şeytandır. (5331-Ebu Davud-İbnu Mace)**

**Kərtənkələ günahkardır. (Müslim 2239/145, İbni Mace 3230, Ebu Davud 5262)**

**Kərtənkələni bir həmlədə öldürən adam yetmiş savab qazanar. (Ebu Davud 5264, Müslim 2240/147)**

**"Zina edən" meymunların daşlanaraq öldürülməsi... (Buhari 63/27) – (zina edən bir meymunun tutulduqdan sonra daşlanaraq öldürüldüyü və səhabələrdən birinin də bunu etdiyi digər bir uydurma hədisdir.)**

“Şeytan görən uzunqulaq, yəhudi siçan, sapqın qarğa, şeytan göyərçin, zina edən meymun, öldürülməli olan yazıq qara itlər və kərtənkələlər”...

Bütün bunlar fanatik zehniyyətin Qurandan nə qədər uzaq və dəhşətli bir həyat bəxş etdiyinin xülasəsidir. Bu qəribə zehniyyət ov və çoban itlərindən başqa bütün itləri öldürməyi əmr edən bir dinin məhsuludur. Bu din dünyanın ən şirin varlıqlarından biri olan, Allahın növbənöv və inanılmaz bir sevgi və qoruma duyğusuyla yaratdığı, bir-birindən möhtəşəm xüsusiyyətlərə sahib ev itlərinin, balaca ev itlərinin, gözətçi itlərin hamısının öldürülməsini əmr edir. Halbuki Quranın; **“yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır. (İsra surəsi, 44)** ayəsinə əsasən, bizim qavraya bilmədiyimiz bir üsulla Allahı tərifləyən, Allahın cənnət üçün xüsusi olaraq sevimli yaratdığı bu canlılar necə fasiq və ya şeytan ola bilər? Bir siçan necə yəhudi ola bilər və yəhudi olmaq necə günah sayıla bilər?

Üstəlik, bir meymun necə zina edə bilər? Bu canlının əxlaqi dəyərləri, sədaqət göstərməli olduğu həyat yoldaşı, bütün bunları dərk edəcək bir şüuru və bütün bunlarla əlaqəli olaraq daşıdığı məsuliyyət vardırmı ki zina ilə günahlandırılsın? Bu olduqca cahil bir iddiadır. Lakin fanatiklər, səhabələrin adını belə bir saxtakar iddiada da hallandıraraq onlara böhtan atmaqdan çəkinmirlər.

Əlbəttə ki, bunların hamısı uydurma hədislərdir və Quranda belə zalım hökmlərin olmasına imkan yoxdur. Allah Quranda, tərifləyərək bəhs etdiyi Kəhf və Rəqim əhlinin yanında itlərinin də olduğunu bildirir:

**Onlar yatmış ikən sən onları oyaq hesab edərdin. Biz onları sağa-sola çevirirdik. <u>Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb yatmışdı</u>... (Kəhf surəsi, 18)**

**Bəziləri: “Onlar üçdür, dördüncüsü <u>köpəkləridir</u>!” deyəcəklər. Digərləri isə “Onlar beşdir, altıncısı <u>köpəkləridir</u>!” deyəcəklər. Bununla da qeyb haqqında təxmini fikir yürüdəcəklər. Bəziləri də: “Onlar yeddidir, səkkizincisi <u>köpəkləridir</u>!” deyəcəklər. De: “Onların sayını Rəbbim daha yaxşı bilir. İnsanlardan bunu bilən çox azdır!”...(Kəhf surəsi, 22)**

Ayələrdən də açıq şəkildə göründüyü kimi, müsəlmanların yanında özlərini qoruyan və onlarla dost olan itlər ola bilər. İtlərlə yanaşı, Quranda adları çəkilən başqa heyvanlar da vardır.

1) Qurana görə heyvanlara sevgi və şəfqət göstərilər:

**(Süleyman) dedi: "Həqiqətən mən, nemətə (və ya ata) olan məhəbbəti Rəbbimi zikr etməkdən dolayı üstün tutdum. Sonunda bu atlar (qaçdılar və toz-torpağın) arxasında gizləndilər. (Süleyman): "Onları yanıma qaytarın!" dedi. O, atların qıçlarını və boyunlarını oxşamağa başladı. (Sad surəsi, 32-33)**

**Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda dişi bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər". Süleyman qarışqanın bu sözünə gülümsədi və dedi: "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və mən öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"**

**(Nəml surəsi, 18-19)**

2) Heyvanlar Quranda Allahın əsəri, üzərində düşünülməli olan iman həqiqəti kimi nümunə verilir:

**Dəvənin necə yaradıldığına baxmırlarmı? (Ğaşiyə surəsi, 17)**

**Həqiqətən, Allah ağcaqanadı da, ondan üstün olanı da, məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən gələn haqdır. İnkarçılar isə deyirlər: "Bu məsəllə Allah nə (demək) istədi?" Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. İstəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**

3) Quranda heyvanların ağıllı olduqlarına diqqət çəkilir:

**Allah, yeri eşələyən bir qarğa göndərdi ki, ölmüş digər bir qarğanı basdırmaqla ona qardaşının cəsədini necə basdırmağı göstərsin. O dedi: "Vay halıma! Doğrudanmı mən, qardaşımın cəsədini basdırmaqda bu qarğa kimi olmaqdan da acizəm?" Beləliklə, o, peşmançılıq çəkənlərdən oldu. (Maidə surəsi, 31)**

4) Allah Quranda heyvanların vəhy ilə hərəkət etdiklərini bildirir:

**Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)**

5) Quranda heyvanlarda yaradılış dəlilləri olduğu xəbər verilir:

**Şübhəsiz ki, heyvanlarda da sizin üçün bir ibrət vardır. Biz sizə, onların qarınlarındakı yarım həzm olunmuş qidalar və qan arasından çıxan, içənlərin boğazından rahat keçən dupduru süd içirdirik. (Nəhl surəsi, 66)**

6) Heyvanların bəxş edilən bir gözəllik olaraq növbənöv yaradıldığı xəbər verilir:

**İnsanlar, heyvanlar və davarlar arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah üstün və güclüdür, Bağışlayandır. (Fatir surəsi, 28)**

**Məgər onlar görmürlər ki, Biz onlardan ötrü sahib olduqları heyvanları Öz əllərimizlə yaratmışıq? (Yasin surəsi, 71)**

7) Heyvanların Allaha səcdə etdikləri və Onu təriflədikləri bildirilir:

**Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi? Onların əksəriyyəti isə əzab çəkməyə layiq olanlardır. Allahın alçaltdığı kimsəni heç kəs ucalda bilməz. Həqiqətən, Allah istədiyini edər. (Həcc surəsi, 18)**

**Məgər göylərdə və yerdə olanların, həm də qanad açıb uçan quşların Allaha təriflər dediklərini görmürsənmi? Hər biri öz duasını və həmd-sənasını bilir. Allah onların nə etdiklərini bilir. (Nur surəsi, 41)**

Göründüyü kimi, Allah Quranda növbənöv heyvanları, Özünü tərifləyən, ağıllı, möhtəşəm yaradılış nümunəsi olaraq nümunə göstərmiş və peyğəmbərlərin onlara sevgi və şəfqətlə yanaşdıqlarını bildirmişdir. Fanatiklərin heyvan nifrətini ön plana çıxardan azğın din anlayışına Quranın heç bir ayəsində rast gəlinmir.

Quran hökmlərini tətbiq edən Peyğəmbərimiz (s.ə.v)-in həyatında da, heyvanlara verilən dəyər və onlara göstərilən sevginin nümunələrinə rast gəlirik. Peyğəmbərimiz (s.ə.v), fanatik zehniyyətin iftiralarına sədd meydana gətirəcək qədər heyvanlara şəfqətlə yanaşan və qəlbi onlara qarşı sevgiylə coşub daşan biri idi. Peyğəmbərimiz (s.ə.v)-in heyvanlara qarşı sonsuz şəfqətini göstərən nümunələrdən bəziləri müxtəlif başlıqlar altında verilmişdir.

# Peyğəmbərimizin (s.ə.v)-in heyvan sevgisi

## ✓Peyğəmbərimiz (s.ə.v) heyvanlara zülm edən çirkin adətləri yox etdi

Peyğəmbərimiz (s.ə.v)-in təbliğə başladığı dövrdə cəmiyyətin cahilliyi, onların heyvanlara münasibətlərində də əks olunurdu; canlı heyvanları ox atma yarışlarında hədəf yerinə bağlayar, öz heyvanlarını başqalarının heyvanlarından fərqləndirmək üçün qulaq və quyruqlarını kəsər, hətta onları dağlayardılar. Çöldə acdıqları vaxt canlı dəvənin hörgücünü yarıb yağından götürərər, sonra həmin yeri tikərdilər.

Peyğəmbərimiz (s.ə.v) cahil cəmiyyətin bu dəhşətli adətlərini də tamamilə ortadan qaldırdı. Heyvanların da mərhəmətə möhtac olduqlarını öyrətdi. Onlara üzərində tətbiq olunan bütün zalım hərəkətlərə son qoyuldu.

## ✓Peyğəmbərimiz (s.ə.v) heyvanların həddindən artıq işlədilməsini qadağan etmişdir

Peyğəmbərimiz (s.ə.v) heyvanların həddən artıq işlədilmələrinin də qarşısını almışdır. Əsrlərdir davam edən, heyvanların belində üzbəüz oturaraq saatlarla xitabət və şeir mərasimləri keçirmək ənənəsi qadağan edildi. Sahiblərinə ancaq həqiqi ehtiyac duyduqları müddət qədər heyvanlarına minmələri icazə verildi. Peyğəmbərimiz (s.ə.v): *"Heyvanlarınızın belini minbərlər yerinə qoymayın. Bu mütləq bir həqiqətdir ki, piyada çətinliklə gedəcəyiniz bir yerə sizi aparmaları üçün Allah onları sizin xidmətinizə verdi. Yeri də sizin (dayanma yeriniz) etdi, elə isə ehtiyaclarınızı (duran heyvanın belində deyil) yerdə təmin edin" (Ebu Davud, Cihad 61, (2667))* deyə xəbərdarlıq etmişdir.

Peyğəmbərimiz (s.ə.v) başqa bir hədisdə isə; *"heyvanlarınıza onları yormadan, gözəl şəkildə minin və istifadə etmədiyiniz vaxtlarda da dincəlmələrinə izin verin! Onları*

*yollardakı və küçələrdəki söhbətləriniz üçün kürsü olaraq istifadə etməyin (bellərində dayanıb söhbət etməyin)" (Ahmed, III, 439) deyə buyurur.*

## ✓İşləyən heyvanlara dincəlmək imkanının verilməsi

Peyğəmbərimiz (s.ə.v) işlədilən heyvanlara insanlar kimi, dincəlmək haqqı vermiş, səfər vaxtlarında verilən fasilələrdə, hər şeydən əvvəl heyvanların ehtiyaclarının və dincəlmələrinin təmin edilməli olduğunu vurğulamışdır.

## ✓Peyğəmbərimiz (s.ə.v) heyvanlara əziyyət və işgəncə verməyi qadağan etmişdir

Peyğəmbərimiz (s.ə.v); *"Allahın haqsız yerə bir sərçəni öldürəni qiyamət günündə hesaba çəkəcəyini" (Ebu Davud, 2/11)* bildirmiş; *"quşların yuvalarının dağıdılmamasını, yumurta və balalarının götürülməməsini" (Buhari Edebü'l-Müfred, 139)* əmr etmişdir.

Peyğəmbərimiz (s.ə.v) mindiyi heyvanın üzünə sərt bir zərbə endirən şəxsi dayandırmış və bu hərəkətinin Allahın qoyduğu qanunu pozmaq mənasını verdiyini bildirərək; *"Allah heyvanları bunu edəsiniz deyə yaratmadı" (Ahmed, Müsned, 4/131)* demişdir.

## ✓Peyğəmbərimiz (s.ə.v)-in ana it və onun balalarına olan şəfqəti

Peyğəmbərimiz (s.ə.v) müharibə vaxtı on min nəfərlik ordusu ilə hərəkət edərkən, yolda yeni doğmuş dişi bir itlə balalarını görər. Peyğəmbərimiz (s.ə.v) Suraka oğlu Cuaylı çağıraraq ona: *"Ana ilə balalarının önündə durmalı və bütün ordu keçənə qədər onları əzilməkdən qorumalısan" (eş-ŞÂMÎ, Sübülü'l-hüda ve'r-reşâd,*

*VII, 51)* deyə əmr verər. Peyğəmbərimiz (s.ə.v)-in şəfqəti sayəsində dişi itlə balalarını narahat etməmək üçün on min nəfərlik ordu öz yolunu dəyişdirmişdir.

## ✓Peyğəmbərimiz (s.ə.v)-in heyvan sevgisini göstərən ifadəsi: "Bütün itlərin canı möhtərəmdir"

"*Təkcə faydalı itlər deyil, zərər vermədiyi, hücum çəkmədiyi və vəhşiləşmədiyi müddətcə bütün itlərin canı möhtərəmdir, toxunulmazdır". (Haşyetu'l-Beycermî Ala'l-Menhec-el-Mektebetu'ş-Şamile, I/474)*

## ✓Peyğəmbərimiz (s.ə.v)-in pişiyi: Müəzza

Peyğəmbərimiz (s.ə.v)-in müəzza adlı pişiyi olub. O, müəzzanı olduqca çox sevirdi. Belə ki, bir gün müəzza taxtda oturan Peyğəmbərimiz (s.ə.v)-in paltarının ucunda yuxuya getmişdi və ona yazığı gələn Peyğəmbərimiz (s.ə.v) də paltarını kəsərək taxtın üstündən durmuşdu.

Əlavə məlumat: Peyğəmbərimiz (s.ə.v)-dən hədislər nəql edən Əbu Hüreyrənin adının mənası "pişik atası"dır.

## ✓Peyğəmbərimiz (s.ə.v)-in ana quş və balalarına olan şəfqəti

"*Allahın elçisi ilə bir yerdəydik. Yanında iki balası olan sərçəyə bənzər bir quşa rast gəldik. Balaları tutduq. Bu vaxt anaları fəryad edərək qanadlarını çırpmağa başladı. Rəsulullah (s.ə.v) etdiyimiz hərəkəti gördükdə: "Bunu balasından kim ayırdı? Balalarını yerinə qoyun" dedi. Biz də onları sərbəst buraxdıq." (Ebu Davud, "Edeb", 163-164)*

## ✓Keçinin balası

Peyğəmbərimiz (s.ə.v) keçi sağan bir adamla rastlaştdıqda: *“Sağanda balasına da süd saxla” dedi (Mecmua'z-Zevaid, 8:196).*

## ✓Ac saxlanılan dəvə və sahibi

Peyğəmbərimiz (s.ə.v) Mədinəli müsəlmanlardan birinin bağında bir dəvənin aclıqdan bağırdığını eşidib narahat oldu. Dəvənin yanına gələrək onu oxşadı. Sahibinin kim olduğunu öyrəndikdən sonra: *“Heyvanlara göstərdiyiniz bu rəftardan ötrü Allahdan qorxmursunuzmu?* deyərək ona nəsihət verdi *(Ebû Davud, “Cihad”, 44)*. Başqa bir hədisə görə isə Peyğəmbərimiz (s.ə.v): *“Danışa bilməyən bu heyvanlardan ötrü Allahdan qorxun!”* deyə buyurmuşdur *(Ebû Dâvûd, Cihâd, 44/2548)*.

## ✓Yatan ceyran

Peyğəmbərimiz (s.ə.v) səfərlərindən birində sərinliyi olmayan kölgə altında qıvrılıb yatan bir ceyran gördü. Səhabələrindən birinə orada gözləyib hamı keçənə qədər, keçənlərin heyvanı narahat etmələrinə izin verməməsini əmr etdi. *(Muvatta, Hacc, 79; Nesâî, Hacc, 78)*

## ✓Üzü dağlanmış uzunqulaq

Peyğəmbər (s.ə.v) bir gün yolda üzü dağlanmış bir uzunqulaq gördü və: *“Allah onu dağlayanlara lənət etsin!”* dedi *(Müslim, Libâs, 107)*. İşarə məqsədilə qoyulan damğanın, heyvanların ağrımayacaq yerlərinə vurulmasını tövsiyə etdi.

## ✓Heyvanlara yaxşılıq etmək

**“Səfərdə olan bir adam susayır və tapdığı bir quyuya daxil olub ondan su içir. Quyudan çıxdıqda susuzluqdan dilini çıxarıb ləhləyən bir it görür. O; “deyəsən bu it də mənim kimi susamışdır!” deyib dərhal quyuya daxil olaraq, ondan məsti ilə (ayaqqabısıyla) su çıxarıb itə içirdir. Bununla da uca Allah onu bağışlayır. Səhabələr: “Ey Allahın Rəsulu, heyvanlara etdiklərimizə görə savab qazanırıqmı?” deyə soruşanda Rəsulullah (s.ə.v): “Hər canlıya edilən yaxşılığın mütləq savabı var” deyə buyurdu. (Buhârî, “Şürb”, 9; “Mezâlim”, 23; Müslim, “Selâm”, 153)**

**Yoldaşları: “Heyvanlara su verdiyimizdə bizə savab gəlirmi?” deyə soruşanda Rəsulullah (s.ə.v) belə cavab verdi: “Yaşayan hər canlını sulamaq savabdır” (Tecrit, VII cild, səh. 223)**

Həmin bu hədisləri gerçək bir dəlil kimi verməyimizin səbəbi Qurana uyğun olmalarıdır. Peyğəmbərimiz (s.ə.v)-in heyvanlara bu cür şəfqətlə yanaşmasının səbəbi, Qurandan aldığı təhsildir. Şübhəsiz ki, Peyğəmbərimiz (s.ə.v), Allahın növbənöv, bir-birindən gözəl, bir-birindən məharətli və xüsusi canlıları bir dəlil, bir gözəllik, bir rəhmət olaraq yaratdığını ən yaxşı təqdir edən insandır. Həmçinin Allahın Rəhman və Rəhim isimlərinin, Onun münis sənətinin canlılarda təcəlli etdiyini də açıq şəkildə görə bilirdi. Sevgini tərifləyən Quranda, nəsihət edilən mərhəmət və şəfqətin bir müsəlmanda necə təcəlli edəcəyini Peyğəmbərimiz (s.ə.v) öz tətbiqləriylə göstərmişdir. Bunu Peyğəmbərimiz (s.ə.v)-in mərhəmətli olmaqla bağlı nəsihətlərində də görmək mümkündür:

**“Yerdəkilərə mərhəmət edin ki, göydəkilər də sizə mərhəmət etsin!”. (Tirmizî, Birr, 16/1924)**

**“Mülayimlik və gözəl rəftardan məhrum kimsə, hər cür xeyirdən də məhrumdur...” (Müslim, Birr, 76)**

Dolayısilə, mövhumatçılar İslam dinində və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində əbəs yerə heyvanlara dair vəhşət hökmləri axtarırlar. Quran; insana, heyvana və bitkiyə

qarşı ən yüksək sevginin təsvir edildiyi kitabdır və Peyğəmbərimiz (s.ə.v) də ömrü boyu Quran hökmlərini tətbiq etmişdir.

## ✓Fanatizm iyrəncliyi

**“Ureynə və Ukeylə qəbilələrindən bir qrup Mədinəyə gələrək müsəlman oldular. Mədinənin havası onlara pis təsir edəndə Peyğəmbər onlara dəvə sidiyi içmələrini tövsiyə etdi.” (Buhari Tıp5/1, Hanbel 3/107, 163)**

**“İçkinizin (və yeməyinizin) içinə milçək düşərsə, onu tamamilə batırın, sonra da girən milçəyi çıxardıb atın. Çünki milçəyin iki qanadından birində xəstəlik, digərində isə şəfa var...” (Diyanət nəşriyyatı, IX cild, səh. 70 və Hədis N:. 1365))**

**İbni Abbas (r.ə) belə nəql edir: “Rəsulullah əleyhissəlatu vəssəlam belə buyurdu: “Yemək yeyərkən yalamadıqca və ya yalatmadıqca əlinizi (dəsmala) silməyin”. (Buhari, Et'ime 52; Müslim, Eşribe 129, (2031); Ebu Davud, Et'ime 52, (3847)).**

**Rəsulullah (s.ə.v)-ə yağın içinə düşən siçan barədə sual verildi. Əleyhissəlatu vəssəlam da: “Onu və murdarladığı hissəni atın yağınızı isə yeyin!” deyə buyurdu. [Buhari, Vudu 67, Zebaih 34; Muvatta, İsti'zan 20, (2, 971, 972); Ebu Davud, Et'ime 48, (3841, 3843)]**

Burada sadəcə bir neçə nümunəsini sadaladığımız bu saxta hədislər, fanatik zehniyyətin insanlara necə biabırçı və iyrənc bir həyat tərzi təqdim etdiyinin əhəmiyyətli dəlillərindəndir. Fanatiklər bu uydurma hədislərlə, öz aləmlərində Peyğəmbərimiz (s.ə.v)–ə belə böhtan atmağa cürət edirlər. Bu saxta, lakin fanatiklər tərəfindən tətbiq olunan hədislər, həmçinin bu şəxslərin təmizlik və ədəb anlayışlarından da xəbər verir.

Allah əsla belə bir iyrəncliyə izin verməmişdir. Qurana görə müsəlmanlar təmiz olmaqla, evlərini təmiz saxlamaqla, təmiz geyinməklə və təmiz yeməklər yeməklə məsuldurlar. Quranda müsəlmanların təmiz, müşriklərin isə murdar olduqları bildirilir. Quran əxlaqını yaşamayan, Allahın nazil etdiyindən başqa din gətirən, buna görə də şirk içində olan fanatiklər də, şübhəsiz ki, bu cürdürlər. Allah belə xəbər vermişdir:

**Ey iman gətirənlər, həqiqətən də, müşriklər murdardırlar... (Tövbə surəsi, 28)**

**...Allah, ağlını işlədə bilməyənləri murdar edər.**

**(Yunis surəsi, 100)**

Gördüyümüz kimi, Allah ayələrdə "ağlını işlədə bilməyən" bir cəmiyyətdən bəhs edir. Bu cəmiyyət Qurandakı həqiqətləri qulaqardına vuraraq, mövhumatlara tabe olan fanatikləri çox yaxşı təsvir edir. Əllərində Quran olmasına baxmayaraq, başqa bir din uyduran və bu dinin kor-koranə yaradıldığını və saxta olduğunu bilə-bilə, ağıllarını işlətməyərək mövhumatlara uyan cəmiyyətləri Allah "murdar edər". Bu hal həqiqətdən də yaşanır və fanatiklər ağılsızlıqları ucbatından yuxarıdakı saxta hədislərdə bildirilən iyrəncliklərə inanaraq iyrənc bir həyat tərzi yaşayırlar.

Əlbəttə ki, bu insanların əksəriyyəti cahillik və məlumatsızlıqdan ötrü istəmədən bu həyatı yaşayır. Onları həmin bu ağılsız fanatik cəmiyyətlə eyni tutmamaq lazımdır. Onların doğrunu tapması üçün, bu kitabda ətraflı açıqlanan məlumatlara, yəni Qurandan gətirilən dəlillərə əsaslanan maarifləndirməyə daimi bir ehtiyac var.

Rəbbimiz Quranda müsəlmanlardan olduqca geniş və mükəmməl bir təmizlik anlayışına malik olmalarını istədiyini bildirir:

**Geyimini təmiz saxla. Murdarlıqdan qaçıb uzaqlaş. (Müddəssir surəsi, 4-5)**

**Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. (Bəqərə surəsi, 168)**

**... İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın (və digər işləri görməyin) üçün daha layiqdir. Orada maddi və mənəvi cəhətdən təmizlənməyi çox sevən kişilər vardır. Allah da təmizlənənləri sevir. (Tövbə surəsi, 108)**

**Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən**

**yeyin və əgər yalnız Allaha ibadət edirsinizsə, (yenə də yalnız) Ona şükür edin! (Bəqərə surəsi, 172)**

**İman gətirib saleh əməllər işləyənləri isə ağacları altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır...**

**(Nisa surəsi, 57)**

**Səndən onlara nəyin halal edildiyini soruşurlar. De: "Bütün təmiz nemətlər halal edildi...". (Maidə surəsi, 4)**

**Bu gün pak nemətlər sizə halal edildi... (Maidə surəsi, 5)**

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında iman edənlər üçündür, Qiyamət günü isə yalnız onlara məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə bir-bir izah edirik.**

**(Əraf surəsi, 32)**

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər...(Əraf surəsi, 157)**

**Bir zaman Biz İbrahimə evin (Kəbənin) yerini nişan verib: "Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!" demişdik.**

**(Həcc surəsi, 26)**

Quranda müsəlmanlara təmizliyin əmr edildiyi ayələr daha çoxdur. Biz burada yalnız bir neçəsini sadaladıq. Əraf surəsinin 32-ci ayəsində xüsusi olaraq diqqət çəkilən əhəmiyyətli bir məqam var, bu da müsəlmanlara zinətləri haram edənlərin olması kimi,

təmiz ruziləri də haram edənlərin olmasıdır. Həqiqətən də, fanatiklərin həyat tərzinə diqqətlə nəzər saldığımızda, təmizliyi müsəlmanlara haram edənlərin fanatik zehniyyətə sahib bu insanlar olduqlarını görərik.

Qurana əsasən bir müsəlman daim müasir geyinən, ən təmiz, ən baxımlı insan olmalı, təmiz qidalar yeməli, yaşadığı yeri təmiz saxlamalıdır. Yəni hər an tərtəmiz olmalıdır.

Peyğəmbərimiz (s.ə.v) olduqca təmizkar idi. Bu qədər təmizkar olan Peyğəmbərimiz (s.ə.v)-ə, yuxarı bəhs etdiyimiz tərzdə saxta hədislərlə böhtan atılmağa çalışılması, şübhəsiz ki, Allah qatında çox böyük günahdır. Lakin fanatiklər bu həqiqətdən xəbərsiz kimi davranarlar.

Saxta hədislərdəki səhvləri göstərmək üçün Peyğəmbərimiz (s.ə.v)-in həqiqətdə həyata keçirdiklərinə baxaq. Peyğəmbərimiz (s.ə.v)-in təmizkarlığı və təmizliyə verdiyi diqqəti mövzusundakı bəzi səhih hədislər belədir (bu hədislər Qurana uyğun gəldikləri üçün səhih qəbul edilir):

**“Müsəlmanlar təmizdir, çirksizdir. Siz də təmiz olun, təmizlənin. Çünki cənnətə təmizlər girər”. (G.Ahmed Ziyaüddin, Ramuz El Hadis, I cild, / Deylemi)**

**“Mömin natəmiz olmaz”. (Buhari, Gusul/276)**

**“Hər şeyi yaxşı təmizləyin! Təmizlik imana, iman da cənnətə aparır”. (Taberani)**

**“Təmizlik imanın yarısıdır”. (Müslim)**

**Hz. Səlman (r.ə) deyir: “Tövratdan oxudum, orada: “Yeməyin bərəkəti yeməkdən sonra (əl və ağzı) yumaqdadır” deyilirdi. Bunu Rəsulullah (s.ə.v)-ə söylədim O da mənə: “Yeməyin bərəkəti yeməkdən əvvəl və sonrakı təmizlikdədir!” dedi”. (Ebu Davud, Et'ime 12, (3761); Tirmizi, Et'ime 39, 1847)**

**“Sarımsaq yeyən qoxusu çəkilmədən məscidimizə yaxınlaşmasın, insanın narahat olduğu şeylərdən mələklər də**

**narahat olar". (Taberani)**

**"Paltarlarınızı yuyun, artıq tüklərinizi qırxın, dişlərinizi təmizləyin, təmiz və gözəl geyinin! Pak olun!" (İbni Asakir)**

**"Sarımsaq və ya soğan yeyən şəxs bizdən və məscidlərimizdən uzaq dursun, evində otursun". (Buharî, Edeb, 76)**

**"Namazın açarı təmizlikdir". (Tirmizi)**

**"Gözəl geyinin ki, Allahın sizə verdiyi nemətlər görünsün!". (Taberânî)**

**(Bəhrül-raiq)də belə buyurulur: "Camal, çirkinliyi yox etmək, təmkinli olmaq və şükür etmək üçün neməti göstərmək deməkdir. Allah camal sahibi olmağı tərifləyir. Camal üçün təmiz, gözəl geyinmək mübahdır". (Oruç bahsi)**

**"Allah quluna verdiyi nemətin onun üzərində görülməsini sevər". [Taberânî]**

**Əbu Süfyan (r.ə): "Mənə Əbu Əyyub Əl-Ənsari, Şeyx Cabir ibn Abdullah Ənsari və Malik ibn Ənəs xəbər verdilər ki, tövbə surəsinin 108-ci ayəsinin mənası belədir: "Orada maddi və mənəvi cəhətdən təmizlənməyi çox sevən kişilər vardır. Allah da tez-tez təmizlənənləri sevir" ayəsi nazil olduğu vaxt Rəsulullah: "Ey Ənsar camaatı! Allah sizi təmizliyinizdən ötrü tərifləyir, necə təmizlənirsiniz ki bu tərifə layiq oldunuz?" deyə soruşdu. Onlar da: "Biz namaz üçün dəstəmaz alırıq, qüslün pozulmamağı üçün yuyunuruq" dedilər. Əleyhissəlatu vəssəlam da: "Elə bunun üçün təriflənirsiniz! Buna davam edin!" deyə buyurdu".**

**(Kütüb-i Sitte, 6066)**

**Hz. Ənəs (r.ə) belə nəql edir: “Mənə qadın və gözəl qoxu sevdirildi, namaz gözümün nuru oldu”.**

**(Nesâî, İşretu'n-Nisâ 1, (7, 61))**

## ✓Fanatizmin çirkli din və keyfiyyətsiz müsəlmanlıq anlayışı

Fanatiklərin, müxtəlif saxta hədislərin təsiri altında hər cür iyrəncliyi mübah qarşılayan və murdarlığın hakim olduğu həyat tərzləri özüylə birlikdə dəhşətli bir keyfiyyətsizliyi də gətirir. Məhz bundan ötrü də, ümumiyyətlə bəzi İslam cəmiyyətlərində ciddi şəkildə yayılmış bir keyfiyyətsizlik dəbi var. Bu keyfiyyətsizlik anlayışına görə bir müsəlman xarici görünüş etibarilə çirkli, baxımsız, səliqəsiz, estetikadan və nəzakətdən uzaq, kobud, gözəlliyə və nəzakətə əhəmiyyət verməyən, hətta bunlardan anlamayan bir insan modelində ortaya çıxar. Fikir verilsə, qeyd olunan cəmiyyətlərdə "müsəlman" deyiləndə göz qabağında belə bir görüntünün canlanmasına diqqət yetirildiyi görülər.

Bu insanların İslam anlayışına baxdıqda belə keyfiyyətsiz və dəhşət doğuran bir həyat tərzinin ortaya çıxması, əlbəttə ki, heç bir təəccüb doğurmur. Hətta qadınların qaşlarını belə almalarını qadağan edən (bu mövzu barədə sonrakı fəsildə ətraflı şəkildə məlumat veriləcək), yeməkdən sonra əllərini yumaq əvəzinə onları başqasına yaladan, içinə milçək düşən şorbada şəfa olduğunu iddia edən bir anlayışdan keyfiyyət gözləmək, sözsüz ki, qeyri-mümkündür. Saxta hədislərin formalaşdırdığı bu saxta din anlayışı o qədər geniş yayılmışdır ki, bir müsəlmanın gözəl və keyfiyyətli görünməsi həmin şəxslərin sərt reaksiyasına səbəb olur.

İslam adı altında oynanılan bu oyun bütün İslam cəmiyyətlərinə bu və ya digər formada hakim kəsilib və bu qorxunc görüntü, əlbəttə ki, digər cəmiyyətləri də narahat edir.

Halbuki Quranda möhtəşəm keyfiyyət anlayışı var. Peyğəmbərimiz (s.ə.v) Quranı ən mükəmməl tətbiq edən şəxs kimi dövrünün ən keyfiyyətli və ağıllı insanı olmuşdur. Daim təmiz idi, ən keyfiyyətli və ən təmiz paltarları geyinər, ən nəzakətli rəftarı nümayiş etdirərdi. Peyğəmbərimiz (s.ə.v) bu gün yaşasaydı, şübhəsiz ki, yenə bu dövrün ən keyfiyyətli insanı olardı. Çünki Peyğəmbərimiz (s.ə.v) rəhbəri Qurandır və Quran hər dövrdə ən yüksək keyfiyyəti tələb edir.

Bunu xüsusi olaraq vurğulamaq lazımdır ki, kefiyyəti pul, mal-mülk və ya marka geyimlərlə əldə etmək qeyri-mümkündür. **Keyfiyyət; təmizlik, özünə diqqət, gözəlliyə və estetikaya dəyər vermək, mükəmməl rəftar və davranış sərgiləmək, şəfqət və ağıllılıq, hörmət və gözəl əxlaq ilə əldə edilən bir xüsusiyyətdir.** İnsan hər gün eyni paltarı geyinə bilər, lakin onu təmiz və səliqəli geyinərsə keyfiyyətli olar. Yaxud insan başqasının fikrini qəbul etməyə bilər, lakin onun fikrinə hörmət göstərib ona şəfqətlə davranarsa keyfiyyətli olar. İnsanın keyfiyyətini büruzə verən ən mühüm göstəricilərdən biri onun davranışlardır. Pisliyi, tamahkarlığı və keyfiyyətsiz hərəkətlər etməyi özünə sığışdırmayan kəs, onsuz da,

normal olaraq keyfiyyətlidir. Gözəl danışan, gözəlliyi tərifləyən, hər fürsətdə incəsənət və zərifliyi üstün tutan, qarşısındakılara dəyər verən insan keyfiyyətlidir.

Məhz keyfiyyətli insan olmağı tələb edən bütün bu xüsusiyyətlər böyük ölçüdə İslam cəmiyyətlərində unudulmuşdur. Bunun da səbəbi yenə, bəzi İslam cəmiyyətlərinin ən böyük səhv olaraq Quranı tərk etmələri olmuşdur. Keyfiyyətə deyil, kəmiyyətə, sevgiyə deyil, nifrətə, təmizlik və baxıma deyil, natəmizlik və səliqəsizliyə əhəmiyyət verən cəmiyyətlər formalaşmışdır. Bunun tək həll yolu Qurandır. Hal-hazırda ən vacib zərurətlərdən biri, bir müsəlmanın sahib olduğu üstün keyfiyyəti, Qurandan dəlillər gətirməklə həmin bu cəmiyyətlərə göstərməkdir. Qurandan dəlillər gətirmədikcə həmin bu cəmiyyətlər demokratiyadan uzaqlaşmağa, qəzəbli olmağa, keyfiyyətsizliyi yaymağa, incəsənət və təmizliyə əhəmiyyət verməməyə davam edəcəklər. Bu isə hər ötən gün böyüyən ciddi bir bəladır.

# III FƏSİL
# Fanatiklərin qadın nifrəti

## ✓Qadınlar bu dünyanın ən gözəl nemətlərindən biridir

Fanatik zehniyyətin sevgisizliyini və qatılığını gözlər önünə sərən ən diqqətçəkən nümunələrdən biri də qadınlara baxış prizmalarıdır. Öz aləmlərində qadınları bir cür aşağı varlıq hesab edən fanatiklər, ortaya atdıqları saysız-hesabsız mövhumatlarla qadınları cəmiyyətdən təcrid edən, hətta küçədə görməyə belə dözə bilməyən zehniyyətə sahibdirlər. Sonrakı səhifələrdə bu barədəki saxta hədislərdən nümunələr verərək fanatiklərin qadınlara olan baxış prizmalarını və bu yanlış baxış prizmasının Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sözlərinə tamamilə zidd olduğunu göstərəcəyik. Bəhs olunan saxta hədislər, bir çox müsəlman ölkəsində qadınların, hələ də niyə əxlaqsızca tapdalanmağa çalışıldığının daha yaxşı başa düşülməsini təmin edəcəkdir.

Fanatiklərin qadınlara baxışının təməlində, qadınların imanının və ağlının çatışmadığını hesab edən anlayış durur. Bundan ötrü də, qadınların yarımçıq varlıq hesab edilməli, idarə edilməli və yönləndirilməli olduğu düşüncəsi hakimdir. Bu zehniyyətin sahibləri üçün qadının varlığı belə təhlükə və qəzəb səbəbidir. Məhz buna görə də, onları mümkün qədər qapalı saxlamağa, cəmiyyətdən təcrid etməyə, bütün haqqlarını əlindən almağa və haqqlarının olmadığını elan etməyə ehtiyac duyurlar. Qadınları öz aləmlərində ikinci dərəcəli varlıq halına gətirib, onların qərarlar verməsinə və sosial məsələlərdə aktiv olmasına mane olaraq, öz hakimiyyətlərini qurduqları bir cəmiyyət meydana gətirməyi hədəfləmişdirlər. Çünki onlar, qadınların ümumiyyətlə incəlikləri düşünə bilən, ağıllı şəkildə qiymətləndirə bilən, incə nöqtələri tutaraq müxtəlif nəticələr çıxarda bilən xüsusi varlıqlar olduqlarını bilirlər. Qadınların saxta üsullarla təcrid edilmələri, fanatik zehniyyətdəkilərin saxtakarlıqlarını da asanlıqla yaymalarına şərait yaratmışdır.

Halbuki Allah, təqvalı olmaqda qadın-kişi fərqinin olmadığını bildirmiş, yaxşı əməllər işləmək, gözəl əxlaqın yayılması üçün səy göstərmək, Allah yolunda fikri mübarizə aparmaq kimi məsələlərdə qadın və kişiyə eyni məsuliyyətləri yükləmişdir. Qurana görə qadınlar və kişilər məsuliyyət cəhətdən bərabərdirlər; lakin diqqət, qayğı və verilən dəyər baxımından qadınlar Quranda kişilərdən üstün tutulmuşdur. Bəzi fanatiklər və İslam əleyhdarları tərəfindən indiyə qədər daim qadınların əleyhinə bir dəlilmiş kimi istifadə olunmağa çalışılan bəzi ayələr, əslində qadınların üstünlüyünü, uca Rəbbimizin qadınlara verdiyi əhəmiyyəti və dəyəri göstərən ayələrdir. Bu ayələrin mənalarını sonrakı sətirlərdə ətraflı şəkildə açıqlayacağıq.

Quranda Rəbbimizin qadınlar barədə etdiyi bənzətmə onların dəyərini də göstərir. Quranda qadınlar zərif bir bitkiyə, çiçəyə bənzədilmişdir. Hz. Məryəm üçün edilən bu təsvir, qadınlara verilən əhəmiyyət və dəyərin açıq izahıdır:

**Rəbbi onu yaxşı tərzdə qəbul etdi, onu <u>gözəl bir bitki</u> kimi yetişdirdi... (Ali İmran surəsi, 37)**

Gözəl bir bitkiyə baxmaq, fövqəladə diqqət tələb edər. Gözəl bir bitki nazənin və dəyərlidir, qayğı və diqqət tələb edir. Adından da aydın olduğu kimi gözəldir. Çiçəyin bu gözəlliyi, həssaslığı, qayğıya olan ehtiyacı, dəyəri, əhəmiyyəti qadınların İslamdakı yerini mükəmməl izah edir. Bu bir həqiqətdir ki, Allah, yer üzündəki bütün çiçəkləri və bitkiləri gözəllik ünsürü, sevinc bəxş edən nemət, təmizlik və estetika simvolu, həmçinin fövqəladə yaradılış möcüzəsi kimi yaratmışdır. Gözəlliyi ifadə edən belə bir yaradılışın qadınlara istinad edilərək işlədilməsi, Allahın təmizlik, estetika və gözəlliyi simvolizə edən bir əsərini qadınlara bənzətməsi, qadınlara verilən dəyəri çox yaxşı izah edir.

## ✓Qurana görə qadın

Quranda qadınlardan bəhs olunan ayələrdə, onlara böyük qayğı göstərilərək dəyər verilmiş, bütün çətin şəraitlərdə xüsusi olaraq himayə altına alınmışdırlar. Lakin buna baxmayaraq, məsulliyət cəhətdən kişilərlə eyni tutulmuşdurlar. Dolayısilə qadınların qorunması, buna möhtac olduqlarından ötrü deyil, onlara xüsusi dəyər verildiyindən ötrüdür.

Qurana görə qadınlar istədikləri işlərdə işləyə bilərlər, lakin işləmək məcburiyyətində deyildirlər. Qurana görə qadınlar Səba məlikəsi nümunəsində gördüyümüz kimi dövlət başçılarıdır. Qurandakı qadınlar hz. Məryəm (ə.s) nümunəsində görəcəyimiz kimi çətinlik anlarında səbirlilik və qərarlılıqda üstündürlər, aləmlərin qadınlarına nümunədirlər. Qurana görə qadınlar sultandırlar, daim əl üstündə tutulmalı varlıqdırlar. Dolayısilə qadınlara baxış prizmasında bütün insanların izləməli olduğu ən mükəmməl rəhbər Qurandır.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə, qadınlar kişilərlə birlikdə həyatın bütün sahələrində özlərinə yer tutmuşdurlar. Peyğəmbərimiz (s.ə.v)-in mübarək həyat yoldaşı hz. Xədicənin bölgənin ən əhəmiyyətli iş qadınlarından biri olması, qadınların sosial həyatda necə fəal rol oynaya biləcəyini göstərən çox əhəmiyyətli məlumatdır. Üstəlik, Peyğəmbərimiz (s.ə.v)-in dövründə, istər İslamı yeni tanıyanların öyrədilməsində, istər cəmiyyətdəki nizam-intizamın bərqərar olunmasında, istərsə də müharibələrdə belə qadın və kişi səhabələr boyunlarına bərabər məsuliyyətlər götürmüşdürlər.

Peyğəmbərimiz (s.ə.v)-in həyat yoldaşlarına göstərdiyi nəzakət, sevgi, şəfqət və yaxşılıq isə, bütün insanlar üçün ən gözəl nümunədir. Xanımlarıyla qaçış yerişi keçirən, xanımının dəvəyə minməsi üçün əyilib ona kömək edən, hər fürsətdə qadınların üstünlüklərini tərifləyərək dilə gətirən, təşkil olunan əyləncələri seyr edərkən başını həyat yoldaşının çiyninə qoyan gözəllər gözəli Peyğəmbərimiz (s.ə.v)-in, fanatiklərin ürküdücü tətbiqlərinin həyata keçirilməsinə qətiyyən imkan verməyəcəyi aydındır. Şübhəsiz ki, fanatiklər Rəsulullah (s.ə.v) adından belə hədislər uydurmaqla səhabələri də günahlandırır, həm Peyğəmbərimiz (s.ə.v)-ə, həm də səhabələrə iftira atır və çox böyük məsuliyyət yüklənirlər.

Fanatiklərin dinində təsvir olunan qadının Quranda təsvir edilən qadından niyə bu qədər fərqli olduğu, bəzi saxta hədislərə nəzər yetirildikdə aydınlaşacaqdır. Bütün bu saxta hədislərə Quran vasitəsilə ən qəti və konkret cavablar verilmişdir.

# Fanatiklərin qadınlara atdığı iftiralar

## ✓Qadınların ağlının və dininin əskik olduğu iddiası

**Çox lənət edir və ərlərinizə nankorluq edirsiniz. Ağıllı bir kişini sizin qədər aldada bilən, ağlı və dini əskik başqa bir varlıq görmədim. (Müslim, İman, 34/132; İbni Mace, Fiten 19/4003)**

**Allah: "...Mən onu mükəmməl və ağıllı olaraq yaratmışdım. İndi zəif ağıllı biri halına gətirəcəyəm; o iyrənərək və istəməyərək daşıyacağı körpəsini çətinliklə dünyaya gətirəcək" dedi. (et-Taberi Tefsir I 235 v.d.; Vffl143-44; Tarih 1/1 146-148; es-Salebi Arais&.21; İbnu'1-Esir el-Kâmill 34; tbn Kuteybe Te'vîlü Muhteüfi'l-Hadiss. 139)**

Quranın heç bir ayəsində qadınların ağlının kişilərdən az olduğu ifadəsi yoxdur. Tam əksinə bir çox ayədə "mömin qadınlar və mömin kişilər" xitabına əsasən, Allah qatında eyni dərəcədə məsuliyyət daşıdıqları, yəni bənzər ağıl və vicdana sahib olduqları bildirilmişdir. Üstəlik, Səba məlikəsi nümunəsindən də göründüyü kimi, qadınlar tam əksinə, mühüm məsələlərdə qərarlar verən dövlət başçısı mövqeyində çıxış edə bilirlər. Həmçinin bir insanı ağıllı edən fərqli bədən quruluşuna sahib olması deyil, Allah qorxusuna, Allah sevgisinə, imani dərinliyə və vicdana sahib olmasıdır. Allah qadın və ya kişi olmasından asılı olmayaraq, hər insanın vicdanına mütləq haqqı ilham edər. Dolayısilə insanı ağıllı və dindar edən, qadın və ya kişi olması deyil, vicdanına gələn ilhama ən gözəl şəkildə tabe olması və; **"ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər..."** (Ənfal surəsi, 29) ayəsində bildirildiyi kimi, Allahdan qorxmasıdır. Ağıl barədə Quranda bildirilən yeganə meyar budur. Dolayısilə bir insan sadəcə kişi olduğundan ötrü, üstün olmadığı kimi, qadın olduğu üçün də, nə iman, nə də ağıl cəhətdən zəif ola bilər. Lakin bir çox dəfə qeyd etdiyimiz kimi, fanatiklərin dini Qurandakı dindən tamamilə fərqlidir və iftiralarla doludur.

Bəhs olunan saxta hədislərlə Allaha iftira atmaları, fanatiklərin nə qədər həddi aşdıqlarını da göstərir. Şübhəsiz ki, Quranın heç bir ayəsində; *"<u>İndi zəif ağıllı biri halına gətirəcəyəm; o iyrənərək və istəməyərək daşıyacağı</u> körpəsini çətinliklə dünyaya gətirəcək"*

ifadəsi yoxdur. Bəs onda Allahın sözü olduğu iddia edilən bu cümlə haradadır? Allahdan gəldiyi iddia edilən bu vəhy, Quranda olmadığına görə haradadır? Ancaq fanatizm dininin ən böyük fitnələrindən birinin Allah adından yalan uydurmaq olduğundan, bu qorxunc iftiranı ata bilirlər.

Hamiləlik Quranda müqəddəs sayılmış vəziyyətdir və bundan ötrü də, Quranda ana da müqəddəs sayılmışdır. Uca Rəbbimizin bu barədəki ayələri belədir:

**Biz insana ata-anasına yaxşı davranmağı tövsiyə etdik. Anası onu bətnində müxtəlif çətinliklər yaşayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə <u>şükür et! Axır dönüş Mənədir</u>. (Loğman surəsi, 14)**

**<u>Biz insana ata-anasına yaxşı davranmağı tövsiyə etdik. Anası onu bətnində əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir</u>. Nəhayət, o, yetkinlik çağına yetişib qırx yaşa çatdıqda deyər: "<u>Ey Rəbbim! Mənə, mənim özümə və valideynlərimə bəxş etdiyin nemətə şükür etmək</u> və Sənin razı qalacağın yaxşı işlər görmək üçün ilham ver, nəslimi də mənim üçün əməlisaleh et. Mən Sənə tövbə etdim. Həqiqətən, mən müsəlmanlardanam!".**

**(Əhqaf surəsi, 15)**

Hz. Məryəm (ə.s), Allahın diləməsi nəticəsində hamilə qalmış, hamiləlik müddəti ərzində bütün çətinliklər qarşısında səbr etmiş və göstərdiyi bu səbir və Allaha olan bağlılığına görə bütün aləmlərin qadınlarından üstün edilmişdir:

**Bir zaman mələklər dedilər: <u>"Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi".</u> (Ali İmran surəsi, 42)**

**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişdir. <u>Onun anası isə, dürüst qadındır</u>... (Maidə surəsi, 75)**

Fanatiklər qadınlar barədə, "zəif ağıllı", "iyrənərək və istəməyərək daşıyan" kimi əsassız ittihamlarla öz ürküdücü zehniyyətlərini göstərir və hz. Məryəm (ə.s)-ı, səhabələri və üstün xüsusiyyətləriylə təriflənən digər bütün imanlı qadınları da öz aləmlərində təhqir edirlər.

Hamiləlik müddətinin çətinliklər içində keçməsi və uşağın çətinliklər içində doğulması, dünya həyatının çətinliklərindən biridir və bu, səbir, böyük güc və iradə tələb edir. Allah, bu böyük çətinliyə səbr edən bir ananın, Öz qatında çox böyük dəyərə sahib olduğunu bildirir. Məhz bundan ötrü də, Allaha təvəkkül edərək, Allah sevgisindən dolayı bütün bu çətinliklərə səbir edən bir ana üstün bir varlıqdır. Anaya verilən bu dəyər, Quranda bildirilən əxlaq xüsusiyyətlərindən biridir.

Göründüyü kimi, Quranda qadının kişiyə görə üstün xüsusiyyətləri də var, dolayısilə "ağlı və imanı zəif" bənzətməsi, fanatiklərin dini tərəfindən atılan iftiradır. Allah, məsuliyyət cəhətdən kişi və qadına eyni şəkildə xitab edər. Bir çox ayədə eyni anda; "mömin kişi və mömin qadınlara" xitab edilməsinin səbəblərindən biri də budur. Bu ayələrdən biri belədir:

**Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, könüllü surətdə Allaha baş əyən kişilər və könüllü surətdə Allaha baş əyən qadınlar, sadiq kişilər və sadiq qadınlar, səbirli kişilər və səbirli qadınlar, hörmətlə Allahdan qorxan kişilər və hörmətlə Allahdan qorxan qadınlar sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır. (Əhzab surəsi, 35)**

Ayədən də göründüyü kimi, Allahdan qorxmaq, Allahı zikr etmək, Allaha sadiq olmaq, səbirli olmaq, sədəqə vermək kimi, müsəlmanların əsas xüsusiyyətlərinin heç birində qadın-kişi ayrı-seçkiliyi yoxdur. Quranda qadınların mömin xüsussiyyətlərindən hər hansı birinə daha az sahib olduğuna dair, ən cüzi bir işarə belə yoxdur. Qadın və ya kişi olmasından asılı olmayaraq, bir insan var gücüylə Allahdan qorxmaqla, Allahı böyük eşqlə sevməklə və Allah rizasının ən çoxunu qazanmaqla məsuldur.

## ✓Qadınların əyri olduğu iddiası

**"Qadınlar qabırğa sümüyü kimidirlər. Onlar əyri qabırğa sümüyündən yaradılmışdırlar, onu doğrultmağa çalışsan sındırarsan, sındırılması da boşanmasıdır" (Müslim, Reda 64; Nesai, Nikah 15; Ahmed b. Hanbel, II, 168)**

Quranda insanın yaradılışı ətraflı olaraq bildirilmişdir və bu şəkildə təsvir edilmişdir:

**Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır! (Muminun surəsi, 12-14)**

Heç bir Quran ayəsində qadının qabırğa sümüyündən yaradıldığını və əyri olduğunu bildirən bir ifadə yoxdur. Fanatiklərin bu ifadələrinin əksinə uca Rəbbimiz qadını və kişini "ən gözəl surətdə" yaratdığını bildirir:

**Sizin üçün yeri məskən, göyü də tavan edən, sizə surət verib <u>surətlərinizi gözəl şəklə salan</u>, sizə pak nemətlərdən ruzi verən Allahdır. Budur sizin Rəbbiniz olan Allah. Aləmlərin Rəbbi olan Allah nə qədər xeyirxahdır! (Mümin surəsi, 64)**

Bəhs olunan saxta hədisdə keçən; "onu doğrultmağa çalışsan sındırarsan" ifadəsində də qadının həm görünüş, həm də fikir cəhətdən əyriliyə sahib olduğu və əsla düzələ bilməyəcəyi istiqamətində çirkin istinad gözə çarpır. Quranda belə bir ifadə keçmir. Bu əslində, bir fanatikin qadına qarşı qəzəb dolu baxış prizmasının əsasını göstərir.

Qurandan öyrəndiyimiz isə budur: Qadın və ya kişi olmasından asılı olmayaraq, əlbəttə ki, hər insanın xətaları, nöqsanları, səhvləri ola bilər. Qurana görə bu səhvlər, gözəl və nəzakətli dillə öyüd-nəsihət verilərək, səhvlər və doğrular göstərilərək, insanın

vicdanına xitab edərək düzəldilər. Heç kimin bir insanı; "bu əsla düzəlməz" deyərək kənara atma haqqı yoxdur. Bunu edən, özünü ehtiyacsız və üstün hesab edən bir insan, axirətdə "bu düzəlməz" dediyi insanın olduqca gözəl mövqedə olduğunu görə bilər. Kimin doğru yolda olduğunu yalnız Allah bilir.

Fanatiklərin qadınların əvvəlcədən əskik, qüsurlu olduğuna dair batil inancları, sonradan da dəyişmələrinin mümkün olmadığı yanılmasıyla möhkəmləndirilmişdir. Bundan ötrü də, bir çox saxta hədisdə, yaxşı qadınların sayca çox az olduqları, əksəriyyətinin də cənnətə layiq olmadığı kimi yanlış məlumatlar var.

## ✓Qadınları alçaltmaq üçün uydurulmuş hədislər və iddialar

**Qadınlar arasında yaxşı qadın, yüz qarğa arasındakı bir ala qarğa kimidir. (Sahih-i Buhari)**

**Doxsan doqquz qadından biri cənnətdə, digərləri isə cəhənnəmdədir. (Sahih-i Buhari)**

**Ey qadınlar! Sədəqə verin və çox bağışlanma diləyin. Çünki mən cəhənnəm xalqının əksəriyyətinin sizlər olduğunu gördüm. (Müslim, İman, 34/132 İbn Mace, Fiten 19/4003)**

Fanatiklərin meydana gətirdikləri cəmiyyətlərdə qadınların niyə ikinci dərəcəli vətəndaş qəbul edilib alçaldıldığını bəhs olunan saxta hədislər çox açıq göstərir. Belə saxta hədislərin uydurulmasından sonra bəzi İslam cəmiyyətləri, qadınları alçaldan, onları ev dustağı edən fanatik və qorxunc cəmiyyətlərə çevrilmişdirlər. Qadınların ikinci dərəcəli varlıq hesab edilməsi, cəmiyyətləri görünməmiş mədəniyyətsizliyə, məhvə, zövqsüzlüyə və boşluğa sürükləmişdir. Bu fanatik zehniyyətin nümayəndələri qətiyyən nə qabağa gedə bilmiş, nə də inkişaf edə bilmişdirlər. Hal-hazırda Orta Şərqdəki bir çox ölkə, tam mənasıyla bu ürküdücü zehniyyətin gətirdiyi məhvin və keyfiyyətsizliyin içindədir. Halbuki Qurandakı din olduqca gözəl, sadə, keyfiyyətli və sülhsevərdir.

Həmin bu fanatiklər, cənnətin ən gözəl bəzəyi olan qadınlara dünyada da, axirətdə də Allahın böyük dəyər və əhəmiyyət verdiyini qətiyyən dərk edə bilməmişdirlər. Ən əhəmiyyətlisi də, qətiyyən Qurana baxmamışdırlar.

Aydın ola biləcəyi kimi, bəhs olunan saxta hədislərdə keçən ifadələrin heç biri Quranda yoxdur. Əxlaq pozuqluğu göstərən, pislik edən və haram işləyən insanları Allah Quranda ətraflı şəkildə təsvir etmişdir və bu təsvirlərin heç birində bu insanların xüsusən qadınlar olduğu bildirilmir.

Məsələn, Allah Quranda insanların böyük hissəsinin iman etməyəcəyini, iman etdiyini söyləyənlərin böyük hissəsinin də şirk qoşduqlarını bildirmişdir:

**Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu iman etməz.**

**(Rad surəsi, 1)**

**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir. (Yusif surəsi, 106)**

Başqa bir ayədə isə, Allahın insanlara öyüd ala biləcəkləri çox imkan yaratmasına baxmayaraq, onların əksəriyyətinin lazımi qədər ibrət almadığı və əxlaq pozuqluqlarını davam etdirdikləri bildirilir:

**Andolsun bunu, öyüd alıb düşünmələri üçün müxtəlif formalarda izah etdik. Ama insanların çoxu nankorluq və inadkarlıq etdilər. (Furqan surəsi, 50)**

Göründüyü kimi, nə bu ayələrdə, nə də Quranın digər ayələrində əxlaq və rəftar pozuqluğu göstərən insanların (fanatiklərin iddia etdiyi kimi) əksəriyyətinin qadınlar olduğunu göstərən bir ifadə var. Heç bir ayədə əxlaqsızlıq edənlər cinsiyyətlərinə görə ayrılmamışdır. Heç bir ayədə qadınların daha əxlaqsız olduğunu və cənnətə daha az sayda qadının girəcəyini bildirən məlumat belə yoxdur. Saxta hədislərdəki bu məlumatlar, xüsusilə qadın düşmənçiliyini yaymaq üçün, hazırlanmış böyük bir saxtakarlıqdır. Quran, həmin bu saxta hədisləri qəti və dəqiq açıqlamalarla təkzib edir.

## ✓Qadınların dinin yaşanmasına mane olduğu iddiası

**Qadınlar olmasaydı Allaha lazımi qaydada ibadət edilərdi. (Suyuti, Buhari, İbn-i Adıyy, Ebu Hatim, İbn-i Cevzi, Muhammed Nasuriddin, İbn-i Hıbban hadisi mevzu kabul ederler.) (Silsiletul Ehadisuzzaif: 74, Tenzihuşşeria: 1/62, El-leali : 2/59)**

**Qadınlar olmasaydı, kişilər cənnətə girərdi. (İbn-i Arrak, Es-sakafi hadisi kabul etmezler. (Camiussağir: 2/113))**

Əvvəlcə bu əhəmiyyətli xüsusu təkrar xatırladaq: Bu saxta hədislərdə izah edilən qorxunc zehniyyət, qətiyyən Quranda mövcud deyil.

Yuxarıda verilən saxta hədislərdəki açıqlamalara gəldikdə: Zəif imanlı və ya dinsiz insanları din əxlaqını yaşamaqdan uzaq tutan şey, qadınlar və ya dünyanın başqa bir neməti deyil, öz vicdan, ağıl və iradə zəiflikləridir. Allah bu dünyanı imtahan mühiti olaraq yaratmışdır. İnsan, həyatı boyu sıxıntılar, çətinliklər, xəstəliklər və acizliklərlə imtahan olunduğu kimi, nemətlərlə və gözəlliklərlə də imtahan olunur.

Qadın da bu dünyanın nemətlərindən, bəzəklərindən biridir. Amma hər nemət kimi nemətin necə qiymətləndirildiyi, nemət sahibinin əxlaqından asılıdır. Allah Quranda dünya nemətlərinin insanları imtahanı üçün yaradıldığını belə bildirmişdir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır**

**(Ali İmran surəsi, 14)**

Qadınlar kimi, oğul–uşaq, qızıl, gümüş, ehtişamlı heyvanlar, bitkilər, yəni zənginlik də dünya nemətlərindəndir və insanların gözünə gözəl göstərilmişdir. Ancaq iman sahibi bir insan, bütün bu nemətlərin əsil sahibinin Allah olduğunu, dünyadakı bütün nemətlərin müvəqqəti olduğunu və onların ən gözəlinin və daha artığının cənnətdə olduğunu bilir. Buna görə də, bu nemətlərin heç biri onu Allahdan və Onun yolunda cəhd etməkdən yayındırmaz. Əgər bir insan, bu nemətlərdən hər hansı birinə görə qəflətə qapılır, Allahın rizasının ən çoxunu axtarmaqdan imtina edirsə, bu onun iman zəifliyindən qaynaqlanır.

Bunun məsulu nemətlər deyil, insanın özüdür. Dolayısilə (bu vəziyyətini düzəltmədiyi təqdirdə), bunların qarşılığını alan da özü olacaq. Bu məsələdə başqasını günahlandırmaq, axirətdə insana heç bir fayda verməz.

Dolayısilə bu saxta hədislərə əsaslanaraq, xətalarından, günahlarından, gördüyü pis işlərdən ötrü, qadınları müqəssir tutan bir kişi yalnız özünü aldadar. Qurana görə istənilən şərait və istənilən vəziyyətdə iman etmiş olmağın tələbi, Allaha qulluq vəzifəsini layiqincə yerinə yetirməkdir. Heç bir insan axirətdə Allah qarşısında; "Mən qadınlar ucbatından lazim olduğu kimi ibadət edə bilmədim" bəhanəsini ortaya ata bilməyəcəkdir. Bu həqiqət bir ayədə belə bildirilir: **"...əslində, insan öz əleyhinə şahidlik edəcəkdir; üzrlü olub-olmadığı bütün halları ortaya qoysa da"** (Qiyamət surəsi, 14-15), yəni insan nə qədər bəhanə uydursa da doğru olanın nə olduğunu çox yaxşı bilir. Bəhs olunan saxta hədisləri əsas götürüb öz iradəsizlikləri ucbatından qadınları günahlandıran bəzi insanlar, əlbəttə ki, ikiüzlü olduqlarından, bəhanələr uydurduqlarından xəbərdardırlar. Dünyada bunu görməzlikdən gəlmələri heç nəyi dəyişdirməyəcəkdir. Allahın hüzurunda dayandıqlarında; **"...hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman onların halı necə olacaq?..."** (Ali İmran surəsi, 25).

## ✓Qadınların ağlına uymamağın lazım olduğu iddiası

**Bir qadını başçıları edən qövm əsla nicat olmaz. (İbni Hanbel Müsned 5/43,50; Tirmizi Fiten:75 Nesai Kudat:8; Buhari Fiten:18)**

**Qadınlara itaət peşmanlıq gətirər. (Tezkiratul Mevzuat: 128, Kitabul Mevzuat: 2, 272)**

**Qadınlarla müşavirə tərtib edin, onlardan məsləhət alın və onların söylədiklərinin əksini edin. (El-Makasıdul Hasene: 248, Tezkiretul mevzuat:128, Tenzihuş Şeria: 2-204, Silsiletul Ehadis: 432)**

**Qadınlardan məsləhət almayın, onlara qarşı çıxın. Qadınlara qarşı çıxın, çünki qadınlara qarşı çıxmaq bərəkət gətirər. (Kadınlara Dîni Bilgiler 44,45 Suyuti, Leali II, 147; İbn Arrak, Tenzihü's Şeria II, 210)**

**Hər kim, arvadına itaət edərsə, Allah (c.c) onu üzüstə Cəhənnəmə atar. (İbn Arrak II, 215)**

Göründüyü kimi, fanatiklərin qadınları öz aləmlərində aşağı varlıq qəbul etmələrinin ən əhəmiyyətli göstəricilərindən biri də qadınları cəmiyyətdə təsirli mövqelərdə qətiyyən görmək istəməmələridir. Buna görə də, qadınların idarəçi olmalarına qarşı çıxırlar. Hətta qadınlarla məsləhət aparılmasını belə qəbul etməzlər. Qadınların düşündükləri hər şeyin yanlış olduğu, etdikləri hər şeyin səhv olduğu kimi azğın məntiqə sahibdirlər. Bu, qadınları tamamilə cəmiyyətdən təcrid etmək üçün, qurduqları iyrənc oyunun bir parçasıdır. Yuxarıdakı uydurma hədislər də bu məqsədlərinə xidmət etmiş və bir çox ölkədə bu azğın fikirlərin hakim olduğu fanatik və qadın düşməni cəmiyyətlər meydana gəlmişdir. Halbuki bu məntiq Qurana, Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərinə və İslam dininə tamamilə ziddir.

Məsələn, saxtakar mövhumatçılar; *"bir qadını başçıları edən qövm əsla nicat tapmaz"* yalanını öz aləmlərində yaymağa çalışarkən, Allah Quranda dövlət başçısı olan bir qadını nümunə verir: Səba məlikəsi...

"Qadınlardan məsləhət almayın" deyən mövhumatlara baxmayaraq, Səba məlikəsi, iş barəsində bütün qərarları verən tək lider mövqeyindədir. Ayələrdə Səba məlikəsinin liderlik xüsusiyyəti belə ifadə edilir:

**Çox keçmədən hüdhüd gəlib dedi: "Mən sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm. Mən onlara padşahlıq edən, özünə hər şey verilmiş və çox böyük bir taxtı olan bir qadın gördüm. (Nəml surəsi, 22-23)**

Qövmünə hakimlik edən qadın başçı Səba məlikəsi hz. Süleyman (ə.s)-a belə tanıdılmışdır. Hz. Süleyman (ə.s)-dan Səba məlikəsinə İslama dəvət məktubu göndərildikdən sonra Səba məlikəsi öz qövmünün ağsaqqallarından məsləhət almış və onlar da ona bu cavabı vermişdirlər:

**Onlar dedilər: "Biz böyük bir qüvvət və qüdrət sahibiyik. <u>İş barəsində qərar verməksə sənindir. Nə buyuracağını özün fikirləş</u>!" (Nəml surəsi, 33)**

Göründüyü kimi Qurana görə qadın, dövlət başçısı, hökmdar ola bilir və iş barəsində qərar verib əmrini tətbiq elətdirə bilir. Fanatiklərin dinindəki qadınla Qurandakı qadının xüsusiyyəti tam mənasıyla bir-birinə zidddir.

Fanatiklər, bəhs olunan saxta hədislərdə çəkinmədən qadınlara etdikləri bu təhqirləri əslində hz. Məryəmə, Quranda danışılan mömin qadınlara, Peyğəmbərimiz (s.ə.v)-in mübarək zövcələrinə və qadın səhabələrə qarşı da etdiklərindən xəbərsizdirlər. Qadını bu qədər alçaq hesab edən, belə qəribə zehniyyətin, bütün qadınları alçaq hesab etdiyi unudulmamalıdır.

Həmin bu fanatiklər Qurandan nə qədər fərqli həyat tərzi yaşadıqlarını, Peyğəmbərimiz (s.ə.v) dövründəki qadınların vəziyyətinə baxdığımızda da açıq şəkildə görərik:

Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in həyat yoldaşı hz. Xədicə Məkkənin ən varlı tacirlərindən biri idi. Şama ticarət karvanları göndərirdi, bu iş üçün yanında işlətdiyi insanlar vardı. Mədinə dövründə də qadınlar dəri emalı, ip emalı, toxuculuq, dərzilik, dərman istehsalı, gözəl qoxu (ətir) satışı kimi bir çox ticarət işiylə məşğul olur, həyatın hər

sahəsində fəal iştirak edirdilər. Müharibəyə çıxılan zamanlarda qadın səhabələr kişilərlə birlikdə döyüşlərə qoşulur, lazım gəldikdə ön cərgələrdə çıxış edirdilər.

Rayta bint Abdillah, hz. Peyğəmbər (s.ə.v)-ə: ***"Ey Rəsulullah mən sənətkar bir qadınam, ərimin (Abdullah ibn Məsud) və övladımın heç nəyi yoxdur; sənətkarlıq işimdən əldə etdiyim məhsulları satıram"*** deyər və ailəsi üçün xərclədiklərindən ötrü savab qazanıb qazanmadığını da soruşar. Hz. Peyğəmbər, ona: ***"Onlar üçün xərclədiklərindən ötrü, əlbəttə ki, savab qazanırsan"*** deyə cavab verər. (İbn Sa'd, et-Tabakât, VIII, 290; Nuaym, Hilye, II, 69; İbnu'l-Esîr, Usdu'l-Gabe, VII, 121)

Göründüyü kimi Peyğəmbərimiz (s.ə.v)-in dövründəki qadınlar; evlərini dolandıran, ailə həyatında sözü keçən qadınlardır; Peyğəmbərimiz (s.ə.v) də bu səyi tərifləyir.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə Əsləm qəbiləsindən olan Kuaybe binti Sadın, xəstələri və yaralıları müalicə etdiyi bildirilir. Yəni qadınlar Peyğəmbərimiz (s.ə.v) dövründə həkimlik edirlər. Belə ki, Həbəşistana hicrət edən, ağıllı, mədəni və təcrübəli bir qadın olan Əsma binti Ümeysin də yaxşı həkim olduğu məlumdur. Ümmü Sələmə, Əsma binti Ümeysin hz. Peyğəmbər (s.ə.v) üçün, **"Hindistan və Yəməndən gətirilən bitkilər və zeytun yağı ilə bir dərman"** hazırladığı söyləyir. Bu rəvayətdə Əsmanın, bu dərmanın hazırlanma üsulunu Həbəşistanda öyrəndiyi də bildirilir. (İbn Sa'd, a.g.e, II, 236)

Hz. Peyğəmbər (s.ə.v) dövründə, Mədinədə gözəl qoxu (ətir) satan qadınlardan bəzilərinin adları çəkilir. Bunlardan biri olan Müleykə Ümmüs-Saib əl-Səkafiyyə, gözəl qoxu (ətir) satmaq üçün hz. Peyğəmbər (s.ə.v)-in hüzuruna daxil olar. Yəni Peyğəmbərimiz (s.ə.v) dövründəki qadınlar satıcılıqla da məşğul olurdular.

Bütün digər müsəlmanlarla birlikdə döyüşə qoşulan qadın səhabələrin vəziyyətini ən mükəmməl açıqlayan rəvayətlərdən biri də aşağıdakı kimidir:

***"Möminlərin qəflətindən faydalanan müşriklər döyüş meydanına elə girdilər ki, Rəsulun ətrafında onu qorumaqla vəzifəli 10-12 nəfərlik dəstə də müharibəyə qoşulmaq məcburiyyətində qaldı. Bir anda tək-tənha qalan Peyğəmbərimiz (s.ə.v)-in yanında təkcə hz. Nəsibə vardı. Bu 40-50 saniyəlik tənhalıq idi. Müşriklərdən biri, bunu fürsət bilib hücum etsə də Nəsibə qılıncıyla onu öldürdü. Ardınca Rəsulullaha ikinci bir müşrik hücum etdi. Bu ikiqat zireh geyinmiş bir müşrikdi. Nə qədər vursa da öldürə bilmirdi. Öz çiyinindən belinə qədər ağır bir qılınc zərbəsi aldı. Bu əsnada digər möminlər yetişib kafiri məhv etdilər. Bu bir neçə saniyəlik müddət o qədər əhəmiyyətli idi ki!... Uhud döyüşündə Nəsibə tam on bir yerdən yaralandı. Buna baxmayaraq, müharibənin sonuna qədər imtina etmədi."***

Göründüyü kimi, saxta hədislərin tam əksinə Peyğəmbərimiz (s.ə.v)-in dövründə qadınlar döyüş meydanı kimi, olduqca kritik mühitlərdə belə iştirak etmişdirlər. Müharibədə Peyğəmbərimiz (s.ə.v)-in qorunması kimi, olduqca əhəmiyyətli bir vəzifəni

qadın səhabələr yerinə yetiriblər. Peyğəmbərimiz (s.ə.v)-in, həyati təhlükə dolu belə riskli bir mühitdə qadınların özünü qorumaq vəzifəsini boynuna götürməsini uyğun görməsi, həmin bu qadın səhabələrin ağıllarına və vicdanlarına nə qədər güvəndiyinin mühüm bir əlamətidir.

Quranda; **"ey iman gətirənlər, "bizi izlə, bizə bax" deməyin, "bizi qoru" deyin..."** (Bəqərə surəsi, 104) ayəsində yalnız iman edən kişilərə deyil, iman edən qadınlara da müraciət edilir. Ayədə qadınlara da "bizi izlə, bizə bax" deməmək nəsihət edilir. Deməli, Quranda qadına; izlənilən, ağlı zəif olduğu üçün kişilər tərəfindən baxılan və yönləndirilməli olan varlıq kimi deyil, tam əksinə öz ayaqları üzərində duran, güclü, ağıllı, vicdanına tam güvənilən, zəkalı varlıq olaraq baxılır. Lakin qadınlara qarşı əsrlərdir ki, bu uydurma hədislərlə yetişdirilmiş və şüurlu hala gətirilmiş bəzi İslam ölkələrində bu anlayışdan məhrum olan insanları sayı çoxdur. Dolayısilə; "Qurana görə qadınlar və kişilər eyni hüquqlara malikdirlər" dediyimiz vaxt, bunu qəti surətdə rədd edən insanlar; bilərək və ya bilməyərək Allahın ayələrinə qarşı çıxırlar.

## ✓Qadınların ikinci dərəcəli varlıqlar olduğu və Allahın qadınlara əhəmiyyət vermədiyi iftirası

**Allahın qadınlara əhəmiyyət vermədiyi kimi, siz də onlara əhəmiyyət verməyin. (Taberani)**

**Əgər birinin birinə səcdə etməsini əmr etsəydim, kişilərin qadınlar üzərində olan haqqlarından ötrü, qadınların kişilərə səcdə etmələrini əmr edərdim. (Sahih-i Buhari)**

Fanatik zehniyyətin yüz illərdir davam edən qadın düşmənçiliyi, böyük bir kütləni Allaha və Peyğəmbərimiz (s.ə.v)-ə böhtan atmağa qədərib çıxartmışdır. Diqqət yetirilsə saxta hədislərdə, Quranda qadınların kişilərlə bərabər hüquqlara sahib olduqları, üstünlüyün cinsiyyət fərqindən deyil, ağıl, vicdan və Allah qorxusundan qaynaqlandığı kimi, məlumatlardan heç biri qeyd olunmurdu. Quranda qadınlara aid hər cür haqqın qorunduğuna dair ayələr olduğundan da bəhs edilmir.

Bu hökmlər və açıqlamalardan diqqətlə qaçınılmış, qadınların Quranda təriflə bəhs edilən varlıqlar olduğu qətiyyən qeyd olunmamışdır. Dolayısilə əsrlərdir ki, müsəlmanların, guya "Peyğəmbərimiz (s.ə.v)-in sözləridir" deyilərək aldadıldıqları bu batil izahatlar, azğın bir anlayışın İslam dininə zərər verməsinə səbəb olmuşdur. Bu yolla yüz illərdir ki, İslam dininə və Peyğəmbərimiz (s.ə.v)-ə böyük böhtanlar atılmışdır. Halbuki Allahın qadınlara əhəmiyyət vermədiyi (əstağfirullah) kimi bir anlayış, Quranın tək bir ayəsində belə əks olunmur. Əksinə Allah Quranda qadın və ya kişi ayrı-seçkiliyi etmədən; **"möminlər, iman edənlər, inananlar, qadınlar və kişilər..."** kimi xitablarla, iman edən bütün qadın və kişiləri eyni məsuliyyəti daşımaqla məsul tutmuşdur. Məsələn, Allah Nisa surəsinin 95-ci ayəsində;

**Möminlərdən (üzürlülər istisna olmaqla) evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi. Allah onların hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir. (Nisa surəsi, 95)**

Göründüyü kimi ayədə müsəlmanların həyatları boyu Allah yolunda fikri mübarizə aparmaqla məsul olduqları bildirilir. Ancaq bu məsuliyyət həm qadın, həm də kişilərə bərabər şəkildə yüklənmiş bir məsuliyyətdir. Allah "möminlər" deyə xitab edərək, həm qadın, həm də kişi müsəlmanları bu ibadəti yerinə yetirməklə birinci dərəcədən məsul tutmuşdur. Əgər müsəlman bir qadın, müsəlman kişilərə görə bu məsuliyyətini tam lazım olduğu şəkildə yerinə yetirsə, həmin qadın Allah qatında digər bütün kişilərdən daha üstün mövqedə olar. Əgər bunu müsəlman bir kişi etsə, bu dəfə də o, təqvasından ötrü Allah qatında digərlərinə nisbətən daha üstün bir mövqe sahibi olar. Göründüyü kimi, burada qətiyyən cinsiyyət ayrı-seçkiliyinə əsaslanan ayrı-seçkilik və ya fərqləndirmə yoxdur. Əksinə vicdan, ağıl və səmimiyyət əsas götürülmüşdür.

Dolayısilə qadınlar barəsindəki saxta hədislər də eynilə digərləri kimi, Quran hökmləriylə və Quranda qadına verilən dəyərlə tamamilə ziddiyyət təşkil edir. Əvvəla, müsəlmanlar Allahdan başqa heç nəyə səcdə etməzlər. Bir müsəlman üçün boyun əyəcəyi və əmrinə tabe olacağı yeganə güc Allah və Onun Peyğəmbəridir.

Müsəlman qadın üçün həyat yoldaşı; Allah rizası üçün sevdiyi, müsəlmanlığı dərəcəsində hörmət və mərhəmət bəslədiyi aciz bir quldur. Yoldaşına olan sevgisi və hörməti də, insanın Allaha olan səmimi bağlılığı, güclü imanı, Allah yolundakı əzmi və şövqüylə düz mütənasibdir. Yoxsa fanatiklərin çürük zehniyyəti əsasında, yoldaşına sırf kişi olmasından ötrü kor-koranə hörmət etməsindən söhbət gedə bilməz. Çünki müsəlman bir qadın və kişi üçün evlilik, həmçinin axirət üçün də bir sözdür. Müsəlman bir qadın ancaq axirətdə Allahın özündən razı olacağını ümid etdiyi gözəl əxlaqlı bir yoldaşa qarşı sevgi, hörmət və şəfqət bəsləyə bilər. Bunun əksi olduqda isə, həmin sevgi və hörməti əsla bəsləyə bilməz. Belə bir şeyi təsəvvür etmək, bənzətmə olaraq cümlə daxilində işlətmək belə müsəlmanlar üçün əbəsdir.

## ✓Qadınların bəzənməsini qadağan edən iddialar

**Tatuirovka edən və etdirənə, üzündəki tükləri aldıran və estetik olması üçün dişlərini seyrəldən qadınlara Allah lənət eləsin. (Sahih-i Buhari)**

**Parik qoyan, qoyduran, qaşlarını nazikləşdirən, nazikləşdirtdirən, tatuirovka edən və etdirən lənətlənmişdir.**

**(Ebu Davut, Tereccul, 5)**

Fanatik zehniyyətin müsəlman qadınları xoşagəlməz, çirkin, baxımsız və ikinci dərəcəli varlıqlarmış kimi göstərmək səyini dəstəkləyən təməl məntiqin kökü məhz bu saxta hədislərdir. Bütün dünyadakı müsəlman qadınların ümumən olduqca baxımsız, hətta insana belə bənzəməyən, gözəllikdən, təmizlikdən, gözəl danışmaqdan uzaq varlıqlarmış kimi tanınmalarına, fanatiklərin qadınları din adı altında saldıqları bu görünüş səbəb olmuşdur.

Yuxarıdakı saxta hədislərin təsvir etdiyi müsəlman qadın görünüşü; qadının ictimai həyatda olmasını qeyri-mümkün hala gətirən bir modeldir. Çünki bu modeldə; əgər bir qadın müsəlmandırsa, o zaman onun gözəl, təmiz və baxımlı olması kimi vəziyyət əsla qəbul edilə bilməz. Bu modeli təqva əlaməti kimi göstərən fanatik zehniyyət bu yolla qadını xarici görünüşündən ötrü həm cəmiyyət içinə çıxa bilməyəcək bir varlıq halına gətirmiş, həm də yenə eyni səbəbdən ötrü dini izah edə bilmə imkanını əlindən almışdır.

Bir düşünün. Özünə qulluq etməkdən aciz, təmizliyinə heç əhəmiyyət verməyən, cahil, üzündəki tükləri təmizləməli olduğunu belə dərk edə bilməyən və bu halıyla insanların arasına girməkdən utanmayan birinin, guya müsəlman qadın kimi təmsil edildiyi bu modeli hansı qadın yaşamaq istəyər? Və ya kim belə birinin özünə dini izah etməsini istəyə bilər? Dinin özünə guya "gözəl, təmiz, baxımlı və cazibədar olmağı qadağan etdiyinə" inanan, bunları etdiyi təqdirdə Allahın lənətinə düçar olacağını düşünən bir qadın necə belə bir dinə yaxınlaşa bilər? Müsəlman olmasa belə, İslama və müsəlmanlara necə sevgi bəsləyə bilər?

Məhz xüsusilə Qərb cəmiyyətlərində İslamın sanki uzaq dayanılmalı olan, qaranlıq bir din kimi qəbul edilməsinin təməlində yatan səbəblərdən biri budur. Fanatiklər bəzi müsəlman qadınları Quranda qətiyyən olmayan, tamamilə uydurma bir modelin içinə həbs etmiş, beləliklə də, həqiqi İslamı yaşamalarına və təbliğ etmələrinə maneə törətmişdirlər. Halbuki müsəlman bir qadın, sözlə Qurandakı gözəl əxlaqı, sülhü, sevgini izah etməli,

öhdəlik daşıdığı kimi, bunu hərəkət və rəftarlarıyla göstərmək, yəni yaşamaq öhdəsini də daşıyır. Müsəlmanlığın gözəllik olduğunu izah edərkən gözəl görünməli, müsəlmanlığın sevgi olduğunu izah edərkən sevgini həqiqətən yaşamalıdır. Beləliklə dinin gözəlliklərini anlamağa həqiqi mənada ehtiyac duyan bir insan, bu dinin insana bütün bu gözəllikləri bəxş edəcəyini bilməli, öz gözləriylə bunu görməlidir. Onsuz da Quranda bu cür təsvir olunur. Quranda müsəlmanların geyimlərinin çox gözəl və təmiz olduğundan, bir yerə toplaşdıqlarında ən gözəl, ən qəşəng paltarlarını geyindiklərindən və zinətlərini taxdıqlarından bəhs edilir.

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və sizi bəzəyəcək geyim nazil etdik... (Əraf surəsi, 26)**

**Ey Adəm oğulları! Məscidlərə gedərkən zinətlərinizi taxın... (Əraf surəsi, 31)**

Həmçinin Quranda cənnət xalqının; xüsusilə də cənnət qadınlarının təmizliyi, baxımlılığı, gözəlliyi və yaraşıqlı geyimləri ayələrdə fövqəladə dərəcədə gözəl təfərrüatlarla izah edilir.

**Sanki onlar, qorunub saxlanılmış yumurta kimi (hamar və valehedici) dirlər. (Saffat surəsi, 49)**

**...Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək... (Kəhf surəsi, 31)**

**...Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək, libasları da ipəkdən olacaqdır. (Həcc surəsi, 23)**

**Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər bağlanacaq...**

**(İnsan surəsi, 21)**

Burada bir neçəsinə yer verdiyimiz ayələrdən çox dəqiq şəkildə aydın olduğu kimi, Allah qadın gözəlliyini, üzlərinin tükdən təmizlənmiş hamar halını; “qorunub saxlanılmış

**yumurta kimi (hamar və valehedici) dirlər"** ifadəsiylə məqbul gözəllik ölçüsü kimi göstərmiş, cənnət qadınlarının belə olacaqlarını söyləmişdir. Deməli, Allah hamar və təmiz dərini gözəl görür. Allah; gözəlliyi, təmizliyi, yaraşıqlığı, bəzəyi, gözəl geyimi sevir və qullarını belə görmək istəyir. Allahın gözəl gördüyü şeyləri Peyğəmbərimiz (s.ə.v)-in də çox gözəl görəcəyi və müsəlman qadınları bu istiqamətdə təşviq edib, məsləhətlər verəcəyi inkaredilməzdir.

Estetik görünməkdən savayı zərurət baxımından da bu cür baxım üsullarına müraciət etmək məcburiyyətində qalan qadınların ola biləcəyi də unudulmamalıdır. Məsələn, qadınlar, bəzi hallarda kemoterapiya kimi, ağır dərman müalicəsindən sonra parik qoymaq məcburiyyətində qala bilərlər. Bu olduqca normal, hətta zəruri, qeyd olunan qadınlar üçün, olduqca gözəl baxım yoludur. Lakin fanatiklər, bu asanlığı və gözəlliyi, bəhs olunan uydurma hədislərlə aradan qaldırmağa çalışırlar.

Eynilə dəri altına müxtəlif şəkillərdə tatuirovka etdirilməsi, quruluşundan ötrü asimmetrik görünüş yaradan qaşın tatuirovka ilə düzəltdirilməsi və ya üzdəki tüklərin təmizlənməsi məsələsi barədə Quranda heç bir qadağa yoxdur. Belə bir qadağa onsuz da Quranın ruhuna ziddir. Gözəl bir gənc qızı üzündəki artıq tüklərlə çölə çıxmağa məcbur edən, onu insanların içində biabır edən, onu gözəlləşdirmək əvəzinə çirkinləşməsinə çalışan fanatiklər məhz bundan ötrü gözəlliyi qətiyyən təmsil edə bilməzlər. Halbuki Allah iman edənlərin baxımı, gözəlliyi, yaraşıqlığı və təmizliyinə ayələrdə xüsusilə diqqət çəkərək müsəlmanları bu istiqamətdə təşviq edir.

## ✓Fanatiklərə görə müsəlman qadınların ərlərinə olan münasibətləri

**Əri arvadını yatağa dəvət etdiyi təqdirdə, o qaçsa və əri həmin gecəni əsəbi halda keçirsə, mələklər həmin qadına səhərə qədər lənət edər. (Sahih-i Buhari, 9/36)**

**"Bir qadın, ərinin yatağından (haqqlı bəhanəsi olmadan, küsərək) ayrılar və (başqa bir yerdə) səhərə qədər qalarsa, səhər açılana qədər mələklər ona lənət oxuyar". (Nehc-ül Fesaha, səh. 36, Hadis: 187)**

**Ey qadınlar! Əgər ərlərinizin üzərinizdəki haqqlarını bilsəydiniz, ayaqlarının tozunu üzlərinizlə silərdiniz. (Hafız Zehebi, Büyük Günahlar səh. 187)**

**Ərinin bədəni irinləmiş olsa və arvadı onu yalayaraq təmizləsə belə, yenə də ərinin haqqını ödəmiş olmaz. (İbni Hacer El Heytemi 2/121, Ahmed b. Hanbel, Müsned, V, 239)**

**Ərini boşayan qadına cənnət qoxusu haram olar. (Kadınlara Dini Bilgiler, səh. 61)**

**"Bir qadın, diliylə ərinə əziyyət versə, onu özündən razı salana qədər, Allah onun heç bir tövbəsini, kəffarətini və yaxşı əməlini qəbul etməz; hətta gündüzlərini oruc tutmaqla, gecələrini isə ibadət etməklə keçirsə belə". (Bihar-ül Envar, cild 103, səh. 244)**

**"Bir qadın, ərinin haqqını ödəmədiyi müddətcə, Allahın da haqqını ödəmiş olmaz". (Mekarim-ül Ahlak, səh. 247)**

**İmam Musa əl-Kazım (ə.s)-a ərini qəzəbləndirən qadın barədə sual verildikdə, belə buyurduğu nəql edilmişdir: "Əri ondan razı**

**olana qədər, günahkar sayılır". (Kısar-ul Cümel, II cild, səh. 258)**

Bu hədisləri ayrı-ayrılıqda ələ almalı olsaq;

**Ey qadınlar! Əgər ərlərinizin üzərinizdəki haqqlarını bilsəydiniz, ayaqlarının tozunu üzlərinizlə silərdiniz. (Hafız Zehebi Büyük Günahlar səh. 187)**

**Ərinin bədəni irinləmiş olsa və arvadı onu yalayaraq təmizləsə belə, yenə də ərinin haqqını ödəmiş olmaz. (İbni Hacer El Heytemi 2/121 Ahmed b. Hanbel, Müsned, V, 239)**

Yuxarıda yer verdiyimiz bu iki saxta hədisdə, (uca Rəbbimizi, Quranı və İslam dinini tənzih edirik) İslam dininin guya qadını ikinci dərəcəli, ərinin boyunduruğu altında yaşamağa məhkum edilmiş varlıq olaraq göstərdiyi təəssüratı verilir. Bu şeytani məntiqə görə ərinin arvadı üzərində o qədər haqqı vardır ki, arvad ərinin ayaqlarının tozunu üzüylə silsə və ya irinli, murdar dərisini yalasa belə bu borcu ödəyə bilməz. Bu qəribə məntiqə baxmayaraq, heç kim ərin arvad üzərində niyə bu qədər böyük haqqa sahib olduğunu yüz illərdir sorğu-sual etməyə ehtiyacı belə duymamış və kor-koranə bu batil inancın kökləşməsinə vəsilə olmuşdur. Belə ki, əksər müsəlman, bu qeyri-sağlam məntiqi məqbul qarşılamışdır.

Bu murdar zehniyyətdə qadınlar; özlərinə olan davranış və əxlaqlarından razı olmasalar da ərlərinə qarşı "qadınlıq vəzifəsi" deyilən cahil məntiqə tabe olmağa məcbur edilmişdirlər. Bunun əksini etdikdə alçaldılmış və pis rəftarla qarşılaşmışdırlar, əllərindəki bir ovuc haqq da məhdudlaşdırılmışdır. Beləliklə guya ikinci dərəcəli, gücsüz, tapdalanmağa məhkum varlıqlar olduqları inancı onlara zorla qəbul etdirilmiş və bu zehniyyət İslam cəmiyyətlərində kökləşmişdir.

Əsrlər boyu heç kəs; "Quranda belə bir anlayış, belə bir inanc yoxdur. Qadınlar və kişilər bərabərdir. Allah qadınlara Quranda çox geniş hüquqlar və azadlıqlar verir" deyə bilməmişdir. Əksinə mövhumatçı zehniyyət əsrlərdir ki; **"din belə əmr edir, bunu etməyəni Allah və mələkləri lənətləyər, günahkar olar, Allahın rizasını qazana bilməz, cənnətinə girə bilməz..."** kimi Allah və din adından söylədikləri bu cür yalanlarla bəzi cahil müsəlmanları Qurandan kənar tətbiqləri icra etməyə məcbur etmişdirlər. Əksər müsəlman qadının şəxsiyyəti, fanatik zehniyyətin təlimləriylə öyrədilmiş ərləri tərəfindən əzilib, yox edilmişdir. Çünki fanatiklərin dininə görə qadın, əri nə istəsə ona itaət etmək məcburiyyətindədir. Qadınların böyük hissəsinin oxumasına, işləməsinə, ictimai həyata daxil olmasına hətta şüşədən belə baxmasına icazə verilmir. Dolayısilə maddi və mənəvi

cəhətdən ərlərindən asılı hala gətirildiklərindən, (cəmiyyətin bu təbəqəsində hakim olmuş adət və ənənələr də bu fanatik zehniyyəti dəstəklədiklərindən) qadınların özlərini bu təzyiqdən xilas etmələri demək olar ki, qeyri-mümkün olur.

Burada belə bir sual vermək lazımdır: Məgər fanatik cəmiyyətlərdə kişilər hansı xüsusiyyətlərindən ötrü bu qədər üstündürlər ki, qadınlar qətiyyən onların haqqını ödəyə bilmirlər? Qurana əsasən üstünlük yalnız təqvaya görədir və bunun da qarşılığı Allahdan gözlənilər. Bir kişinin qadın üzərində necə bir haqqı ola bilər ki, üzərindəki murdar irini yalasa belə, qadın bu haqqı ödəyə bilməz? Onu bu qədər haqqı ödənilməz hala gətirən kimdir və nədir? Ona bu üstünlüyü təqvasından başqa hansı xüsusiyyəti verə bilər? Allah ona belə bir imtiyaz verməmişdir, dolayısilə bu imtiyaz Quranda da yoxdur. O zaman bu haqqı haradan qazanmışdır? Dindar və ya dinsiz, müşrik və ya münafiq, günahkar və ya zalım olmasından asılı olmayaraq istisnasız "hər bir ər" nəyin əsasında bu pilləyə yüksəlmişdir?

Onları bu saxta pilləyə yüksəldən, fanatik zehniyyətin İslama daxil etdiyi qeyd olunan saxta hədislərdir. Onlar, Quranda olmayan, Allahın lənətlədiyi bu zehniyyəti, din adından yaymış və tətbiq etdirmişdirlər. Hal-hazırda əksər İslam cəmiyyəti, hətta bu İslam cəmiyyətlərində bu təlqinlə yetişmiş qadınlar belə, yalnız bu zehniyyəti qəbul edirlər. Fanatik dininin dünyaya gətirdiyi ən böyük bəlalardan biri də budur.

## ✓Quranda qadınlara verilmiş imkan və üstünlüklər fanatizm dinində yoxdur

Quranda qadınlara verilmiş, geniş hüquq və səlahiyyətlər, fanatikliyin təsiri altında yaşayan cəmiyyətlərdə qətiyyən yoxdur. Hətta belə cəmiyyətlərdə yaşayan qadınların bu haqq və azadlıqlardan belə xəbərləri yoxdur. Həmin bu qadınlar Quran əxlaqından tamamilə uzaq yetişdirilərlər. Quran əxlaqından təcrid olunmağın yaratdığı nəticə etibarilə əksəriyyəti oxuyub-yazmağı belə bacarmaz. Dolayısilə yaşadıqlarının İslam dini deyil, fanatiklərin batil dini olduğunu görə bilməzlər. Təkcə bu zavallı qadınlar deyil, dünya ölkələri də əsrlərdir davam edən fanatik tətbiqlərin Quranda olduğunu zənn edirlər. Quranın (əstağfirullah) qadını bu qədər dəyərsiz, cahil, aciz, şəxsiyyətsiz, bütün hüquqları əlindən alınmış, kişilərin boyunduruğu altına alan bir dindən bəhs etdiyini zənn edirlər. Halbuki bu böhtanların heç biri Quranda yoxdur.

Quranda olmayan, lakin saxta hədislərlə İslam dininin tərkib hissəsi olaraq qəbul edilmiş qadına istiqamətli böhtanları cavablandırmağa davam edək:

## ✓Ərindən boşanan qadının vəziyyəti

**Ərini boşayan qadına cənnət qoxusu haram olar. (Kadınlara Dini Bilgiler, səh. 61)**

Əvvəla bunu qeyd edək ki, ərlə arvadın bir-birindən boşana bilməsi və boşanmanın şərtləri və boşanma hüququ Quranda açıq şəkildə izah edilir. (Bu məsələ sonrakı sətirlərdə geniş şəkildə ələ alınmışdır.) Allah hər iki tərəfə boşanma haqqı vermişdir. Halbuki yuxarıda verilən hədislərdə boşanan qadının cənnətə girə bilməyəcəyinə dair konkret bir açıqlama yer alır. Məhz bu açıqlama hədisin tamamilə uydurma olduğunun ən bariz dəlilidir. Peyğəmbərimiz (s.ə.v)-in Allahın halal buyurduğu bir tətbiqi haram etməsi, Allahın hökmünə tam zidd bir hökm gətirməsi qətiyyən mümkün ola bilməz. Dolayısılə Allah Quranda boşanmaq istəyən qadına bu azadlığı vermişdir. Boşanmadan əvvəl və sonra qadının maddi-mənəvi cəhətdən qorunmasına dair bir çox tədbirin yer aldığı ayələrlə də boşanmanın şərtləri bildirilmişdir. Dolayısilə saxta hədisdə qeyd olunan boşanmaq istəyən **"qadına cənnət qoxusu haram olar"** ifadəsi tamamilə uydurma, yalan və böhtan dolu bir sözdür. İslam diniylə heç bir əlaqəsi olmayan şeytani bir məntiqin məhsuludur.

Bu çox əhəmiyyətli xüsusdur ki, İslam dini insanın fitrətinə, ağlına, ruhuna tam xitab edən Allahın kəlamı olan ilahi hökmlərdən ibarətdir. Allahın Quranda yer alan bütün ayələri, insanlar üzərindəki çətinlikləri aradan qaldıran, təzyiqçi tətbiqlərə maneə törədən, insanın öz sərəbəst iradəsini və ağlını işlədən, fitrətinə tam uyğun hökmlər ehtiva edir. Bu hökmlər nə qadını, nə də kişini təzyiq və ya çətinlik altına salmaz. Əksinə insanlar arasındakı anlaşmazlıqları, ədalətsizlikləri və bərabərsizlikləri həll edər. Üzərlərindəki ağır yükləri qaldırar. İnsanların ruhuna rahatlıq edər. Tərəflər arasında düşmənçilik, nifrət deyil, əksinə güclü dostluq və sevgi əlaqələri qurar. Hamısından əhəmiyyətlisi də, Allaha tam təslimiyyətlə bağlı, böyük əxlaqlı, dərin imanlı, nəcib bir insan modelinin yaranmasını təmin edər.

Halbuki haqqında danışılan saxta hədislərdə bəhs edilən evlilik modeli, Quran əxlaqından olduqca kənar bir anlayışı əks etdirir. Qurana görə evli cütlər arasında heç bir məcburiyyət və təzyiq ola bilməz. Əgər ixtilaf, anlaşmazlıq varsa, bu yenə Quran hökmləri əsasında aradan qaldırılar. Hər şeydən əvvəl evlilik həyatında, iki tərəfin də qadın və kişi möminlər olaraq Qurana tam uyğun əxlaqa sahib olmaları və mümkün qədər aranı düzəltməyə səy göstərmələri vacibdir. Ancaq buna baxmayaraq, yenə də anlaşmazlıq davam edərsə boşanmaq hər iki tərəfin də haqqıdır.

Bir-birlərindən ayrıldıqdan sonra, Allahın hər iki tərəfi də qoruyacağı ayədə belə bildirilir:

**Əgər ər-arvad ayrılsalar, Allah hər birini Öz lütfündən zəngin edər (ehtiyaclardan qoruyar). Allah hər şeyi (rəhmətiylə) əhatəedəndir, hökm və hikmət sahibidir. (Nisa surəsi, 130)**

Göründüyü kimi Quranda qadın da, kişi də azad iradələri ilə boşanmaya qərar verə bilir, sonra da sərbəst şəkildə həyatlarına davam edirlər. Quranın tək bir ayəsində belə, qadının həyat yoldaşından boşandığı üçün cənnətə girməməsinə dair bir hökm yoxdur.

## ✓Əri ondan razı qalana qədər qadının günahkar sayılması

**İmam Musa əl-Kazım (ə.s)-a ərini qəzəbləndirən qadın barədə sual verildikdə, belə buyurduğu nəql edilmişdir: “Əri ondan razı olana qədər, günahkar sayılır”. (Kısar-ul Cümel, II cild, səh. 258)**

**Yenə başqa bir hədis uca Rəsulullah (s.ə.v)-in, belə buyurduğunu nəql edir: “Bir qadın, ərinin haqqını ödəməyi müddətcə, Allahın da haqqını ödəmiş olmaz”. (Mekarim-ül Ahlak, səh. 247)**

**“Bir qadın, diliylə ərinə əziyyət versə, onu özündən razı salana qədər, Allah onun heç bir tövbəsini, kəffarətini və yaxşı əməlini qəbul etməz; hətta gündüzlərini oruc tutmaqla, gecələrini isə ibadət etməklə keçirsə belə”. (Bihar-ül Envar, cild 103, səh. 244)**

Yenə yuxarıdakı saxta hədislərdə qeyd olunan qadının “**ərini razı sala bilməməsi və ya haqqını ödəyə bilməməsi**” vəziyyətləri tamamilə Quran ayələrinə zidd açıqlamalardır. Müsəlman qadın həyat yoldaşına qarşı Quran əxlaqına zidd bir əxlaq sərgiləyibsə, ərinin deyil, Allahın rizasını itirər. Bir müsəlman üçün əsas məsələ Allahın rizasını qazanmaqdır. Dolayısilə əhəmiyyətli olan yoldaşının özündən razı olması deyil, Allahın özündən razı olmasıdır. Bundan ötrü də, Qurana əsasən müsəlman qadın üçün, səhvini düzəldib Allahın rizasını qazandıqdan sonra nə yoldaşının, nə də başqa insanların özündən razı olub olmaması heç bir əhəmiyyət daşımaz. Onsuz da qarşı tərəf müsəlman fitrətinə sahibdirsə Allahı razı salacağı ümid edilən bu nəticədən normal olaraq o da razı olacaq.

Ancaq görüldüyü kimi, bəhs olunan hədislərdəki ümumi məntiq, Allahı və Quran hökmlərini əsas götürməyən, tamamilə şirk üzərində qurulmuş cahil insanların evlilik həyatlarını xatırladır. Halbuki daha əvvəl də ifadə etdiyimiz kimi, Qurana görə evlilikdə qadın və kişinin hər ikisi Allahdan qorxan, seçilən, nəcib və böyük əxlaqlı insanlar olmalıdırlar. Qurandakı evlilik bu təmələ əsaslanır. Evli olduqları müddətcə bir-birlərinə qarşı sevgi, hörmət, mərhəmət, sədaqət və vəfa duyğuları daha da güclənər.

Allah Qurandakı evlilikdə tərəflər arasında sevgi, mərhəmət, dinclik, mülayimlik hakim olacağını belə bildirir:

**Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır. (Rum surəsi, 21)**

Dolayısilə yuxarıdakı saxta hədislərdə bildirilən döyüşlərin, tez-tez yaşanan anlaşmazlıqların, alçaltmaların, alçaldıcı hərəkətlərin olduğu evlilik modeliylə Qurandakı evlilik modeli arasında çox böyük fərqlər var. Bu unudulmamalıdır ki; İslam dinində yaxşılıq, insanlardan qarşılıq görmək üçün deyil, Allah rizası üçün edilər və müsəlman da etdiyi xeyirli, gözəl işlərin qarşılığını yalnız Allahdan gözləyər. Ayədə də Allah bu əxlaqı belə bildirir:

**Əvəzi veriləcək nemət üçün onun heç kəsə minnəti olmaz. O bunu ancaq Ən Uca Rəbbinin rızasını qazanmaq istədiyindən edər. O, mütləq razı qalacaqdır! (Leyl surəsi, 19-21)**

Dolayısilə Qurana görə qadın, yalnız Allahı razı salmağa çalışar, Ona şükr edər və Onun rizasını qazanmaq istəyər. Onun üzərindəki yeganə haqq sahibi uca Rəbbimizdir, əri deyil. Bundan ötrü də, qadının, ərinin "haqqını ödəyə bilmədiyi" üçün müxtəlif alçaldıcı hərəkətlər etməli olduğunu söyləyən bu məntiq tamamilə Qurana ziddir.

## ✓Qadınların çölə çıxarılmaması və şeytana aldanmağa meylli olduğu iddiası

**Yenə Rəsul-i Əkrəm (s.ə.v)-dən belə rəvayət olunmuşdur: "Qadın zərər görməyə uyğun varlıqdır; şeytan onun yanında dayanar (bunun üçün ya çölə çıxmamalı, ya da çıxdığı vaxt, çox diqqətli olmalıdır)". (Mizan-ül Hikme, II cild, səh. 259)**

Qadın cəmiyyətin dirəyi, gözəlliyi, bəzəyi, lətafətidir. Qadının varlığı, cəmiyyətdə söz sahibi olması, müfəttiş olması, qərar mexanizmində iştirak etməsi, fikrinə müraciət olunması cəmiyyət üçün böyük nemətdir. Dolayısilə Allah qadınları, incə xüsusları müəyyənləşdirə bilən, mürəkkəb qərarları qəbul edən, hər cür tədbiri əvvəlcədən alan, incə və iti düşüncəli, eyni zamanda da olduqca ağıllı olaraq yaratmışdır. Bundan ötrü də, İslam dinində qadına verilən dəyər çox yüksəkdir. Bu tam şəkildə aydın olduqda İslam dini dünya insanları tərəfindən layiqincə qavranılacaq.

Məhz bundan ötrü də, daxili və xarici mərkəzlər əsrlərdir ki, xüsusən qadın mövzusundan istifadə edərək İslam dinində qarışıqlıq yaratmağa çalışmışdırlar. Bunun üçün də, istər uydurma hədisləri və batil tətbiqləri, istərsə də cəmiyyətin (tamamilə Qurandan kənar) adət-ənənə deyə adlandırdıqları qayda-qanunlardan qalxan kimi istifadə etmişdirlər. Öz aləmlərində İslamda qadının ikinci dərəcəli, alçaldılan, dəyər verilməyən, mənfur, günaha batıran, aldanmağa meylli təhlükəli bir varlıq kimi tanınmasına çalışmışdırlar.

Məsələn, yuxarıdakı uydurma hədisdə, qadının əxlaqsızlıq etməyə meylli, özünə muğayat ola bilməyən, zəif iradəli, imanına güvənilməyən, şeytana aldana bilən bir varlıq olduğu bildirilir. Bunun üçün də qadının mümkün qədər küçəyə çıxarılmaması, himayə edilməsi, əgər çıxsa da namussuzluq, əxlaqsızlıq etmə meylinin yüksək olacağı kimi, bir təlqin verilərək hər hərəkətinə diqqət yetirilməsinin lazım olduğu bildirilir.

Halbuki bu uydurma sözlərin Peyğəmbərimiz (s.ə.v) tərəfindən söylənilmədiyi çox açıqdır. Qadınlarla məsləhətləşən, döyüşlərdə təhlükəsizliyinin təmin edilməsində qadınlara vəzifə verən, qurduğu məclislərdə qadınlara geniş yer ayıran, vaxtının böyük hissəsini onlarla söhbət edərək keçirən, onlara qarşı dərin hörmət və sevgi bəsləyən Peyğəmbərimiz (s.ə.v) adından yalan bəyanlarla çıxış edən insanlar, qadınlara qarşı böyük düşmənçilik bəsləyən fanatiklərdir.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə, daha əvvəl ətraflı şəkildə bəhs etdiyimiz kimi, qadınlar, müharibələrə qoşulan, hər cür ictimai mühitdə olan, ticarətlə məşğul olan, dini təbliğ edən, öndə gedən mücahidlər arasında yerlərini almışdırlar. Quran ayələrində də, qadının evdən çölə çıxarıla bilməyəcək qədər təhlükəli və zəif ağıllı bir varlıq olduğunu

ifadə edən tək bir eyham belə yoxdur. Əksinə Allah Quranda, fanatik zehniyyətin qadınlara baxış prizmasındakı böyük psixopatlığı və bu zehniyyətin Peyğəmbərimiz (s.ə.v)-in dövründə də şeytani fəaliyyətlər göstərilməsinə səbəb olduğunu xəbər vermişdir:

**Onlardan birinə, Mərhəmətli Allaha aid etdikləri qız uşağı ilə müjdə verilsə, hirsindən üzü qapqara qaralar və yaşadığı böyük kədərdən ötrü udqunduqca udqunar. (Zuxruf surəsi, 17)**

**Diri-diri torpağa basdırılmış qızcığaza soruşulacağı zaman, hansı günaha görə öldürülmüşdür. (Təkvir surəsi, 8-9)**

**Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. Bilmir nə etsin, körpəni rüsvayçılıq içində saxlasınmı, yoxsa onu torpağa gömsün? Onların verdikləri qərar necə də pisdir! (Nəhl surəsi, 58-59)**

Həmin bu ayələr, fanatiklərin qadına baxış prizmasındakı dəhşəti mükəmməl təsvir edir və Allahın bu zehniyyətə nə qədər böyük lənət etdiyini bizə göstərir. Qızı olacağından ötrü qəzəblənərək üzü qapqara qaralan, qadına bu qədər nifrət dolu olan, daha da irəli gedib onu diri-diri torpağa basdıraraq cinayət işləyən zehniyyət tarixdə mövcud olmuşdur və bütün bu insanlar, yuxarıda qeyd olunan Təkvir surəsinin 8-ci və 9-cu ayələrində bildirildiyinə görə, axirətdə bu etdiklərinin hesabını verəcəklər. Qadına qarşı bu düşmənçilik, Allahın qatında böyük qəzəb doğurur.

Göründüyü kimi, qadın düşmənçiliyi və nifrəti ilə dolub daşan fanatik zehniyyət, əsrlərdir ki, qadınlara olan şeytani yanaşma tərzini heç dəyişdirməmişdir. Quranın, onların bu qeyri-sağlam məntiqini qətiyyən dəstəkləmədiyini bildikləri üçün, bu məsələdə saxta hədislər vasitəsilə qarışıqlıq yaratmağa çalışmışdırlar. Xüsusilə qadınlara dair bu qədər ürküdücü saxta hədislər olmasının başlıca səbəbi budur.

Fanatiklər, bu mövzu ilə əlaqədar digər bir uydurma hədisə görə də, qadınları ölməyəcəkləri dərəcədə ac saxlayaraq və onlara gözəl paltarlar geyindirməyərək tərbiyə etməyi hədəfləyirlər. Bu azğın zehniyyətə görə əgər qadınları ac saxlasalar, onlara pis və köhnə paltarlar versələr, qadınların çölə çıxma istəyi də azalar. Həmin bu saxta hədis nbu cürdür:

**Qadınları zərər verməyəcək dərəcədə ac, həddi aşmayacaq dərəcədə paltarsız saxlayın. Çünki qadınlar yaxşıca doysalar, gözəl-göyçək geyinsələr onlar üçün çölə çıxıb gəzməkdən daha sevimli bir şey olmaz. Lakin onlar bir qədər ac, bir qədər də çılpaq qalsalar onlar üçün evdə oturmaqdan yaxşı bir şey olmaz. (İbnül Cevzi, Mevzuat, II/282283; Suyuti, Leali, II/154 İbn Arrak, Tenzihü'ş Şeria, II/212213)**

**Evlərinin qapısında oturmamaları üçün, qadınlarınıza yeni paltarlar hazırlatdırmayın, çünki paltarları gözəl və yeni olsa qəlblərinə çölə çıxmaq arzusu gələr. (İmamı Gazali-Kimyayı Saadet səh. 178 İbn Ebi Şeybe, Musannaf, IV/II, 420)**

**İçinizdən biri yaşı ötmüş, ağzındakı dişləri tökülmüş, görünüş etibarilə də çox çirkin biri ola biləcəyi kimi, arvadı da əksinə gənc və gözəl ola bilər. Bu gənc və gözəl qadın, bazara çıxdıqdan və ya dəvət edildiyi toy və ziyafət məclisindən evinə qayıtdıqdan sonra çöldə gördüyü yaraşıqlı kişilərlə, yaşlı və dişləri tökülmüş ərini müqayisə edərək ərinin üzünə belə baxmaq istəməz. Bəlkə də, ərinin özünü öpməsini və cinsi əlaqədə olmasını belə istəməz. Məhz gənc qadının kişilərin çox olduğu bazar, şənlik və yığıncaq yeri kimi məkanlara getməsinin qadın üzərində yaradacağı təsir ən azından budur. (İmam Şarani, Uhudül Kübra)**

Yuxarıda verilən saxta hədislərdə, getdiyi mühitdə özünə hakim ola bilməyən, Allah qorxusu və imanı ilə deyil, instinktləriylə hərəkət etməyə meyilli və bundan ötrü də, müxtəlif texniki tədbirlərlə tutulmalı olan qəribə bir varlıq, sanki bir heyvan təsvir edilir. Belə bir təsvir vardır, çünki bu, bir fanatikin tam mənasıyla qadına olan baxış prizmasıdır.

Bizi isə fanatikin deyil, Quranın baxış prizması maraqlandırar. Quranda təsvir edilən müsəlman qadın Allahdan qorxar. Bundan ötrü də, hansı mühitdə necə geyinməli olduğunu, iffətini və ismətini necə qorumalı olduğunu, bazar, şənlik və yığıncaq yerlərində necə davranmalı olduğunu çox yaxşı bilər. Bunu bilməsi üçün, Quran ona kifayətdir. Bunu bilməsi üçün bir kişinin ona nə edəcəyini söyləməsinə, onu geyindirməsinə, onu yedirtməsinə ehtiyacı yoxdur. Buna bir kişi deyil, Allah qərar verər. Quranın heç bir ayəsində bir kişiyə bu barədə bir hüquq və ya bir səlahiyyət verilməmişdir. Quranın heç bir ayəsində kişinin bu hüquqların özünə aid olduğunu iddia edəcəyi bir imtiyazı və xüsusiyyəti yoxdur. Allahın Quranda mömin kişilərə xitab etdiyi kimi, mömin qadınlara da xitab

etdiyinə görə, qadın Quranda Rəbbimizin özünə xitab etməsini çox yaxşı görər, anlayar və bunu ən mükəmməl şəkildə tətbiq etmək üçün çalışar.

Quranda bildirilən əxlaqı yaşamaq üçün bir qadının Allahdan qorxması kifayətdir. Bunun kişilər tərəfindən təhrik edilməklə təmin ediləcəyini iddia edənlər yalnız bu qorxunc saxta hədislərin əsirinə çevrilmiş fanatiklərdir.

Həmçinin Allah Quranda müsəlmanların qadın və ya kişi olmalarından asılı olmayaraq, israf etməyəcək şəkildə bütün halal nemətlərdən yeyib içmələrini, məscidlərə ən gözəl paltarlarıyla gəlmələrini, zinət əşyalarını taxmalarını, təmiz və baxımlı olmalarını bildirir.

**Ey Adəm oğulları! Məscidlərə gedərkən zinətlərinizi taxın. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir. (Əraf surəsi, 31)**

Qadınların küçəyə çıxmamalı olduğuna dair heç bir ayə olmadığı kimi, tam əksinə, Allahın mömin qadınlara yüklədiyi sosial məsuliyyətlər gərəyi qadınların aktiv sosial həyatları olduğu da ayələrdən açıq şəkildə başa düşülür. Dolayısilə bəhs olunan saxta hədislərdə qeyd olunan ifadələr də Quran ayələri ilə tamamilə ziddiyyət təşkil edir.

## ✓Qadının guya namazı batil edəcəyi və uğursuz olduğu iddiası

**“Rəsulullah (s.ə.v) belə buyurdu: “Biriniz sütrəsiz olaraq (səccadənin önünə dəyənək qoymadan) namaz qılarsa (qarşısından keçdiyi təqdirdə) bunlar namazını batil edər: Eşşək, donuz, yəhudi, atəşpərəst, qadın... (Buhari, Salat 90, İlm 18, Ezan 161, Cezau's-Sayd 25; Müslim, Salat 254, (504); Muvatta, Kasru's-Sala)**

**Namazı batil edən şeylər qara it, eşşək, donuz və qadındır. (Sahih-i Müslim, Salat 265; Tirmizi Salat 253/338 Ebu Davud, Salat, 110/720)**

**Üç şey uğursuzluq gətirir: Qadın, ev və at. (Ebu Davud, Tıb, 24/3922; Müslim, Selam, 34/115 Buhari, Nikah, 17/4805)**

**“Nədəsə (uğursuzluq) olsaydı, bu atda, qadında, evdə olardı”. (Buhârî, Cihad 47, Nikah 17, Tıb 43,54; Müslim, Selam 119, Müslim, Tıb 117-120, (2226); Muvattâ, İsti'zân 21)**

Həmin bu saxta hədislər də yuxarıdakı açıqlamalar əsasında qiymətləndirilməlidir. Allahın, “ən gözəl surətdə yaratdığım” dediyi qadınları; “qara it, eşşək, donuz” kimi bənzətmələrlə alçaltmaq, “uğursuz” deyə xarakterizə etmək, qətiyyən Quran əxlaqına uyğun deyil. Müsəlman qadınlar Quranda təriflənən, nümunə göstərilən, hörmət və sevgi bəslənilən, Allahın bir neməti olan olduqca mübarək insanlardır.

Bununla yanaşı, it və at kimi olduqca sevimli və eyni zamanda da insanlar üçün nemət olan məzlum canlıların da, ibadəti batil edən bəla gətirən və uğursuz varlıqlarmış kimi göstərilməsi onsuz da haqqında danışılan məntiqin qorxunc təzahürüdür.

Həmçinin İslam dinində uğur və uğursuzluq anlayışlarına da yer yoxdur. Bu anlayışlar şirkə işarə edən anlayışlardır. Xeyiri də, şəri də Allah göndərir. Yaradılmış heç bir şeyin insana uğur və ya uğursuzluq gətirməsinin mümkün olmadığı kimi, müstəqil gücü də yoxdur. Uğursuzluğa inanmaq müşrik xarakterinə məxsusdur və Allah əsil bu məntiqə sahib insanların uğursuz olduqlarını bildirir.

**“...Əslində onların özləri uğursuzdur, lakin onların çoxu bunu bilmir”. (Əraf surəsi, 131)**

Daha əvvəlki hissələrdə ətraflı izah etdiyimiz məna itkisinə ən konkret nümunələrdən bəziləri də bu hədislərdir.

Həmçinin daha əvvəl də bildirdiyimiz kimi, hədislərin əvvəlini və sonunu eşitməmək ciddi məna itkisinə səbəb olmuşdur, qadınların uğursuzluğu ilə əlaqədar hədisdə də bu problem yaşanmışdır. Qeyd olunan hədisi təkrar xatırladaq: Əbu Hureyrədən; ***“üç şey uğursuzluq gətirir; ev, qadın və at”*** **deyə Peyğəmbərimiz (s.ə.v)-ə hədis istinad edildiyini eşidən hz. Aişə**: ***“Allaha and içirəm ki, Allahın elçisi bunu əsla söyləməmişdir. O ancaq bunu söyləmişdir. “Cahillər belə deyərdilər: “Üç şey uğursuzluq gətirir; ev, qadın və at””*** deyə söyləmişdir.

## ✓Qadınları heyvanlara bənzədən fanatik zehniyyətdən nümunələr

**Qadınlar yeddi sifətlidir:**

**1) Geyinib-keçinmək həvəsində görə meymun,**

**2) Kasıblığa düşməyə razı olmadığından it,**

**3) Ərinə və digər insanlara qarşı təkəbbürünə görə ilan,**

**4) Gecə-gündüz dedi-qodu etdiyinə görə əqrəb,**

**5) Evdəki əşyalardan satdığına görə siçan,**

**6) Kişilərə hiylə qurduğuna görə tülkü,**

**7) Ərinə itaət etdiyinə görə də qoyun. (İmamı Gazali, İhya-u Ulumuddin)**

Burada belə bir sual vermək lazımdır: Yuxarıdakı bu iyrəncliklərlə dolu saxta hədisə inanan bir kişinin, bir qadına baxış prizması necə olar? Yoldaşını necə sevə bilər, ona necə hörmət bəsləyə bilər? Belə bir insanın dünyada ən yaxın olması lazım olan varlığa, yoldaşına qarşı nifrət duyğusundan savayı, necə başqa bir duyğu bəsləyə bilər? Öz yoldaşını sanki heyvan hesab edərkən, ona qarşı Quranda xüsusilə qeyd olunan sevgi və məhəbbəti necə qazana bilər? Əlbəttə ki, qazana bilməz. Halbuki Allah Quranda, ərlə-arvad arasında mövcud olan xüsusi sevgi və mərhəmətdən bəhs edir:

**Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır. (Rum surəsi, 21)**

Buna əsaslanaraq, mövzunu bir qədər də genişləndirək.

Ümumi mənada qadına baxış prizması bu qədər ürküdücü təfərrüatlarla dolu bir insanın öz anasına, bacısına, öz qızına baxış prizması da, şübhəsiz, eyni olacaq. Onlara qarşı sağlam sevgi və hörmət anlayışı bəsləyə bilməyəcək, bu yalan sözdəki məntiqin əks olunması şəklində özünü göstərəcək və istər-istəməz baxış prizması da yalnız alçaltmaq üzərində qurulmuş olacaq.

Aydındır ki, saxta hədislərdə verilən tərifdə sevgiyə deyil, nifrətə təşviq edilir. Bəhs olunan saxta hədislərdə təsvir edilən qadına, hörmət bəslənilməsi sanki qeyri-mümkündür. Onsuz da, az da olsa sevgidən bəhs olunmur. Allahın Quranda əsas şərt kimi ifadə etdiyi bu möhtəşəm duyğu, Allahın kainatı yaratma məqsədi olan sevgi sanki unudulmuşdur. Bu necə bir dindir ki, bu qədər çox düşməni var və ən başlıca düşmənləri qadınlardır?

Şübhəsiz ki, belə bir din, Qurandakı haqq din deyil.

Həmçinin bunu da qeyd etmək lazımdır ki, Qurana görə hüsnü-zənnlə, yəni xoş gümanla baxmaq əsasdır. Dəlillər, şahidlər olmadan zənn bəsləmək haramdır. Dolayısilə qarşı tərəf sırf qadın olduğu üçün ona; "xaindir, geyinib-keçinmək məsələsində ehtiraslıdır, oğurluğa meyllidir, fəndgirdir, hiyləgərdir, təkəbbürlüdür" kimi ön mühakimələrlə və qərəzlə yanaşmaq Qurana görə sui-zənn, yəni pis gümandır. Dolayısilə yalan və haramdır. Bir insana hiyləgər deyə bilməyimiz üçün, həqiqətən saxtakar, səmimiyyətsiz olduğuna şahid olmalıyıq. Bir insanı oğurluqda ittiham edə bilməyimiz üçün, bu insanın özünə məxsus olmayan bir malı oğurladığını sübut etməliyik. Dəlillər, şahidlər olmadan bir insana qarşı sırf qadın olduğu üçün, bu kimi ittihamlar irəli sürmək, Qurana görə böhtan atmaqdır. Böhtanı atan da zalım olar. Ancaq fanatiklər Quran hökmlərindən xəbərsiz, tam fərqli bir batil dini yaşadıqlarından, uydurma hədislərdəki bu azğın məntiqləri görə bilmirlər.

Növbəti fəsildə qadınlara məhdudiyyətlər qoymaq və onları alçaltmaq üçün, öz aləmlərində Qurandan dəlillər gətirməyə çalışanların iddiaları cavablandırılacaq.

## ✓Peyğəmbərimiz (s.ə.v)-in xanımlarına dair nazil edilən ayələr

Bu əhəmiyyətli xüsusü mütləq qeyd etmək lazımdır ki, Quranda Peyğəmbərimiz (s.ə.v)-in xanımlarına dair nazil edilmiş ayələr var. Peyğəmbərimiz (s.ə.v)-in yaşadığı dövrdə, fitnənin və yarana biləcək yanlış fikirlərin qarşısının alınması üçün, Allah Peyğəmbərimiz (s.ə.v)-in xanımlarını digər qadınlardan ayrı tutmuşdur. Quranda belə bildirilir:

**Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, yad kişilərlə nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. Şəriətə müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Dosdoğru namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey əhli-beyt! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. (Əhzab surəsi, 32-33)**

Həmin bu ayələrə görə Peyğəmbərimiz (s.ə.v)-in xanımları həyat, danışıq və geyim tərzi kimi məsələlərdə fərqli öhdəliklər daşıyırlar. Quran ayələrini şərh edənlər, bəzən bu ayələri ümumiyyətlə bütün müsəlman qadınlara xitab edən ayələr kimi şərh edirlər. Halbuki həmin bu ayələr bütün müsəlman qadınlara xitab etmir, Peyğəmbərimiz (s.ə.v)-in xanımları, digər qadınlardan ayrı tutulur.

# Nəticə:

## ✓Qadına ən çox dəyər Quranda verilir

Qadınlar barəsindəki bəzi saxta hədisləri bu hissədə açıqlamağımızın əsas səbəbi, bəzi İslam cəmiyyətlərində necə batil inanc formasının yayılmış olduğunu və bu batil inancın əsas mənbəyini göstərə bilməkdir. Beləliklə İslam adından bunlara tabe olanlar və ya bunlardan ötrü İslam dininə qarşı çıxanlar, qadınlara zülm edən bu sistemin əslində qətiyyən Quranda olmadığını görə bilərlər.

Lakin bəzi insanlar qadınların alçaldılmasına dair öz aləmlərində Qurandan dəlil gətirməyə çalışırlar. Məhz bu, müxtəlif Quran ayələrinin yanlış təfsir edilməsi, mötərizələr daxilində verilən fərdi əlavələrlə qeyd olunan yanlış şərhlər və əksər vaxt da, ayələrin yuxarıda açıqladığımız saxta hədislər əsasında şərh olunmasından qaynaqlanır. Halbuki yalnız Qurana baxdıqda, fanatiklərin öz istəklərinə görə gətirməyə çalışdıqları şərhlərin heç birini Quranda görmək mümkün deyil.

Bunu daha yaxşı anlamaq üçün, illərdir ki, "qadınların ev dustağı edilməsi, döyülməsi, yarımçıq insan hesab edilməsi" kimi məsələlərdə dəlil gətirilməyə çalışılan ayələri nəzərdən keçirəcəyik. Bir fanatikin deyil, Qurana tabe olan dindar bir müsəlmanın nöqteyi-nəzərindən baxdıqda, ayələrin həqiqi mənaları izah olunduqda, fanatiklərin saxta dini araya girmədikdə, qadına yer üzündə ən çox dəyər verən sistemin əslində Qurandakı sistem olduğunu hər kəs açıq şəkildə görə biləcəkdir.

# Qadınlara məhdudiyyətlər qoymaq və onları alçaltmaq üçün Qurandan dəlil gətirməyə çalışanlara cavablar

## ✓Qadınlara məhdudiyyət qoyma üsulu olaraq Quran tərcümələrinə "baş örtüyü" kəlməsinin əlavə edilməsi

Məlum olduğu kimi, fanatizm dininin ən çox gündəmə gətirdiyi məsələlərin başında qadınların örtülməsi gəlir. Dinin bir çox hökmünə demək olar ki, heç diqqət göstərməyən, təməl ibadətləri belə yerinə yetirməyən, amma sünnə, yəni hədislərin tətbiq olunması məsələsində olduqca diqqətcil olduğunu iddia edən bəzi insanların din və iman anlayışı ümumiyyətlə "baş örtüyü=din" şəklindədir. Bəs bu insanların sanki dinin yeganə simvolu kimi gördükləri baş örtüyü əslində Quranda vardırmı?

Bir çox alim, baş örtüyü və örtünmə məsələsiylə əlaqədar Qurandan şərh gətirdiklərini söyləyir və bəzi ayələri buna nümunə göstərirlər. Halbuki Quranda baş örtüyü sözünün keçdiyi tək bir ayə belə yoxdur. Dolayısilə əvvəlcə Quranın təfsirlərində və tərcümələrində necə şərh olunduğu və doğru şərhin necə olduğu görünməlidir.

## ✓Nur surəsinin 31-ci ayəsinin izahı, 1-ci hissə

**<u>Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər (harama baxmasınlar) və namuslarını qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə salsınlar</u>; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərin in atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən xidmətçilərdən, yaxud qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız. (Nur surəsi, 31)**

Bu ayədə, demək olar ki, bütün tərcümələrdə; **"baş örtüklərini yaxalarının üstünə salsınlar"** kimi tərcümə olunmuş bu cümlənin orijinal ərəbcəsində əslində baş örtüyü kəliməsi keçmir. Orijinal ərəbcəsində keçən söz "örtük"dür. Ayədəki sözlərin ərəbcə mənalarını araşdırdığımızda bunu çox açıq şəkildə görə bilərik:

**"...baş örtüklərini yaxalarının üstünə salsınlar..."**

**(Nur surəsi, 31)**

"Ve kul lil mu'minâti yagdudne min ebsârihinne ve yahfazne furûcehunne, ve lâ yubdîne zînetehunneillâ mâ zahera minhâ, <u>vel yadribne bi humurihinne alâ cuyûbihinne</u>, ve lâ yubdîne zînetehunne illâ li buûletihinne ev âbâihinne ev âbâi buûletihinne ev ebnâihinne ev ebnâi buûletihinne ev ıhvânihinne ev benî ıhvânihinne ev benî ehavâtihinne ev nisâihinne ev mâ meleket eymânuhunne evit tâbiîne gayri ulîl irbeti miner ricâli evit tıflillezîne lem yazharû alâ avrâtin nisâi, ve lâ yadribne bi erculihinne li yu'leme mâ yuhfîne min zînetihinn (zînetihinne), ve tûbû ilâllâhi cemîan eyyuhel mu'minûne leallekum tuflihûn (tuflihûne)".

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ
مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ أَوْ آبَائِهِنَّ أَوْ آبَاء
بُعُولَتِهِنَّ أَوْ أَبْنَائِهِنَّ أَوْ أَبْنَاء بُعُولَتِهِنَّ أَوْ إِخْوَانِهِنَّ أَوْ بَنِي إِخْوَانِهِنَّ أَوْ بَنِي أَخَوَاتِهِنَّ أَوْ
نِسَائِهِنَّ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُنَّ أَوِ التَّابِعِينَ غَيْرِ أُوْلِي الْإِرْبَةِ مِنَ الرِّجَالِ أَوِ الطِّفْلِ الَّذِينَ لَمْ
يَظْهَرُوا عَلَى عَوْرَاتِ النِّسَاء وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ وَتُوبُوا إِلَى
اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ

يَضْرِبْنَ *Yadribne:* “Darabe” felindən törəmişdir, “vurmaq, döymək, buraxmaq, örtmək, qapamaq” mənalarını verir.

خُمُرِهِنَّ *Humurihinne:* “Hamara” sözündən törəmişdir. “Hamrü”; “şərab, sərxoşedici” mənalarını verir. Həmin bu söz, bu ayədə “örtük” mənasına gəlir. Ümumiyyətlə “hər cür örtük, pərdə, şirma, sipər, bəhanə” kimi mənalar verir.

جُيُوبِهِنَّ *Cuyubihinne:* “Cüyub” sözünün cəm halıdır. Sinə, yaxasına, cib, qoyun (sinə nahiyəsi), sinə, bağır, oyuq, boyunbağı kimi mənalar da verir.

İndi isə ayənin, **“baş örtüklərinin, yaxalarının üstünə salsınlar”** şəklində tərcümə olunan **“vel yadribne bihumurihinne alâ cuyûbihinne”** hissəsini sözbəsöz analiz edək:

## ✓"Humur" - örtmək kəlməsinin araşdırılması

Baş örtüyünə dəlil kimi istifadə edilən **"humur"** sözü çox geniş mənalı olub, əsasən "örtük" mənasını verən **"hımar"** sözünün cəm formasıdır və **"örtmək"** mənasını verən "hamr" kökündən törəmişdir.

Lüğətlərdə "hımar" sözünə ümumi məna baxımından "örtük" mənası verilir, söz "hər hansı bir şeyi örtmək" mənasını daşıyır.

Dolayısilə ayədə "baş örtülərini" şəklində tərcümə olunan sözün əslində yalnız örtük olduğu və "baş" sözünün ayənin heç bir yerində keçmədiyi görülür.

## ✓"Yadribne" - vurmaq felinin araşdırılması

Ayədəki bu fel, baş örtüyünü Quranın hökmü kimi göstərməyə çalışanlar tərəfindən "salsınlar" şəklində tərcümə olunur. Bunun səbəbi, əvvəla onsuz da baş örtüyünün olduğuna dair təxminlərini haqlı çıxartmaq üçün "baş örtüklərini yaxalarının açıq yerlərinə salsınlar" ifadəsini istifadə edə bilirlər. Halbuki fel belə bir məna vermir və belə istifadə olunur:

"Yadribne" feli, "darabe" kökündən törəmişdir. Darabe, "vurmaq, döymək, buraxmaq, örtmək, qapamaq" mənalarını verir. Ayədə işlədilmə formasıyla, belə ki; **"örtükləriylə (bihumurihinne) döşlərinə (cuyubihinne) vursunlar (liyadribne)"** ifadəsiylə bir örtüklə sinə nahiyəsinin örtülməsi bildirilir.

Quranda "salsınlar" mənasında istifadə olunan "felyüdnine" sözü işlədilir. Bu fel isə ayənin heç bir yerində keçmir.

## ✓"Cuyub" - (açıq yaxa) kəlməsinin araşdırılması

"Cuyub" sözü, bildiyimiz cib sözünün cəm formasıdır (köynəkdə cib açmaq, cibinə qoymaq, cibindən çıxartmaq kimi mənalarda işlədilər). Həmçinin "sinə, yaxa, qoyun (sinə nahiyəsi), sinə, bağır, dəlik, oyuq, boyunbağı, pul kisəsi, açıqlıq, yarıq, boyun" kimi mənaları da verir.

**"Cuyub"** sözü Quranda 3 dəfə keçir. **"Cuyub"** sözü Nur surəsinin 31-ci ayəsində işlədilir və bu sözün tək halı, yəni **"ceyb"** sözü isə hz. Musa (ə.s) hekayəsində bildirilən iki ayədə keçir. Bu söz qeyd olunan iki ayədə bu cür istifadə olunur:

***"Cuyub" sözünün tək halı, yəni "ceyb" sözü hz. Musa (ə.s) hekayəsində iki dəfə işlədilir:***

**Əlini qoynuna (fi ceybike) sal ki, əlin oradan ağappaq çıxsın...**
**(Nəml surəsi, 12)**

**Əlini qoynuna (fi ceybike) sal ki, əlin oradan ağappaq çıxsın...**
**(Qəsas surəsi, 32)**

Göründüyü kimi yuxarıdakı iki ayədə də cuyub sözü, hz. Musa (ə.s)-ın **"sinəsi/qoynu"** mənasında işlədilmişdir. Bütün bunlara nəzər yetirdiyimizdə **"cuyub"** sözünün, **"hımar",** yəni örtmək sözü ilə birlikdə işlədilməsinin sinənin örtülməsi mənasını verdiyi aydın olur. "Başı örtmək" kimi bir məna isə, ayənin heç bir yerində yoxdur.

Dolayısilə **"hicablarını yaxalarının üstünə salsınlar"** şəklində təfsir edilmiş hissənin əsil mənası, **"örtükləriylə sinələrinin üstünü örtsünlər"** şəklindədir. Ayədə bildirilən hökm başın deyil, döşlərin örtülməsidir.

## ✓Saxta hədislərdən qaynaqlanan istiqamətləndirici/ yanlış tərcümələr

Quranda “baş örtüyü” hökmü varmış təəssüratı yarada bilmək üçün Nur surəsinin 31-ci ayəsi, bir sıra təfsirçilər tərəfindən bəzən müəyyən istiqamətləndirici şərhlərdən istifadə edilərək tərcümə edilmişdir. Buradakı məqsəd ayəni, bir qədər sonra araşdıracağımız baş örtüyünə dair saxta hədislərə uyğunlaşdırmaqdır (ayəni tənzih edirik). Edilən təməl istiqamətləndirmə isə “baş örtüklərini salsınlar” yanlış tərcüməsiylə həyata keçirilir.

## ✓Yanlış təfsir: “baş örtüklərini salsınlar”

Bəzi tərcümələrdə ayənin, **“baş örtüklərini yaxalarının üstünə salsınlar”** şəklində təfsir edilmiş bu hissəsində, yuxarıda sözbəsöz ərəbcə mənalarını araşdırdığımız kimi, nə “baş örtüyü”, nə də “salsınlar” ifadəsi işlənmir. Buna baxmayaraq, ayəni bu cür təfsir etmək istəyən insanlar, Quranla ziddiyyət təşkil etdiyi üçün, bunu edərkən mühüm məna itkisi və ziddiyyətlərlə üzləşirlər. Bir çoxu; **“onsuz da başlarında olan baş örtüyünü yaxalarının üstünə saldılar”** kimi təəccüblü açıqlama verərək, hal-hazırda qadınların başında bir örtük olduğunu iddia edirlər. Dövrün müsəlman qadınlarının “onsuz da başlarında bir örtük” ola bilməsi üçün, bu barədə Quranla bildirilmiş bir şərt, bir hökm olmalıdır. Halbuki Quranın heç bir yerində baş örtüyü ilə əlaqədar bir açıqlama yoxdur. Dolayısilə o dövrün qadınlarının dinin bir hökmü olaraq başlarında bir örtük gəzdirmələri qeyri-mümkündür. Bundan ötrü də, bəzi təfsirlərdəki; “onsuz da başında olan örtük” açıqlaması ciddi bir məntiqi məğlubiyyətdir. İndi bu məntiq pozuqluqlarını nəzərdən keçirək:

**1) “Onsuz da başda olan bir örtük” iddialarına şərh gətirə bilmək üçün bəzi təfsirçilər, Əhzab surəsinin 59-cu ayəsində işlədilən “çadra” sözünün keçdiyi ayənin, Nur surəsinin 31-ci ayəsindən əvvəl endirildiyini və bundan ötrü də müsəlman qadınların başlarında onsuz da bir örtük olduğunu iddia edirlər. Böyük məntiqsizliklərdən biri də burada ortaya çıxar. Çadra; onsuz da bir qədər sonra ətraflı şəkildə araşdıracağımız kimi, bütün bədəni başdan-ayağa örtən bir geyimdir. Geyilməsindəki əsil məqsəd isı bədəni örtməkdir. Nur surəsinin 31-ci ayəsinin qadınların sinələrini örtmələrinə dair bir hökm olduğunu xatırlasaq, çadra ilə gəzən bir qadının sinəsinin açıq olma ehtimalının olmadığını, bundan ötrü də ayənin, bütün bədənini və başını çadra ilə örtmüş qadınlara xitab etmədiyini anlayırıq. Görünür ki, həmin bu iddianı ortaya atanlar, bu mühüm və təməl xüsusu unutmuşdurlar.**

**2) O dövrün ərəb cəmiyyətlərində qadınlar çılpaq gəzirdilər. Ayə bunun üçün endirilmişdir. Bu ayəyə görə müsəlman qadınlar açıq sinələrini örtməyə başladılar. Ayədə keçən “cuyub” sözünün sinə mənasını verdiyini və bu ayədə qeyd olunan cümlənin əsil mənasının “örtüklərini döşlərinin üstünə örtsünlər” şəklində olduğunu təkrar xatırladaq.**

**3) “Başda onsuzda örtük olduğu” yanılmasını israrla müdafiə edən bəzi təfsirçilərə görə, haqqında danışılan qadınların başları, “onsuz da” baş örtüsü ilə örtülüdür, lakin bu məntiqə görə onsuz da sinələri açıq gəzirlər! Buna görə, qadınlar başlarını örtməli olduqlarını dərk etmiş, lakin sinələrini örtməli olduqlarını dərk etməmişdirlər (müsəlmanları tənzih edirik). Başlarındakı örtüyə çox diqqət yetirir, amma bədənləri çılpaq halda gəzirlər. Həmin bu təfsirçilərin; “onsuz da olan baş örtüyü” iddiası bu nəticəni ortaya çıxardır. Bu insanlar etdikləri bu şərhlə; “sinələri açıq, lakin başları örtülü” olan bu qadınlara**

**başlarındakı örtüyü aşağıya salmaları və sinələrini də örtmələri barədə nəsihət verildiyini iddia edirlər. Bu böyük məntiqsizlik, baş örtüyü hökmünü zorla Qurana daxil etmək səyinin yaratdığı dəhşətli nəticədir.**

**4) Bu qəribə açıqlamaya görə; "onsuz da başda olan baş örtüsü" o qədər uzundur ki, sinəni hər iki tərəfdən tamamilə örtəcək qədər aşağı enə bilir. Dolayısilə qəbul olunan bu fikrə görə, o dövrün çılpaq gəzən qadınlarının hər birinin başında "onsuz da" bir baş örtüsü vardı ki, bu da çadra qədər uzun idi. Məhz ayənin "baş örtülərini salsınlar" şəklində yanlış təfsir edilməsi, bu təfsirin müdafiəçilərini bu cür böyük məntiq pozuqluqlarına sövq edir. Bu vəziyyət, mənası olduqca açıq olan bu ayəyə, başqa məna verməyə çalışmağın yaratdığı bir nəticədir.**

Ayəyə baş örtüyü açıqlamasını əlavə edə bilmək üçün, uydurulmuş saxta hədislərdə isə, olduqca böyük məntiqsizlik var. Bu məsələ sonrakı sətirlərdə izah ediləcək.

## ✓Ayələrin ərəbcədəki mənaları və təfsirlərin doğruluğu ilə bağlı bilinməsi vacib olan məlumatlar

Ərəbcə bir mətnin tam başa düşülməsi üçün, yəni doğru tərcümə edilməsi üçün diqqət yetirilməli bəzi xüsuslar var:

### 1) Kəlmələrin ərəbcədə istifadə olunan mənalarına diqqət yetirilməsi

Xanımların hansı meyarlar əsasında örtünməli olduqlarının tam müəyyənləşdirilməsi üçün, diqqət yetirilməli olan bir mövzu, örtük sözünün ərəbcədə necə istifadə olunmasıdır.

Ümumiyyətlə örtük sözü ərəbcədə, örtüləcək cisimlə birlikdə vurğulanaraq işlədilər. Məsələn, örtmək sözü masa sözü işlədilsə masa örtüyünü ifadə edər, buna uyğun olaraq, “örtmək (hımar)” sözü “baş” (“re’s”) sözü ilə işlədilsə “hımarü-re’s”, yəni “baş örtüyü” sözü əmələ gələr. Əgər Quranda qadınların başlarının örtülməsi bildirilsəydi işlədilən ifadələrdən biri də bu, yəni “hımarü-re’s” ifadəsi olacaqdı. Lakin belə bir ifadə yoxdur.

Necə ki, Quranda dəstəmaz alınmasıyla əlaqədar Maidə surəsinin 6-cı ayəsində, başın məsh edilməsi barədə “baş” sözü “res” sözü ilə ifadə olunmuşdur.

Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, həm <u>başınıza</u>, həm də topuqlara qədər ayaqlarınıza <u>məsh çəkin</u>. (Maidə surəsi, 6)

**Ərəbcə oxunuşu:** Ya eyyuha elleziyne amenuu iza kumtum ila essalati fe iğsiluu vucuhekum ve eydiyekum ila elmerafiki ve imsehuu **<u>bi ruusikum.</u>**

Açıq şəkildə göründüyü kimi, əgər Allah qadınların baş örtüyündən istifadə etmələrini əmr etsəydi, bu əmr açıq və aydın şəkildə Quranda bildirilərdi. Ancaq qadınların paltarlarıyla əlaqədar ayələr araşdırıldığında başla əlaqədar belə bir ifadənin Quranda keçmədiyini görürük.

### 2) Qurandakı kəlmələrin digər ayələrin kömәyi ilə araşdırılması

Quranda hər hansı araşdırma apararkən, həm əlaqədar sözün ayədəki digər sözlərlə birlikdə, həm də onun digər ayələrdə nə mənada işlədildiyinə nəzər yetirilməlidir.

Nur surəsinin 31-ci ayəsindəki **"hımar (örtük)"** sözünün yanında işlədilən və məsələni vurğulayan söz **"cuyub"**dur ki, bu söz, **yuxarıda da araşdırdığımız kimi, həmin sözün işləndiyi bütün digər ayələrdə də "sinə" nahiyəsini** ifadə etmək üçün işlədilir. Dolayısilə ayəyə görə örtülməli yer, baş deyil, sinə nahiyəsidir.

## 3) Ərabca kalmalara mötarizada mana alava edilarkan diqqatli olunması

Ərəb dili, digər bir çox dillə müayisədə daha çox söz ehtiyyatına sahib, məna zənginliyi baxımından çox böyük bir dildir. Çox az sözlə çox şey izah edilə bilər və bir söz çox müxtəlif şəkillərdə istifadə olunaraq fərqli mənalar verə bilər. Məhz bundan ötrü də ayədəki məna olduqca aydın olmasına baxmayaraq, bir çox təfsirdə mötərizə daxilində əlavələr verilir və tərcüməçinin fərdi şərhinə görə istiqamətləndirmə aparılır.

Burada bunu xatırladaq ki, Quranı tərcümə edənlər ümumiyyətlə, hədisləri dinin təməli hesab edən ənənəvi İslam anlayışına sahib insanlardır. Həmçinin, ümumi olaraq götürdükdə də bu insanların tərcümələrinə etibar edilir və ayələrin tərcümələrinə əlavə olunan fərdi şərhlər də çox vaxt bu insanların ənənəvi qəbullarına görə və saxta hədislər əsaslanır. Mötərizələr və ya şərhlər işlədən həmin bu tərcüməçilər, (bilərək və ya bilməyərək) saxta hədislərin mənalarına uyğun şəkildə ayənin mənasını dəyişdirməyə meyl edirlər.

Nur surəsinin 31-ci ayəsinin tərcümələrinə nəzər yetirərək araşdırdığımızda, ayənin heç bir yerində baş örtüyü sözünün keçməməsinə baxmayaraq, təfsirçilər tərəfindən mötərizə daxilində və ya bilavasitə mətn daxilində "baş örtüyü" sözünün işlədildiyini görərik. Ayədə baş, yəni "re's" sözünün qətiyyən işlənməməsinə baxmayaraq, örtük sözü sinə sözü ilə birlikdə işlədilir, yəni örtülməli yerin (sinə) açıq şəkildə ifadə olunmasına baxmayaraq, "hər hansı bir örtük" mənasını verən "hımar" sözü sanki yanında baş sözü işlənirmiş kimi "baş örtüyü" olaraq tərcümə edilir. Məhz bundan ötrü də, ayədəki hökm dəyişdirilir, yeni hökm yayılaraq ənənəyə çevrilir və ortaya qadınların baş örtüyü geyinməli olduqları nəticəsi çıxarılır.

Halbuki təfsirçilər tərəfindən sonradan əlavə olunan bu şərh götürüldükdə, ayənin olduqca açıq şəkildə sinə nahiyəsinin örtülməsinə işarə etdiyi aydın olur. Ayəni bilavasitə oxuyan hər kəs yalnız bu məna ilə qarşılaşar.

## ✓Nur surəsinin 31-ci ayəsinin izahı, 2-ci hissə

**Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər (harama baxmasınlar) və namuslarını qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə salsınlar; <u>zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən xidmətçilərdən, yaxud qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər</u>. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız. (Nur surəsi, 31)**

## ✓"Qadınların zinətləri" mövzusundakı şərhlər

Nur surəsinin 31-ci ayəsində Allahın diqqət çəkdiyi bir xüsus da qadınların "zinətləri"dir. Ayədə yer alan **"gizlətdikləri zinətləri bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər"** ifadəsi ilə də gizlədilməli hissənin, qadının başı deyil, sinəsi olduğu aydın olur.

Ancaq bəzi hədislərdə və bəzi Quran təfsirlərində yenə mötərizə daxili əlavələrlə və ya sözlərdəki məna dəyişiklikləri ilə bu həqiqət çox fərqli əks etdirilir. Bunlara nəzər yetirək:

## ✓Qadınların fitnə törədilməsinə vasilə olduqları iddiası

Bu ayədə işlədilən "ziynetehunne" sözünün əsil mənası, türkcədə işlədildiyi kimi, "zinət", yəni "bəzək" deməkdir və sözün sonundakı "hunne" əvəzliyi ilə də xanımlara xitab olunduğu aydın olur.

Bəzi alimlər öz qənaətlərinə görə; "qadın bədəni bəzəkli və cazibədar olduğundan ayədə bütün bədən nəzərdə tutulmuşdur" deyir və buna əsaslanaraq, qadının bütün bədəninin örtülməli olduğunu iddia edirlər. Halbuki ayədə qətiyyən belə bir izahat yoxdur.

Bəziləri isə, yenə Quranın izahatından olduqca fərqli izahat verir və *"zinətlər sözüylə muncuqların taxıldıqları yerlər nəzərdə tutulmuşdur, dolayısilə bu zinətlərin taxıldığı yerlərə baxmaq haramdır"* deyirlər. Bəziləri daha da irəli getmiş və *"qadının kəsilmiş saçına, dırnağına baxmaq haramdır"* iddiasıyla çıxış etmişdir. Buna əsaslanaraq bəziləri; *"müəyyən hissəsinə baxmaq, əksərən insanı hamısına baxmağa sövq edər" (İbn Hâcer, Zevacir)* şəklində ağlasığmaz qəribə məntiqlər ortaya çıxarmışdırlar.

Diqqət yetirilsə, ayənin olduqca aydın olmasına baxmayaraq, yuxarıdakı abzasda qeyd olunanlar; "gizlətdikləri zinətləri bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər" cümləsi barəsində verilən saysız, bir-birindən fərqli və qəribə şərhlərdir. Ümumiyyətlə hər insan öz zehniyyətinə görə müxtəlif şərhlər vermiş, bəzənsə bu şərhlər insanların qadınlara baxış prizmasına əsaslanmışdır. Qadını örtməyə, passivləşdirməyə, çirkinləşdirib cəmiyyətdən və insanlar arasından uzaqlaşdırmağa, eləcə də, onu ikinci dərəcəli vətəndaş kimi göstərib, (haşa) Allah üçün deyil, kişi üçün yaşamağa layiq bir varlıq halına gətirməyə çalışan zehniyyətlər, ayədəki tək bir zinət sözüylə qadını tamamilə yox etməyə meylli olmuşdurlar. Məhz Quran ayələrinin belə yanlış şərh edilməsi nəticəsində, bir çox insan Quranı tərk etmiş, Quranı anlaşılmaz kitab hesab etmiş və bu əlavələr saxta hədislərlə birlikdə şərh olunduğuna görə də, ortaya Qurandakından çox fərqli bir din izahatı çıxmışdır.

Halbuki ayədə qeyd olunan "gizlənən zinətlər" ifadəsinin mənası çox aydındır və gizlənən iki nahiyəyə; cinsi orqan və döşlərə xitab edilir.

## ✓Bijuteriya və muncuqları haram etmək yanlışlığı

Bəziləri də ayədə "zinət" sözü ilə, "muncuq, bijuteriya kimi bəzək əşyalarının" nəzərdə tutulduğunu iddia edir ki, bu da bəzi saxta hədislərə əsaslanaraq yanlış və qəribə şərhlər verildiyinin başa düşülməsi baxımından əhəmiyyətlidir. İnsanı çaş-baş qoyan bu iddiaya görə bir kişi elə vəhşi instinktlə yaşayır ki, bir muncuğa baxmaq belə onun özündən çıxmasına kifayət edir. Bundan ötrü də, bu qəribə zehniyyətə əsasən muncuqlar əlüstü qadağan edilir ki, olduqca vəhşi varlıq olan "kişi" özünü cilovlaya bilsin!

Bu ürküdücü məntiq, əslində fanatiklərin müsəlman bir kişiyə baxış prizmasını da göstərir. Halbuki müsəlman bir kişi, Allahdan qorxan bir varlıqdır. Haram hərəkətləri qadağan edildiyi üçün deyil, Allah istəmədiyi üçün etməz. Müsəlman bir kişi, açıq bir qadın və ya bir ovuc muncuq gördüyü üçün özünü itirən, özündən çıxan, heyvani instiktlərlə yaşayan bir varlıq deyil. Bunu iddia etmək, müsəlman bir kişiyə qarşı çox böyük təhqir yönəltmək olar.

Edilən bu şərhlər əslində fanatiklərin vəhşi zehniyyətlərinin başa düşülməsi baxımından olduqca əhəmiyyətlidir. Fanatiklərin şərhlərini bir kənara qoyub, yalnız Qurana baxdığımızda isə, ayədə keçən zinət sözünün verdiyi mənanın çox aydın olduğunu görərik.

## ✓Zinət kəlməsi Quranda hansı mənada istifadə edilir?

Fanatik məntiqin zinətləri qadağan etmək; boyunbağı, sırğa kimi zinət əşyalarının taxılmasına mane olmaq məntiqinin tam əksinə, Allah Qurandakı ayələrdə bəzək və zinət əşyalarını iman edənlər üçün yaratdığını, hətta məscidlərə baxımlı və gözəl geyimlərlə gedilməli olduğunu bildirir:

**Ey Adəm oğulları! Məscidlərə gedərkən zinətlərinizi taxın ...**
**(Əraf surəsi, 31)**

Allah bir ayəsində: **"De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?...""** (Əraf surəsi, 32) deyə buyuraraq, Allahın halal buyurduğu zinət əşyalarını belə haram edəcək zehniyyətin ortaya çıxacağını xəbər verir. Ayənin davamında isə; **"...de: "Bunlar dünya həyatında iman edənlərə məxsusdur, Qiyamət günü isə yalnız onlarındır". Biz dərk edən insanlar üçün ayələri belə izah edirik"** (Əraf surəsi, 32) ifadəsiylə zinət, zərgərlik və bəzək əşyalarının müsəlmanlara dünyada verilmiş gözəl bir nemət olduğu vurğulanır. Həmçinin axirətdə yalnız onların olacağı bildirilərək, bu gözəl nemətlərə ən çox iman edənlərin layiq olduğu da bildirilir. Allah bu gözəl nemətləri iman sahiblərinə layiq gördüyü halda, fanatiklərin bunları müsəlmanlara qadağan etməyə çalışmaları, Quran zehniyyətinə nə qədər zidd davrandıqlarının digər bir dəlilidir.

Zinət sözünün bəzək mənasında işləndiyi başqa bir ayə isə belədir:

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və sizi bəzəyəcək geyim nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb ibrət alasınız.**

**(Əraf surəsi, 26)**

## ✓Nur surəsinin 31-ci ayəsində bildirilən zinət yerləri

Yuxarıda zinət ifadəsinin işlədildiyi ayələrdə Allah, zinətlər, yəni zinət əşyaları ilə bəzənməyi nəzərdə tutur. Lakin ətraflı açıqlandığı kimi, Nur surəsinin 31-ci ayəsində bəhs olunan zinətlər sözünün zinət əşyaları, incilər və muncuqlarla əlaqəsi yoxdur. Burada qadınların ailə daxili həyatları nümunə verilir və qadınlara ailə daxilində necə sərbəstlik verildiyi görülür. İndi ayənin "zinətlər"lə əlaqəli hissəsini sözbəsöz analiz edərək görək:

**...Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən xidmətçilərdən, yaxud <u>qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vura-vura yeriməsinlər</u>. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız. (Nur surəsi, 31)**

Ayənin izahatından burada qeyd olunan zinət sözünün muncuq və ya zinət əşyası deyil, açıq şəkildə məhrəm yerlərə işarə etdiyini görmək olur. Ayədə "zinətlərin" göstərilə biləcəyi insanlar qeyd olunmuşdur. Bu insanlar arasında, ehtirasını itirən xidmətçilər və qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlar da var. Xüsusilə "qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlar" məlumatının verilmiş olması belə, özlüyündə zinət sözü ilə məhrəm yerlərin nəzərdə tutulduğu göstərir.

Quranda çox nəzakətli, çox mükəmməl bir izahat var. Bundan ötrü də, sözlər çox diqqətlə seçilmişdir, ədəblidir və ətraflı araşdırıldıqda bu dərhal aydın olur. Məhrəm yerlər, Qurandakı bu möhtəşəm nəzakətə və söz sənətinə uyğun tərzdə ifadə edilmiş və zinət olaraq qeyd olunmuşdur.

Bəzi təfsirçilərin, Nur surəsi 31-ci ayədən zorla başörtüyü şərhini çıxarda bilmək üçün müraciət etdikləri ən böyük qaynaq, şübhəsiz ki, bu mövzuyla əlaqədar saxta hədislərdir. Bu ayə ilə həmin bu saxta hədislər arasında o qədər böyük və kəskin ziddiyyətlər vardır ki, açıq qiymətləndirmə yolu ilə bu çox asanlıqda aydın ola bilər. İndi

isə, qeyd olunan saxta hədislərin necə Quranla ziddiyyət təşkil etdiyinə, bu saxta hədislərin necə İslam ictimaiyyətini baş örtüyü mövzusunda yanlış istiqamətləndirdiyinə və onlardakı bariz məntiq pozuqluqlarına nəzər yetirək:

## ✓Baş örtüyü mövzusunda istifadə edilən saxta hədislər və onlardakı ziddiyyətlər

Bütün dəlilləriylə göründüyü kimi Quranda baş örtüyü mövzusuna dəlil göstərilməyə çalışılan Nur surəsinin 31-ci ayəsində qətiyyən baş örtüyü sözü keçmir. Lakin bu səhv, bəzi saxta hədislərin İslam ədəbiyyatına daxil edilməsiylə yayılmış və bu günə qədər gəlib çatmışdır. Fanatiklərin yaratdıqları saxta hədislər, fövqəladə məntiq pozuqluqları və ziddiyyətlərlə doludur. İndi bunlardan bəzi nümunələri görək:

**Hz. Aişə (r.ə): "Allah ilk mühacir qadınlara rəhmət eləsin, uca Allah: "Mömin qadınlar baş örtüklərini yaxalarının üstünə salsınlar" ayəsini endirdikdən sonra, <u>onlar ətəklərindən bir parça kəsərək, bununla başlarını örtdülər</u>" deyir. (Buhâri, Tefsir, Tefsir-u Süreti'n-Nûr, 13 (V, 13) Ebû Dâvûd, Libâs, 33(IV, 3577; Beyhaki, VII, 88)**

**Həzrəti Aişə anamız belə buyurdu: "İlk mühacir qadınlara Allah rəhmət eləsin! <u>Baş örtüyü ayəsi endikdən sonra, dərhal ipək bel bağlarını yırtıb başlarına örtdülər</u>". [Buhari, Nesai]**

**Səfiyyə bint Şeybə belə söyləyir: "Biz Aişə ilə bir yerdəydik. Qureyş qadınlarından və onların üstün xüsusiyyətlərindən bəhs edirdik. Hz. Aişə belə buyurdu: "Şübhəsiz ki, Qureyş qadınlarının bəzi üstün xüsusiyyətləri var. Lakin mən, Allaha and olsun ki, Allahın kitabını daha çox təsdiqləyən və bu kitaba daha güclü inanan Ənsar qadınlarından daha fəzilətlisini görmədim. Necə ki, Nur surəsindəki; "qadınlar baş örtüklərini yaxalarının üstünə salsınlar" ayəsi nazil edildikdən sonra, onların kişiləri bu ayələri oxuyaraq evə qayıtdılar. Bu kişilər! Zövcələrinə, qızlarına, bacı və qohumlarına bunları oxudular. Bu <u>qadınlardan hər biri ətək parçalarından, Allahın kitabını təsdiqləyib, ona iman edərək baş örtüyü hazırladılar</u>. Ertəsi günün səhər, hz. Peyğəmbərin arxasında baş örtükləriylə səhər namazını qıldılar. <u>Sanki onların başları üstündə qarğalar vardı</u>". (Buhari: Tefsiru Sure 24/12 - Ebu Davud : Libas 29 - Ahmed b. Hanbel : VI 188) (İbn-i Kesir,**

**Hadislerle Kuran-ı Kerim Tefsiri, XI cild, səh. 5880)**

Göründüyü kimi, bütün bu hədislərdə, Nur surəsinin 31-ci ayəsi nazil edildikdən sonra müsəlman qadınların dərhal öz ətəklərindən bir parça kəsib **başlarına sarıdıqları** iddia edilir. Onsuz da ən böyük məntiqsizlik burada özünü göstərir. İndi, həmin bu saxta hədislərdəki məntiqsizlikləri və Quranla necə ziddiyyət təşkil etdiklərini bir-bir nəzərdən keçirək:

- Ayədə; **"...örtüklərini yaxalarının üstünə salsınlar..."** ifadəsi ilə daha əvvəl ətraflı araşdırdığımız kimi, qadınların sinələrini örtmələri bildirilir. Lakin bu hədislərdə, bu ayənin endirilməsindən sonra müsəlman qadınların dərhal paltarlarından bir parça kəsərək sinələrini deyil, əksinə başlarını örtdükləri bildirilir. Halbuki ayədə başların örtülməsinə dair heç bir ifadə qeyd olunmur. Həmin bu hədislərin heç birində müsəlman qadınların ayənin əsil hökmünü yerinə yetirdiklərinə, yəni sinələrini örtdüklərinə dair bir şərh iştirak etmir.

- Burada deyilənə görə, qadınlar öz ətəklərindən parçalar kəsmiş və bununla ayənin hökmünə tabe olaraq sinələrini örtmək əvəzinə baş örtüyü kimi başlarına örtmüşdürlər. Daha əvvəl qeyd etdiyimiz kimi, "baş örtüklərini salsınlar" şəklindəki yanlış təfsirin doğru olduğunu göstərmək üçün hədisə əlavə olunan bu tətbiqə görə ətəkdən kəsilən parça o qədər böyük olmalıdır ki, həm başı, həm də sinəni örtə biləcək qədər aşağı enə bilsin.

- Burada, əlbəttə ki, ağla əvvəlcə kəsilmiş ətəyin vəziyyəti gələcəkdir. Ətəkdən başı və sinələri örtəcək qədər böyük bir parçanın kəsilmiş olması, ətəyi sanki mini ətək halına gətirəcək və dolayısilə qadının ayaqları açıq qalacaqdır. Bu deyilənə görə həmin bu qadının sinəsi və qıçları açıqdır, lakin başını örtmüşdür. Halbuki bu hissənin əvvəlindən bəri dəlilləriylə açıqladığımız kimi **Nur surəsinin 31-ci ayəsi qadınların "yalnız" sinə nahiyələrini örtmələrini bildirmək üçün nazil edilmişdir.**

- "Baş örtüklərini salsınlar" açıqlamasının tərəfdarı olan bəzi təfsirçilərin öz iddialarını haqlı çıxartmaq üçün "onsuz da başda olan bir baş örtüyü" açıqlamasıyla çıxış etdiklərindən bəhs etmişik. Onlar, ayədə baş örtüyü ifadəsinin işləndiyini sübut edə bilmək üçün, belə bir iddia ilə ortaya çıxır və ayənin xitab etdiyi qadınlarda onsuz da baş örtüyünün olduğunu iddia edirlər. Halbuki həmin bu saxta hədislərdə, bu ayə nazil olduqda qadınların öz ətəklərini kəsərək baş örtüyü kimi işlətdikləri iddiası var. Necə olur ki, haqqında danışılan təfsirçilərin ən böyük dayaq qəbul etdikləri bu saxta hədislər onların izahlarıyla bu qədər ziddiyyət təşkil edə bilir?

Ziddiyyət təşkil edə bilər, çünki İslama Qurandan kənar saxta hökmlər daxil etməyə çalışanların dinləri bu qədər böyük məntiqsizliklərlə doludur. Hər batil izahat Quranla ziddiyyət təşkil edər və onda fövqəladə məntiqsizlik olar. Nur surəsinin 31-ci ayəsinin, aydın və olduqca asan başa düşülən bir ayə olmasına baxmayaraq, bu ayədən sırf baş örtüyü sözünün çıxarda bilmək üçün edilən aldadıcı şərhlər hadisənin ciddiliyini göstərir.

Bəhs olunan saxta hədislər əsasında edilən şərhlər və əldə olunan nəticələr isə dəhşət vericidir.

Şafi və Hənbəli məzhəblərində, qadının istisnasız bütün bədəni daim örtülməli yerlərdir (üz və əllər də daxil olmaqla). Hənəfi və Maliki məzhəblərində əllər və üz, bu da fitnə olmayan şərtlərdə açıq qala bilər (*Sabuni, Tefsirul Ayatil Ahkam 2/154,155*). Əs-Suddi belə buyurmuşdur: "Qadın gözlərindən birini və üzünün açıq qalan göz tərəfindəki yeri örtər. Yalnız bir gözü açıq qalar". Əbu Həyyan belə buyurmuşdur: "Əndəlüsdə belə bir adət vardı. Qadının bir gözündən başqa heç bir yeri görünməzdi" (*Ebu Hayyan, El Bahrul Muhit*). Şafi imamları, qadının kəsilmiş dırnaqlarına belə baxmağı qadağan ediblər (*İbni Hacer El Heytemi, İslam'da Helal ve Haramlar 2).* Geniş yayılmış açıqlamalardan birinə görə İslamın qadına fərz buyurduğu örtünmə, qadının üzünü də əhatə edir (Fıkhus Siyre). Digər bir mənbədə, qadının kişiyə necə baxmalı olduğu belə bildirilmişdir: "Qadının, yad kişinin sinəsinə, kürəyinə, qıçına şəhvətlənmə ehtimalı olmasa belə baxması caiz deyil. Üzə baxmaq isə, ayaqlara, saça və qıçlara baxmaqdan daha böyük günahdır. Bu yerlərə baxmağın haram olduğu barədə ortaq fikrə gəlindiyinə görə, əvvəla üzə baxmaq da haram olmalıdır". (*Sabuni, Revai 2/156*).

Məhz ürküdücü səviyyəyə çatan fanatik zehniyyət, ancaq qadını tamamilə örtüyü təqdirdə rahatlayır. Bəziləri üçün, bu da kifayət etmir, onlara görə hər yerini örtən qadın, özünü ev dustağı etməlidir. Quranda qadına azadlıqlar verən, qadının, kimlərin yanında rahatlıqla hərəkət edə biləcəyini, kimlərin yanında məhrəm yerlərini örtməli olduğunu bildirən olduqca aydın bir ayədən, bu fanatik mahiyyətli və ürküdücü şərhlərin çıxarıla bilməsi əslində qeyri-mümkündür. Lakin nəzərdən keçirdiyimiz saxta hədislər onlara bu imkanı vermiş, onlar da, ayəyə öz şərhlərini əlavə edəcək qədər həddi aşmış və qadını "başdan-ayağa örtülü, kəsilmiş dırnaqları belə haram olan" bir xəyalətə çevirməyi bacarmışdırlar. Bu, fanatik zehniyyətin hüdudlarını görə bilmək üçün, olduqca aydınlaşdırıcı bir nümunədir.

Burada bunu ayrıca olaraq xatırladaq ki, hədis külliyatında Peyğəmbərimiz (s.ə.v)-in dövründə qadın və kişilərin eyni qabdan dəstəmaz aldıqları da qeyd olunur. *(Baxın: Buhari, Vudu 43; Ebu Davud, Taharet 39; İbni Mace, Taharet 36; Nesai, Taharet 56)* Dəstəmaz alınarkən yuyulmalı yerlərin ayaqlar, dirsəklərə qədər qollar, üz və baş olduğuna görə bu hədisdən, qadınların başları açıq halda kişilərlə yan-yana olduqları aydın olur. Lakin fanatiklərin xüsusiyyəti, mənfəətlərinə uyğun gəlməyən hədisləri nəzərə almamalarıdır.

Quranı meyar götürdüyümüzə və Qurandakı hökmlər də olduqca aydın olduğuna görə, qadınların kişilərlə eyni mühitdə başları açıq vəziyyətdə olmaları Qurana uyğun hərəkətdir.

## ✓Quranda göstərilən haramlar anlaşılmaz deyil

"Qadının kəsilmiş dırnaqları belə haramdır" hökmünü çıxardan fanatik zehniyyətə nəzər yetirərkən bu əhəmiyyətli məsələ bildirilməlidir; Allah Quranda bütün halal və haramları bizə çox konkret və dəqiq açıqlamalarla bildirmişdir. Məsələn, müsəlmanlar donuz əti yeməyin haram olduğu həqiqətini; **"o sizə ölünü (leşi), qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni qəti şəkildə haram etmişdir..."** (Bəqərə surəsi, 173) ayəsi ilə öyrənmişdirlər. "Qəti şəkildə haram etdi" hökmündə bir müsəlmanın tərəddüd edə biləcəyi, şərhlərə və təfsirlərə görə çıxarışlar edəcəyi, iki mümkün şeydən birini seçmə məcburiyyətində qalacağı bir vəziyyət yoxdur.

Digər bir nümunə isə, sələm nümunəsidir. **"...Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir..."** (Bəqərə surəsi, 275) ayəsi ilə sələmçilik açıq və qəti şəkildə müsəlmanlara qadağan edilmişdir. Bu ayəyə görə, heç kəs bu məsələni açıq müzakirəyə çıxara bilməz, "alış-veriş də sələmçilik kimidir!" çıxarışını edə bilməz.

Dolayısilə haramları bəzi təfsirçilərin öz zənni qalibləriylə (qüvvətli, həqiqətə ən yaxın zənn) etdikləri çıxarışlardan, ayələrə əlavə etdikləri mötərizə daxili şərhlərdən və ya saxta hədislərdən deyil, birbaşa ayənin özündən öyrənirik. Nur surəsinin 31-ci ayəsində də bu mənada, yuxarıda nəzərdən keçirdiyimiz kimi çox aydın izahat var. Lakin bəzi təfsirçilərin əl atdığı, ayələr arasına mötərizə daxili şərhlər əlavə etmək xətası, xüsusilə bu ayə üzərində bir çox dəfə tətbiq edilmişdir. Məsələn, bəzi təfsirçilər özlərinə görə hökmlər qoyan məzhəb imamlarının təsiri altında qalaraq, bu ayəyə mötərizə daxilində "üz və əl kimi görünən hissələr istisna olmaqla" şəklində bir əlavə etmişdirlər. Halbuki İslama görə qadınların "əlləri və üzləri istisna olmaqla hər yerlərini örtmələri" lazım olsaydı, şübhəsiz ki, belə əhəmiyyətli bir mövzu bütün incəlikləri və bütün açıqlığı ilə Quranda qeyd olunar və uca Rəbbimiz bunun haram olduğunu olduqca konkret və açıq ifadələrlə bildirərdi. Necə ki, biz, donuz əti, sələm və ya zinanın haram olduğu mövzularında əsla tərəddüd etməyiriksə, bu mövzunu da qəti şəkildə Quranda görmüş olardıq. Ancaq Quranda belə bir geyinmə tərzi təsvir edilməmişdir. Bu yalnız bəzi təfsirçilərin şərhlərində var.

## ✓Sadəcə qadınları və onların bədənlərini örtmək istəyi

Nədənsə fanatiklər saxta hədislərin də təsiriylə daima qadını ev dustağı etmək və ya qadının bədənini örtmək barəsində Qurana dair şərhlər vermişdirlər. İddia etdikləri ən böyük səbəb isə təhrik etmə ünsürüdür. Halbuki, qadın bədəni kişilər üçün nə qədər cəlbedici isə, kişi bədəni də bir qadın üçün eyni dərəcədə cəlbedicidir. Qurana görə bu iki cins arasında hər hansı bir fərq olmadığına görə, kişilərin təhrik olmaq qorxusu ucbatından qadınları örtməyə və ya yox etməyə çalışmaları da məntiqsiz davranışdır. Əgər problem kişilərin təhrik olmasıdırsa, bu vəziyyətdə məhz kişilərin özlərini ev dustağı etmələri və ya çölə, ətrafı görməyəcəkləri şəkildə üzlərini bir örtüklə bağlayaraq çıxmaları daha məntiqlidir. Özlərinin təhrik olma ehtimallarından ötrü, qadını örtmək əvəzinə, belə bir təhlükəni tamamilə aradan qaldırmaq yolunu seçməlidirlər.

Bu üsul mövzuyla əlaqədar hər təfərrüatda tətbiq edilə bilər. Məsələn, bəziləri tərəfindən qadın səsinin təhrik etdiyi düşünülürsə və bundan ötrü də danışmasına maneə törədilirsə, o zaman bu vəziyyət kişilər üçün də hakimdir. Əgər qadının danışdıqları, söylədiyi mahnılar dinlənilməyəcəksə, eynilə qadınların da kişi səsindən təhrik ola biləcəyi nəzərə alınaraq, kişilərə də bu məhdudiyyət də gətirilməlidir. Əgər fanatik məntiqin saxta qayda qanunlarını etibarlı elan etmək istəyir və bu mövzuda insanları razı salmağa çalışırlarsa, o zaman kişilər üzərində də qadınlar üzərində tətbiq etdiklərini həyata keçirməlidirlər.

Lakin, əlbəttə ki, İslamda etibarlı olan Quranın məntiqidir və Quranın məntiqində belə bir məhdudiyyət yoxdur. Fanatiklərin gətirməyə çalışdığı bu məhdudiyyətlər, şübhəsiz ki, azadlıqları ortadan qaldırmaq məqsədiylə uydurulmuş, cəmiyyəti çıxılmaz vəziyyətə salacaq, özlərinə də içində yaşadıqları cəmiyyətlərə fəlakət gətirəcək qaydalardır.

Qadın və kişi, hər mövzuda olduğu kimi, iffət mövzusunda da bərabərdir. Qadına zina etmək haram olduğu kimi, kişiyə də haramdır. Əhzab surəsinin 35-ci ayəsində; **"namuslarını qoruyan kişilər və (namuslarını) qoruyan qadınlar"** ifadəsiylə açıq şəkildə qeyd olunduğu edildiyi kimi, bir qadın, əxlaqlı olmaq, iffətini və ismətini qorumaq məcburiyyətində olduğu kimi, kişi də əxlaqlı olmaq, iffətini və ismətini qorumaq məcburiyyətindədir. Ancaq bunun yolu insanları örtmək, onları çölə çıxartmamaq, digər insanlarla görüşmələrinə və danışmalarına icazə verməmək deyil. Bunun yolu, Quran əxlaqını, əxlaq forması kimi mənimsəməkdir. İnsan, instinktləriylə hərəkət edən, impulsları onu haraya apararsa o yerə süründürülən vəhşi bir varlıq deyil. İnsan; ağlı, şüuru və ən əhəmiyyətlisi də Allahın öyrətdiyi əxlaqla, Allah qorxusu və sevgisi ilə doğrunu yanlışdan ayıran və insan xüsusiyyətini daşıyan bir varlıqdır.

Dolayısilə bir insanın iffətli davranıb davranmayacağını təyin edən ünsür, qarşı tərəfin nə qədər açıq geyinib, saç telinin nə qədərinin göründüyü deyil; onun Allah qorxusu

və əxlaqıdır. Allah bir ayədə; “...**gizlində kimin Ondan qorxduğunu üzə çıxartması üçün...**” (Maidə surəsi, 94) deyə buyuraraq insanları heç kimin görmədiyi mühitlərdə də sınayacağını bildirmişdir. Dolayısilə güc tətbiq edərək, ev dustağı edərək, maneə törədərək, zorakılıq işlədərək insanların dini yaşamaları və ya halal və haramlara diqqət yetirmələri təmin edilə bilməz. Gözəl əxlaqa könüllü surətdə sahib olunmalı, iman və ibadət də yalnız könüllü şəkildə edilməlidir.

## ✓Quranda baş örtüyü deyil, çadra təsvir edilir

Yuxarıda verdiyimiz bütün bu açıqlamalardan aydın olduğu kimi, Nur surəsinin 31-ci ayəsi, müxtəlif təfsirçilərin zorla istəklərinə uyğun şərh etmək səyləri və bəzi saxta hədislərin də təsiriylə, demək olar ki, bir tabu halına gətirilmiş baş örtüyü mövzusu üçün sanki dəlil olaraq istifadə edilir. İçində baş örtüyü sözünün keçmədiyi, baş ilə əlaqədar heç bir məlumatın verilmədiyi, çox açıq şəkildə sinənin örtülməsini bildirən bir ayənin, necə bu qədər fərqli bir şərh üçün istifadə olunduğu heyrət vericidir.

İnsanı heyrətləndirən digər bir xüsus da, Quranda olmayan baş örtüyü hökmünü sanki dinin yeganə şərti qəbul edən bir çox insanın, açıq şəkildə çadradan bəhs olunan Əhzab surəsinin 59-cu ayəsini heç dilə gətirməmələridir. Quranda olmayan baş örtüyünü hökm və tabu halına gətirmiş, lakin Quranda olan çadra hökmünü isə, tamamilə görməzlikdən gəlmişdirlər.

İndi, Əhzab surəsində çadra barədə nə hökm verildiyini və niyə bu ayənin baş örtüyü müdafiəçiləri tərəfindən görməzlikdən gəlindiyi məsələsinə nəzər yetirək:

## ✓Əhzab surəsinin 59-cu ayəsinin izahı

**Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, naməhrəm yanında çadraları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah Bağışlayandır, Rəhmlidir. (Əhzab surəsi, 59)**

Çadra sözünün mənası; "təpədən-dırnağa qədər örtən ehram paltarından, yaxud başqa hər cür örtük, paltar" deməkdir. Dolayısilə Əhzab surəsinin bu ayəsində çox açıq şəkildə çadra, yəni başı və bütün bədəni örtən çarşab təsvir edilir. Belə bir paltarın geyilməsi üçünsə, ayədə bildirilən mühüm bir şərt var: Müsəlman qadınların azad və iffətli tanınmaları.

Bunun mənası budur: bəzi mühitlər qadınların rahat hərəkət etmələri və ya rahat geyinmələri üçün uyğun deyil. Cəmiyyət və ondakı insanların əxlaq anlayışı, bəzən mədəniyyət normalarından geri qalır. Bəzi cəmiyyətlər bütün açıq qadınları müəyyən baxış prizmasıyla elə bil möhürləyir və onlara sözlə və ya fiziki cəhətdən təcavüz edəcək qədər irəli gedə bilirlər. Normalda müsəlman qadınlar məcburiyyət qarşısında qalmadıqca onsuz da belə cəmiyyətlərin içində olmazlar. Lakin müsəlman qadınlar belə cəmiyyətlərdə olduqda tədbir almalı və ətrafdakı insanlara müsəlman və iffətli qadın olduqlarını göstərərək edilməsi mümkün əziyyətlərdən qaçınmalıdırlar. Müsəlman qadınlar belə mühitlərdə geyindikləri çadra ilə buna qarşı tədbir almış olarlar.

Bu, əlbəttə ki, bir qadının öz qənaətinə qalan vəziyyətdir. Ümumiyyətlə dövrümüzdəki demokratik və müasir cəmiyyətlərdə bu "etibarsız mühit" yaşanmır. Dolayısilə Qərb cəmiyyətlərində qadınlar, ətraflarındakı insanlara etibar edərək çadra geyməyə ehtiyac duymazlar. Lakin bəzi qadınlar üçün bu cəmiyyətlərdə də, təhlükə meydana gətirəcək insanlar ola bilər. Dolayısilə müsəlman bir qadın mühitdəki insanlara etibar etmirsə, Qərb cəmiyyətində belə çadra geyinə bilər, çünki ayədəki şərt, müsəlman qadının geyimindən ötrü yanlış qiymətləndirilib əziyyət görməsinə maneə törədilməsidir.

## ✓Baş örtüyündən əl çəkməmək, lakin çadradan heç bəhs etməmək

Buradan baş örtüyü məsələsinə keçsək, əgər bir qadın istəyərsə; "baş örtüyü hökmü Quranda var və mən bunu Əhzab surəsinin 59-cu ayəsində görürəm" deyərək baş örtüyü geyinə bilər. Çadra əvəzinə baş örtüyünü seçmişdir və örtünməyi bu cür qavramışdır. Lakin bir insan; "Quranda baş örtüyü hökmü var və mən bunu Nur surəsinin 31-ci ayəsində görürəm" desə yalan danışmış olar. Məhz bu təhlükədir. Çünki Rəbbimiz, halalı haram sayan və ya Quran ayələrini öz istəklərinə uyğun şəkildə, yanlış şərh edənlər barədə öz hökmünü vermişdir. Quran ayəsində olmayan bir hökmün (həqiqəti bilməsinə baxmayaraq) olduğunu iddia etmək, Allah Qatında böyük günah ola bilər.

Bəzi insanların hicabı sanki dinin təməl simvolu qəbul edib, buna kəskin üslubla sahib çıxaraq, Qurandakı çadra hökmündən heç bəhs etməmələri təəccüb doğurur.

Həqiqətən də dindarlığı çadraya bürünmək hesab edən və Allah təqvanı üstün tutduğu halda, üstünlüyü hicab geyinməkdə görən bəzi insanlar, nədənsə Quranda əsil hökm olan çadra mövzusundan heç bəhs etməzlər. Əslində Quranda hicabla əlaqədar heç bir hökmün olmayıb, çadra ilə əlaqədar açıq hökm olmasına baxmayaraq, Quranda olmayan hökmü müdafiə etməyi seçərlər. Hicab mövzusu bu qədər gündəmə gələrkən, dünya səviyyəsində çadra mövzusundan heç bəhs edilməməsi həqiqətən də təəccüblüdür.

## ✓Müsəlman qadın Qurana görə necə geyinməli olduğunu bilir

Burada mühüm bir məlumatı da xüsusilə qeyd etmək lazımdır: Müsəlman bir qadın Qurana görə necə geyinməli olduğunu çox yaxşı bilir. Bunun üçün bir kişinin qadınlara nəyi necə geyəcəklərini göstərmələrinə ehtiyac yoxdur. Bir kişinin, bir qadının necə geyinəcəyinə qarışmaq, ona istiqamət vermək və ya mühakimə etmək haqqı da yoxdur. Allah ona bu haqqı verməmişdir. Bu təqdirdə hər hansı bir haqq iddia edə bilməz. Bu, hazırkı dövrdə, xüsusilə müsəlman cəmiyyətlərində dilə gətirilməli və ifşa edilməli olan, mühüm bir həqiqətdir.

Bir qadın hicab da geyinə bilər, çadra da geyinə bilər, başı açıq və ya dekolte geyinən biri də ola bilər. "Mən müsəlmanam" dediyi vaxt, heç bir insanın onu mühakimə etmək haqqı yoxdur. Hansının daha təqvalı olduğunu, yalnız Allah bilir. Dində meyar paltar deyil, daim səmimiyyətdir. Çadra geyinən biri, səmimiyyətsiz olub cəhənnəmə layiq ola bildiyi kimi, dekolteli bir qadın da cənnətə layiq ola bilər. Bu haqda yalnız Allah hökm verəcək.

Qurandan savayı rəhbərlər tutulduqda; bir-birindən fərqli, insan fitrətinə uyğun olmayan, ona maddi və mənəvi cəhətdən sıxıntı verən problemlər yaranar. Üstəlik, bunlar yalnız fərdi problemlər olmaqla qalmaz, sosial iğtişaşlara, sıxıntılara səbəb ola bilər. Bu başlığın mövzusu olan və hicablı-hicabsız, dekolteli-çadralı kimi meyarlarla, edilən paltar ayrı-seçkiliyi də, Quranda lmayan yanlış baxış prizmasıdır və cəmiyyətdə də narahatlıqların yaranmasına gətirib çıxarar.

Allah Qurana görə üstünlüyün xarici görünüş-paltarla deyil, təqva (Allah qorxusu ilə hərəkət etmə) ilə olduğunu ayəsində bildirir:

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və sizi bəzəyəcək geyim nazil etdik. <u>Təqva libası isə daha xeyirlidir</u>. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb ibrət alasınız.**

**(Əraf surəsi, 26)**

İman qəlbdə yaşanar və tətbiq edilər. İman, bir insanın gözəl əxlaqı, mehribanlığı, şəfqəti, mərdliyi, cana yaxınlığı, bağışlayıcılığı, keyfiyyəti, mədəniyyəti, nəzakəti, incəsənət və elm anlayışı, bir sözlə hər şeyi ilə özünü göstərər. Bundan ötrü də, insanları xarici görünüşləriylə deyil, əxlaqlarıyla qiymətləndirmək əsasdır.

Xarici görünüşlərinin necə olduğu heç əhəmiyyət kəsb etməz; "mən müsəlmanam" deyən insanların hamısı eyni şəkildə nur kimi, qiymətli müsəlmanlardır. Onlar arasında ayrı-seçkilik edilməsi doğru deyil. Heç kəsin ayrı-seçkilik etməyə haqqı yoxdur.

## ✓2 qadın = 1 kişi yanlışlığı

Bəzi insanlar tərəfindən İslama qarşı dəlil kimi işlədilən və yanlış bilinən mövzulardan biri də, "qadının kişiyə görə yarım haqqı olduğu" iddiasıdır. İslam əleyhdarı bəzi insanlar, "bir kişinin şahidliyi və haqqı, iki qadına bərabərdir" şərhini ortaya atmışdırlar. Fanatiklər də bu yanlış şərhi fürsət bilərək dərhal istifadə etmiş və qadına "yarım" damğası vurmuşdurlar. Halbuki İslam əleyhdarları da, haqqında danışılan fanatiklər də, bir çox mövzuda olduğu kimi, bu mövzuda da xeyli yanılırlar.

Allah Quranda, qadın və kişinin şahidliyi arasında fərq qoymur. Quranın heç bir ayəsində; "bir kişinin şahidliyi iki qadına bərabərdir" ifadəsi yoxdur. Məsələn, zina barədə verilən hökmün tətbiq olunması üçün 4 şahid lazımdır və Quranda bu şahidlər 4 qadın və ya 2 kişi, 4 kişi və ya 8 qadın kimi ifadələr işlədilmədən 4 şahid olaraq ifadə edilir. Yəni qadın və ya kişi olmasından asılı olmayaraq, hər hansı 4 şahidin olması kifayətdir və bu məsələdə qadın-kişi ayrı-seçkiliyi edilmir.

Verilən ifadələr ziddiyyət təşkil etdikdə isə, hər mövzuda olduğu kimi, yenə Quranda qadın üstün tutulmuş və onun sözünə güvənilmişdir. Məsələn, bir qadına zina böhtanı atıldıqda, onunla ərinin verdiyi ifadələr bir-biriylə ziddiyyət təşkil edərsə, qadının şahidliyi daha üstün tutulur. Belə ki, qadın, öz şahidliyinə uyğun olaraq günahsız qəbul edilir. Mövzuyla əlaqəli ayələr belədir:

**Arvadlarını zinada günahlandırıb özlərindən başqa şahidləri olmayanların hər birinin şahidliyi, özünün doğru danışanlardan olmasına dair dörd dəfə Allahı şahid tutması, beşinci dəfə isə: "Əgər yalan danışanlardandırsa, Allah ona lənət eləsin!" deməsidir. <u>Qadının da ərinin yalan danışanlardan olduğuna dair dörd dəfə Allahı şahid tutması cəzanı ondan dəf edər</u>.**

**(Nur surəsi, 6-8)**

Qadının Quranda şahidlik baxımından kişidən üstün tutulduğu, olduqca az insan tərəfindən bilinən, çox mühüm bir həqiqətdir. Bu Quranı və onun qadına baxış prizmasını izah edir. Lakin İslam əleyhdarları və fanatiklərin bildikləri bundan çox fərqlidir. Qadının şahidliyi və miras haqqı mövzusunda qadını yarım hesab edən fanatiklərin öz aləmlərində dəlil kimi işlətdikləri ayələri nəzərdən keçirərək bu hökmlərin həqiqi mənalarını görək:

## ✓Qadın və müddətli borclanmadakı şahidlik

Qadının şahidliyi məsələsində Quranda müstəsna təşkil edən yeganə mövzu müddətli borclanmadır. Buradakı müstəsna vəziyyəti anlamaq üçün, borclanma mövzusunun açıqlandığı Bəqərə surəsinin 282-ci ayəsini nəzərdən keçirək:

**Ey iman gətirənlər! Müəyyən bir müddətədək bir-birinizə borc verdikdə onu yazın. Qoy bunu aranızda bir katib ədalətlə qeyd etsin. Katib Allahın onu öyrətdiyi kimi yazmaqdan boyun qaçırmamalıdır. Qoy o yazsın, borc alan da (götürdüyü borcun miqdarını) yazdırsın, Rəbbi olan Allahdan qorxsun və borcdan heç nə əskiltməsin. Əgər borc alan ağıldan zəif və ya acizdirsə və yaxud özü yazdırmağa qadir deyilsə, qoy onun etibarlı yaxın adamı borcu ədalətlə yazdırsın. <u>Aranızdakı kişilərdən iki nəfəri şahid tutun. Əgər iki kişi olmazsa, razı olduğunuz şahidlərdən bir kişi və iki qadını şahid tutun ki, qadınlardan biri unutduqda, o birisi onun yadına salsın</u>. Şahidlər şahidlik etməyə çağırıldıqda boyun qaçırmasınlar. Az da olsa, çox da olsa, həmin məbləği və onun vaxtını yazmaqdan usanmayın. Bu, Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməyiniz üçün daha münasibdir. Yalnız aranızda gedən nağd ticarət istisnadır. Bunu yazmamağınız isə sizin üçün günah deyildir. Alver etdikdə şahid tutun. Amma katibə və şahidə zərər verilməməlidir. Əgər zərər yetirsəniz, şübhəsiz ki, bu, sizin üçün günahdır. Allahdan qorxun. O sizi öyrədir və O, hər şeyi bilir.**

**(Bəqərə surəsi, 282)**

Borclanma hökmünün qeyd olunduğu bu ayədə, “borcun yazılmalı olduğu və katiblə şahidlərin bu vəzifədən qaçmamaları” bildirilir. Həmçinin ayənin sonunda; “katibə və şahidlərə zərər verilməməsinin lazım olduğu” qeyd olunur. Göründüyü kimi, maddi mənfəətlərdən söhbət gedən bir mövzuda şahidlik etmək; insanların qaçdığı, boyunlarına götürmək istəmədikləri bir məsuliyyətdir. Allah isə, insanların qaçdığı bu məsuliyyəti tamamilə kişilərə yükləmiş, borclanma əsnasında “iki kişinin şahid tutulmasını” istəmişdir. Diqqət yetirsək ayədə; “iki kişi və ya dörd qadın şahid tutun” ifadəsinin qeyd olunmadığını görərik. Bu ayədə bilavasitə “iki kişinin şahid tutulması” istənilir. Riskli, ağır və qaçınılan

bu məsuliyyət bilavasitə kişilərə yüklənmişdir. Beləliklə də, təzyiqlərə qarşı daha həssas olan qadın, bu qaçınılan vəzifədən qorunur.

Ayənin hökmünə görə, yalnız və yalnız iki kişi şahid tutula bilməz, bir kişi şahid tutularsa, o zaman "bir kişi və iki qadın olması" şərti var. Beləliklə borc kimi maddi mənfəət və hesablaşmaların gətirəcəyi riskli vəziyyət qarşısında qadın yalnız buraxılmamışdır. Hər hansı mənfi halın yaşanması ehtimalına görə, ən başdan bir kişi ilə bir qadının üz-üzə gəlməsinin qarşısı alınır və qadın qorunur.

Məsələn, borcun miqdarı və ya ödəmə forması məsələsində hər hansı anlaşılmazlıq ortaya çıxdığını düşünək. İki şahid müxtəlif ifadələr verdiyi təqdirdə qadın, kişiylə üz-üzə gələcək və mütləq iki tərəfdən birinin yalançı olduğunun bəlli olduğu bu mühitdə güclü stress və təzyiq altında qalacaq. Allah, bütün xarici təzyiqlərə qarşı Quranda himayə etdiyi qadının belə bir vəziyyət yaşamasının qarşısını almışdır. Qadının yanında ona dəstək olacaq ikinci bir şahid buradakı təzyiqi aradan qaldırır. Bir kişi və iki qadın şahidlik etdiyi təqdirdə, şahidlərin sayı üçə çataraq məsuliyyət aradan qalxacağı üçün şahidlik prosesində yaşanan stress azalacaq və təzyiq göstərmək istəyən pis niyyətli insanlar bu dəfə iki nəfərdən birini deyil, üç nəfərdən ikisini aldatmalı olacaqları üçün işləri mürəkkəbləşəcək.

Çox yaxşı məlumdur ki, pulla əlaqədar öhdəliklər, xüsusilə hazırkı cəmiyyətlərdə, bir insanın digərinə asanlıqla böhtan ata biləcəyi, qarşı tərəfi laqeydcəsinə günahlandıra biləcəyi və şübhə altında qoya biləcəyi, olduqca riskli mövzulardır. Dolayısilə burada qadını qorumaq üçün alınmış tədbir, bir çox baxımdan qadın üçün zəmanətdir. Bəzi insanlara görə qadınları öz aləmlərində gücsüz hesab edib onlara böhtan atmaq asandır. Pulun araya girdiyi bu cür mühitlər də, həmin bu insanların qadına cinayətdə günahlandırmaq və ona böhtan atmaq üçün istifadə edəcəyi mühitlərdən biridir. Lakin iki qadının eyni anda şahid tutulması, bu böhtan riskini aradan qaldırır.

Bu eyni zamanda qadına psixoloji rahatlıq da verər. Borc şahidliyində borc məbləği, alınacaq və veriləcək şeylər kimi, təfərrüatların unudulması olduqca riskli ola bilər. Xüsusilə müsəlmanlar, ədalətli şahidlik etməklə məsul tutulduqlarından, borc haqqındakı təfərrüatların hamısını tamamilə bilmək və bunları unutmamaqla məsuldurlar. Məhz burada, qadının boynuna götürəcəyi bu məsuliyyət yarıbayarı azaldılmışdır. Qadın, yaddaşı güclü olsa və unutmamaq üçün lazımi tədbirləri almış da olsa (belə ki, bu mövzuda qadınlar kişilərdən daim daha diqqətcil və tədbirlidirlər) başqa bir şahidin olması da onu psixoloji öhdəçilikdən qurtarmış olar.

Əlbəttə ki, bu psixoloji öhdəlik və unutma ehtimalı kişi üçün də məqbuldur. Lakin Quranda psixoloji və maddi mənada qorunan və diqqət göstərilən tərəf daim qadınlardır. Rəbbimiz, qadınları xüsusilə təfərrüatlara əhəmiyyət verən, kiçik öhdəlikləri belə ciddi qəbul edərək, boynuna götürən, diqqətcil və məsuliyyət sahibi varlıqlar olaraq yaratmışdır. Dolayısilə borclanma əsnasında qadının üzərində hiss etdiyi yük, yaradılışının tələbindən ötrü olduqca böyük olur. Məhz bu yükü azaltmaq, onu qorumaq və psixoloji təzyiq altına

girməsinin qarşısını almaq üçün uca Allah, belə rahatlıq verici tədbir yaratmışdır. Bu yenə, Rəbbimizin qadına verdiyi böyük dəyərin təzahürüdür.

Bu unudulmamalıdır ki, Quranda dövlət başçısı olaraq bir qadın (Səba məlikəsi) nümunə verilir və onun qərarlar verən güclü insan olduğu vurğulanır. Bunun mənası Qurana görə qadınların dövlət başçısı ola biləcək qədər ağıllı və güclü şəxsiyyətə sahib olduqlarıdır. Dolayısilə borclanma məsələsində qadınları açıq şəkildə qoruyan ayəni; “qadınların əskik ağıllı olduqları” şəklində şərh edən insanlar, Qurandakı hökmünü görməzlikdən gələrək, ayəni öz istədikləri kimi şərh edirlər. Bizim qəbul etdiyimiz meyarsa yalnız Qurandır.

## ✓Qadınların mirasdakı haqqı

Miras məsələsində qadınlara kişilərə ayrılanın yarısı qədər pay ayrılması mövzusu da, adətən bir çox insanın səhv qiymətləndirdiyi mövzudur. Quranın ruhunu, İslamın əsas təməllərini, Rəbbimizin qadınlara olan şəfqətini və qoruyuculuğunu qavraya bilməyən bəzi insanlar, mirasın necə bölünəcəyini göstərən ayəni Quranın bütün ayələrini eyni anda deyil, ayrı-ayrılıqda qiymətləndirərək öz iddialarına dəlil gətirməyə çalışarlar. Halbuki miras haqqı, yenə Quranda qadının necə qorunduğunun digər bir göstəricisidir.

Quranda qadının mirasdakı payıyla əlaqədar qeyd olunan ayələr belədir:

**Valideynlərin və qohumların qoyub getdikləri maldan kişilərə pay düşür; valideynlərin və qohumların qoyub getdikləri maldan qadınlara da pay düşür. Bu mal istər az olsun, istərsə də çox, onlar üçün müəyyən edilmiş, verilməsi fərz bir paydır. (Nisa surəsi, 7)**

**Allah övladlarınız haqqında sizə belə tövsiyə edir; kişiyə, iki qadının payı qədər pay düşür. Əgər onlar ikidən artıq sayda qadındırlarsa, vəfat edənin qoyub getdiyi malın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qadındırsa, mirasın yarısı ona çatır. Əgər ölənin övladı varsa, onun valideynlərinin hər birinə qoyub getdiyi malının altıda bir hissəsi çatır. Əgər onun övladı yoxdursa, varisi də ancaq valideynləridirsə, onun anasına mirasının üçdə bir hissəsi düşür. Əgər ölənin qardaşları (və ya bacıları) varsa, onun anasına mirasının altıda bir hissəsi düşür. Bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilmirsiniz. Bunlar Allah tərəfindən buyurulmuş fərz əməllərdir. Həqiqətən, Allah biləndir, hökm və hikmət sahibidir. (Nisa surəsi, 11)**

İslamda miras, ilk ayədə gördüyümüz kimi, həm qadının, həm də kişinin haqqıdır. İkinci ayədə isə, mirasın nəyə əsasən bölünəcəyi göstərilir və buna əsasən miras, insanların ehtiyac və vəzifələrinə görə bölünür.

Qurana bütöv şəkildə baxdıqda, ana, arvad, qız uşaq və ya bacının öz-özlərini dolandırmaları deyil; onların dolanışığını təmin etməyin oğul, ər, ata və ya qardaş üzərinə

düşən məsuliyyət olduğunu görürük. Bu qadının bütün həyatı boyu qüvvədə olan bir hökmdür. Yəni oğul, ər, ata və ya qardaş, qoruduğu qadına həyatının sonuna qədər baxmaqla məsuldur.

Məsələn, evlənərkən kişi qadına mehr verir. Mehir; Qurana görə qadının ailəsinə deyil, bilavasitə qadına verilir. Evləndikdən sonra isə, qadının və uşaqların bütün maddi ehtiyaclarını təmin etmək kişinin boynuna düşür. Sonrakı səhifələrdə geniş şəkildə görəcəyimiz kimi, boşandıqdan sonra da bu qayğı və maddi dəstək davam edir. Dolayısilə qadına yüklənməyən bütün xərcləmələr daim kişinin boynundadır.

Qadının maddi ehtiyaclarının ödənilməsinin kişiyə yüklənmiş olması, qadını məhdudlaşdırmaq demək deyil. Bu, qadının möhtac varlıq olduğunu da göstərməz. Burada alınan tədbir, qadına verilən dəyəri göstərir və qadının həyatı boyu hər hansı zərər çəkməsinə mane olmaq üçündür. Qadın istədiyi kimi yaşamaq, işləmək və ya işləməmək, pul qazanmaq və ya qazanmamaq, iş qurmaq, şirkət, hətta dövlət idarə etmək məsələsində azaddır. Maddi ehtiyaclarının daim bir kişi tərəfindən ödənilməsi həmin qadının sosial həyatını məhdudlaşdırmaq, sərbəst yaşamasının qarşısını almaq və ya onu ev dustağı etmək demək deyil. Bu, həmin bu kişinin qadın üzərində söz sahibi olduğunun göstəricisi də deyil. Quranın heç bir ayəsində kişinin qadına hökm edə biləcəyinə dair hər hansı məlumat qeyd olunmur. Kişiyə maddi məsuliyyət yüklənməsi, Quranda diqqətlə qorunan qadının həyatı boyu zərər çəkməməsi üçündür.

Lakin Qurana görə qadın, heç kəsə qarşı belə bir məsuliyyət daşımır. Başqalarının dolanışığını təmin etməklə məsul olmadığı kimi, özünü belə dolandırmaq məcburiyyəti yoxdur. İstəməsə işləməz, bu qadının üzərinə bir öhdəlik deyil.

Həmçinin qadın, öz malından arzu etdiyi kimi, qənaətlə istifadə etmək hüququna da malikdir. Qadın zəngin də olsa, ailə xərclərini ödəmək məcburiyyəti yoxdur. Uşaqların maddi xərclərini öz üzərinə götürmək məcburiyyəti də yoxdur. Qadın kişidən daha zəngin olsa da, kişinin maddi məsuliyyəti davam edər.

**Qadın mirasdan aldığı payı istəsə qazanc götürəcəyi işlərə yatıra bilər, istər özü üçün istifadə edə, istərsə də saxlaya bilər. Lakin kişi mirasdan aldığı payı qadının dolanışığı və baxımı üçün xərcləmək məcburiyyətindədir. Həyat yoldaşını, uşaqlarını, varsa da bacısını dolandırmaq, onları yaxşı və rahat yaşatmaq onun məsuliyyətidir. Təkrar xatırladaq ki, bu, qadının buna ehtiyac duyduğundan deyil, həyatı boyu uğraya biləcəyi ziyanın qarşısının almaq üçündür.**

Quranda açıq şəkildə bildirilən həqiqətlər əsasında qiymətləndirdiyimizdə çox aydın bir həqiqətlə qarşılaşırıq: "Əgər miras bölgüsündə qadınla kişiyə bərabər pay verilsəydi, payları eyni olduğu halda, kişi ailənin dolanışığını təmin etdiyi, qadının isə belə bir məsuliyyət daşımadığı üçün, tarazlıq kişinin əleyhində pozulacaqdı".

Ayədə bildirilən əhəmiyyətli bir xüsus; **"bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır"** şəklində ifadə edildiyi kimi miras bölgüsünün

ardıcıllığıdır. Əgər ölən insan miras qoymuşdursa, əvvəlcə mirasa görə hərəkət etmək lazımdır. Bu insan bütün mal-dövlətini qadına qoyub getmiş, ailədəki kişilərə heç pay ayırmamış ola bilər. Bu təqdirdə ayənin hökmünə görə vəsiyyət məqbul hesab ediləcək və bütün miras qadına qalacaq.

Allahın kişini, qadının maddi ehtiyaclarını ödəməklə məsul tutmasının xüsusi hikmətləri var. Əgər Allah istəsəydi, kişiyə belə məsuliyyət yüklənilməz və qadın qətiyyən maddi zəmanəti olmadan, özünün, hətta uşaqlarının dolanışığını təmin etmək məsuliyyətini daşıya bilərdi. Lakin bu, qadın üçün böyük yük, psixoloji təzyiq və ağır məsuliyyətdir. Maddi cəhətdən belə ağır yük Quranda qətiyyən qadınların üzərinə yüklənməmişdir.

## ✓Qadının boşanma haqqı

Boşanma mövzusuyla əlaqədar burada bildirilməli ilk təməl xüsus, qadına boşanma haqqı verməyən bəzi fanatiklərin tətbiqlərinin yanlışlığıdır. Bu zehniyyətə görə, qadın nə qədər bədbəxt olsa, əziyyət görsə də, bir kişidən boşanması qeyri-mümkündür. Qadınları alçaltmağa, kişiləri isə üstün göstərməyə çalışan fanatik zehniyyətin bu ürküdücü tətbiqi hal-hazırda İran və Səudiyyə Ərəbistanı kimi ölkələrdə faktiki olaraq həyata keçirilir.

Halbuki Quranda qətiyyən belə zehniyyət olmadığı kimi, bu Quranın ruhuna da ziddir. Quranın heç bir ayəsində "yalnız kişi qadını boşaya bilər" kimi bir hökm qeyd olunmadığı kimi, Bəqərə surəsinin 228-ci və 241-ci ayələrində "boşanmış qadınlar"dan bəhs edilir. Boşanmaq, kişiyə olduğu kimi qadına da verilmiş bir haqqdır.

Diqqətçəkən məqam budur ki, Quranın bəzi təfsir və ya tərcümələrini baxdığımızda "boşanan qadınlar" ifadələrinin əvvəlinə mötərizə daxilində "əri tərəfindən" yazılan əlavələr görürük. Məhz bu xəta, bəzi təfsirçilərin fanatik İslam anlayışından qurtula bilməmələri nəticəsində Quranın açıqlamasını öz aləmlərində kafi görməyib, ayələri bu fanatik zehniyyətə uyğunlaşdırmaq səyindən qaynaqlanır. Daha əvvəlki başlıqlar altında ayələrə əlavə olunan mötərizə daxili əlavələrin böyük ölçüdə Quranı fanatik zehniyyətə uyğunlaşdırmaq səyinin bir hissəsi olduğundan bəhs etmişdik. Məhz belə olduqda da, ayəni öz istəklərinə görə dəyişdirə bilməyəcəklərini bilən bəzi insanlar, mötərizə daxili əlavələrlə bunu etməyə çalışırlar. Halbuki bu mötərizə daxili şərhlərə fikir vermədən baxıldığı təqdirdə, Quran ayələrinin olduqca aydın bir mesaj verdiyini görmək olur.

## ✓Boşanma və boşanmadan sonra qadının qorunması

Quranda qadına üstünlük verildiyinin görülməsində, qadının boşanmadan sonrakı baxımı və himayəsi olduqca əhəmiyyətli bir dəlildir. Uca Rəbbimiz qadının, boşanma kimi zərər çəkə biləcəyi vəziyyətdə belə, haqqlarını qorumuş və onu həyatı boyu zəmanət altına almışdır. Bir kişi, boşanmış olsa belə, qadını ömrünün sonuna qədər qorumaq və ona baxmaqla məsuldur, qadının buna ehtiyacı olmasa da.

## ✓Boşanarkən qadının könlünün alınması və razı salınması

Boşanma, nəfslərinin istəyinə uyğun yaşayan bəzi insanlar üçün, qarşı tərəflə olan bütün mənfəət əlaqələrini kəsmək deməkdir. Belə insanlar mənfəət əlaqəsi kəsildikdən sonra, artıq qarşı tərəfə qayğı və diqqət göstərmələri üçün hər hansı səbəb qalmadığına inanırlar. Çox vaxt, ayrıldıqları insanlara olan bütün sevgi və hörmət hisslərini də itirdikləri üçün, yalnız öz mənfəətlərini qoruyacaq şəkildə hərəkət edər, qarşı tərəfin yaşadığı sıxıntı və çətinlikləri görməzlikdən gələ bilərlər. Əlbəttə ki, bu Quran əxlaqını yaşamayan insanlarda görülən pis əxlaq xüsusiyyətidir. Uca Rəbbimiz Quranda, boşanmadan sonra qadınlara şəfqət və mərhəmətlə, gözəl əxlaqla davranılmalı olduğunu belə bildirmişdir:

**Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti sona yetişdiyi zaman onları ya <u>gözəl şəkildə</u> saxlayın, ya da <u>gözəl şəkildə</u> buraxın...” (Bəqərə surəsi, 231)**

**Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənsəniz, sonra da onlara toxunmazdan əvvəl talaqlarını versəniz, artıq onlar üçün gözləmə müddətini saymağa (yanınızda saxlamağa) haqqınız yoxdur. Belə olduğu təqdirdə <u>onlara talaq haqlarını verin və gözəl tərzdə sərbəst buraxın</u>. (Əhzab surəsi, 49)**

Diqqət yetirilsə hər iki ayədə də "gözəl" tərzdə yanaşmadan bəhs edilir. Bundan əlavə, boşandıqdan sonra da, əgər lazımdırsa kişi qadını "gözəl şəkildə saxlamaq"la məsuldur. Qadın işləməyə bilər, maddi zəmanəti, qalacaq yeri olmaya bilər. Məhz ayə belə bir vəziyyət qarşısında boşanan qadını zəmanət altına alaraq kişiyə, ya onu gözəl şəkildə saxlamaq ya da getmək istəyirsə gözəl rəftar göstərərək onlardan ayrılmaq variantlarını təqdim etmişdir.

Hər iki vəziyyətdə də kişinin vəzifəsi qadına gözəl davranmaqdır.

## ✓Boşandıqdan sonra qadınlara maddi zəmanət verilməsi

Boşanan qadının öz başına, müdafiəsiz buraxılması və ona maddi yardım göstərilməməsi Quranda qadağan edilir. Qadın, boşanmadan sonra varlı olub-olmamasından asılı olmayaraq, İslama görə mütləq maddi zəmanət altına alınmalıdır. Bundan boşandığı həyat yoldaşı məsuldur.

Quranda boşanmış qadının maddi zəmanət altına alınmasını şərt gətirən ayələr belədir:

**Boşanmış qadınlara şəriətə müvafiq qayda üzrə yararlanma (və dolanışıq payı) verilməlidir. Bu, qorxub çəkinənlər üçün bir borcdur. (Bəqərə surəsi, 241)**

**<u>Onlara</u> şəriətə müvafiq qayda üzrə <u>pay verin.</u> Varlı öz imkanına görə, kasıb da öz imkanına görə versin. Bu isə yaxşılıq edənlər üçün bir borcdur. (Bəqərə surəsi, 236)**

**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Ayələrdən göründüyü kimi, həm çox imkanlı, həm də az imkanlı kişilər boşandığı qadını qorumaqla məsul tutulmuşdur. Həyatı boyu bir daha heç görməyəcək, heç bir maddi-mənəvi mənfəət təmin etməyəcək də olsa, boşandığı həyat yoldaşının maddi ehtiyaclarını təmin etmək və ona nəzakətlə davranmaqla borcludur. Uca Allah qadınlara mütləq könüllü surətdə, sevərək və istəyərək maddi zəmanət verilməli olduğunu da ayələrində belə bildirmişdir:

**Qadınlara öz mehrlərini <u>könül xoşluğu ilə</u> verin! Əgər onlar öz xoşları ilə bundan sizə bir pay versələr, onu nuşcanlıqla və halallıqla yeyin! (Nisa surəsi, 4)**

## ✓Qadınlara verilən malların boşandıqdan sonra geri alınmaması

Uca Rəbbimiz ayələrində, boşadıqdan sonra kişinin evli olduğu müddətdə yoldaşına verdiyi heç nəyi geri almamalı olduğunu belə bildirmişdir:

**Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan <u>birinə yığın-yığın mal vermiş olsanız belə, heç bir şey geri almayın</u>! Məgər verdiyinizi böhtan atmaq və açıq-aşkar günah işlətməklə mi geri alacaqsınız? Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və onlar da sizdən möhkəm əhd-peyman almışdılar? (Nisa surəsi, 20-21)**

**...Onlara verdiklərinizdən bir şeyi geri götürmək sizə halal olmaz... (Bəqərə surəsi, 229)**

Allah ayələrdə kişiyə, evlilik bağı ilə qadına söz və zəmanət verildiyini xatırladır. Bu sözdən ötrü də, qadına “yığın-yığın mal-dövlət və pul” verilmiş də olsa, yenə də bunları geri tələb etməmələrini bildirmişdir. Qurana tabe olan müsəlman, bu sözün Allaha verildiyini bilər. Bundan ötrü də, bu məsuliyyətini ən gözəl şəkildə yerinə yetirər. **“Onlara verdiklərinizdən bir şeyi geri götürmək sizə halal olmaz”** ayəsi ilə də, bundan savayı bir rəftarın Allah tərəfindən haram buyurulduğu aydındır.

## ✓Boşandıqdan sonra qadınların sığınacaqla təmin edilməsi

Uca Allah, boşanmadan sonra qadının çətin vəziyyətdə qalmaması və kifayət dərəcədə qorunması üçün kişiyə, onu yaxınlığında saxlamasını nəsihət edir. Hətta ayədə bunu elə etməli olduğu bildirilir ki, təhlükə anında qadını qoruya bilsin. Boşanmadan sonra özünə qala biləcəyi əlverişli yer tapana qədər bu məsələdə qadına imkan tanınması, ona hər hansı zərər gəlməsinə icazə verilməməsi, mömin üçün, vicdani baxımdan mühüm məsuliyyətdir:

**Onlara <u>imkanınız daxilində öz yaşadığınız yerin yaxınlığında qalmağa yer verin</u>. <u>Darlığa və sıxıntıya salmaq məqsədilə onlara zərər yetirməyin</u>. Əgər onlar hamilədirlərsə, hamiləlikdən azad olana qədər onlara malınızdan xərcləyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. <u>(Vəziyyətinizi və əlaqələrinizi) öz aranızda qanuni (xoşluqla və İslama uyğun) şəkildə müzakirə edin</u>. Əgər çətinliyə düşsəniz, o zaman uşağı başqa bir qadın əmizdirə bilər. (Talaq surəsi, 6)**

Burada mövzunun əhəmiyyəti baxımından bunu təkrar ifadə etmək lazımdır: Ayələrdə bildirilən bu qoruma tədbirləri, əlbəttə ki, qadının özünə baxmaqdan aciz olduğunu göstərmir. Bu, ön mühakiməyə sahib bəzi insanların İslam dininə hücum etmək məqsədiylə ortaya atdıqları cəfəngiyatlardır. Ayələrdə üstün əxlaqdan bəhs edilir. Burada, bildirilən nəzakətli əxlaq, üstün tutmaq və dəyər verməkdir. Qadına sahib çıxmaq, çox hörmətli və dəyərli varlıq olduğunu ona hiss etdirməkdir. Allahın qadına verdiyi əhəmiyyəti və onları qoruduğunu əyani cəhətdən göstərməkdir. Ayədə ifadə edildiyi kimi, qadınlara **"<u>darlığa və sıxıntıya salmaq məqsədiylə</u>" zərər yetirmək qəti şəkildə qadağan edilir. "<u>(Vəziyyətinizi və əlaqələrinizi) öz aranızda qanuni (xoşluqla və İslama uyğun) şəkildə müzakirə edin</u>"** şəklində bildirildiyi kimi, Allah boşanan ər-arvad arasında gözəl əlaqə olmasını əsas götürmüşdür. Hazırda ümumən bütün cəmiyyətlərdə qadının sosial həyatda və ya sonradan düşdüyü çətin vəziyyətləri nəzərə alaraq, Quranda nəsihət edilən bu tədbirlərin nə qədər zəruri və əhəmiyyətli olduğu da, daha yaxşı başa düşülür.

## ✓Qadınlara zorla varis olmamaq

Quranda qadının qorunması ilə əlaqədar öhdəliklərdən biri, qadınlara zorla varis olmamaqdır. Allah ayəsində belə buyurur:

**“Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin...” (Nisa surəsi, 19)**

Allah bu ayə ilə də, qadına təzyiq göstərilməsini və onu maddi sıxıntıya salacaq bir davranışı qadağan etmişdir.

## ✓Anaya verilən dəyər

Analıq statusu Quranda təriflənmişdir. Ata-anaya hörmət etmək, onlara yaxşı şəkildə davranmaq, onları həmişə olduğu kimi, yaşlandıqlarında da qoruyub himayə etmək, Quranda xüsusilə saleh möminlərin üzərinə yüklənilmiş məsuliyyətlərdir və bu mövzuyla əlaqədar bir çox ayə var. Bu ayələrdən bəziləri belədir:

**Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq... (Ənkəbut surəsi, 8)**

**Rəbbin yalnız Ona ibadət etməyi və <u>ata-ana ilə yaxşı davranmağı buyurmuşdur</u>. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: <u>"Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!</u> (İsra surəsi, 23)**

Quranda müsəlmanlara ata-anaya hörmət və yaxşılıq etmək tövsiyə edilmişdir. Lakin anaya xüsusi dəyər verilmişdir. Allah ayələrində belə bildirmişdir:

**Biz insana ata-anasına yaxşı davranmağı tövsiyə etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir. (Loğman surəsi, 14)**

Həqiqətən də hər ana, uşağını dünyaya gətirmək üçün aylarla böyük fədakarlıqlar edir. Allahın ayədə bildirdiyi kimi, ard-arda çətinliklər yaşayaraq körpəsini bətnində daşıyır və sonra da onu çətinliklə dünyaya gətirir. Bundan sonra isə, yenə böyük fədakarlıq edərək uşağının hər cəhətdən rahatlığını və himayəsini də boynuna götürür. Üstəlik bunları edərkən heç bir qarşılıq gözləmir, hətta öz ehtiyaclarını belə ikinci plana atır. Allah bizə bu həqiqətləri xatırladır və analarımızın çox qiymətli varlıqlar olduğuna diqqət çəkir.

## ✓Kişinin üstünlüyü iddiası və qadını döymək mövhumatı

Bəzi insanlar, öz aləmlərində kişinin qadın üzərindəki üstünlüyü və qadının döyülməsi mövzularına Qurandan dəlil gətirməyə çalışır və bu ayələri nümunə verirlər:

**Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınları himayə etməklə məsuldurlar. Əməlisaleh qadınlar könüllü surətdə (Allaha) itaət edər və Allah necə qorudusa görünməyən şeyləri qoruyanlardır. Nüşuzundan (özbaşınalıq etmələrindən) qorxduğunuz qadınlara əvvəlcə nəsihət verin, sonra yataqda onları tərk edin, bu da fayda verməsə yavaşca döyün! Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın. Həqiqətən, Allah Ucadır, Böyükdür. Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da müvəffəqiyyət verər. Həqiqətən, Allah Biləndir, hər şeydən Xəbərdardır. (Nisa surəsi, 34-35)**

## ✓Kişilərin üstünlüyü iddiası

Nisa surəsinin 34-ci ayəsində; “Allahın onlardan birini digərindən üstün etdiyinə” ifadəsində keçən “beedhum” sözü araşdırıldığında, burada kişilər və qadınlardan ibarət bir cəmiyyətə xitab edildiyi görülür. Dolayısilə buradakı əsil məna; “Allah, kişilərin və qadınların bəzilərini bəzilərinə üstün etmişdir” şəklindədir. Buradan çıxan məna, Allahın hər birinə fərqli qabiliyyətlər və xüsusiyyətlər vermiş olmasıdır.

**“Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınları himayə etməklə məsuldurlar”** şəklində tərcümə olunmuş hissədə isə, kişilərin qadınlardan üstün olduqları deyil, yalnız “fiziki fərqləri” vurğulanır və **“öz mallarından xərclədiklərinə görə”** ifadəsiylə də, daha əvvəl ətraflı izah etdiyimiz kimi, maddi ehtiyaclarını təmin etmək üçün, qadına baxma öhdəlikləri nəzərə çatdırılır. **“Kişilər qadınları himayə etməklə məsuldurlar”** (və ya bəzi tərcümələrdə keçdiyi kimi, “himayəçidirlər”) kimi, çevrilən hissənin ərəbcəsi isə **“erricalü kavvamune alennisai”**dir.

Bu ərəbcə ifadənin əsil tərcüməsi isə belədir: **“Kişilər qadınları himayə edər”** və ya **“kişilər qadınların dolanışığını təmin etməklə məsuldur”**.

Ayədə işlənən “kavvam” sözü, bir çox tərcüməçi tərəfindən idarəçi-hakim kimi tərcümə olunur. Halbuki bu sözün işləndiyi digər bütün ayələrdə kavvam sözü tək məna verir, bu da himayə etmək və qorumaqdır. Xatırlanacağı kimi, daha əvvəlki hissələrdə olduqca zəngin bir dil olan ərəbcənin ayələrdə istifadə formasını və mənalarını anlamaq üçün ümumən sözün digər ayələrdəki istifadə formasına baxmağın vacib olduğunu qeyd etmişdik. Bu kavvam sözü üçün də etibarlıdır.

Kavvam sözü kvm kökündən gəlir. Bu kökdən gələn sözlərin işləndiyi bütün ayələri araşdırdığınız təqdirdə, heç bir ayədə idarəçi-hakim mənalarını tapa bilməzsiniz. Necə ki, Quranda idarəçi və hakimləri bildirmək üçün “hukkam” sözü işlədilir. Buna əsaslanaraq, qeyd olunan ayədəki işlədilmə forması əsasında sözün mənasının “himayə etmək-qorumaq” olduğu asanlıqla başa düşülür.

Qurana bütövlükdə baxdığımızda bunu daha yaxşı anlaya bilərik. Daha əvvəl ifadə etdiyimiz kimi, Quranda qadınların üstün tutulduğu, azad olduqları, amma eyni zamanda hər hansı çətinliklə üzləşmə ehtimalına qarşı qorunduğu görülür. Qadınların qorumaq, maddi ehtiyaclarının ödəmək, çətinliklərlə üzləşmələrinin qarşısını almaq məsuliyyətləri isə, kişilərə həvalə edilmişdir (bu mövzu əvvəlki başlıqlar altında ətraflı izah edilmişdir). Dolayısilə bəhs olunan ayədə kavvam sözüylə, açıq şəkildə bildirildiyi kimi, kişilərə qadınları daim və hər cür şəraitdə qorumaq vəzifəsi verilmişdir. Bəzi fanatiklər tərəfindən kişilərin üstünlüyünə dəlil olaraq gətirilməyə çalışılan bu ayə, əslində qadınların üstünlüklərini açıqlayan əhəmiyyətli bir dəlildir.

## ✓"Qadınları döyün" iddiası

Nisa surəsinin 34-cü ayəsində qeyd olunan; **"nüşuzundan (özbaşınalıq etmələrindən) qorxduğunuz qadınlara əvvəlcə nəsihət verin, sonra yataqda onları tərk edin, bu da fayda verməsə yavaşca döyün!"** ifadədə, bir çox tərcümədə; "qadınları döyün" kimi tərcümə olunmuş sözün ərəbcəsi "idribuhunne" sözüdür. Kökü isə "darabe" felidir.

Darabe sözü ərəbcədə bəlkə də ən zəngin məna çalarına sahib sözdür. Darabe, "döymək" mənasını verdiyi kimi, "pul zərb etmək, pul kəsmək" mənalarını da verir. "Tətil elan etmək" yenə darb sözünün başqa bir mənasıdır. Məsələn, bunu türkcədə "çalınır (oğurlamaq)" sözü ilə müqayisə edə bilərik. Biri bizə "qapı çalınır (oğurlamaq)" dediyi vaxt, ümumiyyətlə bir oğrunun qapını söküb apardığını başa düşmərik. Bu, gələn qonağımızın qapını açmağımızı gözlədiyi deməkdir. Dolayısilə çox mənalı sözlərdən istifadə olunduqda, istifadə forması, cümlənin mənası, ağıl və sağlam düşüncə ilə sözün ifadə etdiyi həqiqi məna qiymətləndirilməlidir.

Darabe sözünün ən geniş şəkildə işlədilən mənalarından biri isə, səyahət etmək və çölə çıxmaqdır. Necə ki, Quranda səyahət etmək, səfərə çıxmaq, müvəqqəti olaraq bir yerdən ayrılmaq mənasını verən ayələrdə "darabe" feli işlədilmişdir. Məsələn;

**Yer üzündə <u>səfərə çıxdığınız</u> zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanıza görə sizə günah gəlməz..." (Nisa surəsi, 101)**

**Biz Musaya: "Qullarımla birlikdə gecə <u>yola çıx</u>, əsanı suya vurmaqla onlar üçün dənizdə quru yol aç. Düşmənin sizə çatmasından qorxma, çəkinmə!" deyə vəhy etdik (Taha surəsi, 77)**

**Sədəqə Allah yolunda cihad edən və yer üzündə <u>hərəkət edə bilməyən</u> yoxsullar üçündür... (Bəqərə surəsi, 273)**

**Ey iman gətirənlər! İnkarçılarla yer üzündə <u>səfərə çıxmış</u>...**

**(Ali İmran Suresi, 156)**

Şübhəsiz ki, darabe sözü yuxarıdakı ayələrdə, qətiyyən döymək mənasında işlədilə bilməz. Bu mövzumuz olan Nisa surəsinin 34-cü ayəsi üçün də etibarlıdır. Darabe sözünü bu ayəyə əsasən qiymətləndirdiyimiz vaxt, sözün üç fərqli mənası üzərində dayanmalıyıq:

1) Onları evdən çıxarın,

2) Onları olduqları yeri tərk etmək məcburiyyətində qoyun,

3) Onları döyün.

Darabe sözünün Nisa surəsinin 34-cü ayəsində hansı mənada istifadə olunduğunu anlamaq üçün, ayənin əvvəlindəki ifadəyə, yəni; **"nüşuzundan (özbaşınalıq etməyindən) qorxduğunuz qadınlara"** qayıtmalıyıq. Nüşuz sözü, bir çox tərcümədə; "ifritəlik və itaətsizlik" şəklində tərcümə edilmişdir. Guya qadını alçaltmaq zehniyyətini demək olar ki, hər fürsətdə qadınlarla əlaqədar ayələrə bir yolla daxil etmək istəyən bəzi tərcüməçilər, fanatik zehniyyətin şərt qoyduğu "kişiyə itaət" zehniyyətini ya mötərizə daxilində, ya da istiqamətləndirici tərcümələrlə müəyyən yolla vurğulamağa çalışmışdırlar. Halbuki nüşuz sözü, "bir qadının yad bir kişiylə, eşqbazlıqdan başlayaraq qeyri-qanuni cinsi əlaqəyə girməsinə qədər gəlib çıxan sədaqətsizlik" mənasını verir. Dolayısilə ayənin davamında özünə sədaqətsizlik edən qadına qarşı ərin necə davranmalı olduğu bildirilir.

Kişi, əvvəlcə bu sədaqətsizliyi etməməsi üçün qadın nəsihət verməyə çağrılır. Bu fayda vermədikdə isə, ərinin yataqda onu tərk etməsi nəsihət edilir. Lakin qadın buna baxmayaraq, qeyri-qanuni əlaqəni davam etdirər və işi zinaya qədər gətirib çıxararsa, bu vəziyyətdə alınmalı ən yaxşı tədbir olaraq, qadını evdən uzaqlaşdırmaq göstərilmişdir.

Şübhəsiz ki, qadının diqqətlə qorunduğu Quranda, qadının döyülməsi kimi hökmün olmayacağı aydındır. Məntiqi surətdə qiymətləndirdiyimiz təqdirdə isə, bütün xəbərdarlıqlara baxmayaraq, yoldaşını aldadan bir qadını döymək, onsuz da yalnız sədaqətsiz qadını qəzəbləndirəcək və məsələni həll etməyəcək, əksinə ortaya yeni çətinliklər çıxaracaq. Lakin uzaqlaşdırmaq bir çıxış yoludur. Qadın, uzaq qaldığı bu müddətdə daha məntiqli düşünə bilər, gördüyü bu rəftar qarşısında peşman ola bilər, hadisələrə daha sağlam baxa bilər. Necə ki, bu hərəkətindən imtina etdiyi təqdirdə, ərinin ona əziyyət vermək üçün başqa yol axtarmaması da, ayədə bildirilmiş gözəllikdir.

**"Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın"** şəklində tərcümə olunmuş hissədə, yenə "kişiyə itaət edən qadın" zehniyyətinə əsaslanaraq bir istiqamətləndirmə aparılır. Halbuki əsil tərcüməyə görə burada; "verdiyiniz öyüdə qulaq asar və sədaqətli davranarlarsa" şəklində bir açıqlama yer alır. Buradakı meyar, qadının kişiyə qarşı itaətkar olması deyil, evlilik həyatında hər iki tərəfin də məsuliyyət daşıdığı "sədaqət"dir.

## ✓Qadınlar haqqında bilinən digər yanlış məlumatlar

Quranda qadınlar haqqında bilinən digər yanlış mövzulardan biri, hz. Adəm (ə.s) və onun həyat yoldaşı ilə əlaqədar mövzudur. Quranın heç bir ayəsində yoldaşının hz. Adəm (ə.s)-ı aldatdığı və günaha batırdığı şəklində bir açıqlama yoxdur. Əraf surəsi 11-ci ayədən 28-ci ayəyə qədər oxunduğu təqdirdə, eyni anda hz. Adəm (ə.s) ilə həyat yoldaşını aldadanın şeytan olduğunu görərik.

Eynilə qadının, kişinin qabırğa sümüyündən yaradılmasına dair Quranda hər hansı açıqlama yoxdur. Bu böhtanın ortaya çıxma səbəbi olan saxta hədis, əvvəlki başlıqlar altında açıqlanmışdır.

Yanlış bilinən mövzulardan biri də, Quranın yalnız kişilərə xitab etdiyidir. Halbuki Quran ayələrinin 90%-dən artığı, kişi və qadınlara, ümumilikdə; "adəm oğulları" ifadəsi ilə bütün insanlara və ya "iman edənlər" ifadəsi ilə inananlara xitab edir. Yalnız kişilərə xitab edən ayələr olduğu kimi, yalnız qadınlara xitab edən ayələr də var. Qurandakı bəzi ayələr isə, bilavasitə yalnız Peyğəmbərimiz (s.ə.v)-ə xitab edir.

## ✓Peyğəmbərimiz (s.ə.v)-in qadınları tərifləyən sözləri

Əlbəttə ki, İslamda bir qadına verilən dəyəri rəhbərimiz Quranla anlaya bilərik. Peyğəmbərimiz (s.ə.v) yalnız Quranı tətbiq etdiyinə görə, Peyğəmbərimiz (s.ə.v)-in Quranla üst-üstə düşən tətbiqlərini açıqlayan hədislərin doğruluğundan əmin olarıq. Necə ki, həmin bu səhih hədislər, qadınlara qarşı ürküdücü baxış prizması əks etdirən və Quranın ruhundan tamamilə uzaq saxta hədislərlə, tamamilə əks mənalar və tətbiqlər ehtiva edir. Quranla üst-üstə düşdüyü üçün, böyük ehtimal səhih olan hədislərdən bəziləri belədir:

**Dünyanızdan mənə üç şey sevdirildi: gözəl qoxu, əməlisaleh qadın, gözümün nuru olan namaz. [Nesâî, İşretu'n-Nisâ 1, (7, 61).]**

**Qadınlara ancaq ləyaqət və şərəf sahibi kimsə dəyər verər. Onlara ancaq pis və alçaq insanlar xor baxar... (İ. Asakir)**

**“Sizin ən xeyirxahınız həyat yoldaşına ən yaxşı davrananınızdır”. (İ. Asakir )**

**Xanımlarınızı üzməyin. Onlar, Allahın sizə olan əmanətidir. Onlara yumşaq davranın, yaxşılıq edin! (Müslim)**

**Xanımı ilə yaxşı yola gedib zarafatlaşanı Allah sevər, ruzilərini artırar. (İ. Lâl)**

**Ən üstün mömin, xanımına, ən yaxşı, ən lütfkar davranan, gözəl əxlaqlı kimsədir. (Tirmizi)**

**Ən yaxşı müsəlman, xanımına ən yaxşı davranandır. İçinizdə, xanımına ən yaxşı davranan mənəm. (Nesai)**

**Xanımına gülər üzlə baxan kişinin dəftərinə, bir kölə azad etmiş qədər savab yazılar. (R. Nasıhin)**

**Xanımını döyən, Allaha və Onun Peyğəmbərinə asi olar. Qiyamətdə onun düşməni mən olaram. (R. Nasıhin)**

# IV FƏSİL

## ✓Fanatiklərin incəsənətə olan nifrəti

Əvvəlki fəsildə gördüyümüz kimi, dinin əsası olaraq Quranı deyil, yalnız öz murdar və qaranlıq zehinlərini və qurduqları məntiqi əlaqələri qəbul edən fanatiklər, xüsusilə də qadınları Qurandan, ibadətdən, fikri mübarizədən, təbliğdən uzaq tutmaq üçün, minlərlə mövhumat uydurublar. İslam cəmiyyətlərinin Peyğəmbərimiz (s.ə.v)-in dövründən qısa müddət sonra degenerasiya olunmağa başlamasının ən əsas səbəbləri həmin bu cəmiyyətlərin Qurandan uzaqlaşmaları və bunun təzahürü olaraq xüsusilə qadınlara yönəltməyə başladıqları təhqirlərdir. Bu yanlış baxış primzasından ötrü İslam cəmiyyətləri geriləmişdir. Bu geriləməyə daim ikinci bir faktor da təsir etmişdir: fanatiklərin incəsənətə olan nifrəti.

Fanatiklərin incəsənətə olan nifrətlərini ifadə etmədən əvvəl, fanatik zehniyyətin təməlini meydana gətirən həqiqəti yenidən xatırladaq. Ayədə Rəbbimiz; "halalları haram buyuran insanların varlığı"ndan bəhs edir:

**Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!" deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.**

**(Nəhl surəsi, 116)**

Əlbəttə ki, indiki dövrdə öz aləmlərində haramları veclərinə almayan, halal sayan, Allah qorxusunu meyar qəbul etməyən insanlar var. Lakin ayədə bildirilən və Allahın halal buyurduqlarını "din adından" haram buyuranlar başqa kateqoriyaya daxil insanlardır. Həmin bu insanlar Qurana görə edilə biləcək şeyləri, edilə bilməz hala gətirir, azadlıqları məhdudlaşdırır və qanuni şeyləri qadağan edirlər. Kitabın əvvəlindən bəri dəlilləriylə göstərdiyimiz kimi, əslində öz aləmlərində Qurandakı dini bəyənmir (Quranı tənzih edirik) və yeni bir din meydana gətirməyə çalışırlar.

Məhz bu insanlar Quranda təriflənən, bəyənilən, bir nemət olaraq yaradılan sevinc, yumor, incəsənət kimi anlayışları da öz aləmlərində haram buyurublar.

## ✓"Zarafatlaşmaqdan, yumordan, gülməkdən uzaq durmaq lazımdır" iddiası

**Əbu Abdullah belə buyurdu: "Qəhqəhə çəkib gülmək şeytan əməlidir". (İman ve Küfür Kitabı / Usul-u Kafi kitabı / El-Kuleyni, səh. 1068)**

**Əbu Abdullah belə buyurdu: "(Həddindən artıq) zarafatlaşmaqdan və yumordan çəkinin; çünki o insanı üzsüz edər" (İman ve Küfür Kitabı / Usul-u Kafi kitabı / El-Kuleyni, səh. 1068)**

**İmam belə deyərdi: "Dişləriniz görünəcək şəkildə gülməyin". (İman ve Küfür Kitabı / Usul-u Kafi kitabı / El-Kuleyni, səh. 1067)**

**Əbu Abdullah belə buyurdu: "Çox gülmək qəlbi öldürər". (İman ve Küfür Kitabı / Usul-u Kafi kitabı / El-Kuleyni, səh. 1067)**

**İbrahim ibn Məhzəm, özünə çatdıran biri vasitəsilə rəvayət edir. Musa ibn Cəfər belə buyurdu: "Yəhya ibn Zəkəriyya (ə.s) ağlayar, gülməzdi. Məryəm oğlu İsa (ə.s) isə bəzən gülər, bəzən də ağlardı. İsa (ə.s)-ın davranışı Yəhya (ə.s)-ın davranışından daha üstün idi". (İman ve Küfür Kitabı / Usul-u Kafi kitabı / El-Kuleyni, səh. 1070)**

**Həsən ibn Quleyb belə rəvayət edir: Əbu Abdullah belə buyurdu: "Möminin gülüşü, təbəssümdən ibarətdir". (İman ve Küfür Kitabı / Usul-u Kafi kitabı / El-Kuleyni, səh. 1067)**

Əslində bu saxta hədislər, fanatiklərin dünyasının nə qədər ürküdücü və soyuq olduğunu çox yaxşı göstərir. Xatırlanacağı kimi, kitabın əvvəlində fanatiklərin qaranlıq dünyasının hər yerdə özünü göstərdiyinə, yalnız xarici dünyada deyil, öz içlərində, ailələrində, qadına, çiçəyə və bir pişiyə baxış prizmalarında belə ortaya çıxdığını eyd etmişdik. Məhz burada gördüyümüz saxta hədislər, xoşbəxtlikdən, insanın

ən təbii xüsusiyyəti və ən böyük ehtiyaclarından biri olan gülməkdən, yumor kimi gözəl bir nemətdən necə uzaq qaldıqlarını açıq şəkildə ifadə edir. Həyatında gülməyi qadağan edən bir sistem olduğu və bu saxta hədislərdən peyğəmbərlərin belə gülmədiyi böhtanını öyrəndiyi, belə azğın, qatı bir dini yaşayan insanların nə hala gəldiyi çox asan başa düşülür.

Halbuki Qurandakı din, müsəlmanlara hüznə qapılmağı qadağan etmişdir. Müsəlman dünyanın ən xoşbəxt insanıdır. Çünki Allaha təvəkkül etməyi, səbir etməyi, şükür etməyi bilən, Allaha təslim olmuş bir varlıqdır. Gələcəyindən ötrü narahat olmaz, üzləşdiyi çətinliklərin xeyirlə yaradıldığını, hər şeyin tale əsasında gerçəkləşdiyi həqiqətlərini bilər və ölüm onun üçün bir son deyil, Allaha və sonsuz həyata qovuşmaq anıdır. Allah Quranda iman edənlərə cənnəti müjdələyir. Bütün bunlar onsuz da müsəlmanların sevinməsi üçündür. Allah bizim dünyada da cənnət əxlaqını göstərməyimizi istəyir. Çünki bəyəndiyi əxlaq budur.

# ✓Qurana görə kədərlənmək və bədbəxt olmaq yalnız inkarçılara məxsus xüsusiyyətdir

**Qoy onlar etdikləri günahların cəzası olaraq az gülüb çox ağlasınlar. (Tövbə surəsi, 82)**

**Onlar deyəcəklər: “Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq”.**

**(Muminun surəsi, 106)**

Göründüyü kimi, Quranda bədbəxtlik, inkarçılara yaraşdırılmışdır. Ayəyə görə bu insanlar doğru yoldan azdıqlarından ötrü axirətdə “bədbəxtliyimiz bizə üstün gəldi” deyirlər. Dolayısilə bədbəxtlik Allahın istədiyi bir şey deyil. Quranda inkarçılara bədbəxtlik, iman edənlərə isə sevinc yaraşdırılmışdır.

Allah yenə ayələrdə bədbəxtliklərindən ötrü Quranın verdiyi öyüdə qulaq asmayanları xəbər verir:

**Allahdan qorxanlar öyüd alıb düşünər. <u>Ən bədbəxt kimsələr isə onu qulaqardına vurar</u>. (Əla surəsi, 10-11)**

Həmçinin Uca Allah, kədərlənməyi bütün müsəlmanlara qadağan etmişdir:

**<u>Acizlik göstərməyin və kədərlənməyin</u>. Əgər həqiqətən iman gətirmişsinizsə üstün olacaqsınız. (Ali İmran surəsi, 139)**

Məhz fanatiklər, Allahın bu ayələrini hökmünü saxta hədisləri bəhanə gətirərək öz aləmlərində qüvvədən salmağa çalışarlar. Müsəlmanlara, Allahın inkarçılara yaraşdırdığı bədbəxtliyi yaraşdırarlar. Ruhun, bədənin ən böyük ehtiyacı olan nəşəni-sevinci yox etmək istəyərlər. Halbuki Allah bunu istəmir. Allah cənnəti sevinc yurdu olaraq yaratmışdır.

## ✓Cənnətdəki sevinc və kədərin həqiqi mənası

Allah, bəyəndiyi və sevdiyi həyat tərzini əbədi yurdumuz olan cənnətdə yaratmışdır. Dolayısilə cənnətdə Rəbbimizin təriflədiyi və bəyəndiyi həyat tərzi bizim üçün ideal həyat tərzidir. Allah, cənnətdəki insanların "sevinc içində" olduqlarını bildirir:

**İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar Cənnət bağçalarında sevinc içində olacaqlar. (Rum surəsi, 15)**

Fanatiklər, saxta hədislərlə cənnətdə "sevinc içində" olan müsəlmanları dünyada bu cənnət sevincini yaşamaqdan məhrum etmək istəyirlər. Hüznün gerçək mənasından xəbərsizdirlər. Bir hadisə qarşısında kədərlənmək, "kaş ki, olmasaydı" deməklə eyni şeydir. Bu (bunu edən insan qəbul etsə də, etməsə də, həm bilərək, həm də bilməyərək etsə) taleyə üsyan etmək deməkdir. Fanatiklər kədərlənməyi halal etməklə, Allahın hökmünə və Allahın yaratdığı taleyə üsyan qaldırdıqlarını bilməlidirlər.

Allahın bir insana verəcəyi ən böyük nemətlərdən biri imandır. İman sahibi bir insan, dünyanın bütün nemətlərindən uzaq olsa, ən böyük çətinliklərlə imtahan olunsa və yaranan bütün şəraitlər əleyhinə də görünsə, imanın qəlbində yaratdığı rahatlıq və xoşbəxtlik hər şeydən artıqdır. Allah Özünə üz tutan kimsənin qəlbinə rahatlıq və sakitlik, ruhuna isə xoşbəxtlik verər. Allaha üz tutmayan insanın (özü əksini iddia etsə belə) gerçək mənada xoşbəxt olması isə qeyri-mümkündür. Allah imtahanın tələbi olaraq belə bir insana da dünya nemətlərindən verə bilər; bu insana baxdıqda, onun çox nemət və gözəllik içində olduğu görülə bilər. Müvəqqəti həvəs və xoşbəxtliklər yaşaya bilər. Ancaq ruhuna daim arzuladığı əbədi xoşbəxtliyi, yəni daxili rahatlığı yaşada bilməz. Allah Qurandakı Rad surəsinin 28-ci ayəsində; **"bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır"** deyə buyurur. Qəlbin rahatlıq tapması, yalnız Allahla əlaqə yaratmaqla mümkündür.

Dolayısilə həqiqətən Allaha iman edən bir insan həqiqi mənada xoşbəxtdir. Onsuz da xoşbəxt olmaq, insanın fitrətinə ən uyğun olan, insanı sağlam edən, daim fəal saxlayan gizli bir sirrdir. Hüceyrələr xoşbəxtlik sayəsində sağlam qalar. Bu müsbət təsirin səbəbi də, fitrətə uyğun şeylərin daim Allahın insanlara nəsihət etdiyi gözəl şeylər olmasıdır. Allah, gülüşü, sevinci və xoşbəxtliyi onsuz da gözəllik olduğu üçün yaratmışdır. Hüznün isə, psixoloji və fiziki cəhətdən insanı ölümə qədər aparacaq mühüm məhv edici təsirləri var.

## ✓“Yumordan uzaq durun” iddiası

Yumor mövzusu haqqındakı qadağaya burada ayrıca toxunmaqda fayda var. Müvəffəqiyyətli yumor incəsənətdir. Bunu mükəmməl edən insanlar ümumiyyətlə ağılla incəsənəti birləşdirərək fövqəladə əsərlər meydana gətirirlər. Yumorla bəzən insanlar sevindirilir, bəzən də açıq şəkildə tənqid edilə bilməyəcək məsələlər üstüörtülü, amma razı salıcı və qurucu şəkildə ifadə edilir. Qarşı tərəfi sevindirən, ona öyüd verən, lakin eyni zamanda da qəlbə xitab edən yumor, çox böyük nemətdir. İncəsənətin hər sahəsi kimi, yumor da dünyagörüşünü artıran, mühitə, cəmiyyətlərə incəlik, zəriflik, nəzakət bəxş edən gözəllikdir. Yumor, demokratiyaların da gözəl tərəfidir. Fanatiklər belə əhəmiyyətli neməti də özlərindən uzaqlaşdıraraq, tamamilə qaba, kobud və ruhsuz bir həyatın içinə sürüklənirlər.

Fanatiklərin sevinc, qəhqəhə və yumor mövzusundakı bütün mənfilikləri yuxarıda ifadə etdiyimiz kimi, Quranla təkzib edilir. Peyğəmbərimiz (s.ə.v) və səhabələri də Quranın bu ruhuna uyğun hərəkət edib və imanın gətirdiyi nəşəni, sevinci yaşayıblar:

**Hz. Aişə (r.ə) belə söylədi; Rəsulullah (s.ə.v)-in səfərlərindən birində onunla birlikdə çıxdım. Rəsulullah (s.ə.v) səhabələrə: “İrəliləyin” dedi. Onlar da irəlilədilər. Daha sonra: “Gəl, səninlə yarışaq” dedi. Onunla qaçış yarışına başladım və onu keçdim. Mənə bu məsələ barəsində heç nə demədi... Yenə səfərlərdən birinə Rəsulullah (s.ə.v)-lə birlikdə çıxdım. O, səhabələrə yenə: “İrəliləyin” dedi. Onlar da irəlilədilər. Mənə: “Dur gəl yarışaq” dedi. Onunla qaçış yarışına başladım. Amma bu dəfə də o məni keçdi. Gülməyə başladı və: “Bunu özün istədin” dedi. (Beyhakî, Sünenu'l-Kubra, X/18; İmam Ahmed, Musnsd, VI/264)**

**Əbu Usamə: “Onunla zarafatlaşardı” demişdir. (Ebu Davud, Sünen, kitabu'l-edeb, bab: 91; Tirmizî, Sünen, 192, 1992, 3828; İmam Ahmed, Taberanî, Tirmizî, Ibn Asakir)**

**Əbu Hüreyrə (r.ə) bunu dedi: “Rəsulullah (s.ə.v), hz. Əlinin oğlu Hüseynə dil çıxardar, uşaq onun dilini gördükdə sevindiyindən çırpınardı”.**

**Abdullah ibn Haris ibn Cəz (r.ə) belə dedi: “Rəsulullah (s.ə.v)-dən daha zarafatcıl birini görmədim”.**

**Hz. Aişə bunu söylədi: Rəsulullah (s.ə.v): “Mən zarafat edərəm, lakin təkcə haqqı söyləyərəm” buyurdu. (Taberanî, Mu'cemu'l-Kebir, Xll/391; Heysemî, Mecmau'z-Zevaıd, IX/17; Aclunî, Keşfu'l-Hafa, I/572).**

***İbn Abbas belə demişdir: “Peyğəmbər (s.ə.v) zarafatcıl idi”.***

***Ənəs (r.ə): “Peyğəmbər (s.ə.v), insanların ən zarafatcılı və məzəli insan idi” demişdir.***

## ✓Musiqi və şeirin haram olduğu iddiası

Qadı (hakim) Əbu Bəkr İbnul-Ərəbi, Əhkamül-Quranında, Abdullah ibn Mübarək və İmam Malikin hz. Ənəsdən rəvayət etdiyi bir hədisi qeyd edir: “Hər kim musiqi məclisində qadın bir müğənninin söylədiyi mahnıya qulaq asarsa, axirət günü onun qulaqlarına əridilmiş qurğuşun tökülər”.

“İçinizin qusaq və qanla dolu olması, şeirlə dolu olmasından daha xeyirlidir”. (M. Mesabih, 4/4809)

Musiqi dinləyən bir insana cənnətdəki ruhaniləri dinləməyə icazə verilməz. (Kurtubi, 14/53)

Mahnı qəlbdə nifaq yaradır. (Ebu Davud)

Allah mahnını, onun alış-verişini, ondan qazanılan pulu, onu öyrətməyi və dinləməyi haram buyurmuşdur. (Muhammed Gazali, Nebevi Sünnet)

Bütün bu saxta hədislərin əksinə, Quranda musiqinin, rəqsin və əyləncənin qadağan olunduğu tək bir hökm belə yoxdur. Allah xoşbəxt olmağı, zövq almağı və sevinməyi müsəlmanlara halal buyurmuşdur. Rəqs ritmdir, ahəngdir. Allah bütün kainatı müəyyən ritmlə yaratmışdır. Quşlar, böcəklər, kəpənəklər belə rəqs edərlər. Quşlar doyulmaz səs və ritmdə bir-birindən gözəl mahnılar söyləyərlər. Onları dinləmək insan zövq verir. Dənizin səsində, təbiətin xışıltısında, ağacların yellənişində daim müəyyən ritm vardır. Allah ritmi, rəqsi, musiqini, gözəl səsi sevər. Cənnət də bu ritmlə yaradılmışdır. Cənnətdə bütün ağaclar, çiçəklər, heyvanlar rəqs edəcəklər. Bunu xəbər verən bir hədis belədir:

**Əbu Musa əl-Əşari (r.ə)-dən nəql edilən rəvayət isə belədir: O, Bəsrə minbərində belə dedi: “Allah cənnət əhlinə xəbər göndərib onlardan soruşacaq: “Allah sizə verdiyi sözü yerinə yetirdi mi? “Həmin anda, onlar özlərinə verilən zinətlərə, paltarlara, meyvələrə, tərtəmiz yoldaşlara, çaylara baxacaq və sonra özlərini saxlaya bilməyib belə deyəcəklər: “Allah bizə**

**verdiyi sözü yerinə yetirmişdir. Mələk tam üç dəfə; "Allah sizə verdiyi sözü yerinə yetirdi mi?" deyə soruşacaq, onlar özlərinə vəd edilən hər şeyin tam yerinə yetirildiyini gördükdən sonra; "bəli!" deyəcəklər. Mələk; "hələ bir şey qalmışdır" deyə cavab qaytaracaq. Çünki Allah qullarına təcəlli edib və gözlərindən pərdəni qaldırıb, Onu gördükdə, bütün çaylar coşacaq, ağaclar yellənib səslər çıxaracaq, bütün köşklər, od qığılcımları yüksək səslə bağıracaq, bulaqlar şırıl-şırıl, daha da sürətli axacaq, gözəl qoxular həyətlər və köşkləri bürüyəcək, hər tərəfdə, gözəl qoxu verən müşk və kafur qoxusu hiss ediləcək. Quşlar cəh-cəh vuracaq, hurilər bütün gözəllikləri ilə göz qamaşdıracaq. (Ölüm, Kıyamet, Diriliş, İman Şarani, səh. 370)**

Allah, cənnətin gözəlliyini və cənnətdəki ahəngdar musiqinin coşğusunu Peyğəmbərimiz (s.ə.v)-ə belə ilham etmişdir. Allahın cənnətdə yaratdığı və təriflədiyi gözəllik, insanlara necə haram ola bilər? Əlbəttə ki, haram deyil.

Anadolunun hər yerində folklor var, rəqs var. Horon, yallı, zeybək kimi oyun havaları var. Dünyanın hər yerində insanlar rəqs edərlər. Musiqinin və rəqsin qadağan olunduğu bir dünya insan fitrətinə uyğun deyil. Bu böyük boşluq və nemət çatışmazlığı olar. Uca Rəbbimizin təriflədiyi və xoşladığı bir neməti haram buyurmağa təşəbbüs etmək, Allahı və əzəmətli incəsənətini anlamamaq deməkdir.

## ✓Musiqini qadağan etməyə çalışan fanatiklərin səmimiyyətsizliyi

Bütün bunlar qeyd olunarkən, fanatiklərin gerçək həyatları da araşdırılmalıdır. Quranda haram buyurulmayan bir şeyi haram buyurduqları üçün, bu insanların böyük hissəsi, gündəlik həyatda daim təzadlı və saxtakar ruh halı içində yaşayarlar (səmimi olanları tənzih edirik). Belə ki;

- **"Musiqi haramdır" deyənlər ümumiyyətlə daim musiqi kanallarını izləyib musiqi dinləyən, hətta musiqi sədaları altında əylənən insanlardır.**
- **Həmin bu insanlar gerçək həyatlarında toylara gedir, yallı oynayır, xına gecələri təşkil edib mahnı söyləyirlər.**
- **Bu insanların avtomobillərində ümumiyyətlə daim, musiqi gedən radioların yayım tezlikləri qurulu olur.**

Daim musiqi dinləməyin, toylarda yallı getməyin heç bir zərəri yoxdur, əksinə bunlar onsuz da bir gözəllik və nemətdir. Biz burada həmin bu insanların din adından musiqini qadağan edən müddəalarının göstəriş olmasını və səmimiyyətsizliklərini əks etdirməsini tənqid edirik. Din adından qadağa qoyanların bu gerçək üzünü bilmək əhəmiyyətlidir. Onların vəziyyəti Quran ayələrində göstərilmişdir. Quranda olmayan bir dini mənimsəyənlərin vəziyyətini uca Rəbbimiz belə açıqlayır:

**...<u>Rahibliyi isə onlar özlərindən (bidət olaraq) icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq</u>. Onlar bunu Allahın razılığını qazanmaq üçün etdilər, lakin <u>ona lazımınca riayət etmədilər</u>. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir. (Hədid surəsi, 27)**

Allah bu ayəsində bidət olaraq yaradılan saxta dinin Öz Kitabında olmadığını və bu dini yaradanların özlərinin də yaratdıqları dinə uymadıqlarını bildirir. Biz bu cür ayələr vasitəsilə həmin bu insanların ikiüzlü olduqlarını Qurandan öyrənirik. Şəxsi həyatları isə Quranda bildirilən bu həqiqəti daim təsdiq edir. Bir çox insan bütün bu məhdudiyyətlər içində həmin bu insanların həqiqətən çox təqvalı yaşadıqlarını zənn edə bilər. Aralarında səmimi olaraq buna inanan insanlar olsa da, əslində həqiqət belə deyil. Onsuz da səmimi olanlar nə vaxtsa Quran müsəlmanlığını qavrayıb yaşayan insanlara çevrilə bilərlər. Bir

insanın səmimi olub da, saxta bir dini yaşaması qeyri-mümkündür. Çünki Allah belə vəd vermişdir:

**Ey iman gətirənlər! <u>Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər</u>, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Ayədə ifadə edildiyi kimi, səmimi olan hər insan, mütləq haqqı nahaqdan ayırd etmə bacarığına sahib olar.

## ✓Allah musiqini sevir, qullarına da sevdirmişdir

Musiqi və rəqs İslamda halal buyurulan cənnət nemətlərindəndir. Musiqini, mahnıları, musiqi alətlərini, gözəl paltarları, zinətləri, rəqsi və gözəl olan hər şeyi yaradan Allahdır. Allah, bunların hamısını insanlara sevdirmiş, ruhu bu gözəlliklərdən zövq alacaq şəkildə yaratmışdır.

Tövratda hz. Davud (ə.s)-ın lira, qaval, sinc və zınqırov sədaları altında nəğmələr oxuyaraq Allahın hüzurunda rəqs etdiyi bildirilir. Hətta hz. Davud (ə.s)-ın bu rəqsinə həsəd aparan insanların olduğu da ifadə edilir. Eynilə bugünkü gündə müsəlman cəmiyyətlərdə halalları haram buyurmağa çalışan insanlar olduğu kimi, o dövrdə də yəhudilər arasında musiqi və rəqsi öz aləmlərində haram buyurmağa çalışan insanların olduğunu Tövratdan öyrənirik. Bu insanlar hz. Davud (ə.s) kimi bir peyğəmbərin tətbiqlərini belə öz aləmlərində tənqid etmişdirlər.

**...Bu arada Davud və bütün İsrail xalqı Rəbbin qarşısında lira, çəng, qaval, zınqırov və sinc sədaları altında nəğmələr oxuyaraq var gücləriylə bu hadisəni qeyd edirdilər... (Tevrat, 2. Samuel, 6:5)**

**Kətan efod geyinmiş Davud Rəbbin qarşısında var gücüylə oynayırdı. Davudla bütün İsrail xalqı, sevinc nərələri çəkərək və boru səsinin sədaları altında Rəbbin sandığını gətirirdilər. Rəbbin sandığı Davud şəhərinə çatanda, Şaulun qızı Mikal pəncərədən baxdı. Rəbbin qarşısında rəqs edən kral Davudu görəndə, ona əhəmiyyət vermədi. (Tevrat, 2. Samuel, 6:14-16)**

* Şaulun qızı Mikal hz. Davudun xanımlarındandır

**Davud ailəsinə xeyir-dua vermək üçün evə qayıtdıqda, Şaulun qızı Mikal onu qarşılamağa çıxdı. Davuda belə dedi: "İsrail kralı bu gün özünə necə də gözəl ad-san qazandırdı! Dəyərsiz biri kimi, qullarının cariyələri qarşısında soyundun". Davud ona; "atan və bütün nəsli yerinə məni seçən və İsrail xalqına lider təyin edən Rəbbin qarşısında oynadım!" deyə cavab verdi, "bəli, Rəbbin qarşısında oynayacağam. Üstəlik özümü bundan daha da biabır**

**edəcəyəm, heçə sayacağım. Amma dediyin o cariyələr məni şərəfləndirəcəklər". (Tevrat, 2. Samuel, 6:20-22)**

**Tanrının sandığını Avinadavın evindən götürüb yeni bir arabaya qoydular. Arabanı Uzzayla Ahyo sürürdü. Bu vaxt <u>Davud və bütün İsrail xalqı, Allahın qarşısında lira, çəng, qaval, sinc və şeypurun sədaları altında nəğmələr oxuyaraq, var gücləriylə bu hadisəni qeyd edirdilər.</u> (Tevrat, 1. Tarihler 13:7-8)**

**Beləliklə İsraillilər <u>sevinc nərələri çəkərək, boru, şeypur, sinc, çəng və liralar çalaraq Rəbbin Əhd sandığını gətirirdilər</u>. Rəbbin Əhd sandığı Davud şəhərinə çatanda, Şaulun qızı Mikal pəncərədən baxdı. Oynayıb tullanan kral Davudu görəndə, ona içində xor baxdı. (Tevrat, 1. Tarihler 15:28-29)**

Göründüyü kimi o dövrdə hz. Davud (ə.s)-ın öz həyat yoldaşı belə hz. Davud (ə.s)-ın insanlar arasında əylənərək, sevinc və xoşbəxtlik içində rəqs etməsinə qarşı çıxmış, bunu öz aləmində alçaldıcı hərəkət hesab etmişdir. Halbuki Allah bu əyləncəli mühiti Tövratda tərifləyərək anlatmışdır. Şübhəsiz ki, hz. Davud (ə.s) da Allahın musiqi və rəqs barəsindəki hökmlərinə tabe olaraq ən gözəl rəftar nümayiş etmişdir. Lakin kənardan baxanlar, hz. Davud (ə.s)-ın peyğəmbər olduğuna inana bilməyənlər və öz-özlərinə fanatizm dini yaratmağa çalışanlar onu mühakimə edirlər.

Əvvəlki dövrlərdə peyğəmbərləri bu cür mühakimə etdikləri kimi, hazırkı dövrdə yaşayan gerçək Quran müsəlmanlarını da bu cür mühakimə edirlər. Qurandakı din əvəzinə fanatizmi mənimsəmək onsuz da tarix boyu yaşanmış ən böyük bəlalardan biridir. Qadın, musiqi və rəqs bunun ən çox özünü göstərdiyi məsələlərdir.

Halbuki eynilə hz. Davud (ə.s) kimi, Peyğəmbərimiz (s.ə.v) də Allahın bir neməti olan musiqi və rəqsi çox xoşlayırdı. Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində rəqs edən səhabələrdən bəhs edilir, hətta Peyğəmbərimiz (s.ə.v)-in oynayan və əylənənləri təşviq edən sözləri var. Quranla üst-üstə düşdükləri üçün aşağıda bir neçə nümunəsini verdiyimiz hədislər böyük ehtimal səhihdir:

**Əmir ibn Saddan belə nəql edilmişdir: "Bir toy münasibətiylə Karaza ibn Kab və Əbu Məsud əl-Ənsarinin yanına getdim. Kiçik bir qız uşağı mahnı söyləyirdi. Mən: "Siz Rəsulullah (s.ə.v)-in dostları və Bədir səhabələrindən olduğunuz halda, sizin yanınızda**

bu (necə) edilə bilər?" dedim. Onlar da mənə: "İstər bizimlə qalar, istəsən də gedərsən. Bizə, toyda əylənməyə icazə verildi" dedilər. (İbn Hacer, Metâlib, II, 54; Cüdey', Ehâdîs-ü Zemmî'l-Gınâ, səh. 50)

Sələmə ibn Əkvadan rəvayət edilmişdir: "Peyğəmbər (s.ə.v) ilə birlikdə Heybərə getmək üçün yola düşmüşdük. Gecə vaxtı gedirdik. Karvandan olan bir insan - Əmir ibn Əkva şairliyi ilə tanınan biri idi". "Bizə bildiyin şeylərdən söylə, biz də dinləyək" dedi. Əmir dəvəsindən enərək bu türkünü oxumağa başladı: "Ey Allahım! Sən olmasaydın, biz hidayət çata bilməzdik. / Sədəqə verib, namaz qıla bilməzdik. / Hər şeyimiz sənə fəda olsun, bizi bağışla. / Düşmənlə qarşılaşsaq, ayaqlarımızı sabitləşdir / İçimizə rahatlıq və əmin-amanlıq ver. / Çağrıldıqda gedərik. / Bizi səslədikdə köməyinə çatarıq. "Peyğəmbər (s.ə.v): "Bu sürücü kimdir?" dedi. "Əmir ibn Əkvadır" dedilər. Peyğəmbər (s.ə.v): "Allah onu qorusun" dedi. (Beyhakî, Şuab, 5112)

Aişə (r.ə) belə rəvayət edir: "Rəsulullah (s.ə.v) toylarından birində Ənsar qadınlarına baş çəkdi. Onlar mahnı söyləyirdilər"... (İbni Mace, Nikah: 21, Buhari, Nikah: 48, Megazi:12)

... Muavviz ibn Afranın qızı er-Rubey gəlin olduğu vaxt, toy mərasiminə Peyğəmbərimiz (s.ə.v) də gəlmiş və onun yanında əyləmişdi. Bu əsnada bəzi qızlar, qaval çalıb Bədir günü şəhid olanların yaşadıqlarını mahnı şəklində söyləməyə başlamışdılar... (Buhari, Nikah, 49/1, VII/25, Tirmizi, Nikah, III/399)

Yenə hz. Aişə (r.ə), bir qadını Mədinə camaatından olan bir kişiylə evləndirmişdi. Peyğəmbərimiz (s.ə.v): "Ey Aişə sizin yanınızda qaval çalan, mahnı söyləyən xanəndələriniz yoxdurmu? Çünki Mədinə camaatı oyun və əyləncələri xoşlayır" dedi. (Buhari, Nikah 64/1, VII/28)

Rəsulullah (s.ə.v) Mədinədə bir yerə baş çəkdikdə qaval çalaraq nəğmələr oxuyan gənc qızların belə söylədiklərini eşidir:

**“Biz, Bəni Nəccar qızlarıyıq, Məhəmməd nə gözəl (sevimli) qonşudur”. Rəsulullah (s.ə.v) bunu eşitdikdən sonra; “əlbəttə ki, Allah mənim də sizləri sevdiyimi bilir” dedi. (İbni Mace, Nikah, 21/1899, I/612)**

## ✓Rəsm və heykəlin haram olduğu iddiası

**Cəhənnəmdə ən şiddətli əzaba düçar olacaq insanlar rəssamlardır. (Buhari-Tesavir, 89)**

**Rəsulullah (s.ə.v) belə buyurdu: "Kim rəsm çəksə, Allah ona qiyamət günü, çəkdiyi rəsmdən ötrü, ruh üfləyənə qədər əzab verər. Üstəlik, qətiyyən ruh üfləməz". (Buhârî, Tâ'bir)**

**Allah qatında ən şiddətli əzaba düçar olacaq insanlar rəssamlardır. (Müslim, 6:369)**

**Bu surətləri çəkənlər qiyamət günündə əzaba düçar olarlar və özlərinə çəkdiyiniz surətlərə can verin deyilər. (Müslim, 6:368)**

**İçində surətlər olan evə mələklər girməz. (Buhari, Libas 91)**

**Bütün müsəvvirlər cəhənnəmdədir. Allah müsəvvirlərin təsvir etdikləri bütün surətlərə qiyamət günündə həyat verər və həmin bu canlı surətlər cəhənnəmdə onlara əzab verər. (Müslim, 6: 370)**

Məhz bu saxta hədislər vasitəsilə fanatiklər tərəfindən müsəlmanlara rəssamlıq və heykəltəraşlıq sənətləri haram edilmişdir. Hətta uydurulan bəzi hədislərə görə rəssamların adı, axirətdə ən böyük əzaba düçar olan insanlar arasında çəkilir. Bu yanlış anlayışa görə bu insanlar, Allahın yaratdıqlarını təqlid edərək (haşa) ilahlıq iddia edirlər. Halbuki bir rəssamın və ya heykəltəraşın incəsənət əsəri yaratmasının ilahlıq iddiasıyla nə kimi əlaqəsi ola bilər? Əgər bir rəssam və ya heykəltəraş belə azğın iddiayla ortaya çıxırsa, bunu məşğul olduğu sənət ucbatından deyil, ancaq və ancaq ağıl və ruhi zəifliyindən ötrü edə bilər. Eləcə də, hər peşədən olan istənilən insan bunu edə bilər.

Təbiətdəki bütün gözəlliklər uca Rəbbimizin sənət əsəridir. Biz bir sənət əsərinin necə möhtəşəm ola biləcəyini Rəbbimizin bu sənət əsərlərinə baxaraq anlayarıq. Necə ki, yer üzündə mövcud olan demək olar ki, bütün texnologiyalar Allahın yaratdıqları təqlid edilərək yaradılmışdır. Texnologiya üçün yaradılan gözəlliklərin varlığı nemətdir. Məsələn, insanlar təyyarə hazırlayarkən Allahın yaratdığı quşları və bəzi milçək növlərini təqlid

edərlər. Bu təyyarələr, bir canlıdan nümunə götürülərək yaradıldığı üçün mükəmməl uçma və manevr qabiliyyətinə sahibdirlər. Bu bir imtiyazdır, çünki təbiətdə onsuz da yaradılmış və mükəmməl işləyən bir nümunə var. Məhz bu nümunə, Allahın bütün mühəndislərə model kimi təqdim etdiyi hədiyyədir. Hazırkı texnoloji dünya, həyatımızı asanlaşdıran və rahatlığımızı artıran hər cür elmi inkişaf, təbiətdəki bu sənət əsərlərinin bir surətidir. Allah təbiətdəkiləri də, onların təqlid edilməsiylə hazırlanan texnoloji avadanlıqları da bizim üçün nemət olaraq yaradır.

Fanatiklər tərəfindən xüsusilə heykəltəraşlığın hədəf alınması, əslində yalnız keçmişdən gələn bir ənənədən qaynaqlanır. Keçmişdə bütpərəstliyin geniş yayıldığı dövrlərdə bəzi rəhbərlər, hakimiyyətləri altındakı bəzi insanların bütlər hazırlamağa başlamalarının qarşısını almaq üçün, heykəl hazırlanmasına dair müxtəlif tədbirlər aldılar. Keçmişdə cəmiyyətlərin üzləşə biləcəkləri təhlükələrin qarşısını almaq məqsədiylə alınan bu tədbirlər, Quranda hər hansı bir hökm olmamasına baxmayaraq, sanki dinin bir qadağası olaraq yayılmışdır. Məhz bu insanların, Quran əvəzinə ənənələri mənimsəmələrinin gətirdiyi ən böyük zərərlərdən biridir.

Atəşpərəstlərin oda, hindlilərin inəyə, bəzi cəmiyyətlərin isə günəşə tapındığından ötrü, inəkləri öldürüb, od və ya günəşdən uzaq həyat yaşaya bilməyəcəyimizə görə, bütlərə tapınan bütpərəstlərin varlığından ötrü də, müxtəlif heykəllər düzəltməyi qadağan etməyin fövqəladə dərəcədə primitiv düşüncə tərzi olduğu aydındır. Burada anormal olan cisimləri və varlıqları ilahlaşdırmaqdır və haram işləyənlər bunu edən insanlardır, cisimlərin özləri deyil.

Fanatiklərin müsəlmanlara haram buyurmağa çalışdıqları rəssamlıq və heykəltəraşlıq, müsəlmanların rəhbər kitabı olan Qurana görə qətiyyən haram deyil. Allah incəsənəti sevir və qullarına da sevdirmişdir; bütün kainatı incəsənətlə yaratmışdır. Quranda rəsssamlıq və heykəltəraşlıq kimi gözəl incəsənətləri haram edən bir ayə yoxdur. Tam əksinə Quranda incəsənət əsərlərindən təriflə bəhs olunduğunu görərik.

Hz. Süleyman (ə.s)-ın sarayında olan və səltənətinin əzəməti olaraq təriflənən heykəllər və incəsənət əsərləri Quranda belə qeyd olunur:

**Cinlər onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli! Bu nemətlərə şükür edin! Qullarımdan şükür edən azdır. (Səba surəsi, 13)**

Bu Quran ayəsinə baxmayaraq, incəsənətə qadağa qoyan fanatiklər, sarayında fövqəladə gözəllikdə heykəllər olan hz. Süleyman (ə.s) haqqında nə düşündüklərini də demək məcburiyyətindədirlər.

Həmin bu mövhumatçıların İslam cəmiyyətlərinə vurduğu zərər çox böyük olmuşdur. İslam dünyasında heykəltəraşlıq və rəssamlıq sənəti mövhumatların yayıldığı dövrlərdən sonra heç vaxt inkişaf edə bilməmişdir. Sənətini inkişaf etdirə bilməyən cəmiyyətlər sönük, ruhsuz və geri qalarlar. Yeniliklərə açıq deyillər. Yaradıcılıq, əməli düşünmə qabiliyyətlərini, incəlikləri görmə anlayışlarını zamanla itirərlər. Zövqsüzlük və sönüklük ruhlarında, yaşadıqları məkanlarda, bir-birlərinə olan davranış formalarında da öz əksini tapmışdır. Fanatiklərin qapqaranlıq dünyasında, incəsənətdən uzaqlaşmalarının nəticəsi olaraq, incəlik və təfərrüatlardan uzaq, ürküdücü stabillik, sönüklük və zövqsüzlük hakimdir.

## ✓“Qızıl və ipəyin qadağan edilmiş olduğu” iddiası

**Rəsulullah (s.ə.v) müəyyən qədər ipək götürüb sağ ovucuna, müəyyən qədər də qızıl götürüb sol əlinə qoydu sonra da: “Bu iki şey ümmətimin kişilərinə haramdır” dedi. [Tirmizi, və Nesaidə Əbu Musadan gələn digər bir rəvayət görə isə; “ümmətimin kişilərinə ipək paltar və qızıl haram, qadınlarına isə halal edildi” demişdir.]**

Fanatiklər kişilərə qızıl və ipəyi də qadağan etmiş, bunun üçün yuxarıdakına bənzər bir çox hədis uydurmuşdurlar. Halbuki Quranda qızıl və ipəyin qadağan olunduğuna dair heç bir ayə yoxdur. Əksinə qızıl və ipək Quranın bir çox ayəsində cənnət neməti olaraq göstərilir:

**Məhz onlar üçün ağacları altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan (sıx toxunmuş ipək) və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir! (Kəhf surəsi, 31)**

**Həqiqətən də, Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək, libasları da ipəkdən olacaqdır. (Həcc surəsi, 23)**

**Onlar Ədn bağlarına daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır. (Fatir surəsi, 33)**

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in dövründə də ipək parçalardan istifadə olunduğuna dair hədislər var:

**(İbn Osmanın) atası (Abdullah ibn) Saddan rəvayət olunmuşdur; dedi: "Buxarada ağ rəngli qatıra minmiş, (başında) ipəkdən qara sarıq olan birini gördüm. "Bunu mənə Rəsulullah (s.ə.v) geydirdi" deyirdi. (Sünen-i Ebu Davud Terceme ve Şerhi, Şamil Nəşriyyat: 14/112)**

**Əbu Davud dedi: Rəsulullah (s.ə.v)-in səhabələrindən iyirmisi yaxud daha çoxu ipək paltar geymişdir. Ənəs ilə Bəra ibn Azib bunlardandır. (Buhâri, eşribe 6. Sünen-i Ebu Davud Terceme ve Şerhi, Şamil Nəşriyyat: 14/112-113)**

Müsəlmanların gözəl geyinmələri və gözəl nemətlərə layiq olduqları həqiqəti, görüldüyü kimi Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində də bildirilir.

Əlbəttə ki, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində vardır, çünki Quranda təriflənmiş bir neməti Peyğəmbərimiz (s.ə.v) də sevər və təşviq edər. Buradakı saxta hədisin yalan olduğunun ən böyük dəlillərindən biri, Quranda qətiyyən haram buyurulmayan bir şeyi Peyğəmbərimiz (s.ə.v)-in haram buyurduğu iddiasıdır. Belə bir şeyin olması, şübhəsiz ki, qeyri-mümkündür.

Qızıl bir zinətdir və daha əvvəl bildirdiyimiz kimi, Allah Quranda zinətlərin gözəlliyini tərifləmiş və "ey Adəm oğulları! Məscidlərə gedərkən zinətlərinizi taxın..." (Əraf surəsi, 31) ayəsində olduğu kimi, müsəlmanları gözəl zinətlər geyinməyə təşviq etmişdir.

Yenə xatırladaq ki, Əraf surəsində də dünyadakı zinətlərin qadın və ya kişi ayrı-seçkiliyi olmadan hər kəsə halal olduğu bildirilir:

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında iman edənlərə məxsusdur, Qiyamət günü isə yalnız onlarındır". Biz dərk edən insanlar üçün ayələri belə izah edirik. (Əraf surəsi, 32)**

# “Makiyaj, baxım, təmizlik və gözəlləşmənin haram olduğu” iddiası

## ✓Gözəl qoxunu (ətiri) qadağan edən saxta hədislər

Məscidə gedərkən ətirlənən qadın evinə qayıtdıqdan sonra (cinsi əlaqə sonrası yaranan) natəmizlikdən ötrü qüsl alırmış kimi yuyunmadıqca, Allah Qatında onun namazı qəbul olunmaz. (Avnül Mabül, 11/230)

İmam Cəfər-i Sadiq (ə.s) belə buyurmuşdur: “Heç bir qadın, evindən çölə çıxarkən paltarına gözəl qoxu (ətir) sürməməlidir”. (El-Kafi, V cild, səh. 519)

Rəsul-i Əkrəm (s.ə.v) belə buyurmuşdur: “Bir qadın ərindən başqası üçün gözəl qoxu sürsə (ətirlənsə); (cinsi əlaqə sonrası yaranan) natəmizlikdən ötrü yuyunduğu kimi, yuyunub o qoxudan xilas olmadığı müddətcə namazı qəbul olunmaz”. (Men La Yahzurh-ul Fakih, III cild, səh. 440)

Rəsul-i Əkrəm (s.ə.v) belə buyurmuşdur: “Qadının ərindən başqası üçün ətirlənməsi, od və zilləti satın alması deməkdir”. (Nehc-ül Fesaha, I cild, səh. 36)

## ✓Tatuirovka, üzdəki tükü təmizləmə, estetik diş düzəltdirməni qadağan edən saxta hədislər

Tatuirovka edən və etdirənə, üzündəki tükləri aldıran və estetik olması üçün dişlərini seyrəltdirən qadınlara Allah lənət eləsin. (Sahih-i Buhari)

## ✓Parik qoyma, qaş alma və tatuirovka etdirməni qadağan edən saxta hədislər

Parik qoyan, qoyduran, qaşlarını naziklәşdirən, naziklәşdirtdirən, tatuirovka edən və etdirən lənətlənmişdir. (Ebu Davut, Tereccul, 5)

## ✓Qadının gözəl paltarla evdən çıxmasını qadağan edən saxta hədislər

Rəsul-i Əkrəm (s.ə.v), qızı hz. Fatiməyə xitabən belə buyurmuşdur: "Ey Fatimə, hər hansı qadın gözəl şəkildə bəzənər və gözəl paltarla evindən çıxaraq, insanların diqqətini üzərində cəmləyib onların özünə baxmalarına şərait yaradarsa, yeddi göyün və yerlərin mələkləri onu lənətləyər və ölüb cəhənnəmə girənə qədər Allahın qəzəbinə düçar olar (Əlbəttə ki, tövbə edib qayıtsa və bunu bir daha təkrarlamasa başqa)" (Şehab-ül Ahbar)

İmam Sadiq (ə.s) belə buyurmuşdur: "Bir insanın rəzil olması üçün, onu məşhur edəcək (yəni başqalarının diqqətini üzərində cəmləyib, barmaqla göstəriləcək vəziyyətə gətirəcək) bir paltar geyinməsi kifayətdir". (Bihar-ül Envar, cild. 78, səh. 252)

Hz. Əli (ə.s) belə buyurmuşdur: “Qalın (bədəni göstərməyən) paltarlar geyinin; çünki paltarı nazik olanın, dini də nazik olur (belə ki, dini tam yaşamır)”. (Bihar-ül Envar, cild. 79, səh. 298)

Bir hədisdə belə buyurulur: “Allahın Elçisi (s.ə.v) qadınlara, çölə çıxarkən başqalarının diqqətini üzərlərində cəmləyəcəkləri paltarlar geyinməyi və səs çıxardacaq zinət əşyaları taxmağı qadağan etmişdir”. (Müstedrek-ül Vesail, XIV cild, səh. 280)

## ✓Qadının qızıllar və geyimlərlə məşğul olub cənnəti itirdiyini iddia edən saxta hədislər

“Cənnətə baxdım və cənnət əhalisinin ən az hissəsinin qadınlardan ibarət olduğunu gördüm. Bu vəziyyət qarşısında bu sualı verdim: Qadınlar haradadır? Cənnətin gözətçisi mənə bu cavabı verdi: “Onları qadağan olunmuş iki şey, yəni qızıl və rəngli paltarlar cənnətdən uzaqlaşdırdı”.

## ✓Qadına paltar verilməməsinin lazım olduğunu iddia edən saxta hədislər

**"Özlərini pis geyindirməklə qadınlara kömək edin".**

Burada qadınların baxımı ilə əlaqədar saxta hədisləri ardıcıl surətdə verməyimizin səbəbi, mövhumatçıların dinində qadınların necə alçaldıqlarını, necə ağılsız, şəxsiyyətsiz, əhəmiyyətsiz biri hesab edildiklərini göstərmək üçündür. Quranın heç bir ayəsində olmayan bu hökmlər, həmin bu saxta hədislərlə dinin hökmü kimi göstərilmiş və beləliklə təkcə qadınların gözəlliyi yox edilməmiş, həmçinin onların ağlını, şəxsiyyətini də ortadan qaldıran bir cəmiyyət modeli yaradılmışdır. Bundan sonra onsuz da sönük və ruhsuz, sevgisiz və gözəlliklərdən uzaq həyat yaşayanların həyatı get-gedə daha da qaralmışdır. Dünyanın ən böyük nemətlərindən biri olan qadın gözəlliyinin yox edilməsi nəticəsində, həm öz ruhları, həm də cəmiyyət anlayışları get-gedə çökmüşdür. Əvvəlki hissədə ətraflı şəkildə bəhs etdiyimiz kimi, iti və ətraflı düşünə bilən, tədbirlər ala bilən və bir çox cəhətdən kişilərin ağlından olduqca böyük anlayış gücünə malik qadın ağlının aradan qaldırılması, fikirlərini dilə gətirmələrinə maneə törədilməsi nəticəsində həmin bu cəmiyyətlər böyük inkişaflardan məhrum qalmışdırlar. Maraqlı budur ki, bu cəmiyyətlərdəki qadınlar da bu batil dinə inanmış və özlərini ikinci planda saxlamaqda problem görməmişdirlər. Həmin bu qadınlar ümumiyyətlə özlərinə qayğı göstərməyən, görünüş etibarilə kişidən fərqsiz və olduqca baxımsız olan, heç bir mövzuda fikir yürüdə bilməyən, özlərini cahil olaraq yetişdirmiş və hər cür qərarı kişilərə buraxmış, kişilərin boyunduruğu altına girməkdə problem görməmiş varlıqlara çevrilmişdirlər.

Halbuki, daha əvvəl də xatırlatdığımız kimi, Allah ayəsində zinəti və gözəl ruziləri haram edənlərdən bəhs edir. Bunlar Qurana zidd hərəkət edirlər:

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında iman edənlərə məxsusdur, Qiyamət günü isə yalnız onlarındır". Biz dərk edən insanlar üçün ayələri belə izah edirik. (Əraf surəsi, 32)**

Daha əvvəl ətraflı şəkildə qeyd etdiyimiz kimi, Qurana görə qadın zinətdir, qiymətlidir; qadın gözəlliyi nemətdir, qadın ağlı cəmiyyətlərə çox geniş üfüqlər qazandırar. Allah həm bu gözəl xüsusiyyətləri qadına vermiş, həm də onu diqqətlə qorumuş və

təriflәmişdir. Yuxarıdakı saxta hədislərdə qeyd olunan bu saxtakar ifadələr Quran tərəfindən təkzib edilmişdir.

Bu unudulmamalıdır ki, gözəllikləri və Allahın sevib bəyəndiyi nemətləri qadağan etməyə çalışanlar fanatiklərdir. Dolayısilə fanatiklərin dünyasını gerçək sanıb, cahilcəsinə gerçək müsəlmanlığa qarşı çıxanlara mənfi reaksiya göstərmək böyük səhvlikdir. Qurana tabe olanlar, zinət və gözəllikləri qadağan edənlər deyil, bunların Allahın bir neməti olduğunu bilənlərdir.

## ✓Fanatiklərin ruhu bu dünyaya hakim olsaydı...

İndi fanatiklərin bu qadağalara görə, əslində özlərini necə bir dünyanın gözlədiyinə nəzər yetirək. Əgər mövhumatçıların rəsm və heykələ qoyduğu qadağalara gündəlik həyatda riayət olunsaydı dünyanın heç bir yerində cədvəl, rəsm və ya reklam, elan və xəbərdarlıq lövhələri olmayacaqdı. Dolayısilə,

- *Yazılı təbliğat aparılarkən şəkilli izahatlardan istifadə olunmayacaqdı.*
- *Dərsliklərdə şəkilli izahatlar olmayacaqdı.*
- *Kağız pullarda şəkillərdən istifadə olunmayacaqdı.*
- *Saraylarda ehtişamlı rəsmlər, tablolar, divar bəzəkləri olmayacaqdı.*
- *Anatomiyada insana fayda verən, insan orqanizmini tanıdan şəkilli izahatlar olmayacaqdı.*
- *Gözəl sənətlər akademiyası və bənzəri incəsənət məktəbləri olmayacaqdı.*
- *Şəkilli qəzetlər, jurnallar, kitablar, internet saytları olmayacaqdı. Televizorda ümumiyyətlə şəkillər göstərildiyi üçün, baxılması qadağan olacaqdı.*
- *Media orqanlarına qoyulacaq qadağa nəticəsində, mediadan əldə olunacaq minlərlə fayda da ortadan qalxacaqdı. Bununla yanaşı gözəl əxlaqı təbliğ etmək, Quranın tələbi olan yaxşı və gözəl əməli insanlara demək imkanı da aradan qalxacaqdı.*

## ✓Makiyaj, baxım, təmizlik, gözəl geyim, müasirlik və mədəniyyət, bir sözlə, "keyfiyyət" İslamın tələblərindəndir

Əlbəttə ki, müsəlman baxımlı, təmiz və gözəl olmalıdır. Çünki gözəllik, baxım, estetika və incəsənət zövqü Allahın bəyəndiyi şeylərdir və yuxarıdakı ayədə bildirildiyi kimi, xüsusilə iman gətirənlərə verilmiş bir nemətdir. Quranda müsəlman qadınların makiyaj etməsi və baxımlı olmasının haram olduğuna dair hökm yoxdur. Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in dövründə də xanımlar daim ən gözəl və ən baxımlı şəkildə cəmiyyət içinə çıxmışdırlar. O dövrdəki qadınlar da makiyaj edirdilər, hətta Peyğəmbərimiz (s.ə.v) başda olmaqla, dövrün kişiləri də gözlərinə sürmə çəkirdilər. Bir hədisdə belə bildirilir:

**Aişə (r.ə) belə rəvayət edir: "Rəsulullah oruclu olarkən, sürmə çəkmişdir". (İbni Mace, Sıyam, 17)**

O dövrdə müsəlman xanımlar ənlik, sürmə, dodaq boyasından istifadə edər, əllərini və dırnaqlarını xına ilə boyayardılar. Qadınlar və kişilər saçlarını xüsusi boyalarla boyayırdılar. Belə ki, Peyğəmbərimiz (s.ə.v) insanları saçlarını boyamağa təşviq edər, hətta özü də boyayardı.

Bir çox hədis kitabında qeyd olunan bir rəvayətə görə, Ummu Həbibənin atası, Əbu Süfyanın üç gün yasını tutduqdan sonra yanaqlarına ***"haluk"*** çəkmişdir. *(Belazuri, 1987:184-185)* ***(Haluk, çəhrayı sarı rəngiylə ənliyə bənzəyir.)***

Bu mövzudakı digər bəzi hədislər isə bunlardır:

**Təbəraninin bir rəvayətinə görə: "Saçların rənginin dəyişdirilərək əcnəbilərdən fərqli olması" əmr edilir. (2111)**

**Hz. Əbu Hüreyrə (r.ə) belə deyir: "Rəsulullah (əleyhissalatu vəssalam) belə buyurdu: "Yəhudilər və xristianlar (saçlarını) boyamazlar. Siz onların etdiyinin əksini edin". [Buhârî, Libâs 67, Enbiya 50; Müslim, Libâs 80, (2103); Ebû Dâvud, Tereccül 18, (4203); Nesâî, Zînet 14, (8, 137); Tirmizî, Libâs 20, (1752).]**

**Buxari və Müslimdə, hz. Ənəsdən gələn rəvayətdə belə deyilir: "Hz. Əbu Bəkir və hz. Ömər (r.ə) (saçlarını) xına və kətan bitkisiylə boyayardılar".**

**Süheybül-Hayr (r.ə) belə dedi: "Rəsulullah əleyhissalatu vəssalam belə buyurdu: "(Ağaran saç və saqqallarınızı boyamaqda) istifadə etdiyiniz ən yaxşı boya, şübhəsiz ki, bu qara boyadır. (Çünki qara boya) həyat yoldaşlarınızın sizi daha çox bəyənməsinə vəsilə olur, müxaliflərini z içində də haqqınızda daha çox çəkinməyə vəsilədir". (Ebu Davud, Libas 18, (4064), Tereccül 19, (4210); Nesai, Zinet 17, (8,140). Buhari, Libas 66, Menakıb 23; Müslim, Fedail 100-105, (2341); Ebu Davud, Tereccül 18, (4209); Nesai, Zinet 17, (8,140, 141))**

Peyğəmbərimiz (s.ə.v)-in ən çox sarı saçı bəyəndiyi yenə hədislərdən aydın olur:

**İbni Abbas (r.ə) belə dedi: "(Saçlarına) xına yaxmış biri gəldi. Hz. Peyğəmbər (əleyhissalatu vəssalam) da: "Bu nə gözəl!" deyib alqışladı. (Az sonra) xına və kətan bitkisiylə boyanmış biri də gəldi. Bu zaman da: "Bu əvvəlkindən də gözəldir!" dedi. Sonra (saçlarını) sarıya boyamış biri daha də gəldi, bu zaman isə: "Bu o birilərindən də gözəldir!" dedi". (Ebü Dâvud, Tereccül 19, (4211); İbnu Mâce, Libâs 34, (3627)).**

**Əhməd ibn Hənbəlin bir rəvayətində, Mədinə camaatından yaşlanmış, saqqalları ağarmış qocalara rast gəldiyi vaxt, onlara: "Ey Mədinə camaatı (saçlarınızı) qırmızı rəngə boyayın, sarı rəngə boyayın!" deyə məsləhət verdi.**

**<u>(Səhabə və tabiinin) çoxu sarıya boyamağı uyğun görmüşdürlər. Hz. Əli, İbni Ömər, Əbu Hüreyrə və s. insanlar bu kimsələrdəndir</u>. Bəziləri xına və kətan bitkisiylə, bəziləri zəfəran bitkisiylə, bəziləri də qara boya ilə boyamışdırlar. Qara rənglə boyayanlar arasında hz. Osman, hz. Həsən, hz. Hüseyn (yəni hz. Əlinin iki oğlu), Ukbə İbnu Amir, İbnu Sirin, Əbu Bürdə və s. insanların da adı çəkilir".**

**Hz. İbnu Ömər (r.ə)-dən gələn rəvayətə görə, saqqalını <u>sufra adlanan, sarı boya ilə boyayar və belə deyərdi: "Mən, Rəsulullah (əleyhissalatu vəssalam)ı gördüm, saqqalını bununla boyamışdı, ən çox sevdiyi boya da bu idi</u>. Hərdənbir paltarını da bununla boyayardı". [Ebû Dâvud, Libâs 18, (4064), Tereccül 19, (4210); Nesâî, Zînet 17, (8, 140)]**

**Əbu Qatadə (r.ə)-dən belə rəvayət olunur: "O (Əbu Qatadə), Peyğəmbər (s.ə.v)-ə belə dedi: "Çiyinlərimə qədər uzanan (gur) saçlarım var, onları daraya bilərəmmi?"". Peyğəmbər (s.ə.v) isə ona: "Bəli, onlara yaxşı bax!" dedi. Əbu Qatadə Peyğəmbər (s.ə.v)-in bu (bəli, onlara yaxşı bax) sözünə görə çox vaxt saçlarını gündə iki dəfə yağlayardı. (Büyük Hadis Külliyatı, Cem'ul` Feaid er-Rudani, 2-ci nəşr, İstanbul, 2009)**

**Əbu Zər (r.ə)-dən belə rəvayət olunur: "Allahın Rəsulu (s.ə.v) belə buyurdu: "Ağ saçları boyayan ən gözəl şey xına və kətandır"".**

Peyğəmbərimiz (s.ə.v)-in dövründə xanımların dırnaq boyası əvəzinə əllərinə və dırnaqlarına xına yaxdıqları və Peyğəmbərimiz (s.ə.v)-in də xanımları buna təşviq etdiyi bir çox rəvayətdə qeyd olunur:

Əlində Rəsulullaha verəcəyi bir məktub olan qadın, pərdənin arxasından ona işarə elədi (əlini uzatdı) Rəsulullah (s.ə.v) də onun əlini tutdu və (məktubu almadan əlini çəkərək): "Bilmirəm bu kişi əlidir, yoxsa qadın əli?" dedi. Qadın isə ona: "Qadın əlidir" dedi. Rəsulullah (s.ə.v) də: "Əgər sən qadın olsaydın dırnaqlarının (rəngini) xına ilə dəyişdirərdin" dedi. (Ebu Davud, 1992)

Aişə (r.ə)-dən rəvayət olunduğuna görə, Hind Binti Utbə belə dedi: "Ey Rəsulullah sənə beyət etmək istəyirəm". Rəsulullah (s.ə.v) də ona; "əllərinin (rəngini) dəyişdirənə qədər mənə beyət edə bilmərsən..." dedi. (Ebu Davud, 4165)

## ✓Qadın gözəl varlıqdır, əlbəttə ki, baxımlı olmalıdır

Əlbəttə ki, qadınlar çox gözəl və baxımlı olmalıdır, çox nəcib rəftar etməlidirlər. Bu keyfiyyət deməkdir ki, keyfiyyət də insanların həmin bu qadınlara sayğı göstərməsinə, hörmət bəsləməsinə səbəb olur. Bunun üçün çox gözəl və zəngin olmaq deyil, Quranın ruhundakı o böyük təmizliyə, gözəl və səliqəli görünmək istəyinə sahib olmaq lazımdır. Müsəlman üzərindəki nurunu tamamlayacaq şəkildə baxımlı və gözəl görünüb keyfiyyətini, görünüş etibarilə də, etibar və hörmətini artırar. Dünyadakı bütün insanlar sayğılı, mədəni və özünə güvənən müsəlman qadın görməkdən çox təsirlənər. Bu, Allahın istədiyi, bəyəndiyi bir şeydir.

Makiyaj, baxımlı və gözəl görünməyin yollarından biridir və Allahın nemətidir. Allah hər cür gözəlliyi sevir. Bundan ötrü də, qadınlar, çiçəklər, ağaclar, kəpənəklər, quşlar gözəl yaradılmışdır. Bir kəpənəyin üzərindəki ahəngdar rənglərə, fövqəladə simmetriyaya, ahəngdar şəkillərə daim heyran olarıq. Allah bu gözəlliyi sevir, buna görə də, onu bəzəkli yaradır. Qadınlar da dünyadakı bu bəzəyin bir hissəsi, hətta ən gözəlidir. Kəpənək necə Rəbbimiz tərəfindən zərif yaradılmışdırsa, qadın da zərif yaradılmışdır. Özünə nemət olaraq verilən bu gözəlliyi baxımlı olmaqla ortaya çıxıb dəyər qazanar. Şübhəsiz ki, özünə diqqət göstərməyən, özünə dəyər verməyən bir qadının o bəzəkli, xoş, gözə və qəlbə xitab edən gözəlliyinin də bir dəyəri qalmır.

Makiyajı haram etməyə təşəbbüs edənlər, ümumiyyətlə gözəlliklərdən zövq alma ruhunu itirmiş insanlardır. Onların köhnə dünyasında incəsənət, zövq, xoşbəxtlik, sevinc, gözəllik olmadığı, eləcə də, öz aləmlərində qadınları örtülməli və yox edilməli bir varlıq kimi gördükləri üçün onların gözəlləşməsi əvəzinə çirkinləşməsini istəyərlər. Bu vəziyyətdə bir sual verək: Dünyadakı hansı mütərəqqi, müasir və mədəni insan və ya cəmiyyət, qadını dəyərsiz və baxımsız edən bir dini qəbul edər? Kim bu dinin mənsubu olmaq istəyər? Kim belə bir dini müdafiə edər?

Bundan ötrü də, bəzi Qərb cəmiyyətləri fanatizm dininə qarşı çıxır və bu dinin İslam olduğunu zənn etməklə yanılırlar.

# ✓Marka və gözəl paltarlar geymək, gözəl maşın və evlərə sahib olmaq müsəlmanların haqqıdır

Peyğəmbərimiz (s.ə.v) və onunla birlikdə olan səhabələr o dövrün ən keyfiyyətli, ən müasir görünüşlü və ən təmiz insanlarıydı. Peyğəmbərimiz (s.ə.v) indi yaşasaydı, şübhəsiz ki, bu dövrün ən keyfiyyətli insanı olardı. Yaşadığımız dövrün ən müasir və gözəl paltarlarını geyinər, ən müasir və gözəl evlərində oturar, ən müasir və gözəl avtomobillərindən istifadə edərdi. Dərhal bütün insanlar içində seçilərdi. Necə ki, hədislərdə də Peyğəmbərimiz (s.ə.v)-in öz dövrünün ən seçilən və göstərişli paltarı olan qızıl kaftan geydiyi belə bildirilmişdir:

**"<u>Əynində qızıl kaftanla ortaya çıxdı</u> və belə dedi: "Ey Məhrəmə! Məhz bunu sənin üçün saxladım..." (Büyük Hadis Külliyatı, Cem'ul-fevaid, Min Cami'il-usul ve Mecma'iz-zevaid, İmam Muhammed Bin Muhammed Bin Süleyman, Er-Rudani, İz Nəşriyyat/ 2-ci nəşr İstanbul 2009, səh. 257-261-262-265-271-273)**

Mövhumatlardan ibarət ənənələrini din halına gətirməyə çalışanlar, ümumiyyətlə özlərinə gözəl nemətləri layiq görmədiklərindən və çox vaxt alçaldılma duyğusuyla hərəkət etdiklərindən, gözəl, keyfiyyətli və marka paltarları, gözəl evləri və avtomobilləri də özlərinə və müsəlmanlara yaraşdırmazlar. Hər hansı bir insanın ən lüks evə, ən lüks və gözəl avtomobilə sahib olmasına və ən gözəl paltarlar geyinməsinə etiraz etməzlər. Lakin bunu bir müsəlman etdikdə sanki dəliyə dönərlər. Bu da, üzərlərindəki alçaldılma duyğusunun dolayısilə də qəzəblərinin artmasına səbəb olar. Bu cür insanlar yalnız xarici aləmə deyil, müsəlmanlara da nifrətlə yaxınlaşmağa başlayarlar.

Əlbəttə ki, müsəlmanlar var gücləriylə çətin vəziyyətdəki insanları qoruyacaq və bu yolda Allah rizasını qazanmaq üçün ən çox səy göstərəcəklər. Lakin bu, onların baxımsız, çirkli və pəjmürdə (halı pozğun, pərişan) yaşamasını tələb etmir. Müsəlman yalnız görünüşüylə belə fövqəladə təbliğ gücünə malikdir. Görünüşü nə qədər təmiz, keyfiyyətli, mədəni, müasir olsa, nə qədər ünsiyyətcil, şən, açıq fikirli davransa, gerçək İslam dinini o qədər mükəmməl təbliğ etmiş olar. Əlbəttə ki, bu yalnız təbliğ anlarına aid deyil, bütün həyata hakim olan həyat tərzidir. Onsuz da müsəlmanlar Qurana görə bu cür yaşamaqla məsuldurlar, onsuz da bundan zövq alırlar.

İnsanlarda pəjmürdəliyin hakim olduğu bu qorxunc həyat tərzi deyil, keyfiyyətin hakim olduğu sülhsevər İslam anlayışı görünüşü təsir oyadar. Bunu gördükdə artıq

qorxmağa, sevməyə başlayarlar. Qurana uyğun olan da budur. Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in dövründə, onun fövqəladə keyfiyyətli, şən və müasir rəftarı, eləcə də, görünüşü görənlərə daim böyük dərəcədə təsir etmişdir. Peyğəmbərimiz (s.ə.v)-in əcnəbi elçilərlə görüşdüyü vaxt, əynində daima Bizans cübbələrinin və dövrün digər keyfiyyətli geyimlərinin olması bilinən bir həqiqətdir. Eləcə də, Peyğəmbərimiz (s.ə.v) İslamın xalqlara tanıdılması üçün, hz. Dihyə (r.ə)-i müxtəlif yerlərə təbliğ üçün göndərirdi. Hz. Dihyə inanılmaz dərəcədə yaraşıqlı idi və İslamı təbliğ etmək müxtəlif yerlərə daim çox bahalı və keyfiyyətli geyimlərlə gedərdi. Belə ki, həm görünüşüylə, həm də keyfiyyətiylə hz. Dihyə, təbliğ etməyə getdiyi bölgələrdəki xalqı küçəyə tökmüş, insanları özünə heyran qoymuşdu. Buradakı məqsəd, İslamın gözəlliyə və keyfiyyətə əhəmiyyət verən bir din olduğunun insanlara göstərilməsiydi.

Peyğəmbərimiz (s.ə.v)-in müsəlmanların gözəl geyinmələri və keyfiyyətli olmalarıyla əlaqədar bəzi hədisləri bunlardır:

**Əbul Əhvasdan, o da atası (r.ə)-dən belə rəvayət edir: “Üzərimdə cırıq-sökük paltarlarla Peyğəmbər (s.ə.v)-in yanına daxil oldum. O da mənə: “Malın vardırmı?” dedi. Mən də: “Bəli” dedim, o da mənə: “Hansı maldan var?” dedi. Mən isə: “Allahın mənə lütf etdiyi dəvə, mal-qara, qoyun, at kimi hər cür malım var” dedim. Sonra o da: “Allah sənə mal vermişdirsə onun əsəri və comərdliyi üzərində görünsün” dedi. (Büyük Hadis Külliyatı, Cem'ul-fevaid, Min Cami'il-usul ve Mecma'iz-zevaid, İmam Muhammed Bin Muhammed Bin Süleyman, Er-RUDANİ, İz Nəşriyyat / 2-ci nəşr İstanbul 2009, səh. 257-261-262-265-271-272-273)**

**Cabir (r.ə)-dən belə rəvayət olunur: “Ənmar döyüşünə Peyğəmbər (s.ə.v)-lə birlikdə çıxdıq. ...Ey Allahın elçisi Mədinədən bir yoldaşımız var. Onu da hazırladıq, bizim dalımızca gəlib bizi qoruyur. Məhz bu anda o, əynində iki cırıq paltarla gəldi. Peyğəmbər (s.ə.v) onu gördükdə məndən soruşdu: “Bu iki cırıq paltarından başqa paltarı yoxdurmu?” Mən də: “Heybəsində geyinməsi üçün verdiyim iki paltarı daha var” dedim. O isə: “Çağır o paltarı geyindir” dedi. Mən də onu çağırdım, gəlib paltarlarımı geyindi. Arxasını dönüb gedərkən, Rəsulullah belə dedi: “Niyə (yeni paltarları olduğu halda, köhnələrini geyinir) bu onun üçün daha xeyirli deyildirmi?”. O bunu eşitdi və: “Ey Allahın elçisi! Allah yolunda cihad edərkən də yeni paltar geyinim?”. Rəsulullah da**

**ona: “Bəli, Allah yolunda cihad edərkən də” dedi. (Büyük Hadis Külliyatı, Cem'ul-fevaid, Min Cami'il-usul ve Mecma'iz-zevaid, İmam Muhammed Bin Muhammed Bin Süleyman, Er-RUDANİ, İz Nəşriyyat/ 2-ci nəşr İstanbul 2009, səh. 257-261-262-265-271-272-273)**

# V FƏSİL

## ✓Fanatiklərin dininə görə yəhudilər və xristianlar

Fanatiklərin xüsusilə müharibə və qadın mövzusunda gördüyümüz ürküdücü məntiqlərini, Kitab əhlinə, yəni yəhudi və xristianlara olan baxış prizmalarında da görmək mümkündür. İllərlə xüsusən xristian və yəhudilərə qarşı şiddətli düşmənçilik bəsləmiş müsəlmanların beyinləri, əlbəttə ki, saxta hədislərə zəhərlənmişdir. Peyğəmbərimiz (s.ə.v)-in sözləri olduğu deyilən bu saxta hədislərdən ötrü müsəlmanlar, Quranda təriflənmiş əməlisaleh yəhudilərə və xristianlara məhəl qoymamış, yəhudi və xristianların müsəlmanlar tərəfindən himayə olunmasının lazım olduğu həqiqətindən sanki xəbərsiz yaşamışdırlar. Bu yanlış düşüncədən ötrü də, səmimi xristian və yəhudilərdən bəhs olunan Quran ayələrini belə inkar etməyə başlamışdırlar. Quran ayələrini inkar etmək isə, İslama görə dindən çıxmaq deməkdir ki, həmin bu insanlar buna belə laqeyd yanaşmışdırlar.

Bu fəsildə fanatiklər və bəzi İslam əleyhdarlarının, İslamda Kitab əhli düşmənçiliyinə dəlil kimi göstərməyə çalışdıqları Quran ayələrinin gerçək mənaları açıqlanacaq və tarix boyu təşviq edilən yəhudi və xristian əleyhdarlığının əsil səbəbi olan saxta hədislərin yanlışlığı izah ediləcək. Bu əhəmiyyətli həqiqəti əvvəlcədən xatırlatmaq lazımdır: Xristianlıq və Yəhudilik, İslamdan əvvəl göndərilmiş haqq dinlərdir və müsəlmanlar Qurana görə bütün haqq dinləri və haqq peyğəmbərləri qəbul etməklə məsuldurlar. Ayədə belə bildirilir:

Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" (Bəqərə surəsi, 136)

Şübhəsiz ki, bu haqq dinlər də, öz içlərində ortaya çıxan fanatik məntiqlər nəticəsində zaman keçdikcə yanlış izah olunmuş və bu təhrif kitablarında belə əks olunmuşdur. Ancaq biz qiyamətə qədər dəyişməyəcək Qurana baxdığımız vaxt, xristianlıq və yəhudilik dinlərinin ilk və əsil hallarına iman etməli olduğumuzu anlayar və buna görə hərəkət edərik.

Bu ayəyə və Quranda Kitab əhlinin təriflədiyi bir çox ayəyə baxmayaraq, xristian və yəhudilərə qarşı ürküdücü həddə çatan düşmənçilik siyasəti yürüdən bəzi müsəlman

icmalar, əlbəttə ki, uydurulmuş fanatizm dininin mənsubudurlar, Quran müsəlmanlığının deyil.

Bəziləri bilə-bilə bu səhvliyə yol verər, bəziləri də bilməyərək. Bu kitabın məqsədi, bu səhvə yol verənləri xəbərdar etmək, fanatizmi İslam zənn edən bəzi İslam əleyhdarlarına da qarşı çıxdıqları dinin əslində İslam olmadığını göstərməkdir.

Fanatiklərin bütün iddialarının əksinə Quran, Kitab Əhlinə düşmənçilik bəsləməyi lənətləyərək onlara sevgi bəsləməyi nəsihət edir. İndi bunun dəlillərini görək:

## ✓Yəhudi əleyhdarlığına Qurandan dəlillər gətirməyə çalışanlara Qurandan cavablar

Xüsusilə Kitab Əhlindən olan yəhudilər, bəzi müsəlmanların niyə illərlə özlərinə düşmənçilik bəslədiklərini anlaya bilmədilər. Əsasən Quranda belə bir hökmün olduğunu və həmin bu müsəlmanların bunun əsasında hərəkət etdiyini zənn etdilər. Məhz bundan ötrü də, bəziləri daim İslam dinini günahlandırdı. Quranın, yəhudiləri özünə düşmən tutan insanları lənətlədiyi həqiqətindən xəbərsiz oldular.

Yəhudilərin özlərinə edilən isnadlarda qarşılaşdıqları iki əhəmiyyətli iddia var: Lənətləndikləri və meymunlar və donuzlar yaraşdırmasının edilməsi iddiaları (yəhudi qardaşlarımızı tənzih edirik). Fanatiklər bu iddialarını öz aləmlərində Qurana istinad edirlər. İndi bu iddiaların əsassızlığını və gerçək mahiyyətini Qurandan ayələr verməklə açıqlayaq:

## ✓"Meymunlar və donuzlar" yaraşdırması və Quranda kitab əhli barədə verilən həqiqi hökm

Quranda Kitab Əhli xüsusi yerə malikdir. Allah səmimi yəhudi və xristianları tərifləmiş, onları axirətdə mükafatlandıracağını bildirmişdir. Bütün Kitab Əhli müsəlmanlara əmanət edilmişdir. Bu, müsəlmanların duymalı olduqları şəfqət və sevgi hisslərini ifadə edir, Kitab Əhlinin himayəyə möhtac olduğunu deyil.

Bəzi fanatiklər xüsusilə yəhudilərə bəslədikləri düşmənçilik hissindən ötrü, bəzi Quran ayələrini də öz aləmlərində dəlil kimi gətirməyə çalışırlar. Bu, bəzi Qərbli İslam əleyhdarlarının əlində olan ən böyük fürsətdir. Bu insanlar öz aləmlərində Qurandan ayələr göstərərək, yəhudilərin lənətləndiklərini, "meymunlara və donuzlara" bənzədildiklərini söyləyərək yəhudi düşmənçiliyini gücləndirmişdirlər. Halbuki Qurana baxdığımız vaxt, lənətlənən və heyvanlara bənzədilən insanların, yəhudilər arasından çıxmış, ikiüzlü və təcavüzkar müşriklər olduğunu görürük. Bu mövzuyla əlaqədar Quran ayələrini təhlil edək:

Maidə surəsinin 60-cı ayəsində Allahın "meymunlara və donuzlara" döndərdiyi bir cəmiyyətdən bəhs olunur. Əvvəlki ayələrə baxıldıqda bu insanların, "özlərinə kitab verilənlər", yəni xristian və yəhudilər arasından çıxan bir cəmiyyət olduğu aydın olar:

## ✓Maidə surəsinin 60-cı ayəsinin təhlili

**Ey iman gətirənlər! Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost (vəli) tutmayın. Əgər möminsinizsə, Allahdan qorxun.**

**(Maidə surəsi, 57)**

**Siz bir-birinizi namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır. (Maidə surəsi, 58)**

**De: "Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi? Bu, <u>Allahın lənətlədiyi, ona qəzəbləndiyi, özlərini də meymunlara və donuzlara döndərdiyi şəxslər</u> və tağuta ibadət edənlərdir. Onlar, axirətdə yeri daha pis olan və doğru yoldan daha çox azanlardır!" (Maidə surəsi, 60)**

Bu ayələrdəki Kitab Əhlinin arasından çıxmış bir cəmiyyətə xitab olunur. Lakin bu cəmiyyətin xüsusiyyəti; fasiqlik etmiş, "özünə qadağan olunan şeyi etməkdə israr edib üsyan qaldırmış", dini məsxərəyə qoymuş "inkarçı" bir cəmiyyət olmasıdır. Kitab Əhli sözü, yalnız bu ikiüzlü insanların hansı cəmiyyət içindən çıxdığını bildirmək üçün işlədilmişdir.

Maidə surəsinin 60-cı ayəsindən əvvəlki ayələrə baxdığımız vaxt, bütün bu qeyd olunanları görə bilərik. 57-ci ayədə; **"sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost (vəli) tutmayın"** ifadəsiylə "sizdən əvvəl", yəni müsəlmanlardan əvvəl, "Kitab verilənlərdən", yəni yəhudi və xristianlardan **inkarçı olan və dini ələ salıb oyun-oyuncaq hesab edən insanlardan** bəhs edilir. Bunu yenidən qeyd edək ki, burada yəhudi və xristianlardan deyil, onların arasından çıxmış dinsiz, yəni inkarçı, eləcə də, təcavüzkar və məsxərəçi olan ikiüzlü bir cəmiyyətdən bəhs edilir. Belə bir cəmiyyət yalnız müsəlmanlar üçün deyil, yəhudi və xristianlar üçün də böyük təhdid və bəladır.

Burada və növbəti sətirlərdə qeyd etdiyimiz bu tərcümədəki bütün ayələrdə qeyd olunan inkarçı sözünün səhv başa düşülməməsi üçün, bunu xüsusi vurğulamalıyıq: Bir insan bir dinə inana və ya inanmaya bilər. Bu mövzuda sərbəstdir və buna öz vicdanı ilə qərar verə bilər. Bir dindar, dini qəbul etməyən bir insana öz fikirlərini qətiyyən zorla qəbul

etdirə bilməz. Bu, Quranda qadağan edilmişdir. Hətta daha əvvəlki başlıqlar altında gördüyümüz kimi, bir müsəlmana inkarçı bir insanı belə canı bahasına qorumaq vəzifəsi verilmişdir.

Lakin həmin bu inkarçı dini ələ salıb oyun-oyuncaq hesab edər, dolayısilə dindarlara və onların dəyərlərinə zərər verməyə çalışarsa, hörmət və şəfqətlə yanaşmayıb düşməncəsinə davranarsa, hətta təcavüzkarlaşarsa məhz bu zaman günah işləmiş olar. Diqqət yetirilsə, buradakı ayələrdə bəhs edilən inkarçılar həmin bu xüsusiyyətlərə sahib, həddi aşmış insanlardır. Dindarlara problem çıxartmaları və ikiüzlülük etmələrindən ötrü, Allah bu insanları meymun və donuzlara bənzədərək alçaldır.

## ✓Təriflənən yəhudilər

Göründüyü kimi Maidə surəsinin 60-cı ayəsindən əvvəlki ayələrə nəzər yetirildikdə alçaldılan bu cəmiyyətin hansı xüsusiyyətlərə sahib olduğu başa düşülür. Sonrakı ayələrə nəzər yetirildikdə isə həqiqi yəhudi və xristianların Qurana görə xüsusiyyətləri ortaya çıxır:

**İman gətirənlərin, habelə yəhudi, sabii və xristianlardan Allaha və Axirət gününə iman gətirib yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. (Maidə surəsi, 69)**

Bu ayədə bir müjdə var və bu müjdə Allaha iman gətirən və yaxşı işlər görən yəhudilər və xristianlara verilir. Buna görə də Allah, yəhudilərdən və xristianlardan Özünə sidq ürəkdən iman gətirən və səmimi olanlara heç vaxt qorxu yaşatmayacağını müjdələyir. Bu onlara verilmiş cənnət müjdəsidir. Çünki Allah heç vaxt kədərlənməyəcəklərinə dair söz vermişdir. Allah, onların yerini üstün tutmuşdur. Allah, onlara olan sevgisini ifadə edir.

## ✓Əraf surəsinin 166-cı ayəsinin təhlili

**Onlardan dəniz sahilində yerləşən kənd barəsində xəbər al! O vaxt onlar şənbə günü üçün qoyulmuş qadağanı pozurdular. Şənbə günü onların balıqları üzə çıxaraq onların yanına axışır, şənbədən başqa günlərdə isə onlara tərəf gəlmirdilər. Günah etdiklərinə görə Biz onları beləcə sınayırdıq. (Əraf surəsi, 163)**

**O zaman onlardan bir dəstə dedi: "Allahın məhv edəcəyi və ya şiddətli əzaba düçar edəcəyi bir tayfaya nə üçün öyüd-nəsihət verirsiniz?" Onlar dedilər: "Bu, Rəbbiniz yanında üzrxahlıq etmək üçündür. Bəlkə, onlar çəkinsinlər!" (Əraf surəsi, 164)**

**Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman Biz pis əməlləri qadağan edən kimsələri xilas etdik, zülm edənləri isə günah işlədiklərinə görə dəhşətli bir əzabla yaxaladıq.**

**(Əraf surəsi, 165)**

**Özlərinə qoyulan qadağanı pozmaqda israr edib üsyan etdikləri vaxt, Biz onlara: "Mənfur meymunlar olun!" dedik.**

**(Əraf surəsi, 166)**

Əraf surəsinin 166-cı ayəsindən əvvəlki ayələrə baxdığımız vaxt, bilavasitə İsrailoğullarına xitab olunduğunu görərik. İsrailoğullarının, yəni yəhudilərin arasından çıxan bir cəmiyyət şənbə günü üçün qoyulan qadağanı pozur, özlərinə din adından edilən xatırlatmaları unudub bunlara əhəmiyyət vermir və özlərinə qadağan edilən şeyi etməkdə israr edib üsyan qaldırırdılar. Bundan ötrü də, bu insanlar bilavasitə "öz dinlərini" inkar edirdilər. Bunlar yəhudilər arasından çıxmış və söz eşitməyən bir cəmiyyətdilər.

Bu ayələrə baxıldıqda, bir tərəfdə səmimi yəhudilərin digər bir tərəfdə isə, bu yəhudilər arasında olub da söz eşitməyən inkarçı bir cəmiyyətin varlığı diqqət çəkir. Məsələn, 164-cü ayədə söz eşitməyən bu cəmiyyəti qətiyyətlə xəbərdar edib haqqa çağıran yəhudilərin olduğu görülür. Məqsədləri isə, onları doğru yola yönəltmək və "ola bilsin ki, çəkinmələrini" təmin etməkdir. 165-ci ayədə isə pis əməlləri qadağan edən bu səmimi

cəmiyyətin nicat tapdığı bildirilir. Alçaldılanlar, söz eşitməyən və səmimi yəhudilərə problem çıxardan inkarçılar olmuşdur.

Allah Əraf surəsinin 159-cu ayəsində, tamamilə dürüst olan bu yəhudiləri belə tərifləmişdir:

**Musanın qövmündən elə bir camaat vardır ki, insanları haqqa yönəldir və onun sayəsində ədalətlə hökm verirlər.**

**(Əraf surəsi, 159)**

Allah, Musanın qövmündən, yəni yəhudilərdən haqqa yönəldən və ədalətlə hökm verən cəmiyyəti bu gözəl davranışından ötrü tərifləyir. Allahın bu ayəni endirməsinə çox böyük hikmətlər var.

Bir müsəlmanın səmimi yəhudilərə baxış prizmasının necə olmalı olduğunu bu və digər ayələr mükəmməl şəkildə izah edir.

## ✓Bəqərə surəsinin 65-ci ayəsinin təhlili

**Bir zaman sizdən əhd-peyman aldıq, Tur dağını başınız üstünə qaldırdıq və buyurduq: "Sizə verdiyimizdən möhkəm yapışın və onun içindəki (hökm)ləri yada salın ki, bəlkə çəkinəsiniz!"**

**(Bəqərə surəsi, 63)**

**Sonra bunun ardınca siz yenə üz döndərdiniz. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, ziyana uğrayanlardan olardınız. (Bəqərə surəsi, 64)**

**Siz artıq içərinizdən şənbə günü qadağanı pozanları tanıyırsınız. Biz də onlara: "Mənfur meymunlar olun!" dedik. (Bəqərə surəsi, 65)**

Məlum olduğu kimi, şənbə günü qadağası (səbt) yəhudilərə məxsus bir qadağadır. Dolayısilə buradan ayədəki cəmiyyətin yəhudilərin arasından çıxan insanlar olduğunu anlayırıq. Bu ayədən əvvəlki Quran ayələrində, səhrada olduqları müddətdə hz. Musa (ə.s)-a problem çıxardanlardan bəhs edilir və buradakı təsvir Tövratdakı təsvirin bənzəridir. Hz. Musa (ə.s)-a xeyli problem çıxartmış bu cəmiyyətin etdikləri bildirildikdən sonra həmin bu inkarçı cəmiyyətdən "Tövrat hökmlərini daim xatırlayıb buna uyğun hərəkət etmələrinə" dair əhd alındığı bildirilir, lakin buna baxmayaraq, bu cəmiyyət verdiyi bu əhdi pozmuşdur. Şənbə günü qadağasını pozan, yəni Tövratın hökmünə qarşı çıxan bu cəmiyyət Allah tərəfindən alçaldılmışdır.

Aydın olduğu kimi bu insanlar, özlərindən əhd alınmasına baxmayaraq, Tövrata tabe olmayan insanlardır. Yəni yəhudilər deyil, inkarçıdırlar. Necə ki, çəkinmədən şənbə günü qadağası pozmaları da bunu təsdiqləyir. Bu insanların xüsusiyyəti, inkarçı olmalarıyla yanaşı, daim hz. Musa (ə.s)-a və səmimi yəhudilərə problem çıxartmış olmalarıdır. Bundan ötrü də, alçaldılmağa layiq görülmüşdürlər.

Burada diqqətçəkən başqa bir mühüm həqiqət isə, 62-ci ayədə, yenə səmimi yəhudi və xristianların tərfilənmələri və axirətlə müjdələnmələridir:

**Şübhəsiz ki, <u>iman gətirənlərin, yəhudi, xristian və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır</u>. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**

Göründüyü kimi, səmimi yəhudi və xristianlar Quranda tərifə layiq görülmüşdürlər. Allahın sevdiyi kəsləri, müsəlmanlar da sevər. Onsuz da bu həm bir məsuliyyət, həm də qəlbdə yaranan təbii və vicdani bir hissdir. Məhz bundan ötrü də, Allahın Quranda bir çox dəfə təkrarlanan bu ayələrinin tələbindən ötrü müsəlmanlar; yəhudi və xristianları sevməli, qorumalı və onlara şəfqətlə yanaşmalıdırlar. Açıq şəkildə görüldüyü kimi, Allah bu ayələri vasitəsilə səmimi xristian və yəhudilərlə, səmimi müsəlmanlar arasında fərq qoymadığını göstərir. Bu ayə, Kitab Əhlinə qarşı bütün düşmənçilikləri tamamilə ortadan qaldırır.

## ✓“Yəhudilərin lənətlənmiş olduğu” aldanması

Əvvəla; “bütün yəhudilər lənətlənmişdir” kimi bir yaraşdırma, Allahın ədalətinə və yaratdığı dinə qətiyyən uyğun gəlməyən bir ifadədir. Birincisi, yəhudilik haqq bir dindir və müsəlmanların da peyğəmbəri olan hz. Musa (ə.s)-a endirilmişdir. Allah Quranda, Yəhudiliyin və yəhudilərin olduğunu bildirir, səmimi yəhudiləri tərifləyir və Quranın hökmünə görə müsəlmanları, bütün kitab əhlini sevməklə və onları qorumaqla məsul tutur. Bəzi Quran ayələrində bilavasitə yəhudilərə və Kitab Əhlinə xitab edilir. Buna görə də, yəhudilər və xristianlardan da Quran oxuyanlar və Qurandan öyüd-nəsihət alanlar vardır. Halbuki bir fanatikə görə, bir yəhudinin əlində Quran tutmasını təsəvvür belə etmək olmaz.

İkincisi isə, bütün insanlar bu dünyaya imtahan olunmaq üçün gəlmişdirlər. İmtihanlarının nəticəsinə görə axirətdəki mövqeləri müəyyənləşir. Allah dünya həyatının imtahan mühiti olduğunu ayəsində belə xəbər verir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, üstün və güclüdür, çox bağışlayandır. (Mülk surəsi, 2)**

Dolayısilə müsəlmanlar da imtahan olunur, yəhudilər də. Bir yəhudi ailəsində doğulmuş dünyadan xəbərsiz bir uşağın lənətli olduğunu iddia etmək, Allahın ədalətinə qəti şəkildə ziddir. Nədən olmasından asılı olmayaraq, hələ imtahan olunmamış bir uşağın lənətli olduğunu düşünmək, Allahdan belə ədalətsizlik gözləmək (Allahı tənzih edirik), Allahın ədalətini, şəfqətini, mərhəmətini anlamamaq deməkdir. Lakin; “yəhudilər lənətlənmişdir” iddiasıyla ortaya çıxanlar, kiçik-böyük demədən bu azğın məntiqi bütün yəhudilərə qarşı işlədirlər. Bəs fanatiklər; “yəhudilər lənətlənmişdir” iddiasına Qurandan necə dəlil gətirməyə çalışırlar?

## ✓Bəqərə surəsinin 88-ci ayəsinin təhlili

**Onlar dedilər: "Qəlblərimiz qapalıdır!" Xeyr, Allah onları məhz <u>inkar etdiklərinə görə lənətləmişdir</u>. Odur ki, onlar olduqca az inanırlar. (Bəqərə surəsi, 88)**

Əvvəlki ayələrə baxdıqda, burada hz. Musa (ə.s)-ın qövmündən, yəni yəhudilər arasından çıxmış bir cəmiyyətə xitab olunduğu aydın olur. Buradakı cəmiyyətin lənətlənmə səbəbi isə, ayədə çox açıq şəkildə ifadə edilmişdir: "İnkar etdiklərinə görə".

Buradakı cəmiyyət, yəhudiliyə xəyanət etmiş və əvvəlki ayələrdən də aydın olduğu kimi, peyğəmbərləri belə öldürəcək qədər azğınlaşmış inkarçı bir cəmiyyətdir. Quranda necə müsəlman cəmiyyətlər arasından çıxan təcavüzkar inkarçılar lənətlənmişdirsə, eynilə yəhudilər arasından çıxan təcavüzkar inkarçılar da lənətlənmişdir. Dolayasilə ayəyə görə lənətlənənlər üsyankar inkarçılardır, yəhudilər və ya müsəlmanlar deyil.

## ✓Nisa surəsinin 155-ci ayəsinin təhlili

**Biz onlarla bağladığımız əhdə görə Tur dağını başları üzərinə qaldırdıq və onlara: "Qapıdan səcdə edərək daxil olun!" dedik. Biz onlara: "Şənbə günü üçün qoyulmuş qadağanı pozmayın!" dedik. Beləliklə onlarla möhkəm bir əhd-peyman bağladıq.**

**(Nisa surəsi, 154)**

**Onlar bağladıqları əhd-peymanı pozduqlarına, Allahın ayələrini inkar etdiklərinə, peyğəmbərləri haqsız yerə öldürdüklərinə və: "Qəlblərimiz qapalıdır!" dedikləri̇nə görə lənətə düçar edildilər. Xeyr, inkar etmələri üzündən Allah onların qəlblərini möhürləmişdir. Onların yalnız az bir hissəsi iman gətirir.**
**(Nisa surəsi, 155)**

Əvvəlki ayələrdə Kitab əhlindən olan inkarçı bir cəmiyyət təsvir edilir və etdikləri bütün azğınlıqlara baxmayaraq, Allah tərəfindən bağışlanan bu cəmiyyətdən alınan əhd-peyman isə, Nisa surəsinin 154-ci ayəsində qeyd olunur. Nisa surəsinin 155-ci ayəsində isə, bu cəmiyyətin bağladıqları əhd-peymanı pozduqları, inkar etdikləri, peyğəmbərləri haqsız yerə öldürdükləri bildirilir. Lənətlənmə səbəbləri məhz bunlardır.

Bu ayələrdən sonrakı ayələrdə, yenə yəhudilərdən bəhs edilir və Allah, yəhudilərdən olan kafirləri və dərin iman sahiblərini ayrı tutur:

**Lakin <u>onlardan (yəhudilərdən) elmdə qüvvətli olanlar və möminlər</u> sənə nazil edilənə və səndən əvvəl nazil olana inanır, dosdoğru namaz qılır, zəkat verir, Allaha və Axirət gününə iman gətirirlər. <u>Biz onlara böyük bir mükafat verəcəyik</u>.**

**(Nisa surəsi, 162)**

Yəhudilərdən kafir olub da, azğınlıq edənlər barədə fərqli hökm verilmişdir. Eynilə müsəlmanlar arasındakı kafir və azğınlar barədə fərqli hökm verilməsi kimi. Lakin Allah, ayədə açıq şəkildə səmimi yəhudiləri ayrı tutmuşdur və onlara "böyük mükafat verəcəyini" bildirmişdir. Allahın mükafatlandıracağını bildirdiyi, cənnətlə müjdələdiyi və təriflədiyi

yəhudi bir cəmiyyətin lənətli olduğunu kim və necə deyə bilər? Allah onları təriflədiyi halda, bir insan ortaya çıxıb da; "bütün yəhudilər lənətlənmişdir, onların hamısını öldürmək lazımdır" iddiasıyla necə çıxış edə bilər? Məhz fanatiklərin problemi, Allahı lazımınca qiymətləndirə bilməmələri, Quranı başa düşməmələri və sonrakı sətirlərdə nəzərdən keçirəcəyimiz mövzuyla əlaqədar uydurma hədislərin tələsinə düşmüş olmalarıdır.

Burada mühüm bir məsələyə yenidən diqqət çəkək: Bir insan inkarçı ola bilər, lakin münafiq olmadığı, dindar insanlara problem çıxartmadığı, hörmətkar və dürüst həyat yaşadığı müddətcə daim müsəlmanların himayəsi altında olar. Bu yenə Quranın hökmüylə müsəlmanlara yüklənmiş məsuliyyətdir. Lakin bəhs olunan ayələrdə lənətlənənlər, içində yaşadıqları dindar cəmiyyətə xəyanət etmiş, yəni münafiqlik etmiş, hətta peyğəmbərləri öldürmüş azğın kəslərdir. Allah, peyğəmbərləri öldürmələrini lənətlənmə səbəbi olaraq görmüş, həmçinin onları "əhdlərini pozan", yəni ikiüzlü şəkildə münafiqlik edərək iman edənlərə arxadan zərbə vuran bir cəmiyyət olaraq xarakterizə etmişdir. Bu insanlar hz. Musa (ə.s) və dindar yəhudilər üçün də, təhdid meydana gətirmişdirlər. Yəni bu inkarçı insanlar, yəhudilər arasından çıxdıqları və ya yalnız inkar etdikləri üçün deyil, günah işlədikləri üçün, Allah qatında lənətlənmişdirlər. Aradakı bu fərq çox yaxşı başa düşülməlidir.

## ✓“Yəhudi və xristianları dost tutmama” aldanması

Ümumiyyətlə fanatiklər və bəzi Qərbli İslam əleyhdarları tərəfindən yəhudi və xristianlar əleyhinə dəlil kimi göstərilməyə çalışılan Quran ayələrindən biri Maidə surəsindədir:

**Ey iman gətirənlər! <u>Yəhudi və xristianları dostlar (vəlilər) tutmayın</u>! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardandır. Allah zalım insanları doğru yola yönəltməz. (Maidə surəsi, 51)**

Ayədə “dost” sözü iki dəfə keçir. **“Yəhudi və xristianları dostlar (vəlilər) tutmayın”** ifadəsində keçən və “dostlar” şəklində tərcümə olunan sözün ərəbcəsi **“evliyau”**dur. Bu sözün əsil mənaları; **“himayəçilər, qanun çərçivəsində məsul şəxslər, övliyalar, əfəndilər, sahiblər və maliklər”** sözləridir. **“Sizlərdən kim onları özünə dost tutarsa”** ifadəsində keçən və yenə “dost” şəklində tərcümə olunan sözün ərəbcəsi isə **“yetevellehum”**dur. Bu sözün mənası isə; **“baxımını boynuna götürər, hakim mövqeyə keçər, hakimiyyəti ələ alar”** şəklindədir. Ərəbcə mənasına baxdığımız vaxt, bu ayədə keçən “dost” sözlərinin əslində **“rəhbər”** mənasını verdiyini asanlıqla anlaya bilərik. Burada müsəlmanlara yəhudi və xristianların hakimiyyəti və rəhbərliyi altına girmələri qadağan edilir. (Prof. Dr. Bayraktar Bayraklı, Quran tərcüməsi)

Buradakı hikməti anlamaq isə çətin deyil. Bütün dinlər eyni tövhid inancına və eyni təməllərə söykənsə də, hər birinin özünəməxsus ibadət formaları və hökmləri var. Dolayısilə yəhudilər və ya xristianların rəhbərliyi altındakı müsəlmanların öz ibadət və hökmlərini tətbiq etməkdə çətinlik çəkmə ehtimalları olduqca yüksəkdir. Belə çətinliyin yaranmaması üçün, ayədə belə bir hökm verilmişdir.

## ✓Yanlış bilinən başqa bir anlayış: Takiyə

Takiyə, “qorunmaq, gizlənmək” mənalarını verən bir sözdür. Quranda bu ifadə bir ayədə belə qeyd olunur:

**Qəlbi imanla sabit qaldığı halda, təzyiqə məruz qalanlar istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar...**

**(Nəhl surəsi, 106)**

Bu ayədə xüsusi bir vəziyyət təsvir edilir: Burada imanlı olmasına baxmayaraq, təzyiq altında olan birindən bəhs edilir və olduğu çətin vəziyyətdən xilas olmaq üçün, müvəqqəti olaraq Allahı inkar etdiyini söyləməsi və ya imanını gizlətməsindən söhbət gedir. Qurana görə takiyənin yeganə mənası budur.

Halbuki takiyə anlayışı, həm hazırda bəzi mövhumatçı İslam anlayışına sahib insanlar tərəfindən fərqli tətbiq edilir, həm də bəzi İslam əleyhdarları tərəfindən səhv başa düşülür. Mövhumatçı İslam anlayışına sahib bəzi insanlar, takiyəni, bütün həyatlarına hakim olması lazım olan ikiüzlülük metodu olaraq istifadə etməyə təşəbbüs edir, heç bir həyati təhlükə olmadığı vəziyyətlərdə belə, İslamdan kənar tətbiqləri rahatlıqla icra edə bilir və saxta hədislər nəticəsində düşmən hesab etdikləri şəxslərə rol xatirinə dostmuş kimi davranırlar.

Bəzi İslam əleyhdarları və ya radikallardan ötrü, İslama şübhəylə yanaşanlar isə, bunu bütün müsəlmanlara aid edib, heç bir müsəlmanın sülh və sevgi barəsindəki sözünə inanmamağın lazım olduğunu, son və böyük müharibə üçün hamısının rol oynadığını iddia edirlər. Onlar, həmin bu müsəlmanlar tərəfindən Quranda qeyd olunan takiyənin belə tətbiq olunduğunu və əslində müharibəni səbirsizliklə gözləyən müsəlmanların rol xatirinə sülh və sevgi nümayəndəsi kimi davrandıqlarını irəli sürürlər. Dolayısilə bu insanlara görə, sevgi və sülhdən danışan hər müsəlman əslində yalan danışır.

Əlbəttə ki, burada hər iki tərəfin də üzləşdiyi ən böyük problem Qurandan xəbərsiz olmalarıdır.

Əvvəlcə Quranda qeyd olunan takiyə sözündə mühüm bir şərt var: “Qəlbi imanla sabit qaldığı halda təzyiqə məruz qalanlar istisna olmaqla”... Ayədə bildirilən takiyə üçün şərt, insanın təzyiq və ya təhdid altında, yəni çətin vəziyyətdə qalmasıdır və təzyiqdən qurtulmaq üçün imanını gizlətməsidir; düşmənçiliyini deyil. Uca Allah Quranda Firon ailəsindən olub imanını gizlədən bir insanı xəbər verir:

**Firon ailəsindən olub imanını gizlədən mömin bir kişi dedi: "Siz bir insanı: "Rəbbim Allahdır!" dediyinə görə öldürəcəksinizmi?..." (Mümin surəsi, 28)**

İmanını gizlədən bu insan açıq təhlükə içindədir. Firon kimi dövrün ən zalım hökmdarının yanında yaşayır və ölüm təhdidi altında olmasından ötrü imanını gizlədir, yəni takiyə edir. Bu vəziyyət tam olaraq Qurandakı takiyə şərtinin yerinə yetirildiyi vəziyyətdir. Bu insan ciddi bir təhdid altında olmasından ötrü, iman gətirmiş olmasına baxmayaraq, imanını gizlədir. Qurana görə takiyə yalnız və yalnız belə tətbiq olunar.

Hal-hazırda bəzi mövhumatçı zehniyyətlərin takiyə adı altındakı tətbiqləri və bu tətbiqləri İslama uyğun zənn edən bəzi İslam əleyhdarları, Qurandan uzaq olduqları üçün, sülh və sevginin də qarşısını almağa çalışırlar. Takiyənin Qurandakından fərqli qəbul edilməsi və həyata keçirilməsi hazırda dünyaya dəhşət gətirən müharibə və qarşıdurma mühitini bir cür dəstəkləyir. Bunu etməklə insanlara əsla sülhün bərqərar olunmayacağı təlqini verilir və kütləvi qırğınların, dəhşət ssenarilərinin davam edəcəyi söylənilir.

Bu anlayış Qurana zidd olduğu kimi, məntiqi cəhətdən də ziddir. Bir müsəlmanın Allah rizası üçün bütün həyatını sülhün və qardaşlığın bərqərar olmasına, insanları özünə dost tutmağa həsr etdiyini, bundan ötrü müharibə tərəfdarları və radikallar tərəfindən müxtəlif təhdidlərlə üzləşdiyini, həyatını təhlükəyə atdığını, İslamofobiyanın dağıdıcı təsirini gözə alaraq xristianları və yəhudiləri dost olmağa razı saldığını, bu dostluq üçün vaxtını, pulunu, imkanlarını və gəncliyini sərf etdiyini... axırda isə, min bir əziyyətlə bir yerə topladığı və bütün çətinliklərə baxmayaraq, aralarında sevgi birliyi yaratdığı insanları bir anda qətl etməyə qərar verdiyini bir düşünün!

Bu olduqca azğın bir dünyagörüşüdür. Əgər bir insan şeytani düşüncəyə sahibdirsə və insanları öldürməyi qərara almışdırsa, bunun üçün mühit və imkan tapmaqda, şübhəsiz ki, çətinlik çəkməz. Bu şeytani fikrini onsuz da hər şəraitdə tətbiq edə bilər. Əgər bunu din adından edəcəksə, onsuz da dini istədikləri kimi istifadə edib, qırğınlar törədən insanlar çox uzaqda deyillər.

Müsəlman həyatını yalanla yaşamaz, bu haramdır. Əsil müsəlman həyatını daim Qurana görə yaşayar. Müsəlmanlar Quran ayələri əsasında, bu dünyaya sevgini gətirməklə (Məryəm surəsi, 96), bütün dünyada sülhü bərqərar etməklə (Bəqərə surəsi, 208) və birlik və həmrəyliyi hakim etməklə məsuldurlar (Ənfal surəsi, 73). İnkar edənləri belə qoruyub, lazım gəlsə bunun üçün özlərini təhlükəyə atmaqla əmr olunmuşdurlar (Tövbə surəsi, 6). Quranda xüsusi yerə sahib Kitab Əhli ilə isə, qardaş, dost və yaxın yoldaş olmaqla məsuldurlar. Onları qətl etmək və onları zorla öz dinlərinə qaytarmaq üçün deyil; onları sevdikləri, Allahın əmri olduğunu bildikləri və bir yerdə "Allah birdir" dedikləri üçün onlara qucaq açmaqla məsuldurlar. Takiyə anlayışından saxtakarca istifadə edən və müsəlmanlığı müharibə dini kimi göstərməyə çalışanlar, məkrli planlarında müvəffəqiyyət qazana

bilməyəcəklər. Çünki məkrli planlar daima pozulmuş olaraq qurulur. Bütün müharibə ssenarilərinə baxmayaraq, üç dinin nümayəndələri bu dünyaya sülhü hakim edəcəklər. Çünki Allah mütləq haqqı üstün edər, sevgi və sülhü istəyər. İnsanları və bütün kainatı sevgi üçün yaratmışdır.

Qurandan fanatiklər və İslam əleyhdarlarının yəhudi əleyhdarlığına dəlil olaraq gətirməyə çalışdıqları Quran ayələrinin gerçək şərhlərini gördük. İndi isə, fanatiklərin yəhudi əleyhdarlığını təlqin etmək üçün işlətdikləri və qeydsiz-şərtsiz inandıqları saxta hədisləri açıqlayaq:

# Xristianlar və yəhudilərlə bağlı saxta hədislər və Qurana görə izahları

## ✓"Həddi büluğa çatmış yəhudilərin öldürülməsi" iddiası

**Atiyyə əl-Qurazi belə dedi: "Banu-Quraysa döyüşü günü Rəsulullah (s.ə.v) tənasül üzvləri nahiyəsi tüklənmiş bütün <u>yəhudilərin öldürülməsini əmr etdi</u>. Mən o vaxt hələ tüklənməmişdim. Mənim vəziyyətimi Rəsulullaha bildirdilər. Rəsulullah (s.ə.v) də məni buraxdı". (Ebu Davud, Tirmizi, Nesei, İbn Mace, İbn Hibban)**

Bu saxta hədislə, həddi büluğa çatmış bütün yəhudilərin qətl edilməsi əmri verilmişdir. İslam dini, haqsız yerə insan öldürməyi almağı ən böyük cinayət sayan, səmimi yəhudiləri böyük mükafatla müjdələyən, sevgi və şəfqəti nəsihət edən bir dindir. Bir insanın "heç bir günahı olmadığı halda" (günahkar olsa belə, onu bağışlamaq əsasdır) sırf yəhudi olduğu üçün, həddi büluğa çatdığı vaxt öldürülməsi qətiyyən İslam kimi bir sülh dininin hökmü ola bilməz. Əlbəttə ki, Quranda belə bir hökm yoxdur; belə bir açıqlama Qurana və uca Rəbbimizin bu gözəl dininə böhtan xüsusiyyəti daşıyır. Bu Qurana görə cinayət və qırğındır. Səmimi olub da cəhalət ucbatından inanmadığı müddətcə, belə saxta hədisi hökm kimi qəbul edib, tətbiq edən insan müsəlman deyil, qatildir. Allah səmimi yəhudiləri təriflədiyi halda, onların qeyd-şərtsiz qətl edilməsini əmr edən bir hökmə inanmaları, fanatiklərin cəhalətlərinin ölçüsünü göstərir.

## ✓"Müsəlmanların günahlarının yəhudilərə yüklənməsi" iddiası

**"Qiyamət günü müsəlmanlar üzərlərində dağlar boyda günahlarla gələcəklər, Allah (c.c) onların bütün bu günahlarını bağışlayıb, <u>yəhudilərin üzərinə yükləyəcək</u>". (Ramuz el-Hadis)**

Bu saxta hədisi Quranla cavablandıraq:

Üzərlərində dağlar boyda günahlarla gələn bütün müsəlmanlar öz günahlarından, bütün yəhudilər də öz günahlarından ötrü sorğu-sual olunacaqlar. Heç kəs, öz üzərindəki günahı başqasına yükləyə bilməyəcək, yalnız öz günahlarından ötrü sorğu-sual olunacaq. Allah Quranda bunu açıq şəkildə bildirmişdir:

**Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. <u>Heç bir günahkar başqasının günahını daşımaz</u>... (İsra surəsi, 15)**

Digər bir Quran ayəsində Allah, öz günahını təqsirsiz birinin boynuna atmağa çalışan insan barədə də hökmünü də açıq şəkildə bildirmişdir:

**Kim xəta edər və ya günah qazanarsa, sonra da onu <u>təqsiri olmayanın boynuna atarsa</u>, özü özünə böhtan atmış və <u>açıq aydın günaha batmış olar</u>. (Nisa surəsi, 112)**

Bütün insanlar axirətdə öz əməllərindən ötrü məsuliyyət daşıyacaq. Allahın bildirdiyi kimi; **"Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara haqsızlıq edilməyəcəkdir"** (Bəqərə surəsi, 281) ayəsinə görə heç kəs axirətdə haqsızlığa uğradılmayacaq. Heç kəs axirətdə, Rəbbimizin Qatında; "mənim günahlarımı o boynuna götürdü, ona görə günahsızam" deyə bilməyəcək, dünyada çəkinmədən davam etdirdiyi bu aldadıcı zehniyyəti orada davam etdirə bilməyəcəkdir. Çünki əslində bu iddianın saxta olduğunu hər kəs vicdani cəhətdən bilir.

## ✓“Yeməklərin yəhudilər ucbatından zay olduğu” iddiası

**“Əgər İsrail oğulları olmasaydı, yeməklər turşumaz, ətlər xarab olmazdı”. (Cami-üs Sağir)**

Saxta hədislərin necə bir zehniyyətdən meydana çıxdığını anlamaq və uydurma olduqlarını sübut etmək üçün, bu saxta hədis olduqca əhəmiyyətli bir dəlildir. Kitabın əvvəlindən bəri bəhs etdiyimiz saxta hədislər məhz bu zehniyyətin məhsuludur. Yəhudilərin yer üzündə olmayacağı təqdirdə, yeməklərin zay, ətlərin isə xarab olmayacağını iddia edən zehniyyətdən qadınlara, heyvanlara, incəsənətə və bütün sosial həyata dair ürküdücü açıqlamaların meydana çıxması, əlbəttə ki, gözlənilən bir şeydir. Həmin bu saxta hədis, həmçinin yəhudilərlə əlaqədar alçaldıcı və düşmən mahiyyətli hədislərin də uydurma və saxta olduğunun mühüm bir dəlilidir. Quranda adı keçən, təriflənən və hz. Musa (ə.s)-ın nəslidən gələn bir cəmiyyətin varlığının, yeməklərin turşumasına və ətlərdən iy gəlməsinə səbəb olduğunu açıqlayan bir inanc sistemi, şübhəsiz ki, qətiyyən bir haqq dinə aid ola bilməz. Həmçinin Rəbbimizin Quranda, Maidə surəsinin 5-ci ayəsində müsəlmanlara; yəhudi və xristianların yeməklərini halal buyurduğu da xatırladılmalıdır. Burada qarşımıza Quranın zehniyyətindən fərqli və fanatik bir dünyagörüşü çıxır. Qarşımıza çıxan bu böyük məntiqsizlik, fanatiklərin məntiqsizliklərini tam halda açıqlamaq üçün kifayətdir.

## ✓“Ərəb torpaqlarında iki din qalmasın” iddiası

**“Resullahın son sözlərindən biri, (Allah, yəhudi və xristianları həlak etsin. Ərəb torpaqlarında iki din qalmasın) idi”. (Beyheki)**

Bu uydurma hədis, yenə, Peyğəmbərimiz (s.ə.v)-ə atılmış böyük bir böhtandır. Uca Allah Quranda xristianlıq və yəhudilik dinlərinin varlığından xəbər vermiş və Quranın bu iki haqq dini təsdiqləyici olaraq göndərildiyini bildirmişdir. Quran bu iki dinin hökmlərini qüvvədən salmır, bu dinləri təsdiqləyir. Bu əhəmiyyətli məlumat Quranın bir çox ayəsində verilmişdir, bu ayələrdən biri belədir:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi.**

**(Ali İmran surəsi, 3)**

Quran yenə, yer üzündə yəhudi və xristianların olacağını və yuxarıdakı sətirlərdə bildirdiyimiz kimi, bunların bir hissəsinin, səmimi və Allahın seçdiyi bir cəmiyyət olacağını xəbər verir. Allah Quranda müsəlmanlara, xristian və yəhudilərlə evlənməyi, onların süfrəsində yemək yeməyi halal etmişdir (Bu mövzu bir qədər sonra ətraflı şəkildə açıqlanacaq). Həmçinin uca Rəbbimiz, müsəlmanlara sevgi baxımından ən yaxın olanların “xristianlar” olduğunu bildirir. Allahın təriflədiyi, mükafatlandırdığı, varlığından xəbər verdiyi bu cəmiyyətlər olduğu halda; “Allah yəhudi və xristianları həlak etsin” ifadəsinin Peyğəmbərimiz (s.ə.v)-in sözü olmadığı aydındır. Bunu Peyğəmbərimiz (s.ə.v)-in sözüymüş kimi yayanlar, bu böyük böhtandan ötrü günah qazanırlar. Həmin bu saxta hədis, Quranda Kitab Əhli ilə əlaqədar tərifləyici hökmlərlə və Peyğəmbərimiz (s.ə.v)-in Kitab Əhlinə dair tətbiqləriylə tamamilə təkzib edilir. Mövzuyla əlaqədar Quran ayələrinə və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərinə bir qədər sonra toxunacağıq.

## ✓Təhqir olaraq “ey yəhudi”, savab olaraq “yəhudiyə lənət”

**“Bir insan başqa bir insana (ey yəhudi) dediyi təqdirdə, ona 20 çubuq vurun”. (Tirmizi)**

**“Kimin kasıba verəcək pulu yoxdursa, yəhudiyə lənət etsin, eyni savabı qazanar”. (Deylemi, İbn-i Adiyy)**

Yenə bu saxta hədislərdə də “yəhudi” ifadəsi təhqir kimi göstərilməyə çalışılmış, yəhudiyə lənət etmək savab kimi qəbul edilmiş və yəhudi nifrəti bu yolla yayılmaq istənilmişdir. Fanatiklərin niyə bu qədər fərqli din yaşadıqları aydındır. Səmimi yəhudilərin axirətdə mükafatlandırılacaqlarını bildirən, səmimiyyətlərini tərifləyən Quran, bu insanların dünyasından tamamilə uzaqdır.

Yəhudi və xristian nifrətinin kökü, bu cəfəngiyatların insanlar üzərində yaydığı əqli pozğunluqdur. Fanatizm mövzusundakı şikayətlərini İslam əleyhdarlığı şəklində yaymağa çalışanların diqqət verməli olduqları ən böyük məsələ budur. Gerçək İslama və səmimi müsəlmanlara qarşı çıxdıqları vaxt, fanatikliyin zehniyyətini ortadan qaldıracaq yeganə böyük silahı yox etməyə çalışar, beləliklə də, özlərinə qayıdacaq bir fəlakəti hazırlayırlar.

## ✓“Yolun dar tərəfinə sıxışdırın”

**“Əbu Hüreyrə (r.ə)-dən Peyğəmbər (s.ə.v)-dən eşitmiş olaraq rəvayət edildiyinə görə Rəsulullah (s.ə.v) belə söyləmişdir: “Yəhudilər və xristianlarla (rastlaşdığınızda) əvvəla siz salam verməyin. Yolda gedərkən onlardan birinə rast gəlsəniz, onu yolun dar tərəfinə sıxışdırın”. (Muslim, Buluğu'l Meram IV cild, CİHÂD BAHSİ, Cizye Ve Hüdne Babı»1335/1125- ([246]))**

Sevgini, nəzakəti və ən başda isə, kitab əhlini qorumağı öyrədən haqq bir dinin hökmlərinə qarşı uydurulmuş bu hədis böyük vəhşilik göstəricisi və yenə Peyğəmbərimiz (s.ə.v)–ə atılmış bir böhtandır. Quranın hökmlərinə uyğun olaraq, yəhudi və xristianlara qarşı fövqəladə şəfqət və sevgi göstərmiş Peyğəmbərimiz (s.ə.v)–in tətbiqləriylə tamamilə ziddiyyət təşkil edən bu məntiq, bu saxta hədis vasitəsilə Peyğəmbərimiz (s.ə.v)–in sözüymüş kimi çatdırılır.

## ✓“Yəhudi ağacı qarqat”

**“Belə ki, Yəhudilər daşların və ağacların arxasında gizlənəcək, amma ağac və daşlar dilə gələrək “ey müsəlman! Ey Allah (c.c)-ın qulu! Gəl, bax mənim arxamda yəhudi var, burada gizləndi, mənim arxamda, gəl onu cəzalandır” deyəcək. Bunu təkcə “qarqat” ağacı söyləməyəcək, çünki o yəhudi ağacıdır” deyə buyurulmuşdur. (Kitab-ul Fiten H. 2239)**

Yəhudi əleyhdarlığı mövzusunda, bəlkə də, ən çox istifadə edilmiş hədis, qarqat ağacı ilə əlaqədar olan bu saxta hədisdir. Bu hədisə görə bir yəhudi daşın və ya ağacın arxasında gizləndiyi təqdirdə öldürülməlidir. Bu çürük məntiqə görə həmin bu yəhudi günahsız biri, bir uşaq, dindar və ya sevgi dolu biri ola bilər. Yenə bu saxta hədisə görə, ağacın arxasında xüsusiyyətlərindən asılı olmayaraq, hər hansı bir yəhudi gizləndiyi vaxt, daş və ağac bir şəkildə bunu hər hansı müsəlmana çatdırır və o yəhudi də kimliyindən asılı olmayaraq, mütləq öldürülür. Kiçik bir uşaq olsa belə...

Halbuki bu, Qurana görə cinayətdir. Özünü müsəlman sayan bir insan saxta hədislərə inanıb da; “ağac mənə əmr elədi” deyib ağacın arxasındakı yəhudini öldürsə, öldürülən yəhudi cənnətə gedə bilər, amma özü tövbə etmədiyi müddətcə axirətdə cinayət işlədiyindən ötrü cəzalandırılar. Üstəlik, bu, elə dəhşətamiz sistemdir ki, belə bir yalana inananlar asanlıqla “daş mənə əmr verdi” və ya “ağac mənə xəbər verdi” kimi saxtakarlıqlarla ortaya çıxa bilər və rahatlıqla qırğın törədə bilərlər. Bunu niyə etdikləri soruşulduqda isə, daşın verdiyi əmri göstərə bilərlər. Belə saxtakar bir sistemdə onları sorğu-sual edən biri də olmayacaq. Onsuz da sistemləri Qurana görə işləmir. Sistemləri; öldürməyi, alçaltmağı, bir kənara sıxışdırmağı mübah görən bir sistemdir. Halbuki Allah Quranda onların bu saxtakar sistemlərini alçaldır:

**Sizə nə olub, bu necə mühakimədir yürüdürsünüz? Məgər heç öyüd alıb düşünmürsünüz? Yoxsa sizin aydın bir dəliliniz vardır? <u>Əgər doğru deyirsinizsə, kitabınızı gətirin</u>! (Saffat surəsi, 154-157)**

İndi isə yəhudilər və xristianlarla əlaqədar uydurulmuş bu hədislərin Quranla və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqləriylə necə təkzib olunduğunu görək:

# ✓Quranda kitab əhlinə verilən dəyər

Müsəlmanlar kitab əhli ilə evlənə bilərlər, onların yeməkləri müsəlmanlara, müsəlmanların yeməkləri də onlara halaldır:

**Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin (yəhudi və xristianların) yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli və azad mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin (yəhudi və xristianların) azad və ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar. (Maidə surəsi, 5)**

Bu ayə, çox müxtəlif və əhəmiyyətli təfərrüatlarla kitab əhlinin müsəlmanlar üçün dəyərini açıqlayan bir ayədir. Bu ayənin hökmünə görə müsəlman bir kişiyə, kitab əhlindən olan qadınlarla evlənə bilmək haqqı verilmişdir. Buradakı haqq əhəmiyyətli bir haqqdır, çünki Quranın; **"murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz və əməlisaleh qadınlar təmiz və əməlisaleh kişilərə, təmiz və əməlisaleh kişilər də təmiz və əməlisaleh qadınlara layiqdirlər..."** (Nur surəsi, 26) əmrindən ötrü müsəlmanlar təmiz və yaxşı insanlarla evlənməklə məsuldurlar. Bu hökmlə yəhudi və xristianların təmiz və yaxşı insanlar olduqlarına dair mühüm bir işarə verilmişdir.

Bununla yanaşı, bu ayə ilə bildirilən mühüm bir xüsus var. Bir müsəlman, yəhudi və ya xristian qadını həyat yoldaşı olaraq alır, ona; "arvadım, həyat yoldaşım, sevgilim" deyə xitab edir, onunla ailə həyatı qurur, bütün ömrünü onunla birlikdə keçirir, hətta axirətdə də əbədi həyatını onunla birlikdə keçirməyə niyyət edir. Bu insan, bütün dünya həyatı boyu bütün çətinlikləri, gözəllikləri bölüşdüyü yeganə insan olur. Xəstələndiklərində bir-birlərinə baxır və bir-birlərinə etibar edirlər.

Fanatiklərin ölçüsünə görə bir insan; "sevgilim" dediyi, ömrünü birlikdə keçirdiyi, öz canını əmanət etdiyi, öz uşaqlarının anası olan bir insana, xristian və ya yəhudi olduğu üçün qəflətən düşmən kəsilərək, onu lənətləndiyinimi deyəcək? Bütün həyatını onunla keçirdikdən sonra bir gün; "bu ağac mənə xəbər verdi, arvadım bir yəhudidir və onun arxasında gizlənir" deyib onu qətlə yetirməyə mi qərar verəcək? Bir insan bunu ancaq, əqli çatışmazlıqdan əziyyət çəkdikdə edə bilər. Qurana tabe olan, ağlı başında bir müsəlman üçün yəhudilərə və xristianlara göstərəcəyi sevgi ölçüsü bu ayədə bildirilmişdir.

Ayədə həmçinin müsəlmanlara əhəmiyyətli bir haqq da verilir: Kitab əhlinin yeməyindən yemək haqqı. Bu mühüm bir xüsusdur, çünki məlum olduğu kimi,

müsəlmanlar özlərinə haram buyurulmuş bəzi yeməkləri yeməməyə diqqət göstərməlidirlər. Bu yeməklərdən bəziləri donuz əti və Allahdan başqası üçün kəsilmiş heyvanlardır. Yəhudi və xristianların yeməklərinin müsəlmanlara halal buyurulması, bu insanların etibarlı olduğuna dair zəmanətdir. Bu yəhudi və xristianlara da aiddir, həmçinin ayənin hökmünə görə müsəlmanların yeməkləri də onlara halal buyurulmuşdur.

Burada həmçinin digər bir dostluq ifadəsinə də diqqət çəkilməlidir. Kitab əhli və müsəlmanlar yemək yeyilən eyni bir mühitdə ola bilir, bir-birlərinin qonağı ola bilir, eyni süfrə başında əyləşə bilir və bir-birlərini qonaq qəbul edə bilirlər. Burada dostluq əlaqəsi təsvir edilir. Kinə, öldürməyə əsaslanan nifrət mühiti deyil, sevgi, dostluq və qardaşlıq mühiti təsvir edilir.

Bu ayədə keçən hökmlər bir fanatikin əsla yanaşmayacağı və əsla qəbul etməyəcəyi hökmlərdir. Quranla verilmiş bu haqq fanatiklərin dünyasında həm haram, həm də dəhşətli bir ssenaridir. Bir fanatikdən, kitab əhlindən bir insanla evlənməyin və ya onun qonağı olaraq süfrəsindən yemək yeməyin mümkün olub olmadığı soruşulsa, bunu hiddətlə rədd edəcəkdir. Aydındır ki, fanatiklərin hökmləri Qurandan deyil, çünki hökm qoyanın Quran olduğunu qəbul etmirlər.

Kitab əhlinin mövqeyini təkcə bu ayə açıqlamır. Allah Quranda kitab əhlindən olan bəzi insanları tərifləyir. Mövzuyla əlaqədar ayələr bu cürdür:

**Musanın qövmündən elə bir camaat vardır ki, insanları haqqa yönəldir və onun sayəsində ədalətlə hökm verirlər.**

**(Əraf surəsi, 159)**

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində elə bir camaat vardır ki, onlar gecələri ayaq üstə durub Allahın ayələrini oxuyaraq səcdəyə qapanarlar. Belələri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlərdə yarışırlar. Məhz onlar əməlisalehlərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır. (Ali İmran surəsi, 113-115)**

**Həqiqətən, Kitab əhlindən elələri də var ki, həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə (Allaha böyük hörmət göstərərək) iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali İmran surəsi, 199)**

**Qurandan əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara Quran oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!" deyirlər. (Qəsas surəsi, 52- 53)**

**Lakin onlardan (yəhudilərdən) elmdə qüvvətli olanlar və möminlər sənə nazil edilənə və səndən əvvəl nazil olana inanır, dosdoğru namaz qılır, zəkat verir, Allaha və Axirət gününə iman gətirirlər. Biz onlara böyük bir mükafat verəcəyik.**

**(Nisa surəsi, 162)**

**Şübhəsiz ki, iman gətirənlərin, yəhudi, xristian və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**

**İman gətirənlərin, habelə yəhudi, sabii və xristianlardan Allaha və Axirət gününə iman gətirib yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. (Maidə surəsi, 69)**

**"Biz xristianlarıq!" deyənləri isə sevgi baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər. Allahın elçisinə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz! Nə üçün biz Allaha və bizə gələn haqqa inanmayaq? Biz ki Rəbbimizin bizi əməlisaleh camaatın arasına daxil edəcəyinə ümid edirik". Belə dediklərinə görə də Allah onları ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları ilə mükafatlandırdı. Yaxşı iş görənlərin mükafatı budur. (Maidə surəsi, 82-85)**

**Allah İsrail oğulları ilə əhd bağlamışdı. Biz onlardan on iki etibarlı nəzarətçi təyin etdik. Allah dedi: "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, Mənim elçilərimə inanıb, müdafiə edib, yardım etsəniz və kasıblara könüllü yardım etməklə Allaha gözəl bir borc versəniz, əlbəttə, Mən təqsirlərinizdən keçər və sizi ağacları altından çaylar axan Cənnət bağlarına daxil edərəm. Sizlərdən kimsə bundan sonra inkar etsə, bilsin ki, artıq o, doğru yoldan azmışdır". (Maidə surəsi, 12)**

Ayələrdən, səmimi və əməlisaleh yəhudi və xristianların, Quranda gözəl sözlərlə təriflendiyini və Allah tərəfindən mükafatla müjdələndiklərini çox açıq şəkildə başa düşmək olur. Allah bu insanları cənnətinə alacağını bildirir. Bu Allahın həmin bu insanlara sevgi ifadəsidir. Bir müsəlman Allahın sevdiyi, cənnətinə qəbul etdiyi, razı qaldığı bir insana, necə düşmən ola bilər? Qurana görə ola bilməz. Qurana görə belə bir düşmənçilik günahdır. Dolayısilə fanatiklər Quran ayələrinə məhəl qoymamaqla, saxta hədisləri özlərinə rəhbər tutmaqla, kitab əhli düşmənçiliyini yaymaqla, İslama görə günah işləyirlər.

## ✓Müsəlmanların kitab əhlini dəvət etməsi

**İçərilərindən zülm edənlər istisna olmaqla Kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudunuz birdir. Biz yalnız Ona təslim olmuşuq". (Ənkəbut surəsi, 46)**

**De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə (tövhidə) gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!" (Ali İmran surəsi, 64)**

Bu ayələrdən göründüyü kimi, müsəlmanların vəzifəsi Kitab Əhlini pisləmək, küncə sıxışdırmaq, onlara kin bəsləmək, hətta onları öldürmək deyil; onları yalnız gözəl şəkildə Allahın birliyinə çağırmaqdır. Tövhid inancı, hər üç dində də təməl inancdır. Müsəlmanlar, Kitab Əhli ilə görüşüb müzakirələr aparır, onlara təbliğ edir, onları Allahın birliyinə və endirilən bütün haqq kitablara inanmağa dəvət edirlər. Aralarında əlaqə, təbliğ və dostluq var. Bir müsəlman Qurana görə, bir yəhudi və ya xristian gördüyündə, küncə sıxışdırıb, itələyib kobudluq etməklə deyil, onunla ən gözəl tərzdə danışmaq və yenə onu gözəl şəkildə Allahın birliyinə çağırmaqla borcludur.

## ✓Müsəlmanların kitab əhliylə ədalətlə rəftar etməsi

**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir. (Mumtəhənə surəsi, 8)**

Daha əvvəl qeyd etdiyimiz kimi, yəhudi, xristian və ya müsəlman, yaxud da hər hansı cəmiyyətdən çıxmasından asılı olmayaraq, din uğrunda iman edənlərlə vuruşan, problem çıxardan, öldürməyə cürət edən, iman edənləri yaşadıqları yerlərdən qovub çıxartmağa yönələn azğın insanlar daima Quranda pislənilir və alçaldılırlar. Lakin yerdə qalanlara, yəni zülm etməyən insanlara qarşı isə, müsəlmanlar mütləq ədalətli davranmaqla vəzifəlidirlər. Bəzən ədalət, insanın öz əleyhinə də davranmasını tələb edə bilər. Öz əleyhinə belə olsa, ədalətli olmaq fəzilətdir. Müsəlmanlar, məhz bu fəziləti Allahın əmri olaraq yerinə yetirirlər. Bu öhdəlik, digər bir ayədə belə ifadə edilmişdir:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun... (Nisa surəsi, 135)**

Bu hökmün tələbindən ötrü, müsəlmanlar, bəzən öz haqqlarını bir kənara qoyaraq, yəhudi və xristianların haqqlarını, hətta dinsizlərin haqqlarını belə müdafiə edirlər. Dolayısilə Qurandakı ədalət sistemi; "yəhudilərə lənət edənin savab qazanacağını" iddia edən azğın fanatik anlayışa tam mənasıyla ziddir.

Quranda kitab əhlinin mövqeyi açıq şəkildə bildirilmişdir. Bu fəsildə nümunə verdiyimiz saxta hədislər, bilavasitə Quranla ziddiyyət təşkil edir. Bunu Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərində və onun tətbiqlərini nümunə götürən, bütün digər müsəlmanlarda açıq şəkildə görmək mümkündür:

## ✓Peyğəmbərimiz (s.ə.v)-in kitab əhli ilə olan münasibətləri

- Peyğəmbərimiz (s.ə.v)-in, kitab süfrələrinin başında əyləşdiyinə, xəstələrini baş çəkdiyinə və onlara nemətlər ikram etdiyinə əhlinin toy dair rəvayətlər var.
- Hz. Məhəmməd (s.ə.v) nəcran xristianları yanına gəldikdə oturmaları üçün abasını yerə sərmiş, onları bu şəkildə qonaq qəbul etmişdir.
- Peyğəmbərimiz (s.ə.v)-in xanımlarından biri Misirdən gələn xristianlardan Mariya binti Şemun (r.ə) idi.
- Peyğəmbərimiz (s.ə.v)-in həyat yoldaşlarından hz. Səfiyyə anamız isə, Hüyey ibn Axtab adında Mədinədəki yəhudilərdən Madıroğulları qəbiləsi rəisinin qızı idi.
- Hz. Məhəmməd (s.ə.v), Əvs və Xəzrəc qəbilələri ilə bağlanılan Mədinə müqaviləsinə yəhudilərin də qoşulmasına icazə vermiş və beləliklə, yəhudilərin də müsəlmanlar arasında, ayrı bir dini qrup olaraq varlıqlarını davam etdirmələrini təmin etmişdir.
- Mədinə müqaviləsinə qoşulan “bəni-əfv yəhudiləri, iman gətirənlərlə birlikdə bir xalq meydana gətirdilər. Yəhudilərin dini özlərinə, müsəlmanların dini də özlərinədir” hökmüylə, müsəlmanların yəhudilərin və inanclarına göstərdikləri anlayışın təməli Peyğəmbərimiz (s.ə.v)-in dövründə atılmışdır. Mədinə müqaviləsinin 26-33-cü maddələrində kitab əhlindən olan vətəndaşların müsəlmanlarla eyni hüquqlara sahib olduqları, 16-cı maddədə isə onlara haqsızlıq edilə bilməyəcəyi ifadə edilir.
- Peyğəmbərimiz (s.ə.v) 630-cu ildə, müsəlman olduqlarını bildirmək üçün Mədinəyə gələn Himyar hökmdarının elçilərinə bu təlimatı vermişdir: “Bir yəhudi və ya bir xristian, müsəlman olduqları təqdirdə, möminlərdən olarlar (onlarla eyni hüquqlara sahibdirlər). Kim yəhudi və ya xristian qalmaq istəyirsə, ona müdaxilə edilə bilməz”. (İbn Hişâm, es-Sîre, II, 586)
- Nəcran xristianları Mədinəyə altmış nəfərlik heyət göndərdilər. Mədinəyə çatan Nəcran heyəti, məsciddə Peyğəmbərimiz (s.ə.v)-in hüzuruna çıxdılar, ibadət vaxtları gəldiyi zaman məsciddə ibadət etmək istədilər, səhabələr buna etiraz etdi, lkain Allahın elçisi məscidi onların ixtiyarına verdi. Onlar da şərqə dönərək ibadətlərini yerinə yetirdilər. (İbn Hişam, es-Sire, Beyrut ts., I,573-574; Hamîdullah, İslâm Peygamberi, I,619-620)

❖Peyğəmbərimiz (s.ə.v) dövründə yəhudi və xristianlara verilən əmannamələrlə (düşmənə verilən, əmniyyətdə olduqlarını bildirən kağız) kitab əhlinin hüquqları zəmanət altına alınmışdır. Sonrakı dövrlərdə hər hansı anlaşmazlıq yarandıqda kitab əhli bu əmannamələri göstərmişdir. Məsələn, Dəməşqli xristianlar yaranmış bir problemdən ötrü, özlərinə verilmiş əmannamələri o dövrün xəlifəsi olan hz. Ömərə təqdim edərək, çıxış yolu tələb etdikləri tarix kitablarında qeyd olunan bir məlumatdır.

❖Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in, xristian olan İbn Harris ibn Kab və qövmünə yazdırdığı müqavilə mətnində: "Şərqdə və Qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, canları, namusu və malları Allahın, Peyğəmbərin və bütün möminlərin himayəsindədir. Xristianlıq dinini yaşayanlardan heç kəs, İslamı qəbul etməyə məcbur edilməyəcək. Xristianlardan biri hər hansı cinayətə və ya haqsızlığa məruz qalsa, müsəlmanlar ona kömək etmək məcburiyyətindədirlər" maddələrini yazdırmışdır.

❖Peyğəmbərimiz (s.ə.v) tərəfindən Edruh, Makna, Heybər, Nəcran və Akabeli Kitab əhlinə verilən bəraətlar, müsəlmanların kitab əhlinin can və mal təhlükəsizliyini zəmanət altına aldıqlarını və onlara inanc və ibadət azadlığı haqqı tanıdıqlarını göstərir.

❖Peyğəmbərimiz (s.ə.v) təbliğə başladığı zaman, ilk dəfə Məkkədə bəzi xristianlarla qarşılaşmışdı. Hətta özünə vəhy gəlməyə başladığı ilk günlərində hz. Xədicə və Peyğəmbərimiz (s.ə.v)-lə ilk danışanlardan biri Varaqa ibn Nofəl də İncilin əl yazmalarına sahib bir xristiandı. (Buhârî, Bedu'l- Vahy 3)

❖Xəlifələr dövründə dağılan kilsələr müsəlmanlar tərəfindən bərpa edilir, yeni sinaqoqların və monastırların inşasına icazə verilirdi. Məsələn, Ktesifonun xaricində yerləşən və əvvəllər Patriarx Mar Amme tərəfindən yandırılmış St. Sergius monastırı, hz. Osmanın dövründə yenidən inşa edilmişdir.

❖Suriyanın fəthindən sonra Şamdakı Əziz Con kilsəsində, müsəlmanlar cümə namazlarını qılırdı, xristianlar da bazar günləri öz dini ibadətlərini sərbəst şəkildə yerinə yetirirdilər. Hər iki dinin mənsubları, eyni məsciddən sülh içində istifadə edirdilər.

❖Səhabələr səfərlərə çıxdıqları və ya səfərləri əsnasında getdikləri yol üzərində yerləşən monastırlarda qalırdılar, kitab əhli ilə bağlanılmış müqavilələrdə bu məsələyə dair maddələr vardı.

## ✓Quranda İncil və Tövrat

Bir müsəlman, göndərilmiş bütün peyğəmbərlərə və göndərilmiş bütün haqq kitablara inanmaq məcburiyyətindədir. Peyğəmbərlər arasında fərq qoymamaq, müsəlmanlığın Quranda bildirilən hökmüdür və bu hökmə riayət etməyən, ayənin hökmünə tabe olmamış və dindən çıxmış sayılır. Məhz bundan ötrü də, müsəlmanlar olaraq hz. Məhəmməd (s.ə.v) necə bizim peyğəmbərimizdirsə, hz. İsa (ə.s) və hz. Musa (ə.s) da bizim peyğəmbərlərimizdir. Biz necə müsəlmanıqsa, eyni zamanda xristian və yəhudilərik. Bu, müsəlmanlığın ən əhəmiyyətli şərtlərindən biridir.

Quranda yəhudilər və xristianlardan bəhs edildiyi kimi, Tövrat və İncildən də bəhs edilir. Allah bu haqq kitabları Quranda tərifləmişdir. Daha əvvəl də qeyd etdiyimiz kimi, Quranın endirilmə səbəbi bu haqq kitabların hökmünü ortadan qaldırmaq deyil, onları "təsdiqləməkdir". Hər nə qədər bu kitablarda vaxt keçdikcə yanlış şərh olunmuş hissələr ortaya çıxsa da, Quranla üst-üstə düşən hissələr yenə Quranla təsdiqlənmişdir. Bir çox ayədə ifadə edilən bu hökm Quranda açıq şəkildə bildirilmişdir:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi.**

**(Ali İmran surəsi, 3)**

Məhz bundan ötrü də, biz müsəlmanlar, Quranı rəhbər tutaraq bu haqq kitabların Allahın qatından endirildiyinə inanmaqla məsuluq. Quranla təsdiqlənmiş hər hökm, tətbiq və söz, müsəlmanlar üçün hidayət rəhbəridir.

Quranın tərifədiyi haqq kitabları, bir fanatikin saxta hədisləri dəlil göstərərək etibarsız sayması, İslamda qəbul edilə bilməz. Əsil müsəlmanların rəhbəri Qurandır və Quranda Tövrat və İncil barədə bu hökmlər verilir:

**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" (Bəqərə surəsi, 136)**

**Şübhəsiz ki, <u>Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır</u>. Allaha təslim olan peyğəmbərlər yəhudilər üçün bununla,**

rəbbanilər və əhbarlara Allahın Kitabını qorumaq vəzifəsi verildiyindən və ona şahid olduqlarından, onunla hökm verirdilər. İnsanlardan qorxmayın, Məndən qorxun! Ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir. (Maidə surəsi, 44)

Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)

Ondan əvvəl Musanın rəhbər və mərhəmət olan Kitabı var idi. Bu isə zalımları qorxutmaq və yaxşı iş görənlərə müjdə vermək üçün ərəb dilində nazil edilmiş, əvvəlkiləri təsdiq edən bir Kitabdır. (Əhqaf surəsi, 12)

O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi - daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Haqqı batildən ayıranı (Furqanı) da O nazil etdi... (Ali İmran surəsi, 3-4)

Qoy İncil əhli Allahın onda nazil etdiyi ilə hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir. (Maidə surəsi, 47)

Bu, şəhərlər anası (Məkkəni) və onun ətrafındakıları xəbərdar etməyin üçün nazil etdiyimiz, özündən əvvəlkiləri təsdiq edən mübarək bir Kitabdır. Axirətə inananlar ona da inanırlar. Onlar namazlarını doğru-düzgün qılırlar. (Ənam surəsi, 92)

Onlar: "Allah insana heç bir şey nazil etməmişdir" deməklə Allahı layiqincə qiymətləndirmədilər. De: "Musanın insanlar üçün nur və doğru yolu göstərən rəhbər olaraq gətirdiyi Kitabı kim nazil etmişdir? Siz onu kağızlara yazıb bir qismini göstərir, çoxunu isə gizlədirsiniz. Axı, sizin də, atalarınızın da bilmədiyiniz şeylər sizə

öyrədilmişdir”. Sən: “Allah!” de, sonra da onları burax ki, gördükləri boş işlərlə əylənsinlər. (Ənam surəsi, 91)

Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın sənə nazil etdiyi Kitabla hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin başqa-başqa olmanız sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir.

(Maidə surəsi, 48)

Əgər onlar Tövrata, İncilə və Rəbbindən özlərinə nazil edilənə düzgün əməl etsəydilər, onlar başları üstündə və ayaqları altında olan nemətlərdən yeyərdilər. Onların arasında həddini aşmayan (mötədil) bir camaat vardır. Lakin onların çoxunun etdiyi əməllər necə də pisdir. (Maidə surəsi, 66)

Biz əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanlar üçün bəsirətlər, doğru yol göstəricisi və rəhmət olaraq Kitab (Tövrat) verdik ki, bəlkə, düşünüb öyüd alsınlar. (Qəsas surəsi, 43)

Onlar dedilər: “Ey qövmümüz! Biz, həqiqətən də, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik! (Əhqaf surəsi, 30)

Həqiqətən, Kitab əhlindən elələri də var ki, həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə (Allaha böyük hörmət göstərərək) iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali İmran surəsi, 199)

Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə

**haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. (Ali İmran surəsi, 50)**

**...Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müxtəlif formalarda izah edəndir; iman gətirəcək bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Allah Quranda Tövratı; "bir nur və hidayət", "bəsirət və rəhmətə qovuşduracaq bir rəhbər" olaraq xarakterizə edir. Allah Quranda İncili isə; "içində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət" olaraq xarakterizə edir. Səhih Tövrat və İncil, bir nur və hidayət rəhbəri olaraq təriflənir. Bu, Quranın hökmüdür. Bundan ayrı hökm gətirənlər və özləri üçün bu haqq kitabları etibarsız hesab edənlər, açıq şəkildə görüldüyü kimi yalan danışırlar.

Bunu, Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərindən də anlamaq mümkündür:

## ✓Peyğəmbərimiz (s.ə.v)-in Tövrat və İncillə bağlı tətbiqləri

**Müslim belə nəql etmişdir: "Əbu Hüreyrənin şahidliyi ilə, hz. Peyğəmbər (s.ə.v)-in sözünü nəql etmişdir; hz. Məhəmməd (s.ə.v) əvvəllər belə demişdir: "Kitab əhlindən olanlar Tövratı ivrit dilində oxuyurdular və <u>müsəlmanlar üçün ərəb dilinə tərcümə edirdilər</u>"" (Mişkatu'l Masabih, 1-ci kitab, 6-cı hissə, səh. 42)**

**"Əl-Hafiz əl-Zəhəbi belə yazır: "Yəhudilikdən imtina edib İslam dinini qəbul edən Abdullah İbn Salam hz. Peyğəmbər (s.ə.v)-in yanına gəldi və ona: "(Dünən gecə) Quranı və Tövratı oxudum" dedi. Rəsullullah (s.ə.v) də ona belə cavab verdi: "<u>Bunu bir gecə oxu və digərini də başqa bir gecə oxu</u>". (al-Thalabi, Al-İman al-Thalabi Tathkarar al-Huffadh, I cild, səh. 27)**

**"Hz. Məhəmməd (s.ə.v)-in yaxın ətrafından Abdullah İbn Əmr, tez-tez Tövrat oxuyurmuş. Bir gecə yuxusunda bir əlində bal, digərində isə, yağ tutduğunu, bəzən bal tutan əlindən, bəzən də yağ tutan əlindən yediyini görür. Abdullah İbn Əmr yuxusunu hz. Məhəmməd (s.ə.v)-ə danışır. <u>Hz. Məhəmməd (s.ə.v) də, Abdullahın yuxusunu iki Kitab, yəni bəzən Tövrat bəzən də Quranı oxuması şəklində yozur</u>". (Buhârî, Sahîh-i Buhârî, VI cild, 987. hadis, səh. 439)**

**Əbu Səid əl-Xudridən belə rəvayət olunur: "Peyğəmbərimiz (s.ə.v)-ə: "Ey Allahın elçisi! İsrail oğullarından məlumatlar alıb əlavələr edə bilərikmi?" dedik. O da belə buyurdu: "Bəli, <u>İsrail oğullarından da məlumatlar alıb əlavələr edə bilərsiniz, bunda problem yoxdur</u>. Onlardan məlumatlar alıb əlavələr etsəniz, bilin ki, yanlarında daha maraqlı məlumatlar vardır". (Hanbel, Müsned, 111/12, hadis no:11034)**

## ✓Qurana görə yəhudilərin müqəddəs torpaqlarda yaşamaq haqqı var

Ümumiyyətlə bəzi müsəlman cəmiyyətlər, Quran ayələrini bilmədiklərindən və İslam dini barədəki məlumatları olduqca az olduğundan yəhudiləri müqəddəs torpaqlardan uzaqlaşdırmaq və ya oradakı İsrail dövlətini xəritədən silmək kimi təhdidlərlə ortaya çıxırlar. Halbuki bu insanlar bunu etməklə, Qurana zidd hərəkət etdiklərindən xəbərsizdirlər.

Qurana görə, yəhudilərin müqəddəs torpaqlarda yaşamaq haqqı var. Bu mövzudakı Quran ayələri bu cürdür:

**O zaman Musa öz qövmünə demişdi: "Ey qövmüm! Allahın sizə olan nemətini xatırlayın. O, sizin aranızdan peyğəmbərlər göndərdi, sizi hökmdarlar təyin etdi və aləmlərdən heç kəsə vermədiyini sizə verdi. Ey qövmüm! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun və arxa çevirməyin ki, ziyana uğrayaraq dönməyəsiniz". (Maidə surəsi, 21)**

**Bundan sonra İsrail oğullarına: "O torpaqda (yurdda) yaşayın! Axirət vədi gəlib yetişdiyi zaman sizin hamınızı toplayacağıq" dedik. (İsra surəsi, 104)**

Quran ayələrində açıq şəkildə göründüyü kimi, yəhudilər Tövrata görə olduğu kimi, Qurana görə də müqəddəs torpaqlarda yaşamalıdırlar. Onsuz da yəhudilərin müqəddəs torpaqlarda yaşamaları gözəl şeydir, həqiqi müsəlmanlar üçün sevinc vəsiləsidir. Allahın 3000 illik vədinin reallaşdığını görmək, hz. İbrahim (ə.s) və hz. Musa (ə.s)-ın söylədiklərinin gerçəkləşdiyinə şahidlik etmək, çox böyük bir müjdədir. Allah minlərlə il bundan əvvəl; "yəhudilər o torpaqlarda yaşayacaqlar" demişdir və biz bu möcüzənin hal-hazırda reallaşdığını görürük. Bu, həyəcanla izlənilməli və sevinilməli olan, çox fövqəladə bir gözəllikdir.

Burada bunun qeyd olunması çox böyük əhəmiyyət daşıyır. Allah Quranda və Tövratda gerçək iman sahiblərinə bir şərt qoymuşdur: "Sülh". Yəhudilər müqəddəs torpaqlarda yaşayacaqlar, müsəlmanlar və xristianlar da yaşayacaqlar. Onlar birlikdə bu bölgədə sülhü və sevgini bərqərar edəcəklər. Qardaşlıq içində yaşayacaqlar. Hamıya bölgədəki torpaqlardan böyük pay çatar. Heç kəs sürgün edilməyəcək, evini-yurdunu tərk

etməyəcək, belə bir şey yaşanmayacaqdır. Allah daima hamımızın sülh içində yaşamasını istəyər.

Sülhün bərqərar olunması üçün də, torpaq hərisliyi bitməli, düşmənçilik ortadan qalxmalı və fanatikliyin saxta zehniyyəti qəti surətdə yox edilməlidir. Bütün bunlar üçün haqq dinlərə, din əxlaqına, dindarlara və Qurana ehtiyac var. Torpaq və ya ideologiya hərisliyindən ötrü yaşanan qarşıdurmalar daim böyüyüb qorxunc hal almağa məhkumdur. Bu problemi isə, Quranı mənbə göstərərək gerçək din anlayışını öyrədən doğru təhsil aradan qaldıra bilər. Belə təhsil bütün yanlışlıqları aradan qaldırar, bütün düşmənçilikləri yox edər. Zehniyyəti dəyişən bir insan düşmənçilik və ya müharibə üçün, əsla səbəb tapa bilməyəcək. Bunun tək yolu isə təhsildir.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

### Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş verмədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana

gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən,

xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları,

qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz.  Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan

bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə

malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) “Siz atın”, - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: “Əsanı tulla!” - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# Son söz

Hal-hazırda bütün dünyanı, yer üzünün ən şərq nöqtəsindən ən qərb nöqtəsinə qədər hər yanı əhatə edən radikalizm bəlası bürümüşdür. Bu problem ilk əlamətlərini göstərdikdə, bir çox Qərb ölkəsi asanlıqla bunun öhdəsindən gələcəyini zənn etmişdi. Amma belə olmadı. Çünki radikal İslam, saxta hədislər sayəsində ayaqda qalan inanc formasıdır və İslam ölkələrinin və İslam alimlərinin böyük hissəsi (vəhşilik və müharibəni qınasalar) bu saxta hədislərin doğru olduğuna inanırlar. Dolayısilə bu ölkələr və alimlərin radikal İslama həll gətirməsi çətin məsələdir.

Radikalizmə həll gətirmək üçün, istifadə olunan hərbi müdaxilə metodu isə, indiyə qədər dəfələrlə sınanmış, hər dəfə müvəffəqiyyətsiz olmuş, minlərlə günahsız insanı qətlə yetirmiş, evsiz və yurdsuz qoymuş, ölkələri ciddi qeyri-stabil vəziyyətlərə sürükləmiş olduqca zəif və ağılsız bir metoddur. Silahlı radikalların xüsusiyyəti, silahı yaxşı işlətmə bacarığı deyil, yanlış ideologiya əsasında hərəkət etmələridir. Onların yanlış ideologiyası ilə heç maraqlanmayıb, təkcə insanları qətlə yetirməklə çıxış yolu axtarmağa çalışmaq, dünyanı daha böyük fəlakətlərə sürükləyəcək və radikalları isə, daha da gücləndirəcək. Necə ki, indiyə qədər də belə olmuşdur.

Demək olar ki, bütün İslam aləmini bürümüş bu dəhşətli və təhlükəli inanc sistemini yox etməyin yeganə yolu həqiqi İslamdır. Başqa heç bir razı salma üsulu, heç bir silah, heç bir təhdid bu problemin çıxış yolu deyil. Bu problemə gerçək İslamdan başqa, **heç bir çıxış yolu yoxdur**.

Həqiqətən radikalizmə çarə tapmaq istəyənlər, İslamı ittiham edən rəftar və təşəbbüslərdən, sona çatmayan şübhələrdən uzaq dayanmaqla ilk addımı atmalıdırlar. Quranla danışan insanları dinləməlidirlər. Bu insanlarla birləşərək dünyaya həqiqətin çatdırılması üçün səfərbər olmalıdırlar. “Məgər gücümüz çatarmı?” deyərək zəiflik və ümidsizlik göstərməməli, radikal qrupların yalnız ictimai media vasitəsilə dünyanın dörd bir tərəfində yanlış fikirlərini yayaraq özlərinə tərəfdar topladıqlarını unutmamalıdırlar. Gerçək məlumatın özünə daha sürətli yayılma məkanı tapacağını xatırlamalı və vaxt itirmədən daha güclü bir ideoloji yayılma strategiyası müəyyənləşdirməlidirlər. Bunu təkrar xatırladaq: Bunu ancaq, mövhumatlardan təmizlənmiş gerçək İslama tabe olan Quran müsəlmanları vasitəsilə edə bilərlər.

Kitabın əvvəlində xatırlatdığımız mühüm bir həqiqəti təkrar xatırladaq. Müdafiə etdiyimiz İslam dini, vaxt keçdikcə modernizasiya edilmiş və ya mülayimləşdirilmiş bir İslam dini deyil (İslam dinini tənzih edirik). Müdafiə etdiyimiz İslam dini, Quranda bildirilən yeganə doğru İslam dinidir. Dünyada sülh və əmin-amanlığın yaranaması üçün, İslam aləminin böyük hissəsinin unutduğu gerçək İslamı yenidən yaratmaq məcburiyyətindəyik. Zorakılığa zorakılıqla qarşılıq verənlər və ya radikalların tətbiqləri ucbatından İslamsız bir dünya xəyalını quranlar daim radikalları bilmədən daha çox dəstəkləyəcək və daha böyük vəhşiliklə qarşılaşacaqlar. Bu insanlar bunu bilməlidirlər; dünya qətiyyən İslamsız olmaz.

Dünyaya həsrətlə gözlənilən sevgi və sülhün gəlməsi, ancaq və ancaq İslam vəsiləsi ilə mümkün olar. Bunun üçün əlimizdə heç bir dəyişikliyə uğramamış İslamın haqq kitabı Quran var. Edilməsi lazım olan tək şey, Quranla təhsil verməkdir.